# AZƏRBAYCAN DİLİ

*tədris dili*

7

## METODİK VƏSAİT

LAYİHƏ

*Aynur Rüstəmova, Hidayət Allahverdi*
*Dilrübə Cəfərova, Sahibə Məmmədova*

Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün

# AZƏRBAYCAN DİLİ *(tədris dili)*

fənni üzrə dərsliyin

## METODİK VƏSAİTİ

© **Azərbaycan Respublikası Təhsil Nazirliyi**

CC BY NC SA

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi altunkitab2004@gmail.com və derslik@edu.gov.az elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

ALTUN KİTAB

LAYİHƏ

# MÜNDƏRİCAT


## Giriş

- Dərslik komplektinin ümumi prinsipləri ....4
- Dərslərin quruluşu ....5
- Məzmun standartları və təlim nəticələri....11
- Təlim texnologiyaları ....16
- Qiymətləndirmə ....18

**I bölmə.** Fərd və cəmiyyət ....20
Hərənin öz imzası ....21-24
Mübariz....25-28
Son yarpaq ....29-31
Səhv düşəndə yerimiz ....32-35
Polyanna ....36-38
Qayıqda dörd nəfər....39-42
Ümumiləşdirici təkrar ....42
Kiçik summativ qiymətləndirmə ....43-44

**II bölmə.** Hər sözün bir taleyi var....45
Molla Nəsrəddin demişkən ....46-49
Onlar kimdir ....50-53
Bunu kim deyib ....54-58
Ay adları və onların mənşəyi ....59-62
Barbarlar və vandallar ....63-67
Ümumiləşdirici təkrar ....67
Kiçik summativ qiymətləndirmə ....68-69

**III bölmə.** Ana təbiət ....70
Gürzə....71-74
İşgüzar təklif ....75-77
Təbiət "mühəndis"ləri....78-82
Fəryad. Maşuk meşəsi ....83-86
Alternativ enerji....87-89
Ümumiləşdirici təkrar ....89
Kiçik summativ qiymətləndirmə ....90-91




LAYİHƏ

**IV bölmə.** Kamilliyə doğru ....92
Zamanın idarə olunması ....93-95
Uğura gedən yol ....96-98
Təqvim ....99-103
Yazı – piktoqramdan hərflərə ....104-106
Qədim yazı materialları ....107-108
Eynşteyn dərslərindən «2» alırdı? .... 109-111
Ümumiləşdirici təkrar ....111
Kiçik summativ qiymətləndirmə ....112-113

**V bölmə.** Dəyərlərimiz ....114
Həsrət ....115-117
Səkkiz və tariximiz ....118-120
Şəki Xan sarayı ....121-122
Dünya 20 Yanvardan necə xəbər tutdu ....123-127
Neft daşları ....128-132
Ümumiləşdirici təkrar ....132
Kiçik summativ qiymətləndirmə ....133-134

**VI bölmə.** İxtiralar və kəşflər ....135
İsaak Nyuton ....136-139
Avtomobil ....140-142
Bumeranqı kim icad edib ....143-145
Əl-Xarəzmi ....146-148
Kompüter oyunlarını kim ixtira edib ....149-152
Ümumiləşdirici təkrar ....153
Kiçik summativ qiymətləndirmə ....154-155

**VII bölmə.** Kitabın tarixi ....156
Qədimdə kitab işi ....157-160
Kitabxanalar ....161-163
Kitab çapının ixtirası ....164-166
Azərbaycanda ilk mətbəələr ....167-171
Elektron kitab ....172-173
Ümumiləşdirici təkrar ....173
Kiçik summativ qiymətləndirmə ....174-175



LAYİHƏ

## GİRİŞ

### Dərslik komplektinin ümumi prinsipləri

Təqdim edilən dərslik komplektinə iki kitab daxildir: dərslik və müəllim üçün metodik vəsait (MMV). Bu komplekt üzrə Azərbaycan dili tədrisinin 7 bölmədə keçirilməsi nəzərdə tutulur.

VII sinifdə Azərbaycan dili fənninin tədrisi üçün həftədə 4 saat olmaqla 34 həftə (136 saat) nəzərdə tutulmuşdur. Kiçik summativ qiymətləndirmə (KSQ) 6 həftədən gec olmayaraq həyata keçirilir və özündə həmin bölmədə reallaşdırılmış standartlar üzrə bacarıqların yoxlanmasını ehtiva edir. Böyük summativ qiymətləndirmə (BSQ) hər yarımilin sonunda aparılır. KSQ üçün nəzərdə tutulmuş material MMV-də təqdim edilmişdir. Qeyd etmək lazımdır ki, təqdim olunmuş material nümunə xarakteri daşıyır. Müəllimlər sinfin səviyyəsinə uyğun olaraq yeni tapşırıqlar tərtib etməlidirlər.

### Ümumi illik planlaşdırma

| Bölmə | Mövzu | Saat sayı | Həftə sayı |
|---|---|---|---|
| I | FƏRD VƏ CƏMİYYƏT | 20 | 5 |
| II | HƏR SÖZÜN BİR TALEYİ VAR | 18 | 4,5 |
| III | ANA TƏBİƏT | 18 | 4,5 |
| IV | KAMİLLİYƏ DOĞRU | 22 | 5,5 |
| V | DƏYƏRLƏRİMİZ | 20 | 5 |
| VI | İXTİRALAR VƏ KƏŞFLƏR | 20 | 5 |
| VII | KİTABIN TARİXİ | 18 | 4,5 |
| | Cəmi | 136 | 34 |

"Ümumi təhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılmasına dair müvəqqəti Təlimat"a əsasən:

"4.4. Kiçik summativ qiymətləndirmə hər tədris vahidinin sonunda, altı həftədən gec olmayaraq müəllim tərəfindən keçirilir.

4.7. Kiçik və böyük summativ qiymətləndirmələrin keçirilmə vaxtı illik planlaşdırmada nəzərdə tutulur".

Verilmiş təlimatı əsas tutaraq illik planlaşdırmada hər bölmədən sonra KSQ (1 saat) və yarımilin sonunda BSQ (2 saat) üçün ayrıca saatlar nəzərdə tutulmuşdur.

Təqdim olunan illik planlaşdırmaya əsasən, 1-ci yarımil üzrə BSQ ilk üç bölmədən sonra keçirilməlidir.

Dərslikdə və MMV-də verilmiş mətnlər (oxu və dinləmə mətnləri), həmçinin danışma və yazı fəaliyyəti müvafiq bölmənin mövzusu ilə bağlıdır. Dil qaydaları bölmələr üzrə aşağıdakı kimi paylanmışdır:



LAYİHƏ

I bölmə – Feilin qrammatik məna növləri
II bölmə – *İdi, imiş, isə* hissəcikləri
III bölmə – Feilin təsriflənməyən formaları
IV bölmə – Qoşma, bağlayıcı
V bölmə – Ədat, modal söz, nida
VI bölmə – Köməkçi nitq hissələrinin omonimliyi və sinonimliyi
VII bölmə – Cümlənin quruluşca növləri. Keçilmişlərin təkrarı

## Dərslərin quruluşu

Hər dərs özündə bir neçə məzmun xətti üzrə fəaliyyəti birləşdirir. Mətnlərin həcmindən, informasiya yükündən, oxudan sonrakı fəaliyyətin növlərindən və həcmindən asılı olaraq dərslərə 2-4 saat ayrılmışdır. Fəaliyyətin saatlar üzrə bölgüsü müəllimin öhdəsinə buraxılır.

MMV-də hər bir dərsin əvvəlində alt-standartları reallaşdırmaq üçün dərsin məqsədi – təlim nəticələri verilir və onların alt-standartlara uyğunluğu müəyyən olunur. Bütün bunlar müvafiq tədris materiallarından (dərslikdə verilmiş mətn, onunla bağlı fəaliyyət növləri, dil qaydaları və s.) asılı olaraq müəyyənləşdirilir. **Alt-standart** – dərs ilinin sonu üçün nəzərdə tutulan bacarıqdır. Dərslər üzrə **təlim nəticələri** standarta doğru aparan addım, onun bir komponenti və ya standartın reallaşdırılması üçün bir vasitədir.

Dərslərin şərhində motivasiya üçün təklif (nümunə) verilir. O, mətnin mövzusu və ya ideyası ilə bağlı olur.

Bədii mətnlərdə daha çox mövzu ilə bağlı həyati situasiya təqdim olunur və şagirdlər bu situasiya ilə bağlı problemin həlli üçün variantlar təklif edirlər. Bu zaman “Beyin həmləsi” və ya “Auksion” üsullarından istifadə etmək olar. Bu cür motivasiyadan sonra oxunan əsərdəki qəhrəmanların qarşılaşdığı analoji situasiya şagirdlər üçün tanış olduğundan mətn daha böyük maraqla və diqqətlə oxunur. Əsərin ideyası ilə bağlı “Anlayışın çıxarılması”, “İstisnalarla müəyyənləşdirmə” üsullarını da tətbiq etmək olar.

Elmi-kütləvi mətnlərin oxudulması, ilk növbədə, informasiyanın qavranılmasını, sistemləşdirilməsini nəzərdə tutduğundan bu dərslərin motivasiya mərhələsində daha çox BİBÖ, “Klaster”, “Söz assosiasiyaları” üsullarından istifadə edilir. Şagird verilmiş mövzu ilə bağlı bildiklərini xatırlamaqla yanaşı, informasiya boşluğunu müəyyən edir və mətni oxumaqla bu boşluğu doldurmağa çalışır.

Dərslər **anlama ➝ özünüifadə** fəaliyyəti üzərində qurulmuşdur. Birinci mərhələyə oxu, dinləmə, ikincisinə danışma və yazı daxildir. Bununla belə, tədris materiallarından və məqsəddən asılı olaraq dərslərin strukturu fərqlənə bilər:

- **oxu ➝ özünüifadə** (danışma, yaxud yazı və ya hər ikisi);
- **oxu ➝ dinləmə ➝ özünüifadə;**
- **oxu ➝ özünüifadə ➝ oxu ➝ özünüifadə** (mətn hissələrlə oxunarsa);
- **oxu ➝ özünüifadə ➝ dinləmə ➝ özünüifadə.**

İstənilən halda hər bir dərsdə “Oxu” məzmun xəttinə aid ən azı bir alt-standart, və özünüifadəyə aid olan standartlardan minimum biri reallaşdırılır. Dinləmə üzrə

LAYİHƏ

alt-standartlar MMV-də verilmiş mətn vasitəsilə və ya müzakirə fəaliyyəti zamanı danışma ilə sintezdə reallaşdırılır.

Dil qaydaları bu prosesdə ayrıca bir mərhələ təşkil edir və özü **düşünmə** (mətndəki müəyyən nitq materialının dilçilik baxımından araşdırılması), **dərketmə** (müvafiq dil qaydası ilə bağlı nəzəri materialın mənimsənilməsi) və **tətbiqetmə** (dil qaydası ilə bağlı çalışmaların yerinə yetirilməsi) mərhələlərinə bölünür.

**Oxu – mətn üzərində iş.** Dərs prosesindəki hər bir fəaliyyət həmin dərsin mövzusunu təşkil edən mətn üzərində qurulur. Oxu məzmun xətti iki əsas standartı (2.1; 2.2) ehtiva edir: lüğət ehtiyatı və oxuyub-anlama. MMV-dəki dərslərin şərhində “Söz ehtiyatı” ayrıca rubrika şəklində “Oxu”dan sonra gəlsə də, dərs prosesində mətnin oxusu zamanı bu işin paralel şəkildə aparılması məqsədəuyğundur, çünki tanış olmayan söz və ifadələrin mənası yerindəcə araşdırılmasa, mətnin tam qavranılması mümkün deyil.

Dərslikdə bədii mətnlərlə müqayisədə elmi-kütləvi mətnlər üstünlük təşkil edir. Bunun bir neçə səbəbi var:

1. Məlumdur ki, bir çox ölkələrdən fərqli olaraq Azərbaycanda 5-ci sinifdən başlayaraq Azərbaycan dili ilə yanaşı, ədəbiyyat fənni də tədris edilir. Bu iki fənn üzrə kurikulumlarda bir neçə məzmun xətti (oxu, yazı, danışma) üst-üstə düşür. Fərq yalnız bundadır ki, ədəbiyyatda həmin məzmun xətləri üzrə standartlar yalnız bədii mətnlər əsasında, Azərbaycan dili fənnində isə həm bədii, həm də elmi-kütləvi mətnlər əsasında reallaşdırılır.

2. Kurikulumun konsepsiyasına görə, dilin tədrisi ünsiyyət bacarığının inkişafına yönəlməlidir. Ünsiyyət isə informasiyanın qəbul edilməsi və ötürülməsi prosesindən ibarətdir. Adi həyatda heç kim bunu nəzmlə və ya poetik cümlələrlə etmir. Şagirdlər bilməlidirlər ki, deyilən, yazılan hər bir cümlə müəyyən informasiya daşımalıdır. Ona görə də cümləni elə formalaşdırmaq lazımdır ki, informasiya tam olaraq qavranılsın. Eləcə də oxuyarkən və ya dinləyərkən vacib informasiya yükü daşıyan ifadə və cümlələrə diqqət yetirmək, onları mənimsəmək lazımdır. Bütün bu deyilənləri, ilk növbədə, elmi-kütləvi mətnlər vasitəsilə reallaşdırmaq mümkündür.

3. Orta məktəbdə tədris olunan digər fənlər kimi, Azərbaycan dilinin də əsas məqsədlərindən biri şagirdlərdə ümumi intellektin, dünyagörüşünün inkişafıdır. Buna isə, ilk növbədə, müvafiq yaş səviyyəsinə uyğun elmi-kütləvi mətnlərin oxunması ilə nail olmaq mümkündür.

4. 7-ci sinif üçün Azərbaycan dili kurikulumunda bir sıra standartlar məlumat xarakterli mətnlərlə və ümumiyyətlə, informasiya ilə işləməyi tələb edir. Məsələn:

*2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır.*

*3.1.2. Topladığı fakt və hadisələrə münasibət bildirməklə mətni zənginləşdirir.*

5. Kurikulumun tədris qarşısında qoyduğu tələblərdən biri də fənlərarası inteqrasiyadır. Ona görə də dərslik müəllifləri digər fənn kurikulumlarını təhlil etməklə orada ehtiva olunan bilik və bacarıqları da elmi-kütləvi mətnlər vasitəsilə reallaşdırmağa çalışmışlar.



LAYİHƏ

Dərslikdəki bəzi elmi-kütləvi mətnlər informasiya baxımından yüklü görünə bilər. Lakin qeyd etmək lazımdır ki, 1) dərslik müəllifləri mətnləri tərtib edərkən digər fənn kurikulumlarını da nəzərdən keçirmiş, şagirdlərin bilik səviyyələrini nəzərə almışlar; 2) dərslərin şərhində bu cür mətnlərin oxunması üçün müxtəlif üsul və texnikalar təklif olunur ki, həmin metodlar mətnin şagirdlər tərəfindən daha asan qavranılmasına kömək edir (bu üsullar haqqında MMV-yə girişin "Təlim texnologiyaları" hissəsində məlumat verilir).

Azərbaycan dili metafəndir. Bu fəndə əldə edilən bacarıqlar – dinləmə, danışma, oxu, yazı digər fənlərdə zəruri vasitəyə çevrilir. Azərbaycan dili dərsindəki mətn üzərində işlə digər dərslərdəki analoji fəaliyyət arasında fərqlər var. Məqsəd, predmet fərqlidir. Digər fənlərdə məqsəd mətndəki məlumatları mənimsətməkdir. Azərbaycan dilində isə məlumatları mənimsəmək bacarığını formalaşdırmaqdır. Burada biliyin, informasiyanın yadda saxlanılması vacib deyil, onlar gələcəkdə qiymətləndirmə obyekti olmayacaq.

Mətnlərin oxunması üçün vaxtın müəyyən olunması vacib məsələlərdən biridir. Şagirdlər sürətli oxu vərdişlərinə alışmalıdırlar. Araşdırmalar göstərir ki, insan bir səhifəlik mətni 1,5-2 dəqiqəyə oxuyub anlaya bilir. Sinfin səviyyəsini və mətnin informasiya yükünü nəzərə almaqla 7-ci sinifdə mətnlə ilkin tanışlıq zamanı bir səhifəni oxumaq üçün 2-4 dəqiqə ayırmaq kifayətdir. Mətnin qavranılması üzrə işə (qeydlər götürmək, istiqamətləndirilmiş oxu üzrə suallara cavab axtarmaq, şərhlər yazmaq və s.) isə, əlbəttə, daha çox vaxt ayırmaq lazımdır.

**Dinləmə.** MMV-də verilmiş dinləmə mətnləri dərsin mövzusu ilə bağlı olur, bir sıra hallarda dərslikdəki mətni məzmun baxımından tamamlayır. Bu, dinləmə standartları ilə yanaşı, oxu və yazı üzrə də bəzi standartların reallaşdırılmasına xidmət edir. Belə ki, şagird dinləmə mətnindəki məlumatlardan çıxış edərək oxuduğu mətndəki fikrə münasibət bildirir (2.2.3.), ifadə yazır (3.1.1.) və ya yazacağı mətni (esseni, təqdimatı) yeni faktlarla zənginləşdirir (3.1.2.).

Dinləmə standartları müzakirə və debatlarda da reallaşdırılır. Belə ki, şagird danışanın fikirlərinə, onun nitqindəki ton və emosiyaya reaksiya verməklə dinləyib anladığını nümayiş etdirir (1.1.1., 1.1.2.).

**Yazı.** VII sinfin yazı standartları müxtəlif yazı formaları üzrə (inşa, ifadə, esse, hekayə) bacarıqları inkişaf etdirməyi tələb edir.

Pedaqoji ədəbiyyatda esse ilə inşa arasında kəskin sərhəd qoyulmur. Lakin nəzərə almaq lazımdır ki, müasir təhsildə daha çox esse yazı formasına müraciət olunur. Çox zaman geniş və mücərrəd mövzuda olan ənənəvi inşadan fərqli olaraq esse konkret situasiya ilə bağlı fikir bildirməyi tələb edir və bir çox hallarda bu situasiyaya münasibət birmənalı olmur. Məsələn:

İnşa mövzusu: "Novruz adət və mərasimləri".

Esse mövzusu: "Novruz bayramında qulaq falı adətinə münasibətim".

Hər hansı bədii əsərlə bağlı inşa yazısında çox zaman əsər və onun müəllifi haqqında məlumatlar, obrazların təhlili verilir. Həmin əsərlə bağlı essedə isə müəyyən obrazın konkret situasiyadakı hərəkətinə münasibət bildirmək tələb olunur və çox zaman mövzu "Mən ... yerinə olsa idim, nə edərdim" kimi ifadə edilir.



LAYİHƏ

Bir sözlə, inşa ilə müqayisədə esse daha fərdi münasibət tələb edir, şagirdə özünüifadə üçün geniş imkanlar açır. Ona görə də müasir təhsildə esse daha münasib yazı forması sayılır.

Araşdırma xarakterli inşa və esselər dərsdə oxunmuş mətnin mövzusu ilə bağlı olur; bu zaman yeni mənimsənilmiş məlumatlar motivasiya rolunu oynayır və şagirdlər mövzunu yeni faktlarla zənginləşdirməyə və bu yolla özlərini ifadə etməyə həvəsli olurlar.

<u>Yazı yazmağın alqoritmi</u>:

Mətnlərin tərtib və təqdim edilməsi üçün əsas 5 mərhələni həyata keçirmək tövsiyə olunur:

*1. Məlumatın toplanması və nəzərdən keçirilməsi*

Bu mərhələdə verilmiş mövzu ilə bağlı müxtəlif mənbələrdən informasiyalar, fikirlər toplanır və əldə edilmiş məlumatlar nəzərdən keçirilir.

*2. İlkin (qaralama) mətnin hazırlanması*

Bu mərhələdə şagirdlər öz fikirlərini vərəqə köçürürlər. Bu proses beyin həmləsi xarakteri daşıyır. Şagird öz ideyalarını tənqidi nöqteyi-nəzərdən qiymətləndirmədən, fikri necə ifadə etdiyinə, orfoqrafiyaya və xəttinə fikir vermədən yazmalıdır. Bu mərhələni “Sərbəst yazı” mərhələsi də adlandırmaq olar. İnsan yazarkən ağlına yeni-yeni ideyalar gəlir. Bəzən yazı prosesi əqli prosesdən geri qalır. Şagirdlərə başa salmaq lazımdır ki, belə hallarda fikri tezislər və açar sözlərlə qeyd etsinlər, cümlələr arasında əlaqəyə çox fikir verməsinlər.

Elə ola bilər ki, heç bir mənbədən informasiya əldə edilməsin və bu informasiyanı beyindən “çıxarmaq” üçün qaralama mətn yazılsın. Bu zaman qaralama mətnin yazılması özü “Məlumatın toplanması və nəzərdən keçirilməsi” hesab ediləcəkdir. Belə olan halda bu mətn yenidən oxunub daha uğurlu fikirlər seçiləcək.

*3. Rabitəli mətnin yaradılması*

Bu, qaralama mətnin rabitəli mətnə salınma mərhələsidir. Bu mərhələdə yenə də orfoqrafiya, qrammatika və xəttə fikir vermədən aşağıdakılara diqqət yetirmək lazımdır:

– fikirlərin aydın, dəqiq və ardıcıl ifadə olunması,
– təkrarçılığa yol verilməməsi,
– eyni məlumatla bağlı cümlələrin abzaslar üzrə sistemləşdirilməsi.

*4. Mətnin redaktə edilməsi*

Bu mərhələdə şagirdə orfoqrafiya, qrammatika və üslubiyyat üzrə bacarıq və vərdişlər tələb olunur.

5. Təqdimetmə mərhələsi

Bu mərhələdə yazılmış mətn başqalarına təqdim edilir. Təqdimetmə müxtəlif şəkillərdə aparıla bilər:

– mətni çap etmək,
– mətni auditoriya qarşısında oxumaq və s.

3.1.1 standartının tələblərindən biri də verilmiş mövzu üzrə hekayə yazmaqdır. Ola bilsin ki, əvvəlki siniflərdə bu bacarığın formalaşdırılması üzrə müəyyən



LAYİHƏ

işlər görülüb. Lakin 7-ci sinifdə bu bacarıq standartın tələbi kimi qoyulmuşdur. Ona görə də müəllimin bu haqda şagirdlərə müəyyən təlimatlar verməsi məqsədəuyğundur.

Hekayə necə yazılmalıdır

Şagirdlərə izah etmək lazımdır ki, hekayə hər hansı bir hadisənin maraqlı şəkildə nəqlidir. Yaxşı hekayə qurmaq üçün bəzi tələblərə riayət etmək lazımdır:

*1. Oxucu auditoriyasının müəyyənləşdirilməsi*

Hekayə yazarkən əvvəlcə oxucu auditoriyasını müəyyənləşdirmək lazımdır. Düşünün ki, yazdığınız hekayə kimi maraqlandıra bilər? Öz oxucunuzu axtarın. Hamı üçün nəzərdə tutulmuş yazı yazmaq mümkün deyil və ümumiyyətlə, bu cür yanaşma düzgün də deyil.

*2. Mövzunun seçilməsi*

Bu çox vacib mərhələdir. Yeni mövzu axtarmaq və yaratmağa gərək yoxdur. Ətrafda maraqlı, aktual mövzular həddən artıq çoxdur. Xoşunuza gələn, ruhunuza yaxın olan bir mövzu seçin.

*3. Oxucunun maraqlandırılması*

Hekayəni yazmağa başlamazdan əvvəl oxucunu necə maraqlandıracağınızı bilməlisiniz. Bunun üçün də hər əsərdə öz əksini tapan üç amili nəzərə almalısınız:

- maraqlı, cəlbedici başlanğıc,
- üslub,
- oxucunun intizarda saxlanılması.

*4. Süjet xətti*

Süjet xətti olmayan hekayə təsəvvür etmək çətindir. Ona görə də hadisələrin inkişaf xəttini mütləq özünüz üçün aydın şəkildə təsəvvür etməlisiniz ki, yazıya ala biləsiniz. Hekayədə nəqli, təsvir, mühakimə elementləri öz əksini tapa bilər. Lakin nəzərə almaq lazımdır ki, təsvir hissəsini çox uzatmaq olmaz, çünki bu, oxucunu darıxdıra bilər.

*5. Hekayənin dili*

Hətta ən yaxşı mövzuda, ən yaxşı süjet xətti olan maraqlı hekayə çətin və anlaşılmaz dildə yazılsa, oxucular tərəfindən oxunmayacaq. Üslubu bütün hekayə boyu pozmaq olmaz.

**Danışma.** Şifahi nitq həyatda insana ən çox vacib olan ünsiyyət bacarıqlarından və özünüifadənin formalarından biridir. 7-ci sinif üçün danışma üzrə nəzərdə tutulan standartlar bu bacarığın müxtəlif aspektlərdən inkişafını nəzərdə tutur: şifahi təqdimatlar zamanı müxtəlif formalardan istifadə etmək (2.1.1), məntiqi ardıcıllıqla danışmaq (1.2.2), fikrə münasibət bildirmək (1.2.4) və s.

"1.2.3. Nitqində müxtəlif səs çalarlarından istifadə edir" və "2.2.1. Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur" standartlarını fərqləndirmək lazımdır. Çox yaxın olsalar da, onlardan biri (1.2.3) ritorika bacarığıdır və danışarkən səs çalarları vasitəsilə qarşı tərəfi inandırmağı nəzərdə tutur. Digəri (2.2.1) isə ifadəli oxu bacarığıdır və daha çox şeirlərin deklamasiyası və ekspressiv ruhlu mətnlərin ucadan oxusu zamanı reallaşdırılır.

LAYİHƏ

**Dil qaydaları**

Azərbaycan dili kurikulumunda sözün qrammatik mənası ilə bağlı standartlar (morfologiya) 5-7-ci siniflərdə verilir, 8-11-ci siniflər üzrə standartlar, əsasən, sintaksis, üslubiyyat, nitq mədəniyyəti məsələlərini əhatə edir. Ona görə də müəlliflər çalışmışlar ki, dərslikdə dil qaydaları məzmun xətti üzrə 7-ci sinif üçün nəzərdə tutulmuş standartlar çərçivəsində morfologiya bəhsi üzrə ən vacib məqamları əhatə etsinlər.

Dil qaydalarının təqdim edilməsində ənənəvi ardıcıllığa riayət olunmuşdur. Belə ki, ilk altı bölmədə standartların tələblərinə əsasən, feil və köməkçi nitq hissələri, onların yazılışı və durğu işarələrinin işlənməsi ilə bağlı məsələlər, sonuncu bölmədə isə cümlənin quruluşca növləri haqqında məlumat verilmişdir. Bu ardıcıllıq bağlayıcılar üzərində iş zamanı, bəzi bağlayıcıların cümlələri də bağlaması ilə bağlı məlumat verilərkən müəyyən qədər narahatlıq doğura bilər. Lakin müəllimlər bilməlidirlər ki, şagirdlər "mürəkkəb cümlə" anlayışı ilə 4-cü sinifdə tanış olublar.

Kurikulum dil qaydalarının bacarığa çevrilməsini tələb edir, yəni hər bir qaydanın mənimsənilməsi son nəticədə onun yazılı və ya şifahi nitqə tətbiq edilməsi ilə nəticələnməlidir. Lakin sözsüz ki, tətbiqetmə mərhələsinə qədər şagirdlər bəzi deklarativ bilikləri də mənimsəməlidirlər. Məsələn, modal sözlərdən əvvəl və sonra vergüldən istifadə qaydasını tətbiq etmək üçün şagird əvvəlcə modal sözün qrammatik mənasını dərk etməli, onu ədatdan fərqləndirməyi bacarmalıdır.



LAYİHƏ

## Məzmun standartları və dərslər üzrə təlim nəticələri

### 1. Dinləyib-anlama və danışma

Şagird:
***1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.***

1.1.1. Dinlədiyi məlumatda ton, əhvali-ruhiyyə və emosiyanı müəyyən edir.
- Şeiri dinləyərkən deklamasiyadakı ton, əhvali-ruhiyyə və emosiyanın təsirini izah edir.
- Debat zamanı opponentinin çıxışındakı ton və əhvali-ruhiyyəni izləyir və buna reaksiya verir.
- Dinlədiyi nitqdəki ifadələrə əsasən ton və emosiyanı müəyyən edir.

1.1.2. Dinlədiyi fikrin inandırıcı və əsaslandırılmış olub-olmamasını müəyyənləşdirir.
- Dinlədiyi mətndəki məlumatların əvvəl əldə etdiyi biliklərə nə dərəcədə uyğun gəldiyini müəyyənləşdirir.
- Dinlədiyi mətndəki məlumatları qeyd etməklə əsas fikri təsdiq edən arqumentlər gətirir.

***1.2. Şifahi nitq bacarıqları nümayiş etdirir.***
1.2.1. Fikrini müxtəlif formalarda ifadə edir.
- Fikri əsaslandırmaq üçün mətn qurub təqdim edir.
- Müxtəlif mənbələrdən topladığı məlumatları məruzə şəklində təqdim edir.
- Qrafik informasiyanı şərh etməklə mövzu üzrə danışır.

1.2.2. Fikrini məntiqi ardıcıllıqla ifadə edir.
- Oxuduğu mətnin davamını məntiqi ardıcıllıqla nəql edir.
- Sözü, ifadəni izah edərkən fikrini ümumiləşdirərək ifadə edir.
- Tərtib etdiyi qrafik informasiyanı məntiqi ardıcıllıqla şərh edir.
- Gəldiyi nəticələri əsaslandırmaq məqsədi ilə arqumentlərini məntiqi ardıcıllıqla ifadə edir.
- Müzakirə və ya debat zamanı fikrini əsaslandırarkən fakt və məlumatlardan məntiqi ardıcıllıqla istifadə edir.
- Dinlədiyi mətndən gəldiyi nəticələri ümumiləşdirir.

1.2.3. Nitqində müxtəlif səs çalarlarından istifadə edir.
- Danışarkən qarşı tərəfi inandırmaq üçün müxtəlif səs çalarlarından istifadə edir.

1.2.4. Müzakirələrdə deyilmiş müxtəlif fikirlərə münasibət bildirir.
- Başqa fənlər üzrə biliklərindən istifadə etməklə müzakirə zamanı deyilən fikirlərə münasibət bildirir.
- Başqasının fikrini təkzib və ya təsdiq etmək üçün əsaslı arqumentlər və əks-arqumentlər gətirir.
- Müzakirə zamanı söylənilən fikri öz fikirləri ilə tamamlayır.
- Söylənilmiş rəyə münasibət bildirməklə fikri zənginləşdirir.



LAYİHƏ

**2. Oxu**
Şagird:
***2.1. Mətndə tanış olmayan sözləri mənimsədiyini nümayiş etdirir.***
2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir.

- Mətndə işlənmiş sözün kontekstə uyğun sinonimini müəyyən edir.
- Tanış olmadığı sözlərin mənasını mətndəki məlumatlar əsasında dəqiqləşdirir.
- Tanış olmadığı sözlərin kontekstə görə mənasını təxmin edir və lüğətin köməyi ilə dəqiqləşdirir.
- Tanış olmadığı sözləri kontekstdəki mənasına uyğun olaraq cümlələrdə işlədir.
- Tanış olmadığı sözün lüğətdə verilmiş izahları içərisindən kontekstə uyğun olanını müəyyən edir.
- Kontekstdən çıxış edərək ifadənin mənasını və işlənmə məqamını müəyyənləşdirir.
- Mətnin məzmunundan çıxış edərək alınma sözün mənasını və mənşəyini müəyyənləşdirir.
- Kontekstdən çıxış edərək çoxmənalı sözün mətndə hansı mənada işləndiyini müəyyən edir.
- Sözün etimologiyasını araşdırmaqla kontekstə uyğun gəldiyini əsaslandırır.
- Sözün etimologiyası və ilkin mənası ilə bağlı məlumatlardan istifadə etməklə müasir mənasını izah edir.
- Müxtəlif kontekstlərdən çıxış edərək sözün mənasını izah edir.
- Cümlədəki fikri izah etməklə tanış olmadığı sözün mənasını anladığını nümayiş etdirir.
- Tanış olmadığı sözlərin mətndəki mənasını dəqiqləşdirir və yeni kontekstdə mənasına uyğun işlədir.

2.1.2. Mətndəki sözlərin həqiqi və ya məcazi mənada işləndiyini izah edir.

- Mətndəki ifadənin frazeoloji birləşmə, yoxsa sərbəst söz birləşməsi olduğunu əsaslandırır.
- Mətndəki sözlərin məcazi mənada işləndiyini əsaslandırır.
- Mətndəki frazeoloji birləşmənin ifadə etdiyi mənanı müəyyənləşdirir.
- Mətndə məcazi mənada işlənmiş söz və ifadələri müəyyənləşdirir və mənalarını izah edir.

2.2. Mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir.
2.2.1. Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur.

- Şeirin poetikasına və ifadə etdiyi fikrə uyğun səs tonu seçir.
- Rollu oyun zamanı obrazın xarakterinə uyğun səs tonu seçir.
- Mətnin ruhuna uyğun səs tonu seçir.
- Qarışıq tipli mətnlərin oxusu zamanı hər hissəyə uyğun səs tonu seçir, mətnin tərkib hissələri arasında fasilə verir.
- Obrazın hiss-həyəcanını ifadə etmək üçün düzgün səs tonu seçir.
- Səs tonu vasitəsilə şeirdəki ovqat və əhvali-ruhiyyəni dinləyiciyə çatdırır.
- Təsvir edilən hadisələrə münasibətini ifadə etmək üçün mətni müvafiq səs tonu, temp və fasilələrlə oxuyur.



LAYİHƏ

2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir.

- Bədii əsərin kompozisiyasını müəyyən edir.
- Mətnin müxtəlif hissələrindən topladığı faktları bir-biri ilə əlaqələndirir.
- Keçid cümlələr əlavə etməklə mətnin tərkib hissələrini əlaqələndirir.
- Mətnin bitkin hissələrinə başlıq seçir və əlavə məlumatı uyğun gələn hissəyə artırır.
- Mətnin hissələrini məzmununa uyğun adlandırır.
- Mətnin müxtəlif hissələrindəki faktları bir-biri ilə bağlamaq üçün mətnin leytmotivini müəyyənləşdirir.
- Mətnə yeni məlumatlar əlavə edərkən hissələr arasında əlaqə yaradır.
- Mətnin tərkib hissələrindəki məlumatları müqayisə etməklə oxşar və fərqli məqamları müəyyən edir.

2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır.

- Mətndəki əsas fikri müəyyənləşdirir və münasibət bildirir.
- Mətndəki fikrə münasibət bildirərkən müvafiq epizodlara istinad edir.
- Həyatda gördüklərindən misallar gətirməklə mətndəki fikrə münasibətini əsaslandırır.
- Mətndəki fikrə münasibət bildirmək üçün əvvəl oxuduğu mətnlərdən misallar gətirir.
- Mövzu üzrə biliklərindən istifadə etməklə mətndəki fikrə münasibətini əsaslandırır.
- Əlavə mənbələrdən istifadə etməklə elmi mətndəki əsas fikri daha qabarıq nəzərə çatdırır.
- Mətndə verilmiş əsas fikri müəyyənləşdirmək üçün suallar tərtib edir.
- Oxuduğu mətnlə dinlədiyi mətndəki məlumatları ümumiləşdirərək əsas fikrə münasibət bildirir.
- Başqa fənlər üzrə biliklərindən istifadə etməklə mətndəki fikrə münasibətini əsaslandırır.
- Mühakimə xarakterli mətndəki fikirləri təsdiq edən aforizmlər seçir.
- Başqa fənlərdən əldə etdiyi biliklər əsasında verilmiş məlumatı əsaslandırır və dərinləşdirir.
- Verilmiş əlavə məlumatın mətndəki hansı fikri əsaslandırdığını müəyyənləşdirir.
- Mətndəki müxtəlif faktlara münasibət bildirərkən digər fənlər üzrə biliklərinə istinad edir.
- Əlavə məlumatlardan istifadə etməklə mətndəki qaranlıq məqamlara aydınlıq gətirir.
- Həyatda tətbiq etməklə mətndəki fikrə münasibətini əsaslandırır.
- Əlavə məlumatlarla müqayisə apararaq mətndəki fikrin həqiqiliyini sübut edir.

LAYİHƏ

**3. Yazı**

Şagird:

***3.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.***

3.1.1. Verilmiş mövzunu müxtəlif yazı formalarında (ifadə, inşa, esse, hekayə) ifadə edir.

- Verilmiş aforizmdəki fikrə münasibət bildirməklə esse yazır.
- Mətndəki fikirlər əsasında mühakimə xarakterli mətn (esse) yazır.
- Mətnin ideyasına uyğun mövzuda esse yazır.
- Dinlədiyi mətndəki fikri ümumiləşdirib nəqli xarakterli kiçik mətn (hekayə) yazır.
- Verilmiş ifadələrin işlənmə məqamına uyğun nəqli xarakterli mətn (hekayə) yazır.
- Verilmiş mövzuda esse yazır.
- Şəkil üzrə təsviri xarakterli inşa yazır.
- Tarixi şəxsiyyət haqqında əldə etdiyi məlumatlardan çıxış edərək onun haqqında hekayə yazır.
- Müxtəlif mənbələrdən fakt və məlumatlar toplayaraq verilmiş mövzunu inşa, esse, hekayə formasında ifadə edir.
- Dinlədiyi və oxuduğu mətndəki məlumatları ümumiləşdirərək ifadə yazır.
- Qurulmuş plan əsasında inşa yazır və keçid cümlələr vasitəsilə hissələri əlaqələndirir.
- Mətndəki məlumatlardan istifadə etməklə hekayə yazır.

3.1.2. Topladığı fakt və hadisələrə münasibət bildirməklə mətni zənginləşdirir.

- Müxtəlif mənbələrdən istifadə etməklə mətni genişləndirir.
- Eyni mövzu üzrə müxtəlif mənbələrdən əldə etdiyi məlumatlar əsasında elmi-kütləvi mətn yazır.
- Əldə etdiyi məlumatlardan istifadə etməklə mühakimə xarakterli mətn yazır.
- Mövzu üzrə verilmiş məlumatları müvafiq hissələrə əlavə etməklə mətni yeni tezislərlə zənginləşdirir.
- Dinlədiyi mətn üzrə yazısını oxuduğu mətndən əldə etdiyi məlumatlarla zənginləşdirir.
- Məlumata münasibət bildirməklə mətni zənginləşdirir.

3.1.3. Qurduğu plan əsasında mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirir.

- Mətnin məzmunundan çıxış edərək məntiqi sonluq yazır.
- Verilmiş mövzu üzrə mətn yazmaq üçün plan qurur.
- Müxtəlif mənbələrdən topladığı materialları sistemləşdirərək rabitəli mətn yazır.
- Oxuduğu mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirərək qısa məzmununu yazır.

3.1.4. Müxtəlif əməli yazılar (teleqram, izahat) yazır.

- Teleqram yazının xüsusiyyətlərini müəyyənləşdirir.
- Situasiyaya uyğun olaraq teleqram yazır.
- Situasiyaya uyğun izahat yazır.
- Məqsəddən asılı olaraq əməli yazının növünü, forma və məzmununu müəyyənləşdirir.



LAYİHƏ

***4. Dil qaydaları***

Şagird:

4.1. Dil qaydalarını mənimsədiyini nümayiş etdirir.

4.1.1. Cümlələri quruluşuna görə fərqləndirir.

- Cümlənin qrammatik əsasını müəyyən etməklə quruluşca növünü fərqləndirir.
- Sadə və mürəkkəb cümlələri bir-birindən fərqləndirir.
- Mürəkkəb cümlənin tərkibindəki sadə cümlələri müəyyənləşdirir.
- Söz sırası pozulmuş cümlələrin quruluşuna görə növünü müəyyənləşdirir.

4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir.

- Nitq hissələri ilə bağlı mənimsədiyi bilikləri tətbiq edir.
- Cümlədə hərəkətin subyektini və obyektini müəyyənləşdirir.
- Qrammatik formaya və kontekstə görə feillərin qrammatik məna növünü müəyyənləşdirir.
- *İdi, imiş* hissəciklərinin sözdəki rolunu müəyyən edir.
- *İsə* hissəciyinin rolunu fərqləndirir.
- *İdi, imiş* hissəciklərinin ixtisar formasını keçmiş zaman şəkilçilərindən fərqləndirir.
- *İsə* hissəciyinin feillərlə işlənmə xüsusiyyətlərini müəyyənləşdirir.
- Feilin təsriflənməyən formalarını fərqləndirir.
- Qoşmanın yaratdığı məna çalarlarını müəyyənləşdirir.
- Cümlədə bağlayıcının funksiyasını müəyyən edir.
- Ədatları və onların məna növlərini fərqləndirir.
- Modal sözləri və onların məna növlərini fərqləndirir.
- Nidaların ümumi qrammatik mənasını müəyyənləşdirir.
- Köməkçi nitq hissələrinin qrammatik mənalarını müəyyənləşdirir.
- Qrammatik omonimlik təşkil edən sözləri nitq hissələrinə görə fərqləndirir.

4.1.3. Köməkçi nitq hissələrinin işlənmə məqamından asılı olaraq durğu işarələrindən istifadə edir.

- Bağlayıcılardan əvvəl və sonra durğu işarələrinin işlənməsi qaydalarına riayət edir.
- Modal sözlərin işlənmə yerindən asılı olaraq durğu işarələrindən istifadə edir.
- Nidaların işlənmə məqamından asılı olaraq durğu işarələrindən istifadə edir.
- Köməkçi nitq hissələrindən əvvəl və sonra vergülün işlənməsi ilə bağlı qaydalara riayət edir.

4.1.4. Nitq hissələrinin yazılışı ilə bağlı qaydalara əməl edir.

- Mürəkkəb sözlərin yazılışı ilə bağlı qaydalara əməl edir.
- *İdi, imiş* hissəciklərinin yazılışı ilə bağlı qaydalara əməl edir.
- Qoşmaların yazılışında orfoqrafiya qaydalarına riayət edir.
- Ədatların yazılışı qaydalarına əməl edir.
- Mürəkkəb bağlayıcıları orfoqrafik qaydaya uyğun şəkildə yazır.

LAYİHƏ

## Təlim texnologiyaları

Məlumdur ki, kurikulumun qarşıya qoyduğu məqsədlərə nail olmaq üçün fəal/interaktiv təlim üsullarından istifadə etmək daha məqsədəuyğundur. Müəllimlər artıq interaktiv dərs modeli ilə tanışdırlar. Bizim məqsədimiz bu modeli zənginləşdirən üsul və texnikalar təklif etməkdir.

Azərbaycan dili fənnində fəal təlim texnologiyaları şagirdlərdə nitq bacarıqlarını formalaşdırmağa və inkişaf etdirməyə yönəlmişdir. Bunun üçün müxtəlif üsullar, texnikalar və çalışma modelləri mövcuddur. V və VI sinif Azərbaycan dili dərsliklərində onlar haqqında geniş məlumat verilmişdir.

**Oxu** məzmun xətti üzrə:

- Cütlükdə oxu – cütlükdə ümumiləşdir
- Ziqzaq
- İstiqamətləndirilmiş oxu
- Öyrənirəm – öyrədirəm
- Sual müsabiqəsi
- Proqnozlaşdırma (Təxminetmə)
- Sürətli oxu
- Son sözü mənə saxla
- Qərarlar ağacı

**Dinləyib-anlama və danışma** məzmun xətti üzrə:

- Müzakirə
- Akvarium
- Debat
- Konfrans

**Yazı** məzmun xətti üzrə:

- Cəld yazı
- Təqdimat (yazılı məruzə)
- Sərbəst yazı
- Yazılı debat
- İnşa
- Esse
- İfadə

Bu vəsaitdə mətnin oxunması üçün bir sıra yeni üsullar da təklif edilir ki, onların şərhini verməyi lazım bilirik.

**İnsert.** Mətni oxumağa başlayarkən şagirdlərə aşağıdakı cədvəl paylanır.

| Bu məlumat tanışdır. | Bu məlumat yenidir. | Əvvəl bildiklərimlə ziddiyyət təşkil edir. | Bu hissə aydın olmadı. |
|---|---|---|---|
| | | | |

LAYİHƏ

Şagirdlər mətni oxuduqca cədvəldə qeydlər aparırlar – mətnin ayrı-ayrı hissələrini açar sözlər və tezislər şəklində cədvəlin müvafiq xanalarına yazırlar. Oxu bitəndən sonra təqdim edilmiş cədvəl üzrə iş aparılır. Bu oxu üsulu informasiya ilə zəngin olan elmi-kütləvi mətnlərdə effektli nəticə verir. Eyni zamanda şagirdlərdə fikirlərini lakonik tezislərlə ifadə etmək, açar sözlər müəyyənləşdirmək, müxtəlif fənlərdən aldıqları biliklər arasında əlaqə yaratmaq bacarıqlarının inkişafına xidmət edir.

**Qeyd götürməklə oxu.** Mətnin qavranılması, məlumatların əhəmiyyətlilik dərəcəsinin müəyyən edilməsi baxımından bu üsul da çox səmərəlidir. Üsulun müxtəlif variasiyaları ola bilər. Məsələn, şagirdlər, sadəcə, əhəmiyyətli saydıqları məqamları və ya (söhbət informasiya yüklü mətndən gedirsə) mətndəki rəqəmləri və adları qeyd edə bilərlər. Lakin aşağıdakı ardıcıllıqla aparıldıqda üsul daha effektli olur: 1. Şagirdlərin mətndən hansı istiqamətdə qeyd götürəcəkləri sual və ya tapşırıq şəklində müəyyən edilir. 2. İş vərəqləri təqdim olunur və ya müəllimin təlimatı ilə şagirdlər tərəfindən hazırlanır. 3. Şagirdlər mətni oxuduqca iş vərəqinin müvafiq yerlərində qeydlər edirlər. 4. Oxu başa çatdıqdan sonra götürdükləri qeydlər əsasında təqdimat edirlər. (Vəsaitdə "Əl-Xarəzmi" mətni üzərində aparılacaq iş üçün iş vərəqi nümunələri verilib.)

**Ekspertlərlə müzakirə**. Bu üsul "Ziqzaq" üsuluna yaxındır. Burada da "doğma" və ekspertlər qrupu yaradılır. Fərq mətn üzərində işin aparılmasındadır. Belə ki, "Ziqzaq" üsulunda mətnin ayrı-ayrı hissələri üzərində bütün istiqamətlərdə iş təşkil olunur, yəni hər bir qrup mətnin həm dili, həm ideyası, həm söz eytiyatı və sairəni müəyyənləşdirir. Ekspertlərlə müzakirə üsulunda isə bütün mətn hamı tərəfindən oxunur, lakin hər ekspert qrupu müəyyən istiqamətdə qeydlər götürür.

Ardıcıllıq:

1. Müəllim əvvəlcədən əsas qruplardakı şagirdlərin sayı qədər istiqamət müəyyənləşdirir (yaxud müəyyən edilmiş istiqamətlərə görə əsas qrupun tərkibi müəyyən edilir).
2. Bütün qruplarda hər bir istiqamət üzrə mütəxəssis müəyyən edilir. Bunun üçün şagirdlər soldan sağa sayırlar. Hər nömrəyə bir istiqamət üzrə işləmək tapşırılır.
3. Müxtəlif qruplardan olan eyni nömrəli "mütəxəssislər" ekspert qruplarında toplaşırlar. Onlar müəyyən edilmiş istiqamətlər üzrə tədqiqatdan sonra "doğma" qrupa qayıdırlar.
4. "Doğma" qrupda hər şagirdə ona verilmiş istiqamət üzrə təqdimat etmək üçün vaxt verilir (3-5 dəqiqə).

Çalışmaq lazımdır ki, "doğma" qrupda işləyən ekspertlər öz istiqamətini şərh etməklə kifayətlənməsinlər, qrupdakı digər yoldaşlarını suallar verməyə dəvət edərək müzakirə açmağa nail olsunlar. Şagirdlərin rollarını tez-tez dəyişmək lazımdır ki, müxtəlif rollarda işləməyi bacarsınlar.

Metod müəllimdən diqqətli olmağı tələb edir. O, qrupların fəaliyyətini diqqətlə izləməli, müzakirənin səmərəli aparıldığına əmin olmalıdır.

LAYİHƏ

## Qiymətləndirmə

Məktəbdaxili qiymətləndirmənin növləri (diaqnostik, formativ və summativ), mahiyyəti və məqsədi "Ümumi təhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılmasına dair müvəqqəti Təlimat"da öz əksini tapmışdır. Bu təlimata əsasən:

"3.1. Formativ qiymətləndirmənin məqsədi təhsilalanın təlim prosesində məzmun standartlarından irəli gələn bilik və bacarıqlarının mənimsənilməsinə yönəlmiş fəaliyyətini izləməkdən, bu zaman qarşıya çıxan problemləri müəyyən etməkdən və onları aradan qaldırmaqdan ibarətdir.

3.2. Formativ qiymətləndirmə rəsmi qiymətləndirmə deyil.

3.3. Formativ qiymətləndirmə fənnin məzmun standartları üzrə təlim məqsədləri əsasında müəyyənləşdirilmiş qiymətləndirmə meyarlarına görə aparılır.

3.4. Müəllim qiymətləndirmə meyarlarına uyğun dörd səviyyəli rubriklər (I-IV səviyyə) hazırlayır. Zəruri hallarda rubriklər 3 və ya 5 səviyyədə tərtib oluna bilər".

Qeyd etmək lazımdır ki, rubrik – meyar əsasında şagirdin nailiyyət səviyyəsinin qiymətləndirmə şkalasıdır. Rubrik yaratmaq üçün müəllim bilməlidir:

1) hansı bacarıq qiymətləndirilir;
2) qiymətləndirilən bacarığın hansı meyarları (aspektləri) var;
3) nailiyyət səviyyələrini necə ifadə etmək olar (səviyyə deskriptoru).

Müəllimlərə iki rubrik nümunəsi təqdim edilir. Bu nümunələrdən istifadə etməklə hər dərsdə reallaşdırılan standartlar üzrə formalaşdırılmış bacarıqların qiymətləndirilməsi üçün rubriklər hazırlaya bilərlər.

| **Oxu bacarığı** | | | | |
|---|---|---|---|---|
| Meyar | Səviyyələr | | | |
| | 1 | 2 | 3 | 4 |
| Sürətli oxu | Müəyyən edilmiş vaxt ərzində nəzərdə tutulmuş həcmdə mətni sonacan oxuyub çatdırmaqda çətinlik çəkir. | Müəyyən edilmiş vaxt ərzində nəzərdə tutulmuş həcmdə mətni sonacan oxuyur, lakin məzmununu qavramaqda çətinlik çəkir. | Müəyyən edilmiş vaxt ərzində nəzərdə tutulmuş həcmdə mətni sonacan oxuyur və məzmununun bir hissəsini qavrayır. | Müəyyən edilmiş vaxt ərzində nəzərdə tutulmuş həcmdə mətni sonacan oxuyur və məzmununu tam olaraq qavrayır. |
| İfadəli oxu | Mətni oxuyarkən düzgün səs tonu və tempi seçməkdə çətinlik çəkir. | Mətni oxuyarkən səs tonunu düzgün seçir, lakin yavaş (və ya sürətli) templə oxuyur. | Mətni məzmununa müvafiq səs tonu və templə oxuyur, lakin hissələr arasında fasiləni gözləmir. | Mətni müvafiq səs tonu ilə, temp və fasiləni gözləməklə oxuyur. |

LAYİHƏ

| Şifahi nitq bacarığı | | | | |
|---|---|---|---|---|
| Meyar | Səviyyələr | | | |
| Səs çaları | 1<br>Bir çox hallarda monoton səslə danışır. | 2<br>Şifahi nitq zamanı bəzən müxtəlif səs çalarlarından istifadə edir. | 3<br>Şifahi nitq zamanı bir çox hallarda müxtəlif səs çalarlarından istifadə edir. | 4<br>Danışarkən səs çalarlarını tənzimləyərək şifahi nitqini təsirli edir. |
| Fikrini ifadə etmək | Fikrini ifadə edərkən nitqində məntiqi ardıcıllığı tez-tez pozur. | Fikrini çox zaman məntiqi ardıcıllıqla ifadə edir, lakin ümumiləşdirmir. | Danışarkən çox zaman fikirlərini sistemləşdirir və ümumiləşdirir. | Fikrini ardıcıl, dəqiq ifadə edir və məntiqi sonluqla bitirir. |

**Mənbələr**


1. **Azərbaycan dilinin izahlı lüğəti** (4 cilddə). Bakı, “Şərq-Qərb”, 2011.

2. **Azərbaycan dilinin orfoqrafiya lüğəti.** Bakı, “Şərq-Qərb”, 2013.

3. **Azərbaycan dili.** Bakı. “Abituriyent”, 2013.

4. **Atalar sözü və məsəllər.** Bakı, “Altun kitab”, 2011.

5. **İnteraktiv təlim (Müəllimlər üçün tədris vəsaiti)**. Bakı, “Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi”, 2010.

6. **Müasir Azərbaycan dili** (4 hissə). Bakı, “Şərq-Qərb”, 2007.

7. **Təhsil lüğəti.** Bakı, “Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi”, 2011.

8. VEYSOVA Z.A. **Fəal/İnteraktiv təlim. Müəllimlər üçün vəsait.** Bakı, 2007.

9. ALAN KROUFORD və b. **Düşünən sinif üçün öyrətmə və öyrənmə üsulları.** Bakı, “Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi”, 2012.

10. www.azdili.az

11. www.reading.a-z


*Bir çox dərslərin şərhi zamanı müxtəlif internet saytlarına istinad edilir (linklər qoyulur) ki, müvafiq şəraiti olan siniflərdə həmin saytlara müraciət edilsə, dərsin daha effektli təşkilinə nail olmaq mümkündür.*

LAYİHƏ

# I BÖLMƏ

## FƏRD VƏ CƏMİYYƏT

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | MMV səh. |
|---|---|---|---|---|---|
| 1. | **Hərənin öz imzası** | 2.2.3, 1.2.4, 2.1.1, 3.1.1, 4.1.2, 4.1.4 | 4 | 10-12 | 21-24 |
| 2. | **Mübariz**<br>*Hərəkətin subyekti və obyekti* | 2.2.1, 2.1.1, 3.1.3, 4.1.2 | 3 | 13-16 | 25-28 |
| 3. | **Son yarpaq**<br>*Məlum, məchul və şəxssiz növ feillər* | 2.2.3, 2.1.1, 3.1.1, 4.1.2 | 3 | 17-20 | 29-31 |
| 4. | **Səhv düşəndə yerimiz**<br>*Qayıdış növ* | 1.1.1, 2.2.1, 2.2.3, 1.2.1, 2.1.1, 3.1.1, 4.1.2 | 2 | 21-22 | 32-35 |
| 5. | **Polyanna**<br>*Qarşılıq-birgəlik növ* | 2.2.1, 2.2.3, 1.2.2, 1.1.2, 3.1.4, 4.1.2 | 3 | 23-27 | 36-38 |
| 6. | **Qayıqda dörd nəfər**<br>*İcbar növ* | 2.2.1, 2.2.2, 3.1.3, 4.1.2, 1.2.4 | 2 | 28-31 | 39-42 |
| 7. | **Ümumiləşdirici təkrar** | | 2 | 32 | 42 |
| | **Kiçik summativ qiymətləndirmə** | | 1 | | 43-44 |
| | **Yekun** | | **20 saat** | | |



LAYİHƏ

## Dərs 1. HƏRƏNİN ÖZ İMZASI (4 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Mətndəki fikrə münasibət bildirərkən müvafiq epizodlara istinad edir. |
| 1.2.4. Müzakirələrdə deyilmiş müxtəlif fikirlərə münasibət bildirir. | Müzakirə zamanı söylənilən fikri öz fikirləri ilə tamamlayır. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Mətndə işlənmiş sözün kontekstə uyğun sinonimini müəyyən edir. |
| 3.1.1. Verilmiş mövzunu müxtəlif yazı formalarında (ifadə, inşa, esse, hekayə) ifadə edir. | Verilmiş aforizmdəki fikrə münasibət bildirməklə esse yazır. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Nitq hissələri ilə bağlı mənimsədiyi bilikləri tətbiq edir. |
| 4.1.4. Nitq hissələrinin yazılışı ilə bağlı qaydalara əməl edir. | Mürəkkəb sözlərin yazılışı ilə bağlı qaydalara əməl edir. |

### Diaqnostik qiymətləndirmə

Yeni tədris ilində birinci dərs olduğu üçün əvvəlcə diaqnostik qiymətləndirmə keçirilməsi məqsədəuyğundur. Diaqnostik qiymətləndirməyə dərsin 20-25 dəqiqəsi həsr oluna bilər. Müəllim müxtəlif standartlar üzrə sinfin səviyyəsini müəyyənləşdirmək üçün qiymətləndirmə aparır.

### Motivasiya

Şagirdlərə iki eyni mövzuda şəkil təqdim edilir. Onlardan biri fotoşəkil, digəri isə təsviri incəsənət əsəri olmalıdır; məsələn: 1) gül-çiçək, çəmənlik fotoşəkli və Səttar Bəhlulzadənin eyni mövzuda tablosu; 2) göyərçin fotoşəkli və dimdiyində zeytun budağı tutmuş sülh göyərçini Yer kürəsi fonunda və s.

**Sual:** – *Bu şəkillərin hansında yaradıcı yanaşma hiss olunur? Bu yanaşma özünü nədə göstərir?*

Şagirdlər fikirlərini bildirirlər. Müəllim əlavə suallar verməklə şagirdləri işə yaradıcı yanaşmanın üstünlükləri barədə fikir söyləməyə yönəldir.

### Oxu

**(St. 2.2.3)** Mətn səsli oxu ilə oxudulur. Birinci mətndaxili sual ətrafında müzakirə aparılır. Mətn oxunandan sonra şagirdlərə sual və tapşırıqlar təqdim edilir:

1. Yeni müdiri səciyyələndirin. Fikirlərinizi mətndən gətirilmiş nümunələrlə əsaslandırın (**obrazlar xəritəsi**).

2. “Müştərilərə hörmət və qayğı ilə yanaşın. Sizə maaş verən onlardır” cümlələrini necə başa düşürsünüz?



LAYİHƏ

3. Sizcə, nə üçün mətn belə adlanır?
4. Mağazadakı satıcıların "imza"larını müəyyənləşdirin.
5. Yeni müdirin işə yanaşmasına münasibət bildirin və fikrinizi əsaslandırın.

**Danışma**

**(St. 1.2.4)** 4-cü tapşırığı yerinə yetirmək üçün şagirdlər cütlərlə işləyə bilərlər. Aşağıdakı təkliflər səsləndirilə bilər:

1. Meyvə-tərəvəz şöbəsində bu ərzaqlardan hazırlana bilən xörək və salatların reseptləri təklif oluna bilər.
2. Dekorativ bitkilər haqqında maraqlı məlumatlar verə bilərlər.
3. Alıcıların arzu və təkliflərini öyrənmək üçün xüsusi qutular qoyula bilər.

Daha sonra şagirdlər öz təcrübələrindən çıxış edərək ***5-ci suala*** cavab verirlər: gündəlik həyatda (məsələn, dərslərə hazırlaşarkən, araşdırma apararkən və s.) müxtəlif problemlərin həlli zamanı istifadə etdikləri yaradıcı üsullardan danışırlar.

**Müzakirə**. Şagirdlər məktəbdə məşhur yazıçı ilə keçiriləcək görüşlə bağlı tədbirlər planı hazırlayır və onu müzakirə edirlər. Müzakirə zamanı hər bir şagird yaradıcı təşəbbüslə çıxış etməyə həvəsləndirilir.

**Söz ehtiyatı**

**(St. 2.1.1)** Mətn oxunarkən şagirdlərin diqqəti bəzi sözlərə və ifadələrə yönəldilməli və oxu zamanı onların mənası müəyyənləşdirilməlidir. Müəllim sinfin səviyyəsinə uyğun olaraq bu söz və ifadələri özü seçsə, daha yaxşı olar. Eyni zamanda bəzi sözlərin kontekstə uyğun gələn sinonimləri ilə əvəz edilməsi tapşırılmalıdır. Aşağıdakı sözlərin mənaları soruşula bilər: *şayiə, rəğbət, ovqat, qiyabi, aforizm.* 2-ci mətndaxili sual da söz ehtiyatının zənginləşdirilməsinə xidmət edir.

3-cü tapşırıq yerinə yetirilərkən "imza" sözünün omonim, yoxsa çoxmənalı söz olması ilə bağlı kiçik debat təşkil etmək olar. "Yox millətimin xətti bu imzalar içində..." (M.Hadi) misrasında bu sözün hansı mənada işləndiyini soruşmaq da yerinə düşərdi.

**Yazı**

**(St. 3.1.1)** 6-cı tapşırıqda verilmiş aforizmləri müxtəlif aspektlərdən mətnin ideyası ilə bağlamaq mümkündür. Şagirdlərə tapşırılmalıdır ki, başlıq seçdikləri aforizmə münasibət bildirərkən həyatda qarşılaşdıqları hadisələrə əsaslansınlar. Bu hadisələr yaşlarına uyğun sadə və ya uydurulmuş da ola bilər. Əsas məsələ yazılan essenin aforizmin mənası ilə bağlı olmasıdır.

**Dil qaydaları**

**(St. 4.1.2; 4.1.4)** Birinci dərsdə dil qaydaları üzərində fəaliyyət VI sinifdə keçilmiş dil qaydalarının təkrarı üçün nəzərdə tutulmuşdur.


LAYİHƏ

Dərslikdə verilmiş 7-ci tapşırıq ismin sifətləşməsi və sifətin isimləşməsini şagirdlərin nə dərəcədə mənimsədiyini yoxlamaq üçün nəzərdə tutulmuşdur.

8-10-cu tapşırıqlar mürəkkəb sözlərin yazılış qaydaları ilə yanaşı, sözlərin qrammatik mənasının da təkrarını nəzərdə tutur. Şagirdlər bu sözlərin yazılışını lüğət vasitəsilə də müəyyənləşdirə bilərlər. Lakin mürəkkəb sözlərin bitişik və ya defislə yazılışı ilə bağlı aşağı siniflərdə keçilmiş qaydaların şagirdlərə xatırladılması da tövsiyə olunur.

Keçilmiş digər mövzuları yoxlamaq üçün aşağıdakı tapşırıqları yerinə yetirmək təklif edilir:

**1.** İsimləri quruluşca növünə görə qruplaşdırın.

| Sadə | Düzəltmə | Mürəkkəb |
|---|---|---|
| | | |
| | | |

*böyürtkən, hərbçi, çaxmaq, çəki, daraq, kitabxana, bağ-bağat, gəlin, qonum-qonşu, yer-yemiş, qızılbalıq, qalıq, həyat, dağıntı, əhəmiyyət, Qarabağ, ilmə, sancı, bacı-qardaş, ev-eşik, əlcək, sənətkar*

**2.** Mənsubiyyət şəkilçili sözləri seçib dəftərinizə köçürün.

Qar aramsız yağırdı. Hər yer dümağ örtüyə bürünmüşdü. Elə bil kəndin üstünə ay doğmuş və hər yeri işıqlandırmışdı. Bu onun xoşuna gəlmədi. Belə qarlı günlərdə hər qaraltı aydınca seçilirdi.

O, sakitcə tövləyə girdi. Atların nəfəsindən tövlə isinmişdi. Atına yaxınlaşdı. Həmişə yəhərli-yüyənli saxladığı kəhərin telini sığalladı, üzənginin möhkəmliyini yoxladı. Əlini atın sağrısına çəkdi, boynunu, üzünü sığalladı, sonra gözlərindən öpdü. *(İ.Ş.)*

**3.** İsimləşən sifətləri tapıb dəftərinizə köçürün, quruluşca növünü müəyyənləşdirin.

1. Evdəkilərin hamısının başına toplanmasını, onunla maraqlanmasını çox sevərdi. 2. Onlar tüfəngin qundağı ilə oğlunun çiyninə vurduqca qoca dəli kimi əsgərlərin üzünə baxırdı. 3. Dövran niyə qanı udur? Qansızları əziz tutur? (N.X.) 4. Pəncərənin kənarına düzülmüş dibçəklərdəki güllərin qırmızısı da, sarısı da, bənövşəyisi də indi Ələsgər müəllim üçün dünyanın kədərli, dərdli işlərindən xəbər verirdi. (E.) 5. Hər sözə getmə, hamıya inanma, düzü yalandan seç, dilinə də yalan gətirmə! (Ə.B.) 6. Bu bulud parçası indi onun pəncərədən gördüyündən daha tünd idi, qaraya çalırdı.

**4.** Köçürün, numerativ sözlərin altından xətt çəkin. Səhv işlənmiş numerativ sözü müəyyənləşdirin.

1. A kişilər, vallah, billah, tumunuzdan bir dənə dənizə düşsə, bütün balıqlar diplomat olar, bayraq götürüb ingilisə ultimatum verərlər. (C.Cabbarlı)



LAYİHƏ

2. Bir dilim qarpız olsaydı, yeyərdim, ürəyim sərinlərdi. (S.Qədirzadə)
3. Bir cüt corab, bir də yun şərf büküb verdi. (M.İbrahimov)
4. İndi səkkiz il idi ki, muzdur Məşədi Əsgər Qanlı təpədə bir arvadı və üç baş xırdaca uşaqları ilə ayda iyirmicə manat məvacibə qənaət edərək dolanırdı. (S.M.Qənizadə)
5. Qalxıb mətbəxə gedəcəksən, kranı açıb bir stəkan soyuq suyu birnəfəsə başına çəkəcəksən. (Y.Səmədoğlu)
6. Bir dəstə oğlan uşağı dəmir yolunun qırağında daş seçirdi. (M.Oruc)

5. Əvəzlikləri seçib məna növlərinə görə ayrı-ayrı sütunlarda yazın.
1. Bu evi yıxılmış tacirlər qoymazlar gözümüzün acısını alaq. (C.B.)
2. Əgər sənin sözünə baxıb getməsəydim, ya gərək səni götürüb qaçaydım, ya indiyədək hələ atan evində qalaydın. (M.F.Axundov)
3. Mən necə tədbir töksəm, o qayda rəftar edərsiz. (N.Vəzirov)
4. İndi əvəzində biz də gərək Mirzənin xəcalətindən çıxaq. (Ə.H.)
5. Bircə ölməyəydim, o günü görəydim Sara bu qapıdan girir içəri. (C.M.)
6. Bu gecə yaxşı konsert var, icazə versəydiniz, radionu açardıq. (İ.Ə.)
7. Onu sən özün rədd edə bilməzsən. O zaman evdəki dövləti buraxıb çıxmalısan. (M.S.O.)
8. İnsan özünü öyrəndiyi zaman bu cəhətlərə də diqqət verməlidir. (M.S.O.)
9. Hər bir yaranan yaşamalıdır, lakin yaşamaq fərdi və xudbini deyil, ictimai olmalıdır. Fərd yaşarkən cəmiyyət içərisində yaşar və fərdi deyil, cəmiyyət faydasına çalışaraq yaşar. (Y.V.Ç.)

6. Feilləri şəkillərinə görə qruplaşdırın.

1. Şəhərdən və ya Atabəy parkından tutulub bura göndərilən məhbusları mən yerbəyer eləməliyəm. (P.M.) 2. Atdan düşüb eşşəyə minsin ki, bəlkə, bəxti açıla. (Ə.) 3. Səbinə hiss edirdi ki, artıq geriyə yol yoxdur, həbsxanadan söhbət salıbdırsa, axıra kimi davam etdirməlidir. 4. Heç kəs özündən danışmazdı, onun-bunun söhbətini edərdilər. (C.Ə.) 5. Kaş onun əvəzinə tamaşaya Nuru gələydi. (H.A.) 6. Mən indi kimə inanım, kimə arxalanım, kimə bel bağlayım? (F.K.) 7. Günəşi örtsə də qara buludlar, Yenə günəş adlı bir qüdrəti var. (S.V.) 8. Duy, mənim ürəyim, duy insanları, Kədər dünyasını duy incə-incə. (Ə.K.)

**Qiymətləndirmə**

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.



LAYİHƏ

## Dərs 2. MÜBARİZ (3 saat)

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 2.2.1. Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur. | Obrazın hiss-həyəcanını ifadə etmək üçün düzgün səs tonu seçir. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Tanış olmadığı sözlərin kontekstə görə mənasını təxmin edir və lüğətin köməyi ilə dəqiqləşdirir. |
| 3.1.3. Qurduğu plan əsasında mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirir. | Müxtəlif mənbələrdən topladığı materialları sistemləşdirərək rabitəli mətn yazır. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Cümlədə hərəkətin subyektini və obyektini müəyyənləşdirir. |

### Motivasiya

Şagirdlərə belə bir sualla müraciət olunur:
– Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov haqqında nə bilirsiniz?

### Oxu

**Fəndaxili şaquli inteqrasiya** (St. 2.2.1; 2.1.1; VI sinif. 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır).

Mətn **Proqnozlaşdırma üsulu** ilə səsli oxunur. Şagirdlərə tapşırılır ki, mətni oxuyarkən obrazın hiss və duyğularını daha təsirli çatdırmaq üçün uyğun səs tonundan istifadə etsinlər. Cədvəl təqdim edilir.

| | Sizcə, nə baş verəcək? | Nə üçün belə düşünürsünüz? | Əslində, nə baş verdi? |
|---|---|---|---|
| 1-ci hissəni oxuduqdan sonra | | | |
| 2-ci hissəni oxuduqdan sonra | | | |
| 3-cü hissəni oxuduqdan sonra | | | |
| Bütün mətni oxuduqdan sonra | | | |

1-ci hissə – birinci abzas
2-ci hissə – ikinci və üçüncü abzaslar
3-cü hissə – 4-6-cı abzaslar (məktub daxil olmaqla)
4-cü hissə – mətnin sonuna qədər
Şagirdlər mətni oxuyub fikir bildirdikcə cədvəl doldurulur.
Mətnin oxusu zamanı mətndaxili suala cavab verilir və lüğət üzrə iş aparılır.



LAYİHƏ

**Müəllimin nəzərinə!** 1-ci sualın cavabı: Altından xətt çəkilmiş ifadə "Dərə xəlvət, tülkü bəy" atalar sözü ilə əlaqədardır.

Qazi – düşmənə qarşı döyüşdə qəhrəmanlıq göstərən adama deyirlər. "O isə qazilik edib şəhidlik şərbətini başına çəkmək istəyirdi" cümləsinin izahını (mətndaxili 2-ci tapşırıq) şagirdlərdən soruşarkən çalışmaq lazımdır ki, onlar kontekstdən çıxış edərək "qazi" və "şəhid" sözlərinin mənasını müəyyənləşdirsinlər. "Şəhid" sözünün mənasını, yəqin ki, bilirlər. Bundan çıxış edərək "qazi" sözünün mənasını müəyyənləşdirə bilərlər. Abzasda Mübarizin düşmən mövqeyini yararaq qəhrəmanlıq etmək istəyindən danışılır. Qəhrəman ölməkdən yox, təsadüfi ölümdən qorxur. Qazilik edib, yəni düşmənlə döyüşüb, ona zərbə vuraraq şəhid olmaq istəyir.

***Qeyd.*** Mübariz İbrahimovun ailəsinə yazdığı məktub orijinaldan götürülmüş, şagirdlərin yaş səviyyəsi nəzərə alınmaqla bəzi hissələr ixtisar edilmişdir.

**Söz ehtiyatı**

**(St. 2.1.1)** 3-cü tapşırıq Şagirdlər sözlərin mənasını kontekstə görə izah etdikdən sonra lüğətdəki məna ilə müqayisə edir, dəqiqləşdirmə aparırlar.

4-cü tapşırığa cavab vermək üçün şagirdlərdən diqqətli oxu tələb olunur. Belə ki, mətndə hadisənin 2010-cu ildə baş verdiyi bildirilir. Mətnin daxilində "İyirmi iki ilin qəzəbi, nifrəti qollarına toplanmışdı" cümləsindən məlum olur ki, həmin vaxt Mübariz 22 yaşında idi. Xocalı hadisəsinin baş verdiyi vaxt isə hamıya məlum tarixi faktdır. Beləliklə, şagirdlər aşağıdakı sillogizmləri qurmaqla bu sualın cavabını müəyyənləşdirə bilərlər:

**I sillogizm:**
**I mühakimə:** *Hadisə 2010-cu ildə baş verib.*
**II mühakimə:** *Mübarizin 22 yaşı var idi.*
**Nəticə:** *Mübariz 1988-ci ildə anadan olub.*

**II sillogizm:**
**I mühakimə:** *Xocalı hadisəsi 1992-ci ildə baş verib.*
**II mühakimə:** *Mübariz 1988-ci ildə anadan olub.*
**Nəticə:** *Xocalı hadisəsi baş verəndə Mübarizin 4 yaşı var idi.*

5-ci tapşırıq şagirddən araşdırma tələb edir. Belə ki, rəsmi məlumatlara əsasən, Qarabağ müharibəsində 20 mindən çox insan qətlə yetirilmiş, 50 mindən artıq adam yaralanmış və şikəst olmuşdur. Bir milyondan artıq insan məcburi köçkün şəraitində yaşayır. Bu tapşırıq araşdırma tələb etdiyi üçün şagirdlərə ev tapşırığı kimi verilməsi tövsiyə olunur. Şagirdlər internetdən və digər mənbələrdən istifadə etməklə bu məlumatı əldə edə bilərlər.

***Qeyd.*** Təqdim edilmiş statistik məlumat Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının rəsmi saytından götürülmüşdür (www.human.gov.az).



LAYİHƏ

## Yazı

**(St. 3.1.3)** 6-cı tapşırıqda məqsəd şagirdləri dərslikdə verilən mətni İkinci Qarabağ müharibəsi ilə əlaqələndirərək informativ mətn yazmağa sövq etməkdir. Tapşırıqda Müdafiə Nazirliyinin 2020-ci il oktyabrın 4-də yaydığı rəsmi məlumat və mətni yazmaq üçün plan təqdim edilmişdir. Planın birinci və ikinci bəndlərini yazarkən şagirdlər mətnin özündən çıxış etməklə yanaşı əlavə məlumatlardan da yararlana bilərlər. Məsələn, Birinci Qarabağ müharibəsi ilə bağlı müxtəlif mənbələrə müraciət etməklə, Çingiz Mustafayevin hazırladığı lent yazısına baxmaqla, Mübariz İbrahimovun qısa, lakin şərəfli həyat yolunu işıqlandıran materialları araşdırmaqla mətnin plan üzrə 1-ci və 2-ci hissələrini yaza bilərlər. Planın 3-cü bəndi İkinci Qarabağ müharibəsi ilə əlaqədardır. Dərslikdəki "Mübariz" mətni Birinci Qarabağ müharibəsinə aid olduğuna görə şagirdlər yazdıqları mətnin 3-cü hissəsi üçün daha geniş araşdırma aparmalı olacaqlar. Bu hissəni yazmaq üçün onlar 44 günlük müharibənin başlanması, gedişi, zəfərlə başa çatması, habelə M.İbrahimovun təkbaşına döyüşərək xeyli sayda düşmən əsgər və zabitini məhv etdiyi postun alınması barədə yazılı və video materiallar toplayıb araşdırmalıdırlar. Bütün bunların nəticəsində yazılan mətn informativ xarakter daşısa da, şagirdlər öz münasibətlərini və hisslərini də əks etdirə bilərlər. Məsələn, telejurnalist Çingiz Mustafayevin Xocalı faciəsini əks etdirən video yazısının M.İbrahimova göstərdiyi təsiri belə qələmə ala bilərlər:

*"Hər dəfə bu kadrları görəndə ürəyi qəzəb, kin və nifrətlə dolurdu. Heç kəsə deməsə də, özünə söz vermişdi ki, Xocalıda axıdılan qanı yerdə qoymayacaq. Bacardığı qədər ermənilərdən Xocalının, Qarabağın, bütün Azərbaycanın qisasını alacaq.*

*Mübarizi anlamaq üçün, sadəcə, azərbaycanlı olmaq lazımdır. Heç bir azərbaycanlı bu kadrları görüb, tükürpərdici harayı, ağlaşma səsini eşidib laqeyd qala bilməz. Mübariz də həmçinin.*

*Söz verdi və elədi. Ürəyində tutduğu kimi ermənilərdən gücü çatan qədər acıq çıxdı. Ermənilərlə təkbətək apardığı beşsaatlıq mübarizədən sonra döyüş meydanında şəhid oldu.*

*Valideynləri ona ad qoyanda sanki əqidəsini də müəyyənləşdirmişdilər. Adı da Mübariz idi, ruhu da..."*

***Qeyd.*** Verilən parça nümunə xarakteri daşıyır. Şagirdlərdən burada olduğu kimi yazılması tələb edilməməlidir. Tapşırıq araşdırma tələb etdiyi üçün ev tapşırığı kimi verilməsi tövsiyə olunur.

## Dil qaydaları

**(St. 4.1.2)** Dərslikdə 7-8-ci tapşırıqlar motivasiya xarakteri daşıyır.

7-ci tapşırıq hərəkətin subyektini və obyektini müəyyənləşdirməyə xidmət edir. Mətndə göy rənglə verilmiş cümlədə "Mübariz" subyekti, "avtomat" ob-



LAYİHƏ

yekti, “sıxdı” hərəkəti bildirir. Bu nümunənin əsasında şagirdlərə subyekt və obyekt anlayışları izah edilir.

8-ci tapşırıq isə subyektlə obyektdən asılı olaraq feilin qrammatik məna növlərinin necə əmələ gəlməsi haqqında şagirddə fikir yaratmağa xidmət edir. Belə ki, altından xətt çəkilmiş cümlələrdə feillər məlum, məchul, qayıdış və qarşılıq-birgəlik növdədir. Şagirdlərə bu növlərin adını çəkmədən, sadəcə, subyektlə obyektin münasibətinin hərəkətdə necə əks olunduğunu izah etmək lazımdır.

**Müəllimin nəzərinə!** Nəzərə almaq lazımdır ki, şagirdlər ilk dəfə olaraq bu qrammatik kateqoriya ilə rastlaşırlar. Ona görə də bəzi cümlələrdə obyekt, subyekt münasibətlərini müqayisə etməkdə çətinlik çəkə bilərlər. Məsələn, onlar “*Amma bu an qəfildən atəş açıldı”* cümləsində “atəş” sözünü subyekt kimi götürə bilərlər. Belə hallarda müəllim yönəldici suallarla “atəş açmaq” ifadəsində iki sözün birləşərək müəyyən hərəkət bildirdiyini şagirdlərə anladır.

9-cu tapşırıq şagirdlərdə subyekt və obyekt anlayışlarının daha dərindən mənimsədilməsinə xidmət edir.

10-cu tapşırıq vasitəsilə şagirdlərdə feilin qrammatik məna növləri haqqında ilkin anlayışlar formalaşdırılır.

11-ci tapşırığın verilməsində məqsəd feillərin qrammatik məna növlərinin xüsusi şəkilçi vasitəsilə yaranması haqqında təsəvvür yaratmaqdan ibarətdir. Belə ki, şagirdlər əvvəlcə verilmiş feilləri cümlədə işlətməlidirlər, subyekt və obyekti müəyyənləşdirəndən sonra feili kök və şəkilçiyə ayıraraq şəkilçini tapırlar. Əlavə olaraq şagirdlərə məlum növdə olan daha bir neçə feil vermək olar ki, müəyyən etdikləri şəkilçilərin köməyi ilə yeni feillər düzəldib cümlədə işlətsinlər.

12-ci tapşırıqda VI sinifdə keçilənlərə istinad olunduğuna görə o, çətinlik dərəcəsi yüksək olan tapşırıq kimi qırmızı ulduzla işarələnib. Bu tapşırıqda şagirdlər cümlələrin qrammatik əsasını müəyyənləşdirirlər. Adətən, cümlədə subyekt mübtəda kimi çıxış etdiyi halda, şagirdlər bəzi cümlələrdə obyektin mübtəda vəzifəsində oduğunu üzə çıxarırlar. Bu tapşırıq növbəti dərsə keçid üçün vasitə də ola bilər.

### Qiymətləndirmə

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.

LAYİHƏ

## Dərs 3. SON YARPAQ (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Mətndəki əsas fikri müəyyənləşdirir və münasibət bildirir. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Tanış olmadığı sözlərin kontekstə görə mənasını təxmin edir və lüğətin köməyi ilə dəqiqləşdirir. |
| 3.1.1. Verilmiş mövzunu müxtəlif yazı formalarında (ifadə, inşa, esse, hekayə) ifadə edir. | Mətndəki fikirlər əsasında mühakimə xarakterli mətn (esse) yazır. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Qrammatik formaya və kontekstə görə feillərin qrammatik məna növünü müəyyənləşdirir. |

**Motivasiya**

Müəllim 6-cı sinifdə keçilmiş "İnam" və "Ümid" mətnlərini xatırladır. Sual: "*Ümid şamının söylədiyi: "Nə qədər ki mən yanıram, həyat işıqlı olacaq" cümləsini necə izah edə bilərsiniz?*

**Müəllimin nəzərinə!**

"İnam" mətnində deyilir ki, şüa günəşdən bir zərrə götürüb yer üzünün ən yaxşı insanına vermək istəyir və bu məqsədlə belə bir insanın axtarışına çıxır. Xeyli axtardıqdan sonra o, zərrəciyi adi bir rəngsazın qəlbinə salır. Bundan sonra daxilində inam yaranan rəngsaz öz işini çox gözəl yerinə yetirir və hamı onun istedadlı rəssam olduğunu güman edir. Şüa günəşə bildirir ki, onun istisini qarşısına çıxan ilk insana vermişdir. Günəş deyir: "Sən ona inandığın üçün o daha yaxşı insan oldu".

"Ümid" mətnində isə dörd şamdan – sülh, səmimiyyət, sevgi və ümid şamlarından danışılır. Şamların hər biri sönəndən sonra yalnız ümid qalır və o, oğlana bildirir ki, nə qədər ki ümid şamı yanır, həyat işıqlı olacaq" və öz odu ilə digər şamları da yandırır.

**Oxu**

**(St. 2.2.3)** Mətn **İstiqamətləndirilmiş oxu** üsulu ilə oxunur. Müəllim şagirdlərə suallar təqdim edir:

1. Rəssam qızların studiyası harada yerləşirdi?
2. Nə üçün Syunun qanı qara idi?
3. Həkim Syuya nə dedi?
4. Həkimin sözlərinə münasibətiniz necədir? (Mətndaxili sual)



LAYİHƏ

5. Nə üçün Consi sarmaşığın yarpaqlarını sayırdı?
6. Qoca Berman kim idi?
7. Consinin vəziyyətinə onun münasibəti necə oldu?
8. Considə ümidin yaranmasına səbəb nə oldu?
9. Nə üçün Syu yarpaq şəklini Bermanın "şah əsəri" adlandırdı? (Düşün və cavab ver)
10. Sizcə, o, haqlı idi?

Mətni oxuyub bitirəndən sonra şagirdlər suallara cavab verməklə mətnin məzmununu tam qavradıqlarını nümayiş etdirirlər. Göründüyü kimi, verilmiş suallar yalnız faktoloji xarakter daşımır. Onların arasında nəticə çıxarmağa yönəlmiş suallar da vardır. Bu, mətnin məzmununu qavramaqla yanaşı, şagirdlərdə mühakimə yürütmək bacarığını formalaşdırmağa kömək edir.

### Söz ehtiyatı

**(St. 2.1.1)** Lüğət üzərində iş (2-ci tapşırıq) mətnin oxusu zamanı aparılır. Şagirdlərə tapşırılır ki, mətndən mənasını anlamadıqları sözləri seçib yazsınlar. Bir çox şagirdlərə "studiya" sözü tanış ola bilər. Çox güman ki, onlar "kinostudiya", "telestudiya", "fotostudiya" kimi sözləri eşitmişlər və bu sözün "çəkilişlər aparılan yer" mənasını verdiyini bilirlər. Mətndə isə bu söz "rəssam emalatxanası" mənasında işlənmişdir.

Tibbi termin olan "pnevmoniya" sözü isə ümumişlək deyil. Kontekstdən aydın görünür ki, bu, xəstəlik adıdır. Bu xəstəliyin bəzi simptomları (təngnəfəslik, iştahasızlıq və s.) mətndə əks olunur. Buna görə də mətni diqqətlə oxuyan şagirdlər bu sözün izahı ilə bağlı müəyyən fikirlər söyləyə bilərlər. Bundan sonra isə onlar lüğətin köməyi ilə öz izahlarında dəqiqləşdirmələr aparırlar.

### Yazı

**(St. 3.1.1)** Şagirdlərə əsərdəki hadisələrə və obrazlara münasibət bildirməklə mühakimə xarakterli mətn (esse) yazmaq tapşırılır. Mühakimə xarakterli yazının şərtləri ilə şagirdlər artıq VI sinifdən tanışdırlar. Uşaqlara kömək məqsədi ilə bir neçə fərziyyə təklif etmək olar. Məsələn: "İnsanda inam yaratmaqla ən ağır xəstəliyi belə müalicə etmək mümkündür", "Təbabət insanın inamından güclü olmalıdır" və ya "Başqasının həyatını xilas etmək üçün öz həyatını qurban verməyə dəyər (dəyməz)" və s. (Fərziyyələr nümunə üçün təklif edilmişdir. Şagirdlər mətndəki əsas fikirlə bağlı özləri də istənilən fərziyyəni irəli sürə bilərlər.) Ehtiyac yaransa, şagirdlərə mühakimə xarakterli mətnin tələblərini xatırlatmaq lazımdır.

### Dil qaydaları

**(St. 4.1.2)** 4-cü tapşırıq dil qaydaları üçün motivasiya xarakteri daşıyır. Mətndə göy rənglə verilmiş "seyr etdi", "yapışdırıldı" feillərindəki hərəkətin



LAYİHƏ

kim tərəfindən icra olunduğunu, yəni subyektini müəyyənləşdirmək tələb olunur. Nəzərə almaq lazımdır ki, dil qaydalarına keçid tapşırıqlarının əsas məqsədi konkret nitq materialı əsasında şagirdlərdə müvafiq qrammatik kateqoriya ilə bağlı ilkin empirik təsəvvür yaratmaqdır. Ona görə də bu mərhələdə hələ ki "məlum növ", "məchul növ" kimi dilçilik terminlərinin işlənməsi məqsədəuyğun deyil.

5, 6, 8 və 9-cu tapşırıqlar yeni əldə olunmuş biliklərin tam qavranılmasına və möhkəmləndirilməsinə xidmət edir.

7-ci tapşırıqda şagirddən məlum növdə verilmiş feilləri məchul və şəxssiz növdə işlətməklə mətni dəyişmək tələb olunur. Müvafiq qrammatik kateqoriyanı mənimsətməklə yanaşı, bu tapşırıq şagirdlərdə elmi-kütləvi və publisistik mətn yazmaq bacarığını formalaşdırmağa xidmət edir.

**Müəllimin nəzərinə!**

Mətn belə dəyişəcəkdir:

*Hüseyn Cavid haqqında maraqlı tədqiqat aparıldı. İlk növbədə, ədibin bir çox əsərləri nəzərdən keçirildi. Onun Şərq və Qərb mədəniyyətinə münasibəti araşdırıldı. Təqdim olunan tədqiqatda H.Cavidin yaradıcılığına obyektiv münasibət bildirildi.*

## Qiymətləndirmə

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.

LAYİHƏ

## Dərs 4. SƏHV DÜŞƏNDƏ YERİMİZ (2 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 1.1.1. Dinlədiyi məlumatda ton, əhvali-ruhiyyə və emosiyanı müəyyən edir. | Şeiri dinləyərkən deklamasiyadakı ton, əhvali-ruhiyyə və emosiyanın təsirini izah edir. |
| 2.2.1. Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur. | Şeirin poetikasına və ifadə etdiyi fikrə uyğun səs tonu seçir. |
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Həyatda gördüklərindən misal gətirməklə mətndəki fikrə münasibətini əsaslandırır. |
| 1.2.1. Fikrini müxtəlif formalarda ifadə edir. | Fikrini əsaslandırmaq üçün mətn qurub təqdim edir. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Tanış olmadığı sözləri kontekstdəki mənasına uyğun olaraq cümlələrdə işlədir. |
| 3.1.1. Verilmiş mövzunu müxtəlif yazı formalarında (ifadə, inşa, esse, hekayə) ifadə edir. | Mətnin ideyasına uyğun mövzuda esse yazır. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Qrammatik formaya və kontekstə görə feillərin qrammatik məna növünü müəyyənləşdirir. |

**Motivasiya**

Müəllim iki oxşar qabda şəkər tozu və duz qoyur. Sual verir:

– *Siz çaya şəkər tozu tökmək əvəzinə duz tökürsünüz. Fərqinə varmadan içmək istəyirsiniz. Sizə necə təsir bağışlayacaq?*

Müxtəlif cavablar alan müəllim həyatda yeri səhv düşən hər bir halın müxtəlif fəsadlar törədə biləcəyini qeyd edib şeirin oxusuna başlaya bilər.

**Dinləmə**

**(St. 1.1.1)** Şagirdlərin nəzmlə yazılmış bədii nümunələr üzərində iş bacarığı əvvəlki siniflərdə formalaşmışdır. Onu daha da inkişaf etdirmək üçün kompleks iş aparmaq lazım gəlir. Bura oxu texnikası, məzmunun, ideyanın mənimsənilməsi və fikrin ifadə formaları – bədii ifadə vasitələri daxildir. Çalışmaq lazımdır ki, müəllifin çatdırmaq istədiyi fikir bütün detalları ilə açıqlansın. Şeirin məzmununa uyğun səs tonu seçmək də vacibdir. Buna görə də əvvəlcə şeirin peşəkar aktyor tərəfindən deklamasiyasını dinləmək məqsədəuyğundur (http://www.youtube.com/watch? v=o_7jzpQ53x4). Şeir səsləndirilməzdən əvvəl şagirdlərə tapşırılır ki, şeiri dinləyərkən məzmunla yanaşı, aktyorun səs tonuna, səsləndirmə zamanı edilən fasilələrə diqqət yetirsinlər.

LAYİHƏ

Şagirdlər deklamasiyanı dinlədikdən sonra şeirin onlarda yaratdığı ovqatı, təəssüratı bölüşür, bunların nəyin hesabına yarandığını izah edirlər.

**Oxu**

**(St. 2.2.1; 2.2.3)** Şagirdlər şeirdəki bəndlərin sayına görə dörd qrupa bölünürlər. Hər qrup müvafiq bəndi məzmuna uyğun intonasiya ilə oxumalı və aşağıdakı tapşırıqları yerinə yetirməlidir.

**I qrup:**

– Müəllif "Müsibət oluruq biz, Səhv düşəndə yerimiz" fikrini necə əsaslandırır? Həyatdan misallar gətirməklə siz də bu fikri əsaslandırmağa çalışın.

– "Qiyamət" sözünün mənasını kontekstə uyğun izah edin (1-ci tapşırıq).

**II qrup:**

– Müəllif "Dözümsüz oluruq biz, Səhv düşəndə yerimiz" fikrini necə əsaslandırır? Həyatdan misallar gətirməklə siz də bu fikri əsaslandırmağa çalışın.

– "Ümman" və "oturar" sözlərinin mənasını kontekstə uyğun izah edin. Nə üçün şair bu cür müqayisəyə müraciət edib? (1-ci tapşırıq)

**III qrup:**

– Müəllif "Gərəksiz oluruq biz, Səhv düşəndə yerimiz" fikrini necə əsaslandırır? Həyatdan misallar gətirməklə siz də bu fikri əsaslandırmağa çalışın.

– Şeirdən və aşağıdakı misralardan çıxış edərək Muğan və Talış bölgələri haqqında hansı qənaətə gəldiyinizi söyləyin (2-ci tapşırıq).

*Göyçə qar əlindən zara gəlibdi,*
*Muğan həsrət çəkər: a yağa qar, qar... (Aşıq Ələsgər)*

**IV qrup:**

– Müəllif "Xaric səslənirik biz, Səhv düşəndə yerimiz" fikrini necə əsaslandırır? Həyatdan misallar gətirməklə siz də bu fikri əsaslandırmağa çalışın.

– "Pərdə", "xaric vurmaq" və "xaric səslənmək" ifadələrini izah edin (1-ci tapşırıq).

Təqdimatlar nəticəsində şeirdəki əsas fikir müəyyənləşdirilir, ayrı-ayrı misralardakı şərhə ehtiyacı olan söz və ifadələr izah olunur.

**Müəllimin nəzərinə!** Şagirdlərin yaş səviyyəsini nəzərə alaraq onlardan fəlsəfi yanaşma gözləmək düzgün deyil. Şeirdəki fikirlərlə bağlı şagirdlərin həyatdan gətirdikləri misallar çox sadə ola bilər. Məsələn, hər hansı bir şagird sinif nümayəndəsi seçilib, lakin idarəetmə bacarığı olmadığına görə bu vəzifəyə layiq deyil və s.

**Danışma**

**(St. 1.2.1)** 3-cü tapşırığı yerinə yetirmək üçün şagirdlər qruplar üzrə işləməkdə davam edirlər.



LAYİHƏ

I və II qruplar – elə bir mətn qurun ki, sonda “Gülünc oluruq biz, Səhv düşəndə yerimiz” qənaətinə gəlmək mümkün olsun.

III və IV qruplar – elə bir mətn qurun ki, sonda “Maraqsız oluruq biz, Səhv düşəndə yerimiz” qənaətinə gəlmək mümkün olsun.

Ola bilər ki, sinifdə xüsusi istedada malik şagirdlər olsun. Belələrinə müəllim təklif edə bilər ki, öz mətnlərini “Səhv düşəndə yerimiz” şeirinin vəzn və qafiyə sisteminə uyğun yazsınlar.

**Söz ehtiyatı**

**(St. 2.1.1)** 1-ci tapşırıq üzərində işləyərkən “xaric vurmaq”, “xaric səslənmək” ifadələri də izah edilir. “Qiyamət” (xaos, bir-birinə dəymiş aləm; əla), “oturmaq” (əyləşmək; çökmək; dibi torpağa dirənmək; yerinə düşmək və s.) “xaric” (bayır tərəf; musiqidə ahəngdən kənara çıxma) sözlərinin çoxmənalılığına diqqət yetirmək lazımdır. Sözlərin kontekstdəki mənası dəqiqləşdirilir və yeni cümlə qurmaq tapşırılır.

**Yazı**

**(St. 3.1.1)** Yaradıcı tətbiqetmə zamanı “Həyatda öz yerini tapan insan xoşbəxtdir” mövzusunda esse yazmaq tapşırılır (4-cü tapşırıq).

**Dil qaydaları**

**(St. 4.1.2)** 5-cı tapşırıq dil qaydaları üçün motivasiya rolunu oynaya bilər. Tapşırığı müzakirə şəklində yerinə yetirmək olar.

**Müəllimin nəzərinə!**

Göy hərflərlə verilmiş cümlələrdə hərəkətin obyektini və subyektini müəyyən etmək şagirdlər üçün çətinlik yarada bilər. Ona görə də müəllim yönəldici suallarla feilin qayıdış növünün mahiyyətini uşaqlara çatdırmalıdır. “Duman dağı dolanar” cümləsində“dağ” sözü təsirlik halda olsa da, hərəkətin obyekti rolunda çıxış edə bilməz, çünki hərəkət onun üzərində icra olunmur. Dolanan dumanın özüdür, deməli, hərəkətin obyekti də, subyekti də dumandır. Bunu daha yaxşı başa salmaq üçün müəllim “dolamaq” sözünü başqa bir cümlədə işlədə bilər: “Mən kəndiri ağaca doladım”. Bu cümlədə artıq hərəkətin subyekti (mən) və obyekti (kəndir) ayrı-ayrı sözlərdir.

Tapşırığın şərtinə uyğun olaraq subyekt və obyekt müəyyən edildikdən sonra müəllim həmin feillərin *(dolanar, sallanar)* morfoloji tərkibini müəyyənləşdirməyi təklif edə bilər.

6-cı və 7-ci tapşırıqlar qayıdış növ feillərin digər qrammatik məna növlərindən fərqləndirilməsinə xidmət edir.

8-ci tapşırıq üzərində iş zamanı qayıdış növ feillərin yalnız feillərdən düzələ bildiyini, “durulmaq” sözündəki “*-l*” şəkilçisinin sifətdən feil düzəldən şəkilçi olduğunu şagirdlərin nəzərinə çatdırmaq lazımdır.



LAYİHƏ

9-cu tapşırığın da çətinlik dərəcəsi yüksəkdir. Bunun üçün şagirdlər əvvəlcə “daşınmaq” sözünün mənalarını dəqiqləşdirməlidirlər: 1) bir yerdən başqa bir yerə aparılmaq (məchul növ); 2) əşyaları ilə birlikdə başqa yerə köçmək (qayıdış növ).

***Qeyd.*** *Daşınmaq* sözü dil faktı olaraq frazeoloji birləşmə tərkibində də işlənə bilir (məqsədindən əl çəkmək, vaz keçmək).

Əlavə tapşırıq. Müəllim şagirdlərə yalnız kontekst daxilində qrammatik məna növü dəyişən feillər təqdim edir; məsələn: *açıldı, bəzəndi, çırpıldı, qırıldı* və s. Şagirdə izah edilir ki, qrammatik məna növləri, əsasən, kontekst daxilində müəyyənləşir.

**Qiymətləndirmə**

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.



LAYİHƏ

## Dərs 5. POLYANNA (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.1. Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur. | Rollu oyun zamanı obrazın xarakterinə uyğun səs tonu seçir. |
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Mətndəki fikrə münasibət bildirmək üçün əvvəl oxuduğu mətnlərdən misallar gətirir. |
| 1.2.2. Fikrini məntiqi ardıcıllıqla ifadə edir. | Oxuduğu mətnin davamını məntiqi ardıcıllıqla nəql edir. |
| 1.1.2. Dinlədiyi fikrin inandırıcı və əsaslandırılmış olub-olmamasını müəyyənləşdirir. | Dinlədiyi mətndəki məlumatların əvvəl əldə etdiyi biliklərə nə dərəcədə uyğun gəldiyini müəyyənləşdirir. |
| 3.1.4. Müxtəlif əməli yazılar (teleqram, izahat) yazır. | Situasiyaya uyğun olaraq teleqram yazır. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Qrammatik formaya və kontekstə görə feillərin qrammatik məna növünü müəyyənləşdirir. |

**Motivasiya**

Müəllim:

– *Hər hansı xoşagəlməz hadisə ilə qarşılaşanda nə edirsiniz?*

Müəllim yönəldici suallarla (*Reaksiyanız necə olur? Ruhdan düşürsünüzmü? Sizdə aqressivlik yaranırmı?* və s.) çalışır ki, şagirdlər öz fikirlərini həyatda qarşılaşdıqları situasiyalarla əsaslandırsınlar. Onların söylədikləri fikirlərin qısa müzakirəsindən sonra oxuya keçmək olar.

**Oxu**

**(St. 2.2.1)** Mətni oxuyarkən rollu oyundan istifadə etmək məqsədəuyğundur. Təhkiyə və dialoqlar ayrı-ayrı şagirdlərə oxudulur. Bu zaman şagirdlərə təklif edilir ki, oxuduqları mətnin ruhuna uyğun səs tonu seçsinlər.

**(St. 2.2.3)** Oxu zamanı şagirdlər mətndaxili sualları cavablandırırlar. Alınan cavablarda fikri əsaslandırmaları üçün şagirdləri mətndəki məqamlardan istifadəyə yönəltmək məqsədəuyğundur. Mətndaxili suallar əsərdəki xarakterlərin inkişaf dinamikasını izləməyə imkan verir. **Obrazlar xəritəsi** iş vərəqi şəklində şagirdlərə təqdim olunur. Mətnin oxusu zamanı bu cədvəl doldurulur.

1-ci mətndaxili sual: *Miss Polli Harrinqton və xidmətçi Nensi haqqında ilk təəssüratlarınızı söyləyin.*

Bu iki obrazın xarakteri haqqında ilk abzaslardan fikir yürütmək olar. Bu xarakterlərin əsas cəhətləri növbəti epizodlarda daha qabarıq təzahür edəcək.

2. *Doğrudanmı, Polyanna xalasının onu qarşılamağa gəlmədiyinə şad idi? Bu epizoddan çıxış edərək Polyannanın xarakteri haqqında fikir yürüdün.*



LAYİHƏ

Bu sualın aid olduğu hissədə baş qəhrəman – Polyanna obrazı ilə ilk dəfə tanış oluruq və elə ilk epizodda onun əsas cəhəti – həyatsevərliyi, hər bir xoşagəlməz hadisədə xoş məqam tapmaq bacarığı təzahür edir.

3. *Müəllifin miss Polliyə münasibətini əks etdirən məqamları göstərin.*

Bu sual mətndəki hadisələrə və obrazlara müəllif münasibətinin müəyyən edilməsi ilə bağlıdır.

**Müəllimin nəzərinə!**
*"Amma, insafən, demək lazımdır ki, gözlərini kitabdan ayırdı və hətta hər barmağı "çox inkişaf etmiş borc hissinin" mücəssəməsi kimi görünən əlini Polyannaya uzatdı"* cümləsində müəllifin kinayəsi hiss olunur. Bu da onun obraza münasibətini göstərir.

4. *Nensi ilə Polyannanın bu dialoqundan sonra balaca qızın xarakteri haqqında fikirlərinizə nə əlavə olundu?*

Şagirdlər bu suala cavab verərkən 2-ci sualla bağlı cavablarını yada salır, müqayisələr aparır və Polyannanın portretini tamamlayırlar.

5-6-cı suallar mətnin məzmununun mənimsədilməsinə, eyni zamanda şagirdin fikrini əsaslandırmaq bacarığının inkişafına xidmət edir.

***Qeyd.*** Şagirdlərə VI sinifdə keçdikləri "Atanın dərsi" və "Sevinc" hekayələri xatırladılır. Adıçəkilən əsərlərdə də əsas fikir həyatın ağır anlarına sinə gərmək, taleyin acı sınaqları qarşısında əyilməmək, gözəllik görüb ona sevinə bilməkdən ibarətdir. Şagirdlər bu əsərlər arasındakı ideya yaxınlığını müəyyən etməklə "Polyanna" əsərindəki əsas fikrə münasibət bildirirlər.

### Danışma

**(St. 1.2.2)** 7-8-ci tapşırıqlar şagirdlərdə yaradıcı təfəkkürün və şifahi nitq bacarığının inkişafına xidmət edir.

### Dinləmə. Yazı

**(St. 1.1.2; 3.1.4)** Mətnin 2-ci hissəsində Polyannanın gəlişi ilə bağlı teleqramdan danışılır. Bu, 3.1.4 standartında qeyd olunan teleqram yazmaq bacarığını formalaşdırmağa xidmət edir. Dərslikdə teleqramın sxemi verilmişdir. Müasir dövrdə teleqramdan az istifadə olunduğundan müəllim bu yazı növü haqqında şagirdlərə məlumat verməli, daha sonra sxemə əsasən onun quruluşu və xüsusiyyətlərini açıqlamalıdır. Qeyd etmək lazımdır ki, sxemdə verilmiş *hara, kimə* və s. sözlərinin yerinə müvafiq adlar yazılmalıdır. Teleqram başqa yazı növlərindən lakonikliyi ilə seçilir, onun vasitəsilə qısa şəkildə müəyyən xəbər və ya göstəriş verilir.

Əsərin orijinalından götürülmüş məktub şagirdlərə oxunur. Onlara tapşırılır ki, mətndəki və dinləmə materialındakı məlumatları müqayisə etsinlər. Sonda şagirdlər hər iki mətndən əldə etdikləri informasiyaya istinad edərək teleqram mətni hazırlamalıdırlar (9-cu tapşırıq).



LAYİHƏ

*Hörmətli miss Polli Harrinqton!*

*Sizə dərin hüznlə bildirmək istəyirəm ki, Con Vayter 15 gün bundan əvvəl vəfat etmişdir. Onun on bir yaşında bir qız övladı qalmışdır. Bildiyiniz kimi, Con Vayter kitablarından başqa heç bir sərvəti olmayan keşiş idi. Dini mövzularda moizə edən bir şəxsin nə sərvəti ola bilər ki?! Conla olan söhbətlərimdən belə başa düşmüşəm ki, sizin aranızda inciklik var. Con həyat yoldaşını itirəndə çox sarsılmışdı. Əgər özü də ölsə, qızın sizin yanınıza göndərilməyini vəsiyyət etmişdi. O deyirdi ki, nə olursa olsun, böyük bacınızın xatirinə qızı yanınıza götürəcəksiniz. Mənə bu məktubu sizə yazmağa cəsarət verən də budur.*

*Hörmətli miss Polli, ümid edirəm ki, məktubu alandan sonra ən qısa zamanda mənə cavab yazacaqsınız. Yaxın günlərdə bir ailə qatarla Vermont ştatının Beldinqsvil şəhərinə gələcəkdir. Razılıq cavabınızdan sonra sizə teleqramla Polyannanın nə vaxt gələcəyi haqqında məlumat verəcəyəm. Sizdən müsbət cavab alacağıma ümid edirəm.*

*Xeyriyyə cəmiyyətinin sədri O.Vayt,*
*Monterey şəhəri, Kaliforniya ştatı*

Müəllim məktubun məzmunundan çıxış edərək lövhədə Polli xalanın cavab teleqramını yazıb nümunə kimi şagirdlərə göstərir.

*Monterey şəhəri, Kaliforniya ştatı xeyriyyə cəmiyyətinin sədri O.Vayta.*

*Bacım qızı Polyannanın yanıma göndərilməsinə razılıq verirəm.*

*Beldinqsvil şəhəri, Vermont ştatı Polli Harrinqton*

9-cu tapşırıq yerinə yetirilir. Bunun üçün şagirdlərdən diqqətli oxu tələb olunur. Belə ki, mətndə Polyannanın gəlişi ilə bağlı teleqramın məzmunu öz əksini tapmışdır. *"...Birdən o, teleqramda təsvir edildiyi kimi, sarışın saçlı, əynində qırmızı damalı çit don, başında həsir şlyapa olan qızla qarşılaşdı".* Əlavə olaraq şagirdlərə tapşırıla bilər ki, başqa şəhərdə yaşayan qohumlarına teleqram yazsınlar.

## Dil qaydaları

**(St. 4.1.2)** 10-cu tapşırıqla motivasiya yaradılır. Şagirdlər tapşırığı yerinə yetirdikdən sonra müəllim qarşılıq-birgəlik növ haqqında məlumat verir. 11-13-cü və 15-ci tapşırıqlar aşağıdakı qrammatik bacarıqların formalaşmasına xidmət edir: 1) *-ış*$^4$ şəkilçili feillərdə hərəkətin qarşılıqlı şəkildə, yoxsa birgə icra edildiyini müəyyənləşdirmək; 2) *-ış*$^4$ şəkilçisinin qarşılıq-birgəlik növ yaradan, yoxsa feildən isim düzəldən şəkilçi olduğunu müəyyənləşdirmək.

14-cü tapşırığın icrası zahirən qarşılıq-birgəlik növ feillərə bənzəyən, lakin məlum növə aid olan sözlərin fərqləndirilməsini nəzərdə tutur.

## Qiymətləndirmə

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.



LAYİHƏ

## Dərs 6. QAYIQDA DÖRD NƏFƏR (2 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.1. Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur. | Mətnin ruhuna uyğun səs tonu seçir. |
| 2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir. | Bədii əsərin kompozisiyasını müəyyən edir. |
| 3.1.3. Qurduğu plan əsasında mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirir. | Mətnin məzmunundan çıxış edərək məntiqi sonluq yazır. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | İcbar növ feilləri fərqləndirir. |
| 1.2.4. Müzakirələrdə deyilmiş müxtəlif fikirlərə münasibət bildirir. | Başqasının fikrini təkzib və ya təsdiq etmək üçün əsaslı arqumentlər və əks-arqumentlər gətirir. |

**Motivasiya**

Müəllim:

– *"Bağda ərik var idi, salaməleyk var idi, bağda ərik qurtardı, salaməleyk qurtardı" atalar sözünü necə şərh edə bilərsiniz?*

Şagirdlər bu atalar sözü ilə bağlı situasiya düşünüb təqdim edir, həmin ifadənin hansı məqamlarda və kim haqqında işlənməsi ilə bağlı fikir yürüdürlər.

**Oxu**

**(St. 2.2.1)** Mətn müxtəlif şagirdlər tərəfindən səsli oxunur. Bu zaman hər bir hissəyə uyğun səs tonu seçilməsinə diqqət yetirilməlidir (yeri gəlsə, müəllim bir parçanı özü oxuya bilər).

**Fəndaxili şaquli inteqrasiya** (1-ci mətndaxili tapşırıq). VI sinifdə şagirdlər təsviri və nəqli xarakterli mətnlərlə tanış olublar. Müəllim şagirdlərə hər iki tipli mətnlərin xüsusiyyətlərini xatırladaraq mətnin təsviri və nəqli xarakterli abzaslarını fərqləndirməyi tapşırır. Çalışmaq lazımdır ki, tapşırığı yerinə yetirən şagirdlər fikirlərini əsaslandırmaq üçün  təsviri və nəqli xarakterli mətnin xüsusiyyətlərinə istinad etsinlər.

2-ci mətndaxili sual vasitəsilə şagirdlərdə hadisələrin davamını proqnozlaşdırmaq bacarığı inkişaf etdirilir.

**(St. 2.2.2)** Oxu zamanı mətndəki obrazların davranışını izləyib qeydlər aparmaq üçün cütlərə iş vərəqləri paylanmalıdır. Müəllim tapşırığın həcmini nəzərə alaraq hər obraz haqqında qeyd aparmağı müxtəlif cütlərə tapşıra bilər. İş vərəqində aşağıdakı tapşırıqları qeyd etməyə məqsədəuyğundur:



LAYİHƏ

Obrazın adı və ekstremal vəziyyətə qədər davranışı: ____________________
______________________________________________________________________

Düşdüyü ekstremal vəziyyət:____________________________________________
______________________________________________________________________

Ekstremal vəziyyətdə davranışı:_________________________________________
______________________________________________________________________

Vəziyyətdən sonra davranışı: ___________________________________________
______________________________________________________________________

Beləliklə, şagirdlər əsərdə hadisələrin inkişaf dinamikasından və xarakterlərin açılmasından asılı olaraq mətnin kompozisiyasını müəyyən edir və hər bir hissə haqqında fikir yürüdürlər.

3-cü tapşırıq yerinə yetirilərkən mətndən aşağıdakı məqamlar qeyd oluna bilər:

– gəncin həyəcandan tənbəkisini yerə salması və üzməyi bacardığını gizlətməsi;
– qəssabın bayaqdan üstündə oturduğu döşəkçəni qucaqlaması;
– professorun qayıqdakı yeganə xilasedici həlqəni boynuna keçirməsi;
– qəssabın üç qurban vəd etməsi, sonra isə bunu bir qurbana endirməsi;
– professorun başqa vaxt özünü Sokrata bənzətməsi;
– xilasedici həlqə boynunda olduğu halda professorun hamını sakitliyə dəvət etmək istəyi;
– gəncin nəzərlərini qadından qaçırması.

4-cü suala cavab verməklə şagirdlər mətnin ideyası ilə bağlı fikir yürüdürlər.

### Yazı

**(St. 3.1.3)** 5-ci tapşırığın icrasına başlamazdan əvvəl şagirdlərə mühakimə xarakterli mətnin xüsusiyyətləri, eləcə də mətn sonluğunun funksiyaları xatırladılır. Bildirilir ki, bədii mətnin sonluğu nəqli və ya mühakimə xarakterli ola bilər. Nəqli xarakterli sonluqda, adətən, qəhrəmanların sonrakı taleyi haqqında məlumat verilir. Mühakimə xarakterli sonluq daha çox təmsillər, novellalar üçün xarakterikdir. Bu zaman əsərin ideyası açıqlanır.

**Müəllimin nəzərinə!**

Əslində, mətnin məzmunu ilə bağlı iki əsas fikri vurğulamaq olar: 1) istənilən ekstremal vəziyyətdə insan öz təmkin və ləyaqətini itirməməlidir; 2) "Bağda ərik var idi..." Şagirdlər mətnə sonluq yazarkən bu ideyaların hər ikisini əhatə edə və ya yalnız biri üzərində dayana bilərlər.



LAYİHƏ

Müəllim tapşırığın tələbinə əsasən yazılacaq sonluqda "ekstremal vəziyyət", "psixoloji məqam", "eqoizm", "altruizm", "centlmen" kimi söz və ifadələrdən yerli-yerində istifadə etmələri üçün həmin sözlər üzərində iş apara bilər.

**Ekstremal –** adi şəraitdən fərqlənən, qeyri-adi, təhlükəli.
**Altruizm** – başqasının naminə, təmənnasız olaraq öz mənafeyini qurban vermə.
**Eqoizm** – ancaq özünü, öz mənafeyini düşünmə; xudbinlik.
**Psixoloji** – insanın ruhi vəziyyəti ilə bağlı olan.
**Centlmen** – gözəl geyimi, incə davranışı ilə fərqlənən nəzakətli, tərbiyəli kişi.

**Dil qaydaları**

**(St. 4.1.2)** 6-cı tapşırıq motivasiya xarakterlidir. Sözlərdəki -dır[4] şəkilçisini müəyyən edən şagirdlər eyni zamanda həm hərəkəti icra etdirəni – birinci subyekti, həm də hərəkəti icra edəni – ikinci subyekti müəyyən etməyə çalışırlar. Şagirdlər feilin bu məna növünün mahiyyətini anladıqdan sonra həmin səhifədəki icbar növ feillər haqqında nəzəri materialı mənimsəyirlər. Müəllim bu zaman şagirdlərin diqqətini "icbar" sözünə yönəldərək bu sözün "məcbur" sözü ilə leksik-qrammatik yaxınlığını izah edir.

7-ci və 8-ci tapşırıqlar vasitəsilə mətndə icbar növ feilləri, daha sonra isə bu feillərin iştirak etdiyi cümlələrdə hərəkətin obyektini, I və II subyektini müəyyən etmək bacarığı formalaşdırılır. 9-cu tapşırığın icrası zamanı şagirdlər bəzi icbar növ feilli cümlələrdə II subyektin naməlum qaldığını aşkar edirlər.

10-cu tapşırıq tətbiqi xarakter daşıyır: eyni fikri müxtəlif cür ifadə etmək bacarığının inkişafına xidmət edir. Tapşırıqda verilmiş məlum növ feilli cümlələr aşağıdakı kimi dəyişdirilə bilər:

1. Ata yorulduğuna görə odunları uşaqlara daşıtdırdı.
2. Nənə eynəyini itirdiyindən məktubu nəvəsinə oxutdurdu.
3. Səlim xəmir xörəklərini çox sevdiyi üçün bacısına xəngəl bişirtdirdi.

11-ci tapşırıq düşünmək və mühakimə yürütmək tələb edir. Zahirən icbar növə bənzəyən feilləri fərqləndirərkən onların subyektlə münasibətini aydınlaşdırmaq, obyektin və 2-ci subyektin olub-olmadığını müəyyənləşdirmək vacibdir.

**Danışma**

**(St. 1.2.4)** 12-ci tapşırıq debat xarakterlidir. Bu zaman müəllim icbar növ feilləri müəyyən edə bilmək bacarığını inkişaf etdirməklə yanaşı, 1.2.4 standartını bir daha reallaşdırmaq imkanı əldə edə bilər. Çalışmaq lazımdır ki, debat zamanı "oxumaq" sözünün ifadə etdiyi anlayışlara istinad edilsin (təhsil almaq və mütaliə etmək), bu söz "oxutdurmaq" (məktubu) sözü ilə müqayisə edilsin.


LAYİHƏ

## Qiymətləndirmə

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh.18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.

**Dərs 7. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)**

Bu dərs müvafiq bölmədə reallaşdırılmış məzmun standartları üzrə bacarıqların möhkəmləndirilməsi üçün nəzərdə tutulmuşdur. Şagirdlərə aşağıdakı mövzu üzrə esse yazdırmaq tövsiyə olunur: ***"Xarakterinizi üç sözlə ifadə edin və əsaslandırın".***



LAYİHƏ

## I BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

1-4-cü tapşırıqlar mətnlə bağlıdır.

### QAYIQ

Sahibkar qayığını *rənglə__mək* üçün qonşuluqda yaşayan balıqçını dəvət etdi. İş vaxtı balıqçı qayığın dibində deşik olduğunu gördü və onu bağladı. Qayığı boyayıb qurtardı, əməkhaqqını alıb sahilə getdi. Onu gözləyən yoldaşları ilə *gör__dü* və səhərki balıq ovuna hazırlaşmağa başladı.

Səhər *aç__dı*. Balıqçı torunu yığmaq istəyirdi ki, qapı *döy__dü*. Gələn sahibkar idi. Əlindəki qızılla dolu kisəni ona uzatdı:

– Buyurun, bu sizin haqqınızdır.

– Nəyə görə, – deyə balıqçı təəccübləndi. – Mən haqqımı almışam!

– O pulu mən qayığın rənglənməsi üçün ödəmişdim. Bunu isə qayığı təmir etdiyiniz üçün verirəm.

– Belə xırda iş üçün? – balıqçı lap mat qaldı. – Mən buna görə pul almaq fikrində deyildim...

– Sizin xırda adlandırdığınız iş mənim uşaqlarımın həyatını xilas edib. Mən qayıqda deşik olduğunu tamam unutmuşdum. Axşam mən iş dalınca şəhərə gedəndə nəzarətsiz qalan uşaqlar qayığa minib dənizə çıxıblar. Biz dəhşət içərisində idik. Hamı *ağla__ırdı*. Düşünürdük ki, onlar batıblar. Uşaqlar sağ-salamat qayıtdıqda isə məlum oldu ki, onların həyatını siz xilas etmisiniz...

**1.** Balıqçı qayığın dibindəki deşiyi nə üçün bağladı?

A) Əlavə əməkhaqqı almaq istədiyi üçün.
B) Bunun təhlükəli olduğunu bildiyi üçün.
C) Boş vaxtı çox olduğu üçün.
D) Boya deşikdən axıb getdiyi üçün.

**2.** Baş verə biləcək faciəyə hekayə iştirakçılarının hansı hərəkətlərinin səbəb olduğunu yazın.

Sahibkar ..........................................................................................
Ailə üzvləri ......................................................................................
Uşaqlar ............................................................................................

**3.** Mətnin ideyasını bir cümlə ilə ifadə edin.

..........................................................................................................
..........................................................................................................

**4.** Kontekstdən asılı olaraq fərqləndirilmiş feillərdə qrammatik məna növ şəkilçilərini bərpa edin.

LAYİHƏ

**5.** Şəkilçiləri bərpa edib feilin növünü müəyyənləşdirin.

1. Yenə də üzü payız buludu kimi tut___muşdu. (__________)
2. Cinayətkar tez bir zamanda tut___du.(__________)
3. Babam bağda yeni meyvə ağacları ək___di.(__________)
4. Nərmin kənddəki rəqfiqəsi ilə tez-tez yaz___ır.(__________)
5. Gözlərimə birdən-birə onun xəyalı gör___dü.(__________)
6. Bütün işlər bir anda gör___dü.(__________)
7. Körpə uşaq məzəli hərəkətləri ilə hamını gül___dü. (__________)
8. Uşaqlar klounun məzəli hərəkətlərinə gül___dülər. (__________)

**6.** Verilmiş feilləri həm məchul, həm də qayıdış növdə işlətməklə cümlələr qurun.

*çəkildi, atıldı*

**7.** Cümlələrə aşağıdakı mübtədaları əlavə edərək şəxssiz növ feilləri məlum növ feillərə çevirin.

*münsiflər heyəti, azarkeşlər, piyadalar, dostlar*

1. Təəssüf ki, heç də həmişə yol hərəkəti qaydalarına əməl edilmir.

2. Çoxdan davam edən mənasız mübahisəyə bu gün son qoyuldu.

3. Hər yerdə idmançılarımızın yarışlarda qazandıqları uğurlardan danışılırdı.

4. Rəfiqəmin mahnı müsabiqəsindəki çıxışına yüksək qiymət verildi.

**8.** Məlum növ feilləri icbar növ feillərlə əvəz edərək yeni cümlələr qurun.

1. Müəllimin tapşırığı ilə şeiri mən oxudum.

2. Bayram süfrəsi üçün anama lazım olan ərzaqları həmişə qardaşım alır.



LAYİHƏ

# II BÖLMƏ

## HƏR SÖZÜN BİR TALEYİ VAR

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | MMV səh. |
|---|---|---|---|---|---|
| 8. | **Molla Nəsrəddin demişkən...** *İdi, imiş* köməkçi sözləri | 2.2.1, 2.2.3, 2.1.1, 1.2.2, 3.1.1, 4.1.2 | 3 | 34-37 | 46-49 |
| 9. | **Onlar kimdir** *İsə* köməkçi sözü | 2.2.2, 2.1.2, 1.2.1, 1.1.2, 3.1.2, 4.1.2 | 3 | 38-41 | 50-53 |
| 10. | **Bunu kim deyib** *İdi, imiş* köməkçi sözlərinin yazılışı | 2.1.1, 2.2.3, 2.2.2, 3.1.3, 1.1.1, 1.2.3, 4.1.4 | 3 | 42-45 | 54-58 |
| 11. | **Ay adları və onların mənşəyi** *İdi, imiş* köməkçi sözləri və keçmiş zaman şəkilçiləri | 2.2.3, 1.2.2, 3.1.2, 2.1.1, 4.1.2 | 3 | 46-49 | 59-62 |
| 12. | **Barbarlar və vandallar** *İsə* köməkçi sözü və feilin şərt şəklinin əlaməti | 2.2.3, 1.2.2, 1.1.2, 2.1.1, 3.1.1, 4.1.2 | 3 | 50-53 | 63-67 |
| 13. | **Ümumiləşdirici təkrar** | | 2 | 54 | 67 |
| | **Kiçik summativ qiymətləndirmə** | | 1 | | 68-69 |
| | **Yekun** | | **18 saat** | | |

LAYİHƏ

## Dərs 8. MOLLA NƏSRƏDDİN DEMİŞKƏN... (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.1. Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur. | Qarışıq tipli mətnlərin oxusu zamanı hər hissəyə uyğun səs tonu seçir, mətnin tərkib hissələri arasında fasilə verir. |
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Mövzu üzrə biliklərindən istifadə etməklə mətndəki fikrə münasibətini əsaslandırır. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Tanış olmadığı sözün lüğətdə verilmiş izahları içərisindən kontekstə uyğun olanını müəyyən edir. |
| 1.2.2. Fikrini məntiqi ardıcıllıqla ifadə edir. | Sözü, ifadəni izah edərkən fikrini ümumiləşdirərək ifadə edir. |
| 3.1.1. Verilmiş mövzunu müxtəlif yazı fomalarında (ifadə, inşa, esse, hekayə) ifadə edir. | Dinlədiyi mətndəki fikri ümumiləşdirib onun əsasında nəqli xarakterli kiçik mətn yazır. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | *İdi, imiş* köməkçi sözlərinin sözdəki rolunu müəyyən edir, onların ixtisar formalarını zaman şəkilçilərindən fərqləndirir. |

### Motivasiya

Müəllim:

*Günlərin birində Teymurləng böyük bir qonaqlıq verir. Molla da bu qonaqlıqda iştirak edir. Teymur görür ki, Molla bir nəfərlə çox şirin söhbətlə məşğuldur. Onu utandırmaq üçün yanına gələrək deyir:*

*– Yenə, kim bilir, yalandan nə basıb-bağlayırsan.*

*Molla hec özünü sındırmadan baş əyib deyir:*

*– Nə eləyim, qibleyi-aləm sağ olsun. Yalansız keçinmək olmur. Sizin ədalətinizdən danışıram.*

**Sual:** *Lətifədəki Molla kimdir? Onun haqqında nə bilirsiniz?*

Alınan cavablar **BİBÖ** cədvəlinin I sütununda qeyd edilir.

| **MOLLA NƏSRƏDDİN OBRAZI HAQQINDA NƏ BİLİRSİNİZ?** | | |
|---|---|---|
| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
| | | |

### Oxu

**(St. 2.2.1; 2.2.3)** Mətn elmi-kütləvi üslubda olsa da, daxilində bədii parçalar (lətifələr) verilib. Şagirdlər mətni ucadan oxuyarkən bunu nəzərə almalıdırlar. Səs tonunu və tempi fərqləndirməklə şagirdləri həm 2.2.1 alt-standartından çıxan təlim nəticəsini reallaşdırmağa, həm də mətndaxili əlaqənin müəyyən edilməsinə istiqamətləndirmək mümkündür.



LAYİHƏ

Mətnin oxusu zamanı **İstiqamətləndirilmiş oxu** üsulundan istifadə etmək olar:

1. *Molla Nəsrəddin adı hansı ərazidə geniş yayılıb?*
2. *Müxtəlif bölgələrdə onu necə adlandırırlar?*
3. *Tarixdə Molla Nəsrəddin adlı bir şəxs olubmu?*
4. *Molla Nəsrəddin lətifələrində hansı hökmdarın adı çəkilir?*
5. *Həmin hökmdar haqqında nə bilirik?*
6. *Molla Nəsrəddinin hansı keyfiyyəti dilimizdə bir çox məsəllərin yaranmasına səbəb olub?*

Oxu zamanı mətndaxili suallar cavablandırılır. Molla Nəsrəddinin milli kimliyi ilə bağlı mətndə irəli sürülmüş ehtimallar müqayisə edilərkən şagirdlərin müstəqil mühakimə yürütmələrinə çalışmaq lazımdır (1-ci mətndaxili sual). Bu zaman mətndəki fikirlərlə yanaşı, əlavə bilikləri olan şagirdlərin fikir söyləmələrinə imkan yaratmaq məqsədəuyğundur. Şəraitdən asılı olaraq müstəqil iş kimi Molla Nəsrəddinin kimliyi barədə məruzə hazırlamağı da tapşırmaq olar.

**Söz ehtiyatı**

**(St. 2.1.1)** 3-cü tapşırıqda "prototip" sözünün mənasını izah etmək tapşırılır. İzahlı lüğətlərdə "prototip" sözü iki anlayış ifadə edir:

**1.** *Ədəbiyyatşünaslıq*. Ədəbi surət, habelə qəhrəman obrazı yaratmaq üçün müəllifin orijinal kimi istifadə etdiyi həqiqi şəxs. *Babək "Od gəlini"ndəki Elxanın prototipidir.* **2.** Sonra gələn bir şəxsin sələfi olan şəxs.

Mətndəki "prototip" sözünün mənası kontekstə uyğun olaraq müəyyənləşdirilir.

**Danışma**

**(St. 1.2.2)** 2-ci və 4-cü tapşırıqlar şagirdlərdən linqvistik məsələlər üzrə mühakimə yürütmək bacarığı tələb edir.

**Müəllimin nəzərinə!**

"Söz oyunu" dedikdə elə bir nitq situasiyası nəzərdə tutulur ki, burada sözün həqiqi, yoxsa məcazi mənada işləndiyini dəqiq müəyyən etmək olmur. Verilmiş lətifədə "diş çəkdirmək" (dişini çəkib çıxartdırmaqla müalicə etmək) ifadəsindən fərqli olaraq "qulağını çəkmək" frazeoloji ifadəsinin bir mənası da "dərsini vermək, cəzalandırmaq"dır. Gülüş doğuran məqam da elə budur.

"Sən çaldın" ifadəsi ilə bağlı belə bir fikir mövcuddur ki, məhz Molla Nəsrəddinin məşhur lətifəsindən sonra bu ifadə zərbi-məsələ çevrilərək "qazanmaq" mənasında işlənməyə başlamışdır. Lakin dilimizdə qədimdən bəri "çalmaq" sözünün "əldə etmək, oğurlamaq" mənası var. Sadəcə, sözügedən lətifədə Molla Nəsrəddin bu ifadəni ikili mənada söz oyunu kimi işlətmişdir: 1) sən tütəyi əldə edəcəksən; 2) sən tütəkdə çalacaqsan.



LAYİHƏ

5-ci tapşırığı icra etmək üçün qruplar və ya cütlərə “Molla Nəsrəddin lətifələri” kitabını paylamaq və məsəllərlə bağlı olan lətifələri müəyyənləşdirmək tapşırıla bilər.

***Qeyd.*** Bu tapşırıq araşdırma tələb edir. Ev tapşırığı kimi verilməsi tövsiyə olunur.

Bu tapşırığın icrası zamanı şagirdlər ifadələrin işlənmə məqamını müəyyən etməkdə çətinlik çəkə bilərlər. Bu zaman onlara həmin ifadənin işləndiyi oxşar situasiya düşünmək tapşırıla bilər. Bundan sonra onlar fikirlərini ümumiləşdirərək ifadənin mənasını izah etməlidirlər; məsələn:

**Hamıya qulaq assan, gərək eşşəyi dalına alasan**. *Öz fikri, mövqeyi olmayan adamlar ətrafdakıların ziddiyyətli məsləhətlərinə qulaq asıb pis vəziyyətdə qalanda bu ifadəni işlədirlər.*

Bu tapşırıq şagirdlərdə anlayışı izah etmək bacarığını inkişaf etdirir.

Şagirdlərə 34-cü səhifədəki illüstrasiyaya nəzər salmaq tapşırılır. Əgər bu şəklə uyğun gələn lətifəni bilən varsa, danışmaq təklif olunur. Əks halda şagirdlər şəklə baxıb lətifənin məzmununu təxmin edirlər. Sonda lətifə müəllim tərəfindən söylənilə və ya kitabdan tapılıb oxuna bilər.

**Yazı**

**(St. 3.1.1)** Müəllim aşağıdakı mətni səsləndirir. Şagirdlər mətndəki fikri ümumiləşdirib məsəl şəklində ifadə edirlər. Sonra həmin məsəlin işlənə biləcəyi situasiyanı təsvir edən mətn yazırlar.

**MOLLANIN YORĞANI**

Gecələrin birində Mollanın evinin qabağında dava düşür. Molla səsə yuxudan oyanır, yorğanı çiyninə salıb çıxır ki, görsün nə olub.

Kimsə elə o saat yorğanı onun çiynindən götürüb qaçır. Qaranlıq olduğu üçün Molla yorğanı götürəni görmür. Ora yorğan, bura yorğan, bir də baxır ki, səs-səmir də kəsildi. Savaşanlar elə bil ki Mollanı gözləyirmişlər.

Küçədə heç kəs qalmır. Molla soyuqdan titrəyə-titrəyə evə qayıdır. Arvadı soruşur:

– A kişi, dava nə üstündə idi?

Molla deyir:

– Başa düşmədim. Deyəsən, bizim yorğanın üstündə imiş. Yorğanı apardılar, dava da qurtardı.

**Müəllimin nəzərinə!**

Şagirdlər mətndəki fikri ümumiləşdirərək məsəl şəklində ifadə etməlidirlər. Əslində, bu lətifədən “Dava yorğan davasıymış” zərbi-məsəli yaranmışdır. Şagirdlərin bu haqda məlumatı olmaya bilər. Ona görə də müxtəlif fərziyyələr irəli sürülə bilər. Burada məqsəd şagirdlərin əsas fikri müəyyənləşdirib ümumiləşdirə bilmək bacarığını inkişaf etdirməkdir.



LAYİHƏ

**Dil qaydaları**

**(St. 4.1.2)** 6-cı tapşırığın icrası dil qaydalarına keçiddir. Tapşırığı yerinə yetirmək üçün şagirdləri yönəltmək lazımdır:

– "çevrilərdi" sözünü kök və şəkilçiyə ayırın;

– sözdə neçə şəkilçi var və bu şəkilçilərin qrammatik funksiyası nədir?;

– bu feilin zamanını müəyyənləşdirin.

7-ci tapşırıq əldə edilmiş nəzəri məlumatı praktik işə çevirməyə xidmət edəcək. 8-ci tapşırıq *idi, imiş* köməkçi sözləri və onların ixtisar formalarının sözdə tutduğu yeri dəqiq müəyyənləşdirmək bacarığını formalaşdırır.

*İdi, imiş* köməkçi sözlərinin ixtisar formasının keçmiş zaman şəkilçilərindən fərqləndirilməsinə ayrıca dərs həsr olunacaq. Lakin bu məsələyə indidən diqqət yetirmək lazımdır, çünki əks halda *idi, imiş* köməkçi sözlərinin mahiyyəti şagirdlər üçün qaranlıq qala bilər. Həmin morfemlərin başlanğıc formaya nisbətən tutduğu yeri müqayisə etmək kifayətdir (başlanğıc forma + zaman şəkilçisi + *idi* və ya *imiş* köməkçi sözünün ixtisar forması + şəxs şəkilçisi). Bu zaman şagirdlər əldə etdikləri müxtəlif məlumatların kompleks şəkildə müqayisəsini aparacaqlar. İndiki zaman şəkilçisi ilə feil düzəldən şəkilçi, feil düzəldən şəkilçi ilə gələcək zaman şəkilçisi, *imiş* köməkçi sözünün ixtisar forması ilə nəqli keçmiş zaman şəkilçisi, cəm şəkilçisi ilə şəxs şəkilçisi müqayisə obyekti olacaq.

9-cu tapşırığın icrası zamanı feillərin qrammatik formasını kontekstə uyğun seçmək tələb olunur. Şagirdlər əvvəlcə mətni tam oxumalı, sonra isə uyğun gələn şəkilçilər artırmaqla köçürməlidirlər.

**Qiymətləndirmə**

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.



LAYİHƏ

## Dərs 9. ONLAR KİMDİR  (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir. | Mətnin müxtəlif hissələrindən topladığı faktları bir-biri ilə əlaqələndirir. |
| 2.1.2. Mətndəki sözlərin həqiqi və ya məcazi mənada işləndiyini izah edir. | Mətndəki ifadənin frazeoloji birləşmə, yoxsa sərbəst söz birləşməsi olduğunu əsaslandırır. |
| 1.2.1. Fikrini müxtəlif formalarda ifadə edir. | Müxtəlif mənbələrdən topladığı məlumatları məruzə şəklində təqdim edir. |
| 1.1.2. Dinlədiyi fikrin inandırıcı və əsaslandırılmış olub-olmamasını müəyyənləşdirir. | Dinlədiyi mətndəki məlumatları qeyd etməklə əsas fikri təsdiq edən arqumentlər gətirir. |
| 3.1.2. Topladığı fakt və hadisələrə münasibət bildirməklə mətni zənginləşdirir. | Eyni mövzu üzrə müxtəlif mənbələrdən əldə etdiyi məlumatlar əsasında elmi-kütləvi mətn yazır. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | *İsə* köməkçi sözünün  rolunu fərqləndirir. |

### Motivasiya

Lövhədə **Anlayışın çıxarılması** sxemi nümayiş etdirilir:




Müəllim: – *Sxemdəki ifadələr haqqında nə bilirsiniz? Onlara xas olan ümumi cəhət nədir?*

Müxtəlif cavablar səslənə bilər: ifadələrin arxasında bir mənanın dayanması, şəxs adları ilə bağlı olması, dilimizə başqa dillərdən keçməsi və s. Hətta bəzi ifadələrin mənasını da izah edə bilərlər.

**Müəllimin nəzərinə!**
Şagirdlər “Axillesin dabanı” ifadəsinin etimologiyası ilə 5-ci sinifdən tanışdırlar.

Sonda mərkəzdəki çərçivədə “Tərkibində şəxs adları olan deyimlər” ifadəsi yazılır.



LAYİHƏ

## Oxu

**(St. 2.2.2)** Mətn "Oxu – sual ver" üsulu ilə hissə-hissə oxudulur. Oxu başlamazdan əvvəl bu oxu üsulu şagirdlərə izah olunur. Mətn əvvəlcə səssiz bütöv oxunur. *İş cütlüklərdə davam etdirilir. Cütlüyə daxil olan şagirdlərin biri mətnin bir hissəsini oxuduğu zaman digər şagird öz tərəf-müqabilini dinləyərək həmin hissə ilə bağlı sual hazırlamalıdır. Bu sual oxunmuş hissənin əsas məzmununu, mahiyyətini əhatə etməlidir. Müəllim oxunu dayandırdığı zaman sual verilir, mətni oxuyan şagird sualı cavablandırır. Proses mətnin sonuna qədər rolları dəyişdirməklə davam edir.*

Oxu başa çatdıqdan sonra 3-cü tapşırıq əsasında mətn üzərində iş davam etdirilir. Tapşırığın icrasını qruplarda həyata keçirmək məqsədəuyğundur. Hər bir ifadə ilə bağlı aparılacaq işi bir qrupa həvalə etmək olar. Şagirdlər müvafiq ifadənin adını yazır, onun yaranma tarixini qeyd edir, mənasını açıqlayır, ifadənin işlədilməsi mümkün olan məqam düşünüb tapırlar.

| İfadə | İfadənin yaranma tarixi | İfadənin mənası |
|---|---|---|
| | | |
| | | |

4-cü tapşırıq mətndəki məlumatların nə dərəcədə qavranıldığını yoxlamağa xidmət edir.

## Söz ehtiyatı

**(St. 2.1.2)** 2-ci tapşırıq frazeoloji birləşmənin kontekstə uyğun izahını tələb edir. Frazeoloji birləşmə onun tərkib hissələrinin məcazi mənada işlənməsi hesabına yaranır. Bir çox birləşmələr kontekstdən asılı olaraq həm sərbəst, həm də sabit söz birləşməsi kimi işlənə bilər; məsələn:

*Qurd ağacın içini yeyirmiş* – sərbəst söz birləşməsi;

*Bu sirr bərbərin içini yeyirmiş* – sabit söz birləşməsi.

## Danışma

**(St. 1.2.1)** 5-ci tapşırıq araşdırma xarakterlidir. Şagirdlər onu evdə işləməlidirlər. Müxtəlif mənbələrdə "Damokl qılıncı" ifadəsinin etimologiyası ilə bağlı məlumatlara rast gəlmək mümkündür.

E.ə. 405-ci ildə Dionis adlı bir sərkərdə Siciliyanın ən mühüm yunan şəhəri olan Sirakuzada hökmdarlıq edirdi. Dionisin hakimiyyəti vaxtı Sirakuza özünün ən gözəl çağlarını yaşayırdı. O, Yunanıstanın digər şəhərlərindən daha böyük və daha varlı şəhərə çevrilmişdi. Hamı: dostları, yaxınları, qohumları Dionisə qibtə edirdi: "Sənə nə var? Hakimiyyət əlində. Nə istəsən, edərsən", – deyirdilər. Bir gün Dionis ona



LAYİHƏ

ən çox qibtə edən dostunu – Damoklu öz yerində əyləşdirdi. Gözəl bir süfrə açılmışdı. Damokl taxtda oturdu. Başını qaldıranda gördü ki, taxtın üstündən bir qılınc asılıb. Qılınc tavana nazik bir tüklə bərkidilib. İstənilən an qırılıb düşə bilər. Damokl o qədər narahat olur ki, boğazından bir tikə belə keçmir. Ona hər şey aydın olur.

Şagirdlər ifadənin etimologiyasını müəyyən etdikdən sonra onun mənası və işlənmə məqamı ilə bağlı fikir yürüdürlər.

**Müəllimin nəzərinə!**
Bu tapşırığı müzakirə şəklində aparmaq məqsədəuyğun hesab edilmir. Müəllimin seçimi ilə bir şagird öz fikirlərini nümunə şəklində ifadə edir. Bu, monoloji nitqin formalaşmasına xidmət edir.

**Dinləmə**
**(St. 1.1.2)** Aşağıdakı mətni səsləndirməzdən əvvəl müəllim şagirdlərə dinləyərkən qeydlər götürməyi tapşırır. Əvvəlcə şagirdlərin “Sem dayı” ifadəsi haqda məlumatlarının olub-olmadığı yoxlanılır. Əgər ifadəni eşidən varsa, onun mənası soruşulur. İstənilən halda bu haqda müəyyən məlumat verilir: – *Bu ifadə bir çox dillərdə “Amerika Birləşmiş Ştatları” mənasında işlədilir.*

Müəllim mətni səsləndirməzdən əvvəl lövhəyə suallar yazır. Şagirdlərə tapşırılır ki, mətni dinləyərkən bu suallara cavab verməyə kömək edəcək qeydlər götürsünlər.

*– Birinci abzasdan hansı tarixi və coğrafi məlumatlar əldə etdiniz?*
*– Sem dayı kim idi?*
*– Sizcə, nə üçün sonralar ABŞ-ı “Sem dayı” adlandırmağa başladılar?*

## SEM DAYI

*XIX əsrin əvvəllərində Amerikada “Birləşmiş Ştatlar” ifadəsi yenicə formalaşırdı. 1812-ci ildə o, Kanada ilə müharibə aparırdı. Bu zaman əsas döyüşlər Nyu-York ştatının şimalında gedirdi. ABŞ ordusunun təchizatçıları qoşunlar üçün nəzərdə tutulmuş ərzağı Troy şəhərindən keçirirdilər. O zamanlar şəhərin meri Semyuel Vilson idi. Camaat onun xətrini çox istəyirdi və hamı onu nəvazişlə “Sem dayı” deyə çağırırdı.*

*Sem dayı çox məsuliyyətli, işinə ciddi yanaşan adam idi. Onun icazəsi olmadan heç bir yük Troy şəhərindən keçə bilməzdi. O özü şəxsən bağlamaların hər birinin üstündə “US” (ingiliscə United States – Birləşmiş Ştatlar) möhürünü vururdu. Bu möhür yükün ABŞ dövlətinə məxsus olduğunu göstərən işarə idi. Lakin amerikalılar zarafatla bu abreviaturanı “Sem dayı” (ingiliscə Uncle Sem – US) kimi oxuyurdular.* **(“Abreviatura” sözünün mənası açıqlanır.)**

*İlk dəfə olaraq 1813-cü ildə “Nyu-York Post” qəzetində jurnalistlərdən biri ABŞ-ı Sem dayı adlandırdı və beləliklə, bu ad həmin anlamda əvvəlcə ingilis dilinə, sonra isə digər dillərə daxil oldu.*



LAYİHƏ

**Yazı**

**(St. 3.1.2)** Şagirdlərə araşdırma nəticəsində əldə etdikləri məlumatları ("Damokl qılıncı"), dərslikdəki mətndə və dinləmə mətnində əks olunmuş faktları ümumiləşdirərək "Tərkibində şəxs adları olan tarixi deyimlər" mövzusunda elmi-kütləvi mətn yazmaq tapşırılır. Mətndə hərəsi 3-4 cümlədən ibarət olmaqla 4-5 deyimin etimologiyası öz əksini tapmalıdır.

**Dil qaydaları**

**(St. 4.1.2)** 6-cı tapşırıq dil qaydaları üçün motivasiya rolunu oynayır. Mətndə göy rənglə verilmiş sözlərin hamısında *-sa*$^2$ morfemi var. Lakin onları fərqləndirən cəhətlər də var. Tapşırığın birinci tələbini yerinə yetirmək istəyən şagirdlər üçün açar rolunu oynaya biləcək bir məqam var: şərt şəklinin əlaməti olan *-sa*$^2$ feilin başlanğıc formasına artırılır. Bu məqamdan istifadə edərək həmin tapşırıq yerinə yetirilir. Ancaq *işlədirsə*, *bilirsə* sözlərində bu tələbə əməl olunmur, *zəngindirsə* sözü isə feil deyil.

Bu tapşırıq yerinə yetirildikdən sonra *isə* köməkçi sözü ilə bağlı nəzəri məlumat mənimsədilir.

7-ci tapşırığı icra edərkən şagirdlər *isə* köməkçi sözünün müxtəlif nitq hissələrinə qoşulduğu məqamları üzə çıxarmaqla yanaşı, onların mürəkkəb cümlələrin tərkibində işləndiyini də öyrənirlər. *İsə* köməkçi sözünün işləndiyi sözlərdən sonra durğu işarələri ilə bağlı qaydaları mənimsəyirlər.

***Qeyd.*** Şagirdlər mürəkkəb cümlə anlayışı ilə tanış deyillər. Ona görə də müəllim bağlayıcının iki müxtəlif cümləni bağladığını izah etməlidir.

8-ci tapşırıqda təqdim olunan nümunələr şeir parçalarıdır. Bu nümunələrdə *isə* köməkçi sözü ilə işlənmiş sözlərdən sonra vergül işarəsi qoyulmayıb. Tapşırığın şərtinə əməl edərək onları nəsrə çevirdikdə vəziyyət dəyişir. Hər iki nümunə müqayisə edildikdə müəyyən olur ki, *isə* köməkçi sözünün qoşulduğu söz cümlənin hansı yerində işlənməsindən asılı olmayaraq vergül onun iştirak etdiyi cümlədən sonra qoyulur.

9-cu tapşırığın icrası xəbər şəkli ilə bağlı keçilmiş bilikləri yada salır, eyni zamanda yeni biliyi bacarığa çevirməyə xidmət edir.

**Qiymətləndirmə**

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.

LAYİHƏ

## Dərs 10. BUNU KİM DEYİB (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Kontekstdən çıxış edərək ifadənin mənasını və işlənmə məqamını müəyyənləşdirir. |
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Əlavə mənbələrdən istifadə etməklə elmi mətndəki əsas fikri daha qabarıq nəzərə çatdırır. |
| 2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir. | Keçid cümlələr əlavə etməklə mətnin tərkib hissələrini əlaqələndirir. |
| 3.1.3. Qurduğu plan əsasında mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirir. | Mətnin məzmunundan çıxış edərək məntiqi sonluq yazır. |
| 1.1.1. Dinlədiyi məlumatda ton, əhvali-ruhiyyə və emosiyanı müəyyən edir. | Debat zamanı opponentinin çıxışındakı ton və əhvali-ruhiyyəni izləyir və buna reaksiya verir. |
| 1.2.3. Nitqində müxtəlif səs çalarlarından istifadə edir. | Danışarkən qarşı tərəfi inandırmaq üçün müxtəlif səs çalarlarından istifadə edir. |
| 4.1.4. Nitq hissələrinin yazılışı ilə bağlı qaydalara əməl edir. | *İdi, imiş* köməkçi sözlərinin yazılışı ilə bağlı qaydalara əməl edir. |

**Motivasiya**

Müəllim dərsə belə bir sualla başlaya bilər:

– *Atalar sözləri aforizmdən nə ilə fərqlənir?*

Şagirdlərin fikirləri dinlənildikdən sonra:

– *Sizcə, "El bir olsa, dağ oynadar yerindən" atalar sözüdür, yoxsa aforizm?*

Şagirdlər bu ifadənin tarixçəsi haqqında 5-ci sinifdə məlumat alıblar. Onlar bu sözlərin Aşıq Abbas Tufarqanlıya məxsus olduğunu xatırlaya bilərlər.

Müəllim bildirir ki, bir çox məşhur ifadələrin maraqlı tarixçəsi olur; bu tarixçəni araşdırmaq, ifadənin ilk dəfə kim tərəfindən hansı şəraitdə deyildiyini aşkar etmək vacibdir, çünki bu, dilin, mədəniyyətin, xalqın tarixinin bir parçasıdır. Növbəti mətn də məşhur aforizmlərin mənşəyi haqqındadır.

**Oxu**

**(St. 2.1.1)** **Fəndaxili şaquli inteqrasiya** (2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır). Mətnin oxunması **Ziqzaq** üsulu ilə aparılır. Mətn 4 hissəyə bölünür: I hissə – III abzasa kimi, II hissə – 1-ci mətndaxili tapşırığa kimi, III hissə – "Rəvayətə görə, 1773-cü ildə..." sözləri ilə başlayan abzasa kimi, IV hissə isə həmin abzasdan sona kimi. Hər bir hissə ilə bağlı aşağıdakı tapşırıqları vermək olar:



LAYİHƏ

• Hissədəki qanadlı ifadəni müəyyən edin.
• İfadənin mənasını və işlənmə məqamını müəyyənləşdirin.
• İfadə kimin adı ilə bağlıdır?
• Bəs ilk müəllif kimdir?
• Tanış olmayan söz və ifadələrin mənasını kontekstə uyğun izah edin **(st. 2.1.1)**.

Ziqzaq üsulunun tələblərinə uyğun şəkildə tapşırıqlar yerinə yetirilir və təqdimatlar edilir. Təqdimat zamanı müvafiq qrup mətndaxili tapşırıqları da yerinə yetirir.

**(St. 2.2.3)** Təqdimatı daha dolğun etmək üçün I qrupa M.Qorkinin "Şahin nəğməsi" əsərindən bir parçanı dinləmə materialı kimi təqdim etmək olar.

*Dərədə uzanmış ilan quşun ölümü, onun səmaya olan ehtirası barədə çox düşündü. Xoşbəxtlik axtaranların gözlərini daim özünə çəkən ənginliklərə baxdı.*

*– Axı bu ölən quş, bu şahin, ucu-bucağı bilinməyən səmada nə görmüşdü? Nəyə görə uçmağı bacaranlar öləndə də səmaya, pərvazlanmağa olan məhəbbət hissi ilə başqalarını narahat edirlər? Özüm göydə bir az uçsam, yəqin, bunu öyrənə bilərəm.*

*Dedi və elədi. Üzük kimi dolanıb havaya sıçradı və nazik lent parçasıtək günəşin altında parıldadı.*

*Sürünmək üçün doğulanlar uça bilməzlər! Bunu unutduğu üçün o, daşlara çırpıldı, amma ölmədi, güldü…*

*– Sən demə, göydə uçmağın ləzzəti bunda imiş: yerə dəyməkdə...*

Təqdimatlar başa çatdıqdan sonra lövhədə aşağıdakı cədvəli çəkib onu doldurmağı şagirdlərə təklif etmək olar:

| Qanadlı ifadə | İfadənin bağlı olduğu şəxs | İlk müəllifin adı |
|---|---|---|
| | | |

**(St. 2.2.2)** Təqdimatlar başa çatanda mətnlə kifayət qədər tanışlıq yaranmış olur. Bu zaman müəllim mətnin bəzi hissələri arasında keçid cümlələrinin olmadığını bildirir. İlk növbədə, hər bir ifadənin tarixçəsini əhatə edən bitkin hissələr müəyyən olunur:

I hissə – "Gəldim, gördüm, qələbə çaldım"
II hissə – "Sürünmək üçün doğulanlar uça bilməzlər"
III hissə – "General olmağı arzulamayan əsgər yaxşı əsgər deyil"
IV hissə – "Qalibləri mühakimə etmirlər"
V hissə – "Məqsədə çatmaq üçün istənilən üsul yaxşıdır"

Daha sonra 3-cü tapşırığa uyğun olaraq keçid cümlələr olmayan hissələr müəyyənləşdirilir və şagirdlərə mətnin müvafiq yerlərinə hissələr arasında əlaqə yaradan cümlələr əlavə etmək tapşırılır.

**Müəllimin nəzərinə!**

Müəllim mətnin tərkib hissələri arasında əlaqənin yaradılması yollarını şagirdlərin nəzərinə çatdırmalıdır:

Mətnin hissələri arasında keçid cümlələr yazmaq üçün, ilk növbədə, mətni diqqətlə oxumaq, onun bitkin hissələrini, hər bir hissənin məz-



LAYİHƏ

mununu müəyyən etmək lazımdır. Keçid cümlələr əvvəlki hissə üçün nəticə və ya sonrakı hissə üçün giriş xarakteri daşıyır. Məsələn, I və II hissələr arasındakı cümləni (II abzas) girişdən əsas hissəyə keçid kimi qəbul etmək olar. IV hissə ilə V arasında da keçid cümləsi var. Lakin mətndə II hissə ilə III arasında, eləcə də III hissə ilə IV arasında əlaqə yoxdur. Məhz bu hissələr arasında əlaqə yaratmaq – keçid cümlələri fikirləşib əlavə etmək şagirdlərə tapşırılır.
Şagirdlərin variantları dinlənildikdən və müzakirə olunduqdan sonra (yaxşı olar ki, onlar cütlər və ya qruplar şəklində işləsinlər) müəllim aşağıdakı keçid nümunələrini nəzərdən keçirə bilər.

II hissə ilə III hissə arasında keçid cümləsi:
*Bəzən hər hansı aforizmin izinə düşərək əsl mənşəyini müəyyən etmək, onun "müəlliflik hüququnu bərpa etmək" o qədər də asan olmur.*

III hissə ilə IV hissə arasında keçid cümləsi:
*Tədqiqatçıların A.Suvorovun adı ilə bağladığı başqa bir ifadənin – "Qalibləri mühakimə etmirlər" ifadəsinin də mənşəyi mübahisəlidir.*

**Yazı**

**(St. 3.1.3)** 5-ci tapşırıq mətndəki məlumatları ümumiləşdirib sonluq yazmağı nəzərdə tutur. Müəllim bu təlim nəticəsini əldə etmək üçün mətnin nəticə hissəsinin xarakterik xüsusiyyətlərini xatırlada, müəyyən istiqamət verə bilər.

**(St. 2.2.3)** Dərsin 1-ci saatından sonra müəllim evdə işləmək üçün layihə tapşırığı verə bilər: Cavanşir Quliyevin bəstələdiyi "Əsgər marşı" mahnısının sözlərinin kimə məxsus olduğunu araşdırın.

Araşdırma üçün təqribi mənbələr də göstərilə bilər: ədəbiyyat və Azərbaycan dili üzrə dərsliklər, internet materialları (açar sözlər: "Əsgər marşı", "Alay marşı", "Cavanşir Quliyev", "Əli Kami", "Əhliyyət Süleymanov").

**Müəllimin nəzərinə!**

4-cü sinif üçün mövcud "Azərbaycan dili" dərsliyində bu şeirin müəllifi kimi Əhliyyət Süleymanov göstərilmişdir.
Bəstəkar Cavanşir Quliyevin dediklərindən:
*"1990-cı ildə Qarabağda cəbhədə olarkən Əhliyyət Süleymanov adlı əsgər mənə yaxınlaşıb dedi: "Biz milli azadlıq mübarizəmizdə belə, rus hərbi marşlarını oxuyuruq. Xahiş edirəm, bizim üçün milli marşlar bəstələyin". Sonra mənə bu marşın ("Əsgər marşı") sözlərini təqdim etdi. Ondan bu mətni haradan əldə etdiyini soruşduqda dedi: "Uşaq vaxtı babam həmişə bizə bu şeiri deyərdi". Mən mətni çox bəyəndim və bu marşı bəstələdim".*

Müharibə mövzusunda çəkilmiş köhnə bir türk filmində əsgərlər bizim "Əsgər marşı"nın sözlərini türk dilində və başqa musiqi ilə oxuyurlar.



LAYİHƏ

Araşdırmalardan məlum oldu ki, həmin musiqi "Alay marşı" adlanır və Türkiyədə Rüfət bəy (1820-1888) tərəfindən Yəmən müharibəsi dövründə (1871-1872) bəstələnmişdir. Bu iki marşın mətni arasında, demək olar ki, fərq yoxdur:

**Alay marşı**
Annem beni yetiştirdi, bu ellere yolladı,
Al sancağı teslim etti, Allah'a ısmarladı.
Boş oturma, çalış dedi, hizmet eyle vatana,
Sütüm sana helal olmaz, saldırmazsan düşmana.
Marş ileri! Marş ileri! Türk askeri dönmez geri!

Yastığımız mezar taşı, yorğanımız kar olsun,
Biz bu yoldan döner isek, namus bize ar olsun!
Ne şereftir ölmek bize, bu güzel vatan için,
Yanar yürek yurt aşkıyla, daima için-için.
Marş ileri! Marş ileri! Türk askeri dönmez geri!

Bəzi mənbələrdə bu şeirin müəllifinin Əli Kami olduğu göstərilir. Lakin Əli Kaminin şeiri bir qədər fərqlidir. Oradakı bəzi misralar “Əsgər marşı”nda yoxdur.

İtaətdir ilk borcumuz bu torpaqda, bilərik,
Bu bayraqda birləşdik biz, Vətən üçün ölərik.

Bu diyarın bayrağını atamdan çox sevərəm,
Hər gördükcə salam verib, göz yaşları tökərəm.

Beləliklə, demək olar ki, “Əsgər marşı” Anadolu türklərinin “Alay marşı”nın azərbaycanlılaşdırılmış variantıdır.

Bu araşdırma nəticəsində şagirdlər belə bir qənaətə gələcəklər ki, bəzən hər hansı bir ifadənin, əsərin müəllifini müəyyənləşdirmək çox çətin olur.

***Qeyd.*** Bu tapşırığı yerinə yetirmək üçün sinfin səviyyəsini nəzərə almaq lazımdır.

**Dinləyib-anlama və Danışma**

**(St. 1.1.1; 1.2.3)** 6-cı tapşırıq. **Debat.** İrəli sürülmüş tezis və antitezislə debat yaradılır. İstənilən halda, “Məqsəd hər cür üsula haqq qazandırır” (yaxud “Məqsədə çatmaq üçün istənilən üsul yaxşıdır”) prinsipi həm əxlaqi dəyərlərə, həm də qanunlara zidd prinsip sayılır. Ona görə də hazırda bu aforizm özünü əxlaq normalarından üstün tutan insanlara istehza etmək məqsədi ilə dilə gətirilir. Lakin əks tərəfin də ciddi arqumentləri ola bilər; məsələn: *“Bəzən milyonların mənafeyinə xidmət edən ali məqsədə çatmaq üçün müəyyən əxlaqi normalara göz yummaq lazım gəlir, çünki əks halda heç cür həmin ali məqsədə nail olmaq mümkün olmur”.*



LAYİHƏ

Mümkündür ki, debat zamanı ümumi fikir yaranmasın. Məqsəd yalnız ortaq fikrin meydana gəlməsi deyil. Çalışmaq lazımdır ki, şagirdlərin debat mədəniyyəti inkişaf etsin. Opponentin fikrindəki ziddiyyətləri tutmaq dinləyib-anlamanı, arqument və əks-arqumentlər gətirmək şifahi nitq bacarıqlarını inkişaf etdirir.

Mövzu kifayət qədər həssas olduğundan tərəflər qızğın mübahisəyə qoşula bilərlər. Müəllim bu zaman spikerləri ehtiraslı çıxışlara səsləyə bilər. Eyni zamanda onlara bildirilməlidir ki, qarşı tərəfi inandırmaq üçün səs çalarlarından düzgün istifadə etsinlər. Dinləyən tərəf isə spikerin çıxışındakı ton, əhvali-ruhiyyə və emosiyanı izləməli, yeri gəldikcə buna reaksiya verməlidir (məsələn: *"Opponentimin çıxışı nə qədər emosional olsa da, bildirməliyəm ki, onun arqumentlərində məntiq görmədim"* və s.).

**Dil qaydaları**

**(St. 4.1.4)** 7-ci tapşırıq *idi, imiş* köməkçi sözləri üzrə keçilmişləri şagirdlərə xatırladır.

**Müəllimin nəzərinə!**

*İdi, imiş* köməkçi sözlərinin yazılışı ilə bağlı dərsliyin 44-cü səhifəsində verilmiş nəzəri material Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci ildə qəbul etdiyi "Azərbaycan dilinin orfoqrafiya qaydaları"na uyğun olsa da, etiraf etmək lazımdır ki, bədii, eləcə də publisistik ədəbiyyatda bu hissəciklərin yalnız feillərə deyil, başqa nitq hissələrinə artırıldıqda da bitişik yazıldığına rast gəlinir (*canavar imiş – canavarmış, sarı idi – sarıydı, belə imiş – beləymiş, var imiş – varmış, qabaqda idi – qabaqdaydı* və s.). Dərsliklərdə verilmiş bir çox mətnlərdə də bu hala rast gəlmək mümkündür. Şagirdlər bu cür hallarla qarşılaşsalar, müəllim bildirməlidir ki, bədii mətnin dili bir çox hallarda danışıq dilinə yaxın olduğundan bəzən sözlərin orfoepik normalara uyğun yazılışına yol verilir.

8-ci və 9-cu tapşırıqların hər ikisinin icrası redaktə xarakterli olsa da, bir-birindən fərqlənir. 8-ci tapşırıq adlarla işlənmiş *idi, imiş* köməkçi sözlərinin düzgün yazılış qaydalarını mənimsətməyə xidmət edir. 9-cu tapşırıq isə şagirdlərin orfoqrafik qaydaları necə mənimsədiyinin yoxlanılmasına xidmət edir.

**Qiymətləndirmə**

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.

LAYİHƏ

## Dərs 11. AY ADLARI VƏ ONLARIN MƏNŞƏYİ (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Əlavə mənbələrdən istifadə etməklə elmi mətndəki əsas fikri daha qabarıq nəzərə çatdırır. |
| 1.2.2. Fikrini məntiqi ardıcıllıqla ifadə edir. | Tərtib etdiyi qrafik informasiyanı məntiqi ardıcıllıqla şərh edir. |
| 3.1.2. Topladığı fakt və hadisələrə münasibət bildirməklə mətni zənginləşdirir. | Əldə etdiyi məlumatlardan istifadə etməklə mühakimə xarakterli mətn yazır. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Mətnin məzmunundan çıxış edərək alınma sözün mənasını və mənşəyini müəyyənləşdirir. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | *İdi, imiş* köməkçi sözlərinin ixtisar formasını keçmiş zaman şəkilçilərindən fərqləndirir. |

**Motivasiya**

BİBÖ cədvəli qurulur. Şagirdlərə belə bir sualla müraciət olunur:

– *Dilimizdə işlənən ay adlarının mənşəyi haqqında nə bilirsiniz?*

| AY ADLARININ ETİMOLOGİYASI HAQQINDA | | |
|---|---|---|
| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
| | | |

Cədvəlin iki sütunu doldurulur. Şagirdlər birinci sütunda heç nə qeyd edə bilməsələr, deməli, ikinci sütunda cavab tapmaq istədikləri suallar çox olacaqdır. Cədvəlin üçüncü sütunu dərsin sonunda məlumatlar əldə edildikdən sonra doldurulur.

**Oxu**

**(St. 2.2.3)** Bu mətn elmi-kütləvi mətndir. İnformasiya ilə zəngindir. Mətnin şagirdlər tərəfindən qavranılması asan olsun deyə mətn iki hissəyə bölünmüşdür. Birinci hissədə ilin ilk altı, ikinci hissədə növbəti altı ay adlarının etimologiyasından danışılır. Mətnin oxusuna 2 saat ayrılması məqsədəuyğundur.

Mətn səsli oxu ilə oxunur. 1 və 2-ci mətndaxili suallar cavablandırılır.

**Müəllimin nəzərinə!**

Yanus ilahının təsviri ilə bağlı şagirdlər müxtəlif fərziyyələr irəli sürə bilərlər. Təsvirin ikibaşlı olması yanvar ayının iki ilin qovşağında olması ilə əlaqələndirilə bilər (1-ci mətndaxili sual). 2-ci mətndaxili



LAYİHƏ

suala cavab verərkən şagirdlər belə bir fərziyyə irəli sürə bilərlər: – *Gələcəyə baxan baş gəncdir, ona görə ki gələcək gənclərindir. Sola – keçmişə baxan baş qoca təsvir edilmişdir, ona görə ki qoca artıq yaşamış, ömrünün sonuna gəlib çatmışdır. Ümumiyyətlə, qoca keçmişin, gənc isə gələcəyin rəmzi kimi qəbul edilə bilər.* Bu prosesdə şagirdlərin öz təxəyyülünə uyğun danışmasına imkan yaratmaq lazımdır.

3-cü mətndaxili tapşırıqda cədvəldəki informasiyanı şərh edərək oxumaq tapşırılmışdır. Cədvəldə fevral ayının qarşısında "Februus – yeraltı dünyanın ilahı" sözləri yazılmışdır. Şagird bu məlumatı belə oxuya bilər: "Fevral ayının adı yeraltı dünyanın ilahı Februusun adından götürülmüşdür".

Bu tapşırıq şagirddə qrafik informasiyanı şərh etmək və onu mətn şəklinə salmaq bacarığını formalaşdırır.

## Danışma

**(St. 1.2.2)** I hissə başa çatdıqdan sonra şagirdlərə əlavə tapşırıq verilə bilər. Onlar oxuduqları mətndəki məlumatlardan istifadə edərək ilin ilk altı ay adının etimologiyası haqqında fərziyyələr irəli sürməlidirlər. Aşağıdakı cədvəl şagirdlərə iş vərəqi kimi təqdim oluna bilər. (Təqdim edilən cədvəl nümunədir, dərs zamanı şagirdlər tərəfindən doldurulmalıdır.)

| Ayın adı | Fərziyyə | Fərziyyənin əsası |
|---|---|---|
| Yanvar | Yanus ilahının adından götürülmüşdür | Qapı, başlanğıc, zaman mənası verdiyi üçün ola bilər. |
| Fevral | Februus – yeraltı dünyanın ilahı | "Februus" sözünün mənası "təmizlənmə" deməkdir. Adətən, bu ay romalılarda təmizlənmə mərasimi keçirilirdi. |
| | | |

*Mart, aprel, may, iyun* adları ilə bağlı məlumatlarda fərziyyələr haçalanır və bəzi hallarda bir-biri ilə ziddiyyət təşkil edir. Ona görə də iş vərəqinə aşağıdakı maddələr də əlavə oluna bilər:

________________ ayının adı ilə bağlı aşağıdakı informasiyanı düzgün hesab edirəm:

____________________________________________________________

____________________________________________________________

çünki _______________________________________________________

____________________________________________________________

Daha sonra şagirdlər cədvəldə yerləşdirdikləri informasiyanı mətn şəklində ifadə edirlər.



LAYİHƏ

**Yazı**

**(St. 3.1.2)** Mətnin I hissəsi üzərində işin davamı olaraq şagirdlərə tapşırılır ki, iş vərəqində sistemləşdirdikləri məlumatlar əsasında "İlin ilk altı ayının etimologiyası" başlıqlı mətn yazsınlar. Müəllim bu zaman şagirdlərin məlumatlardan necə istifadə etdiklərinə diqqət yetirməli, onların mühakiməyürütmə bacarığını qiymətləndirməlidir.

**Oxu**

**(St. 2.2.3)** Mətnin I hissəsi üzərində iş bitəndən sonra BİBÖ cədvəlinin uyğun gələn sütunu doldurulur.

Mətnin II hissəsi **İstiqamətləndirilmiş oxu** üsulu ilə oxunur. İO üçün şagirdlərə aşağıdakı sualları təqdim etmək olar:

1. Nə üçün iyul ayı yeddinci olduğu halda, "kvintilis" (beşinci) adlandırılmışdı?
2. Nə üçün romalılar kvintilis ayının adını dəyişdilər?
3. Oktavian Avqust təqvimdə apardığı hansı islahatı ilə tarixə düşdü?
4. Nə üçün ayların adının mənası ilə sıra nömrələri arasında uyğunluq pozuldu? (7-ci tapşırıq)

Şagirdlər suallara cavab verirlər. Sonda yenə **BİBÖ** cədvəlinin uyğun gələn sütunu doldurulur.

**Müəllimin nəzərinə!**

7-ci tapşırığın məqsədi şagirdi diqqətli oxuya və nəticə çıxarmağa yönəltməkdir. Mətndə deyilir ki, qədimdə Romada il mart ayından başlayırdı; Sezarın qərarı ilə ilin başlanğıcı yanvar ayına keçirilsə də, rəqəmlə ifadə olunan ay adları olduğu kimi qaldı. Ona görə də "septem" yeddinci mənasını versə də, doqquzuncu, "okto" səkkizinci mənasını versə də, onuncu aydır.

8-ci sualın çətinlik dərəcəsi yüksəkdir, çünki buradakı cümlələrdən hər biri mətndəki bir sıra incə məqamların dərindən qavranılmasını və düzgün nəticə çıxarılmasını tələb edir.

Tapşırıqdakı 1-ci cümlə mübahisə doğurur, çünki məlum oldu ki, bu adlar içərisində yanvar, fevral, mart aylarının ilah adlarından götürüldüyü birmənalı şəkildə deyilsə də, aprel, may və iyun adlarının mənşəyi haqqında bir neçə fərziyyə vardır.

2-ci cümlədə ifadə olunan fikir yanlışdır. Belə ki, mətndən məlum olur ki, müasir ay adlarının tam şəkildə formalaşması M.ə. 31-ci ilə, yəni I əsrə təsadüf edir.

3-cü cümlədə əks olunan fikir isə doğrudur. Bunu sillogizm qurmaqla da müəyyənləşdirmək mümkündür.

**I mühakimə:** M.ə. 46-cı il mart ayından başlayırdı.

**II mühakimə:** Yuli Sezarın qərarı ilə M.ə. 45-ci ildən etibarən sonrakı illər yanvarın 1-dən başlandı.

**Nəticə:** M.ə. 46-cı il 10 ay davam etmişdir.



LAYİHƏ

### Söz ehtiyatı

**(St. 2.1.1)** 4-cü tapşırıq mətnin oxusu ilə paralel şəkildə aparılır. Bu tapşırıq elmi-kütləvi mətndə tez-tez rast gəlinən ara sözlərdən yerli-yerində istifadə etmək bacarığını formalaşdırır. Şagirdlər həmin ifadələrin mətndə yerini müəyyənləşdirməklə eyni zamanda mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər. Məsələn, "... Roma təqvimində il mart ayından başlayırdı" cümləsinin əvvəlinə "Qeyd edildiyi kimi" ifadəsi uyğun gəlir, çünki iki abzas əvvəl bu haqda məlumat verilir.

5-ci tapşırıqda verilmiş "status" sözünün mənasını kontekstdən çıxarmaq mümkündür. Bundan başqa, müasir dövrdə sosial şəbəkələrdə hər hansı bir şəxsin öz səhifəsində paylaşdığı məlumatlar "status" adlanır.

6-cı tapşırığı yerinə yetirərkən şagirdlər lüğətdən istifadə edərək "oktava" və "dekada" sözlərinin mənasını tapırlar. Mətndə göstərilmişdir ki, "okto" səkkizinci, "dekem" onuncu deməkdir. "Oktava" sözü musiqidə "səkkiz səsdən ibarət interval" mənasını verən termindir. "Dekada" on gün mənasını verir ki, bu da "dekem" sözü ilə birbaşa bağlıdır.

### Dil qaydaları

**(St. 4.1.2)** 9-cu tapşırıq dil qaydalarına keçid xarakteri daşıyır. Şagirdlər göy hərflərlə verilmiş sözlərdə *-dı*[4] şəkilçisinin feilin başlanğıc formasına deyil, feil şəkillərinin morfoloji əlamətindən sonra əlavə edildiyini müəyyənləşdirirlər. Bununla da, əslində, keçmiş zaman mənası verən sözün qrammatik cəhətdən indiki zamanda olduğu bilinir.

10-cu tapşırıq yeni biliklərin möhkəmləndirilməsinə xidmət edir.

11-ci tapşırığı yerinə yetirmək üçün müəllim əvvəlcədən bəzi qrammatik məlumatlarla şagirdləri tanış etməlidir.

Məlumdur ki, *-ır*[4] şəkilçisi omonim şəkilçidir: həm leksik şəkilçi kimi feildən feil düzəldir (qaçmaq – qaçırmaq), həm də qrammatik şəkilçi kimi feilin indiki zaman şəkilçisidir.

*İdi* köməkçi sözünün ixtisar formasının (*-dı*[4]) vurğu qəbul etmədiyi də şagirdlərə nümunələrlə izah edilməlidir. Məsələn: *gəldi – gəlmişdi* sözlərində birinci halda *-dı*[4] şühudi keçmiş zamanın şəkilçisi olduğundan vurğu qəbul edir, ikinci halda isə *idi* köməkçi sözünün ixtisar forması olduğundan vurğu altına düşmür. Bu məlumatdan sonra 11-ci tapşırıq yerinə yetirilməlidir. Şagirdlər sözləri tələffüz etməklə, eyni zamanda sözlərin leksik mənasını tapmaqla sözün tərkibini də müəyyənləşdirə bilərlər.

### Qiymətləndirmə

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.



LAYİHƏ

## Dərs 12. BARBARLAR VƏ VANDALLAR (3 saat)

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Başqa fənlərdən əldə etdiyi biliklər əsasında verilmiş məlumatı əsaslandırır və dərinləşdirir. |
| 1.2.2. Fikrini məntiqi ardıcıllıqla ifadə edir. | Gəldiyi nəticələri əsaslandırmaq məqsədi ilə arqumentlərini məntiqi ardıcıllıqla ifadə edir. |
| 1.1.2. Dinlədiyi fikrin inandırıcı və əsaslandırılmış olub-olmamasını müəyyənləşdirir. | Dinlədiyi mətndəki məlumatların əvvəl əldə etdiyi biliklərə nə dərəcədə uyğun gəldiyini müəyyənləşdirir. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Kontekstdən çıxış edərək söz və ifadənin mənasını və işlənmə məqamını müəyyənləşdirir. |
| 3.1.1. Verilmiş mövzunu müxtəlif yazı formalarında (ifadə, inşa, esse, hekayə) ifadə edir. | Müxtəlif mənbələrdən fakt və məlumatlar toplayaraq verilmiş mövzunu inşa, esse, hekayə formasında ifadə edir. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | *İsə* köməkçi sözünün feillərlə işlənmə xüsusiyyətlərini müəyyənləşdirir. |

**Motivasiya**

Bəzən kiminsə işlədiyi idarəyə, müəssisəyə və s. müraciət edib həmin insanla əlaqə saxlamaq istədikdə onun ezamiyyətdə və ya məzuniyyətdə olduğunu eşidirik. Hər iki halda həmin şəxsin müəyyən müddət iş yerində olmayacağı nəzərdə tutulur. Bəs nə üçün bu hal iki sözlə ifadə olunur? “Filankəs məzuniyyətdədir”, və ya “filankəs ezamiyyətdədir” dedikdə nə başa düşülür? Bu sözlər bir-birini əvəz edə bilərmi?

Müxtəlif fikirlər səslənə bilər. Şagirdlər bu sözlər arasındakı fərqi izah edə bilməsələr (çox güman ki, bu belə də olacaq), müəllim həmin sözlərin leksik mənasını öyrənmək üçün lüğətə baxmağı tapşıra bilər.

*məzuniyyət* – işləyən adama istirahət, müalicə və s. üçün verilən müəyyən vaxt.

*ezamiyyət* – xidməti tapşırığı yerinə yetirmək üçün başqa şəhərə və ya ölkəyə edilən səfər.

**Müəllimin nəzərinə!**

Bu sözləri müəllim özü də izah edə bilər. Lakin şagirdlərin lüğətlərdən istifadə etmək bacarığını inkişaf etdirmək məqsədi ilə bu işi onların öhdəsinə buraxmaq daha məqsədəuyğundur. Bunun üçün sinif otağında izahlı lüğətlərin olması vacibdir.



LAYİHƏ

**Oxu**

**(St. 2.2.3)** Əvvəlcə mətnin giriş hissəsi oxunur, burada verilən *dorağacı, darağacı, kompaniya, kampaniya* sözlərinin mənaları araşdırılır. Daha sonra mətnin oxusu başlanır. Mətn Qədim Yunanıstan və Roma tarixi ilə əlaqədar olduğundan mətnlə iş tarix fənni ilə inteqrasiya üzərində qurulur.

Bu mətnin oxunub qavranılması ilə bağlı işi qurarkən **Öyrənirəm – öyrədirəm** və **İstiqamətləndirilmiş oxu** üsullarının sintezindən istifadə etmək tövsiyə olunur. Mətn iki hissəyə bölünür:

I hissə – Barbarlar (I–V abzaslar);

II hissə – Vandallar (VI–XII abzaslar).

Sinif dörd qrupa bölünür. Mətnin hissələri qruplar arasında bölüşdürülür. Hər hissəni iki müxtəlif qrup oxuyur. Şagirdlər əvvəlcə mətni səssiz oxu ilə oxuyurlar. Müəllim bunun üçün müəyyən vaxt ayırmalıdır. Vaxt müəyyən edilərkən şagirdlərin yaş və sinif səviyyəsi nəzərə alınmalıdır. İstiqamətləndirilmiş oxunu təşkil etmək məqsədi ilə müəllim əvvəlcədən hazırlanmış sualları qruplara təqdim edir.

**Müəllimin nəzərinə!**

Şagirdlər VI sinifdə tarix fənnində qədim Ynanıstan və Roma dövlətləri haqqında məlumat alıblar. Buna görə də suallar arasında mətndə öz əksini tapmayan, lakin şagirdlərə tarix fənnindən tanış olan faktlar da yer almışdır. Qırmızı rənglə işarə edilmiş suallar bu qəbildəndir. Təqdim edilən bəzi suallara cavab vermək üçün şagirdlər ümumi tarix üzrə biliklərindən də istifadə etməlidirlər. Mətndə rast gəlinən bir sıra sözlərin (*zəbt etmək, latın dili, imperiya, donanma, Roma papası* və s.) izahında da tarix fənnindən öyrəndikləri onlara kömək edə bilər.

I hissə üçün suallar, təxminən, belə ola bilər:

1. Yunanlar kimlərə barbar deyirdilər?
2. Qədim dövrdə yunanlar daha çox hansı xalqların nümayəndələri ilə ünsiyyətdə olurdular?
3*. Həmin xalqların mədəniyyəti ilə bağlı nə deyə bilərsiniz?
4. Yunanlar nə üçün özlərini əsarət altına saldıqları xalqlardan üstün sayırdılar?
5*. Hun tayfaları Avropaya haradan köç etmişdi?
6. "Barbar" sözünün mənfi məna kəsb etməsi nə vaxt baş verdi və nə ilə əlaqədar idi?
7. "Barbar" sözünün kəsb etdiyi mənaların xranoloji ardıcıllığı hansı variantda düzgün verilmişdir?

a) mədəniyyətsiz, kobud, nadan
b) əcnəbi, yadelli
c) ikincidərəcəli adamlar, aşağı irqin nümayəndələri

A) a, b, c  B) a, c, b  C) b, a, c  D) b, c, a  E) c, a, b



LAYİHƏ

II hissə üçün suallar, təxminən, belə ola bilər:

1. Vandallar kim idi?
2*. Karfagen haqqında nə bilirsiniz?
3*. Qədim Romada senator kim idi və onların vəzifəsi nə idi?
4. 455-ci ilin yazında Romada nə üçün hərc-mərclik hökm sürürdü?
5. Nə üçün vandalların qarşısına dövlət başçısı deyil, Roma papası çıxdı?
6. Roma papası nə üçün şəhəri vandallara döyüşsüz təslim etmək qərarına gəldi?
7. Vandallar Roma papasına verdikləri sözə necə əməl etdilər?
8. "Vandal" sözünün mənfi çaları nə vaxt və hansı səbəbdən yarandı?
9. "Romanı ələ keçirən vandalları vandalizmdə ittiham etmək olmaz" fikrini necə sübut edə bilərsiniz?

İş bitəndən sonra eyni hissələr üzərində çalışan qruplar qoyulan sualları cavablandırmaqla mətnin məzmununu tam qavradıqlarını nümayiş etdirməlidirlər. Göründüyü kimi, təqdim edilmiş suallar yalnız faktoloji xarakter daşımır, onların arasında nəticə çıxarmağa yönəlmiş suallar da vardır. Bu, mətnin məzmununu qavramaqla yanaşı, şagirdlərdə mühakimə yürütmək bacarığını formalaşdırmağa kömək edir. Bir qrupun verdiyi cavablar yanlış və ya natamam olduqda digər qrupun nümayəndəsi şərh və düzəliş edə bilər.

Qrupların birgə təqdimatları dinlənildikdən sonra müəllim sinfə ümumiləşdirici suallarla müraciət edə bilər: *"Bu mətndə dilimizdə geniş işlənən iki sözün yaranma tarixini və mənasını öyrəndiniz. Onların arasında hansı fərqli və oxşar cəhətlər var? Bu sözlər hansı məqamlarda işlənilir?"*

### Söz ehtiyatı

**(St.2.1.1.)** Qədim Yunanıstan və Roma dövlətlərinin tarixi ilə bağlı olduğundan bu mətndə kifayət qədər tarixi söz və terminlərə rast gəlinir. Lakin şagirdlər tarix fənnindən keçdiklərini xatırlayaraq onları asanlıqla izah edə bilərlər. Söz ehtiyatı ilə bağlı mətnə qoyulan tapşırıqları isə şagirdlər kontekstdən çıxış edərək və ya lüğət vasitəsilə araşdıraraq yerinə yetirə bilərlər:

1-ci tapşırıq. Mətndən aydın olur ki, senator Maksim hakimiyyətə siyasi hərc-mərclikdən istifadə etməklə gəlmişdi. Şagirdlər buna əsaslanaraq "*uzurpasiya*" sözünün mənasını izah edə bilərlər: Qanunsuz şəkildə (hiylə və ya zorla) hakimiyyəti ələ alma və ya başqasının hüququnu mənimsəmə.

2-ci tapşırıq. Variant B. (hərəkata başlamaq, üsyan etmək)

3-cü tapşırıq: Variant C. (mədəni abidələri dağıdan)

4-cü tapşırıq. Nöqtələrin yerinə "vandalları" sözü yazılmalıdır. Çünki məscidlərin və tarixi abidələrin məhv edilməsi vandalizm aktıdır.

### Danışma

**(St. 1.2.2)** "Düşün və cavab ver" rubrikasına aid olan taşırıqların yerinə yetirilməsi şagirdlərdən mətndəki bütün məlumatların diqqətlə araşdırılmasını,



LAYİHƏ

əsas məqamların üzə çıxarılmasını tələb edir.

5-ci tapşırıq. Mətndə əksini tapan tarixi hadisələrin xronoloji ardıcıllığı “barbar” sözünün daha əvvəl yarandığı nəticəsinə gəlməyə imkan verir.

6-cı tapşırıq. Mətndə 455-ci ildə Romanı ələ keçirən vandalların Roma papasına verdikləri sözə əməl etdikləri, binaları və abidələri dağıtmadıqları qeyd olunur. Buna görə də “vandalizm” sözünün onların adı ilə bağlanması tarixi həqiqəti əks etdirmir.

## Dinləmə

**(St. 1.1.2)** Şagirdlər “polis” sözünün etimologiyası, tarixi və müasir mənası ilə tanış olurlar, dərslikdəki mətnlə əlaqəsini müəyyənləşdirirlər.

Polis

Miladdan öncə təxminən 450-ci ildə Yunanıstan çoxsaylı şəhər-dövlətlərə parçalanmışdı. Həmin şəhərlərdə əhalinin dolanışığı üçün əkib becərməyə yararlı kifayət qədər torpaq var idi. İnsanın həyatda fəaliyyət göstərdiyi, demək olar, bütün sahələr şəhərdə cəmləşmişdi. Belə bir vəziyyət şəhər-dövlətlərin çox yüksək səviyyədə inkişaf etməsinə gətirib çıxartmışdı. Lakin bu şəhər-dövlətlərin bir-biri ilə əlaqəsinin zəif olması, hətta ümumi məqsədlər uğrunda birləşə bilməməsi yunanlara baha başa gəldi. Onlar güclü mərkəzləşmiş dövlətə malik olan Roma qarşısında diz çökməli oldular.

Şəhər-dövlət yunan dilində polis adlanırdı. Burada yaşayan vətəndaşların müəyyən olunmuş qanun və əxlaq qaydaları çərçivəsində yaşamasına nəzarət hüququ isə polis hakimiyyətinə aid idi. Müasir dövrdə bu nəzarəti həyata keçirən qrup polis, bu qrupun üzvü olan insan isə polis işçisi adlanır.

Mətn dinlənildikdən sonra müəllim onun dərslikdəki mətndə hansı hadisənin səbəbini aydınlaşdırdığını soruşa bilər. (Yunanıstanın Romadan asılı vəziyyətə düşməsi)

## Yazı

**(St. 3.1.2)** 7-ci tapşırıq Şagirdlərə tapşırılır ki, müxtəlif mənbələrdən (əsasən internet) ) əldə etdikləri materiallar əsasında erməni işğalçılarının Qarabağda törətdiyi vəhşilikləri ifşa edən təqdimat hazırlasınlar.

## Dil qaydaları

**(St. 4.1.2)** 8-ci tapşırıq dil qaydaları üçün motivasiya xarakteri daşıyır. Mətndə iki söz – “fərqlənsə” və “rast gələrsə” sözləri göy rənglə verilmişdir. Verilən tələblərdən “fərqlənsə” sözünə A, C, D bəndləri, “rast gələrsə” sözünə B, Ç, E bəndləri uyğun gəlir. Feil şəklinin morfoloji əlamətindən sonra əlavə edilən *-sa²* morfemini qrammatik xüsusiyyətlərinə görə *idi, imiş* köməkçi sözləri ilə müqayisə etmək tapşırıla bilər.

9-cu tapşırıq şagirdlərin yeni tanış olduqları qrammatik qaydanın möhkəm-



LAYİHƏ

ləndirilməsinə xidmət edir. 1-ci və 4-cü cümlələrdə feillərə feilin şərt şəklinin morfoloji əlaməti, 2-ci və 3-cü cümlələrdə *isə* köməkçi sözü əlavə edilmişdir.

10-cu tapşırıq şagirdlərdən daha diqqətli olmağı tələb edir. Birinci cümlədə -*sa* şəkilçisi yoxdur, feil xəbər şəklindədir (qeyri-qəti gələcək zamandadır), *san* şəxs şəkilçisidir. İkinci cümlədə feil şərt şəklindədir, -*sa* feilin şərt şəklinin morfoloji əlaməti, -*n* isə şəxs şəkilçisidir. Yoxlamaq üçün cümlənin əvvəlinə "əgər" bağlayıcısını əlavə etmək olar. Doğrudur, şagirdlər hələ köməkçi nitq hissəsi olan bağlayıcı ilə tam tanış deyillər, amma feilin şərt şəklini keçərkən bu üsuldan istifadə etmişlər.

Müəllim bu tapşırığı genişləndirib şərtini bir qədər dəyişə bilər:

– *"Bağa baxarsa, bağ olar, baxmazsa, dağ olar" cümləsində "sa" nə bildirir?*

11-ci tapşırıq *isə* köməkçi sözünün feilin hansı şəkillərinə əlavə edilib-edilmədiyini müəyyənləşdirməyə xidmət edir. Tapşırığı yerinə yetirərkən müəyyən olunacaq ki, *isə* köməkçi sözü feilin əmr, arzu və şərt şəkillərinə artırıla bilmir.

12-ci tapşırıq keçilmiş materialın möhkəmlənməsinə xidmət edir. Şagirdlər sözün tərkibini müəyyənləşdirərək hər şəkilçini müvafiq xanaya yazmalıdırlar. Bu zaman köməkçi sözlərin sözdəki yeri də müəyyən edilir.

**Qiymətləndirmə**

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh.18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.

**Dərs 13. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)**

Bu dərs müvafiq bölmədə reallaşdırılmış məzmun standartları üzrə bacarıqların möhkəmləndirilməsi üçün nəzərdə tutulmuşdur. Şagirdlərə aşağıdakı mövzu üzrə nəqli xarakterli mətn (hekayə) yazdırmaq tövsiyə olunur: ***"Vay o gündən ki çörəkçi çəkmə tikə, çəkməçi çörək yapa"***.



LAYİHƏ

## II BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

1-4-cü tapşırıqlar mətnlə bağlıdır.

### SİLUET

XVIII əsrdə Fransada yürüdülən maliyyə siyasəti nəticəsində dövlət xəzinəsi tamamilə boşalmışdı. Bunun əsas səbəbi orduya və zadəganlara böyük pullar ayrılması idi. Dövlət kəndlilərdən verginin yığılmasını özəl bir şirkətə tapşırmışdı və ona müəyyən bir vergi planı qoymuşdu. Bu plandan artıq yığılan məbləğ şirkətə qalırdı. Təbii ki, şirkət özünə daha çox pul əldə etməyə çalışırdı, nəticədə isə ____

XVIII əsrin sonuna yaxın Fransa kralı XV Lüdovik yeni maliyyə naziri təyin etdi. Bu şəxs saray əyanlarına və zadəganlara ayrılan vəsaitləri xeyli azaltdı. Onun göstərişi ilə ____

Əlbəttə, onun islahatları zadəganlar tərəfindən etirazla qarşılandı. Saray əyanları maliyyə nazirini xəsis adlandırır, ona kinayə edirdilər. Bununla belə, onun apardığı siyasət nəticəsində ____

Maliyyə naziri onu xəsis adlandıranlara çox maraqlı tərzdə cavab verirdi. O, kağız üzərində harınlaşmış, yekəqarın əyanların karikaturasını konturlarla çəkirdi. Bu şəkillərdə heç bir sifət cizgisi olmasa da, hər kəs özünü tanıyırdı. Həmin nazirin adı Etyen de Siluet idi. O vaxtdan heç bir əlavə detal olmadan yalnız ətraf konturları görünən istənilən predmet onun adı ilə siluet adlanır.

**1.** Mətnin məzmunundan çıxış edərək cümlələri davam etdirin:

A) ölkədə iqtisadi vəziyyət sabitləşdi.
B) xalq çapıb-talanırdı.
C) kəndlilərdən yığılan verginin miqdarı dəqiq müəyyənləşdirildi.

**2.** Hansı şəkillərdə siluet təsviri verilib?

 ☐
 ☐
 ☐
 ☐

**3.** Birinci abzasda altından xətt çəkilmiş sözlərin hamısı üçün ortaq cəhəti göstərin.

______________________________________________

**4.** "Ayrılması idi" sözündə *idi* hissəciyinin ayrı yazılışının səbəbini izah edin.

______________________________________________



LAYİHƏ

**5.** Tələffüz formasında verilmiş sözləri orfoqrafik normalara uyğun yazın.

Biri vardı, biri yoxdu, bir kəndli vardı. Bu kəndlinin bir parça bostan yeri vardı. Kəndli burada qovun əkmişdi. Bostan çox yaxşı məhsul gətirmişdi. Qovunlar şəkər kimi şiriniydi. İndi kəndli qovunlara daha yaxşı qulluq etməliydi. Yoxsa məhsul bata bilərdi.

**6.** Feilləri tapın, şühudi keçmiş zaman şəkilçisi qəbul etmiş feillərin altından bir xətt, *idi* köməkçi sözünü qəbul etmiş feillərin altından iki xətt çəkin. Orfoqrafik normanın pozulduğu sözü göstərin.

1. Dəvə palçığa batdı, milçək onu çıxartdı.
2. Tez-tez laləli dağları, buz bulaqları xatırlayırdı.
3. Bağrı çatlayardı, daşardı Araz,
   Ürəyi dənizə boşalmasaydı. (B.Vahabzadə)
4. Dəvə durdu, dam uçurdu.

**7.** Feilləri cədvəl üzrə qruplaşdırın.

*1) işlənərdi, 2) deyirmiş, 3) çağırdı, 4) soruşacaqmış, 5) yandırdı, 6) danışırsa, 7) gətirsə, 8) yığmadı, 9) boyanmışdır, 10) qoparırsa, 11) keçirirdi, 12) gəlirsə, 13) fikirləşməzdi*

| Keçmiş zaman şəkilçisi qəbul edib | Şərt şəklindədir | *imiş* köməkçi sözü ilə işlənib | *idi* köməkçi sözü ilə işlənib | *isə* köməkçi sözü ilə işlənib |
|---|---|---|---|---|
| | | | | |

**8.** Cümlələrdə müvafiq sözlərdən sonra durğu işarələri yazın. Şərt məzmunu ifadə edən feillərin şərt şəklində olduğunu, yoxsa *isə* köməkçi sözü ilə işləndiyini əsaslandırın.

1. Əgər sən məni bir dəfə aldadırsansa deməli, axmaqlıq edirsən, yox, əgər bacarıb bir də aldadırsansa deməli, mən axmaqlıq edirəm. (A. Məmmədov)

___

2. Sənin haqqında nə fikirləşsələr də sən ədalətli saydığını elə. (Pifaqor)

___

3. Əgər biz öz zəif cəhətlərimizi biliriksə bunların bizə ziyanı dəyməz. (K.Lixtenberq)

___

4. Rəqibinə qalib gələ bilmirsənsə onunla birləş.

___

5. Əgər iş varsa icraçısı tapılacaq.

___



LAYİHƏ

# III BÖLMƏ

## ANA TƏBİƏT

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | MMV səh. |
|---|---|---|---|---|---|
| 14. | **Gürzə**<br>*Feilin təsriflənməyən formaları* | 2.1.1, 2.1.2, 1.2.4, 2.2.1, 3.1.4, 4.1.2 | 3 | 56-60 | 71-74 |
| 15. | **İşgüzar təklif**<br>*Məsdər* | 2.2.3, 1.2.4, 3.1.1, 4.1.2 | 3 | 61-64 | 75-77 |
| 16. | **Təbiət "mühəndis"ləri**<br>*Feili sifət*<br>*Feili sifət və feildən düzələn sifət* | 2.2.3, 2.1.1, 3.1.1, 1.1.2, 4.1.2 | 3 | 65-68 | 78-82 |
| 17. | **Fəryad. Maşuk meşəsi**<br>*Feili bağlama* | 2.1.2, 2.2.1, 1.1.1, 3.1.3, 4.1.2 | 3 | 69-71 | 83-86 |
| 18. | **Alternativ enerji** | 2.2.3, 2.1.1, 1.2.1, 3.1.2, 4.1.2 | 2 | 72-74 | 87-89 |
| 19. | **Ümumiləşdirici təkrar** | | 2 | 75-76 | 89 |
| | **Kiçik summativ qiymətləndirmə** | | 1 | | 90-91 |
| | **Böyük summativ qiymətləndirmə** | | 1 | | |
| **Yekun** | | | **18 saat** | | |



LAYİHƏ

## Dərs 14. GÜRZƏ (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Mətnin məzmunundan çıxış edərək alınma sözün mənasını və mənşəyini müəyyənləşdirir. |
| 2.1.2. Mətndəki sözlərin həqiqi və ya məcazi mənada işləndiyini izah edir. | Mətndəki sözlərin məcazi mənada işləndiyini əsaslandırır. |
| 1.2.4. Müzakirələrdə deyilmiş müxtəlif fikirlərə münasibət bildirir. | Başqa fənlər üzrə biliklərindən istifadə etməklə müzakirə zamanı deyilən fikirlərə münasibət bildirir. |
| 2.2.1. Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur. | Obrazın hiss-həyəcanını ifadə etmək üçün düzgün səs tonu seçir. |
| 3.1.4. Müxtəlif əməli yazılar (teleqram, izahat) yazır. | Situasiyaya uyğun izahat yazır. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Feilin təsriflənməyən formalarını fərqləndirir. |

**Motivasiya**

Müəllim belə bir əhvalat danışır:

"12-13 yaşım olardı. Babam həyətdə ağacın altında oturmuşdu. Mən də bir qədər aralıda oynayırdım. Birdən gözüm daşın dibində qıvrılıb yatmış ilana sataşdı. İlan günəşin şüaları altında qızınırdı. Əlimə bir yekə daş götürdüm".

**Sual:** *Sizcə, oğlan nə edəcək?*

"Babam bunu görüb dedi:

– Dayan, nə edirsən?

– Baba, ilandır e, bizi sancar. Onu tez öldürmək lazımdır.

Babam sakit səslə:

– Tərpənmə, – dedi və ehtiyatla mənə yaxınlaşdı. O, ilanı narahat etməmək üçün yavaş hərəkət edirdi.

İlan səs eşidib tez başını dikəltdi.

Babam məni ordan uzaqlaşdırdı. İlan təhlükənin sovuşduğunu görüb daşın altına süründü.

Mən onun üzünə təəccüblə baxırdım. Babamın hərəkətindən heç nə başa düşmürdüm".

**Sual:** *Sizcə, nə üçün baba bu cür hərəkət etdi?*

"Babam üzümdəki sualı görüb dedi:



LAYİHƏ

– Bala, ilanın zəhəri özünü müdafiə etmək üçündür. İlana toxunmasan, sənə heç nə eləməz. Əgər bütün ilanları öldürsək, təbiətə və insanlara ziyan vurmuş olarıq”.

**Sual:** *Baba haqlı idi? Nə üçün?*

**Oxu**

**Fəndaxili şaquli inteqrasiya** (6-cı sinif. 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır). Mətn səsli oxu ilə oxunur. Oxu zamanı **Proqnozlaşdırma** üsulunun elementlərindən istifadə olunur. İlk üç abzasdan sonra sual:

– *Sizcə, xışıldayan nədir?*

– *Nəyə əsasən bu qərara gəldiniz?*

**(St. 2.1.1)** Oxu davam etdirilir. 1-ci mətndaxili suala cavab verilir.

**Müəllimin nəzərinə!**

*Terrarium* (latınca *terra* – yer, torpaq) suda-quruda yaşayan, sürünənləri saxlamaq üçün düzəldilən şüşə və ya plastik qabdır. Belə qabların dibinə təbii şəraitə yaxın olsun deyə qum, torpaq tökülür, daş parçaları qoyulur və s. Akvarium (latınca *aqua* – su) və terrarium heyvan saxlamaq üçün qablardır. Sadəcə olaraq birində suda yaşayanlar (balıq, xərçəng və s.), digərində isə quruda, suda-quruda yaşayanlar və sürünənlər saxlanılır.

2-ci mətndaxili suala qədər mətn oxunur. Mətnin bu hissəsindən aydın olur ki, kupedə Boryadan başqa, panamalı qoca, eynəkli bir sərnişin və leytenant əyləşmişlər. Rəssamın illüstrasiyada yol verdiyi səhvləri müəyyənləşdirmək üçün şagirdlər mətndəki bəzi cümlələrə diqqət yetirməlidirlər:

*“...pəncərənin yanında oturmuş panamalı bir qoca Boryaya öz yanında yer verdi”;*

*“...Borya ilə üzbəüz oturan eynəkli sərnişin söhbətə qoşuldu”;*

*“Eynəkli sərnişinin yanında oturan cavan leytenant...”.*

Bu cümlələrdən belə nəticə çıxarmaq olar ki, Borya panamalı qocanın yanında, eynəkli sərnişinlə üzbəüz, leytenant isə eynəkli sərnişinin yanında oturub. İllüstrasiyada isə Borya ilə eynəkli sərnişinin yeri səhv düşüb.

Şagirdlər bu cür mətnləri oxuyarkən hadisələrin baş verdiyi məkanı təsəvvürlərində canlandırmalıdırlar. Bu, mətnin daha dərindən qavranılmasına kömək edir. 2-ci mətndaxili sual da şagirdlərdə həmin vərdişin yaranmasına xidmət edir.

3-cü mətndaxili tapşırıq yerinə yetirilir. Situasiyaya uyğun olaraq dialoq davam etdirilməlidir. Təqribən belə bir dialoq qurula bilər:

– *Vay! Biz nə edəcəyik?*

– *Bir bu çatışmırdı.*

– *İndi kimisə çalacaq!*

– *Ehtiyatlı olun! Bu nə iş idi, biz düşdük?*

– *Heç belə də iş olar? Niyə axı gürzəni vaqona keçirməyə icazə veriblər?..*



LAYİHƏ

Şagirdlər buna bənzər dialoqlar səsləndirdikdən sonra müəllim mətndən ixtisar olunmuş hissəni oxuya bilər:

– *Mişa! Mişa, oyan, vaqonda gürzə var!*

– *Nə? Hansı stansiyadır?*

– *Vay! İlan!*

– *Qorxmayın, canım. Sizin üstünüzə düşən mənim qayışım idi.*

Mətnin oxusu I hissənin sonuna qədər davam etdirilir. Sual:

– *Boryanın xarakteri haqqında nə deyə bilərsiniz? Mətndən gətirdiyiniz nümunələrlə əsaslandırın* (**Obrazlar xəritəsi**).

- Borya məsuliyyətlidir, çünki ...
- Borya ağıllıdır, çünki ...
- Borya qoçaqdır, çünki ...
- Borya cəsarətlidir, çünki ...
- Borya tərbiyəlidir, çünki ...

***Qeyd.*** Boryanın xarakteri haqqında söylənmiş iddialara mətndən cavab tapılmaya bilər. Bu zaman "çünki"dən sonrakı hissə yazılmayacaqdır. Ümumiyyətlə, obrazlar xəritəsini tamamlamaq üçün mətndən gətirilmiş əsaslanmanın olması mütləqdir.

Daha sonra 5-ci tapşırıq üzərində iş gedir və obrazlar xəritəsinə sərnişinlər də əlavə olunur:

- Panamalı qoca təmkinli və mülayimdir, çünki ...
- Eynəkli sərnişin savadsız və qorxaqdır, çünki ...
- Cavan leytenant zarafatcıl və xeyirxahdır, çünki ...

## Söz ehtiyatı

**(St. 2.1.2)** Şagirdlər 4-cü tapşırıqda qeyd olunan cümlədə məcazi mənada işlənən sözləri (*nəfəs almaq, şən*) tapıb öz seçimlərini əsaslandırırlar (insana aid olan hərəkət və əlamət cansız varlıqlara şamil edilib).

## Danışma

**(St. 1.2.2)** 6-cı tapşırıq araşdırma tələb edir. Şagirdlər Azərbaycanda da çox rast gəlinən gürzə haqqında material toplamalıdırlar. Gələcəkdə bu informasiya onlara gərək ola bilər. Tapşırığın ikinci məqsədi şagirdlərdə mühakimə yürütmə və fikrini əsaslandırma bacarıqlarını inkişaf etdirməkdir. Şagirdlər iki mövqedən çıxış edəcəklər. Ona görə bu tapşırığı debat şəklində də yerinə yetirmək olar. Şagirdlər çalışmalıdırlar ki, gətirdikləri arqumentlər əsaslı olsun.

## Oxu

**(St. 2.2.1)** Mətnin ikinci hissəsi oxunur. Bu zaman **Rollu oyundan** istifadə olunur (6-cı tapşırıq). Şagirdlərə izah edilməlidir ki, sərnişinlərin hiss-həyəcanını dinləyiciyə ötürmək üçün səs tonundan düzgün istifadə etməlidirlər. Məsələn, leytenant Boryanı müdafiə edərkən səs tonu yumşaq olmalıdır. Qatarın rəisi sərnişinlərə görə narahat olduğu üçün səsi daha həyəcanlı və yüksək olmalıdır.



LAYİHƏ

Mətn oxunub qurtarandan sonra 7-ci tapşırığı yerinə yetirməklə şagirdlər obrazlar xəritəsinin əsaslandırma hissəsinə əlavələr edə bilərlər. 8-9-cu tapşırıqlar şagirdlərdə obrazların davranışındakı motivasiyanı, dialoqlardakı və hərəkətlərdəki yumoru müəyyən etmək bacarığını inkişaf etdirir.

**Yazı**

**(St. 3.1.4)** Şagirdlərə izahat yazmaq üçün konkret situasiya təklif olunur:

– *Təsəvvür edin ki, yay tətilində suda-quruda yaşayanları "ovlamağa" başı qarışmış Borya məktəbə iki gün gecikir. Məktəbin dərs hissə müdiri onu çağırıb bununla bağlı izahat yazmağı tələb edir. Boryanın yerinə olsa idiniz, izahatı necə yazardınız?*

Şagirdlərə kömək məqsədi ilə aşağıdakı izahat nümunəsi verilə bilər.

315 nömrəli məktəbin direktoru
Fərman Zeynallıya
həmin məktəbin VII[a] sinif şagirdi
Kənan İbrahimlidən

izahat

Nəqliyyat sıxlığına görə birinci dərsə gecikmişəm. Məni üzrlü saymağınızı və dərsə buraxılmağım üçün göstəriş verməyinizi xahiş edirəm.

İmza: Kənan İbrahimli
13 mart 2018-ci il

**Dil qaydaları**

**(St. 4.1.2)** 12-ci tapşırıq dil qaydalarına keçid üçün motivasiya xarakteri daşıyır. Tapşırıq yeni mövzuya keçid olduğundan şagirdlər çətinlik çəkə və ya sualları düzgün müəyyənləşdirməyə bilərlər. Onlar göy rəngli sözlərin suallarını *nə edəndə? nə etmək? nə etmiş?* kimi təyin edərlərsə, bildirmək lazımdır ki, feil olsalar da, bu cür sözlər cümlə daxilində başqa nitq hissələrinin suallarına cavab verir (*nə zaman? nə? hansı?*). Məsələn: *"Öldürmək, mənim fikrimcə, düzgün deyil"* cümləsində "öldürmək" *nə?* sualına cavab verir və bu sözü məsdər formasından çıxarmadan şəxsə və kəmiyyətə görə dəyişmək mümkün deyil.

13-14-cü tapşırıqlar feilin təsriflənməyən formalarının ümumi qrammatik xüsusiyyətlərini daha dərindən qavramağa xidmət edir.

**Qiymətləndirmə**

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.



LAYİHƏ

## Dərs 15. İŞGÜZAR TƏKLİF (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla zənginləşdirir. | Həyatda gördüklərindən misallar gətirməklə mətndəki fikrə münasibətini əsaslandırır . |
| 1.2.4. Müzakirələrdə deyilmiş müxtəlif fikirlərə münasibət bildirir. | Başqasının fikrini təkzib və ya təsdiq etmək üçün əsaslı arqumentlər gətirir. |
| 3.1.1. Verilmiş mövzunu müxtəlif yazı formalarında (ifadə, inşa, esse, hekayə) ifadə edir. | Verilmiş mövzuda esse yazır. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Feilin təsriflənməyən formalarını fərqləndirir. |

### Motivasiya




Sxemi şərh edin. Tağıyevin fəaliyyət istiqamətlərindən hansıları Azərbaycan milyonçusuna maddi mənfəət gətirib? Sizcə, nə üçün o, mənfəətsiz işlərlə də məşğul olub? Bunu işgüzarlıq adlandırmaq olarmı?

### Oxu

(St. 2.2.3) **Proqnozlaşdırma üsulu ilə oxu.**

| | Sizcə, nə baş verəcək? | Nə üçün belə düşünürsünüz? | Əslində, nə baş verdi? |
|---|---|---|---|
| Başlığı oxuduqdan sonra | | | |
| 1-ci hissəni oxuduqdan sonra | | | |
| 2-ci hissəni oxuduqdan sonra | | | |
| 3-cü hissəni oxuduqdan sonra | | | |
| 4-cü hissəni oxuduqdan sonra | | | |


LAYİHƏ

Birinci hissə: birinci səhifənin sonuna qədər.
İkinci hissə: ikinci mətndaxili sualdan sonrakı abzas daxil olmaqla.
Üçüncü hissə: “Əhsən, qoca. .... Lük sevincək qışqırdı...” cümləsi daxil olmaqla.
Dördüncü hissə: mətnin sonuna qədər.
Mətn oxunduqca mətndaxili suallar cavablandırılır.

1-ci mətndaxili sual şagirddən diqqətli oxu tələb edir. Mətndəki “atasının son sözü”, “əmisinə baxanda atasını yadına salır, onun üçün qəribsəyirdi”, “özünə gizli bir həyat qurmağa çalışırdı” cümlələri bu qənaətə gəlməyə kömək edir.

2-ci mətndaxili sual kontekstdən çıxış edərək sözün mənasını tapmaq bacarığı tələb edir. Kontekstdən bilinir ki, “sentimentallıq” sözünün mənası tez təsirlənmək, həssaslıq deməkdir.

3-cü mətndaxili sual üzərində iş üçün **Obrazlar xəritəsi** tərtib olunur. Nəzərə almaq lazımdır ki, 6-cı sual da Henri əmi obrazı ilə bağlıdır. Ona görə də obrazlar xəritəsi üzərində iş mətnin sonuna qədər davam edə bilər. Xəritəyə Lük, mister Kemp obrazlarını da əlavə etmək olar. Müəyyən epizodlardan sonra oxunu dayandırıb obrazlar xəritəsinə əlavələr etmək tövsiyə olunur.

4-cü mətndaxili sual şagirdlərdən mühakimə yürütmək bacarığı tələb edir. Şagirdlərin diqqətini insanların münasibətlərindəki bəzi psixoloji məqamlara yönəltmək lazımdır. Belə ki, müdrik qoca mister Kemp bilir ki, Lük hələ balaca olduğundan həyatın sərt qanunlarını yaxşı anlamır. Buna görə də əmisi haqqında düzgün qərar çıxarmaya bilər. Əmisinə qarşı ürəyində yaranan inciklik isə onun gələcək həyatına və evdəki münasibətlərinə mənfi təsir edə bilər. Buna görə mister Kemp Lükə əmisinin “zəif yeri”ni göstərir və bundan istifadə etməyi, “onun dilində danışmağı” məsləhət görür.

Mətn oxunub qurtarandan sonra onun ideyası şagirdlər tərəfindən müəyyənləşdirilir (5-ci tapşırıq). Yaxşı olar ki, şagirdlər müəllimin yönəldici sualları ilə belə bir qənaətə gəlsinlər: “*İşgüzarlıq xeyirxah əməllərdən üz döndərməyə gətirib çıxarmamalıdır. Hətta insan maddi qazanc əldə etməyə çalışmalıdır ki, onu zəiflərin və imkansızların yolunda sərf etsin”.* Mətnin sonunda Lükün andı da bu ideyaya xidmət edir (7-ci tapşırıq).

Şagirdlərə tapşırılır ki, mətnin ideyasına uyğun olaraq həyatdan misallar gətirsinlər.

## Dinləyib-anlama və danışma

**(St. 1.2.4)** 8-ci tapşırıqda verilmiş müzakirəni **Akvarium** şəklində keçirmək tövsiyə edilir. Bu üsul həm müəllimlərə, həm də şagirdlərə əvvəlki siniflərdən tanışdır. Şagirdlər iki dairədə əyləşirlər: kiçik və böyük dairələrdə. Böyük dairədə olanlar verilən hər bir fikrə arqumentlər və əks-arqumentlər gətirirlər. Kiçik dairədə oturan ekspertlər isə bu arqumentləri şərh edir, münasibət bildirirlər.

**Müəllimin nəzərinə!**
“Akvarium”un ekspert qrupuna tapşırılmalıdır ki, arqumentləri şərh etmək üçün qeydiyyat vərəqində müəyyən qeydlər aparsınlar. Verilən şərhlər



LAYİHƏ

aydın, konkret və əsaslı olmalıdır. Debatı elə təşkil etmək lazımdır ki, eyni fikirlərin təkrarına yol verilməsin.

Müəllim yönəldici suallarla şagirdlərə yeni arqumentlər düşünüb tapmağa kömək edir:

– *"Aldığın sənin deyil, xərclədiyin sənindir" kəlamını necə başa düşürsünüz?*

– *Sizcə, nəyə görə zəngin adamların bir çoxu xeyriyyəçiliklə məşğul olur?*

**Yazı**

**(St. 3.1.1)** 1) "Lükün əmisi iti öldürməkdə haqlı idi, çünki ..."; 2) "Lük iti qorumaqda haqlı idi, çünki..." mövzularında kiçik esse yazmaq tapşırılır.

Şagirdlərə bir daha xatırlatmaq lazımdır ki, essedə onların şəxsi fikirlərini ifadə etmək və əsaslandırmaq tələb olunur. Bu, mühakimə xarakterli yazıdır. Mühakimə xarakterli yazını şagirdlər 6-cı sinifdə öyrənmişlər. Esse çox böyük olmamalıdır, lakin verilmiş fikri əsaslandırmaq üçün kifayət qədər arqument və ya həyatdan misallar gətirilməlidir.

**Dil qaydaları**

**(St. 4.1.2)** 9-cu tapşırıq dil qaydalarına keçid üçün motivasiya xarakteri daşıyır. Mətndə göy rənglə verilmiş sözlər mənsubiyyət və hal şəkilçiləri qəbul etmişdir. Eyni zamanda bu sözlər hərəkət bildirir. Bunu izah etməklə şagirdlər müəyyənləşdirirlər ki, məsdər həm feilin, həm də ismin xüsusiyyətlərini daşıyır.

10-cu tapşırıqda bu vaxta qədər əldə olunmuş biliklər əsasında məsdərin feilə və ismə aid olan hansı xüsusiyyətləri daşıdığı müəyyənləşdirilir.

11-ci tapşırıq müəllimin izahını tələb edir. Belə ki, feilin məsdər formasını yaradan *-maq²* şəkilçisi bəzən *-ma²* şəkilçisi ilə əvəz olunur: *Bu mahnını bir daha oxumanızı xahiş edirik.*

Bu hal, əsasən, III şəxsin təkinin mənsubiyyət şəkilçisini qəbul edəndə müşahidə olunur. Bu zaman *-ma²* şəkilçisini *-maq²* ilə əvəz etməklə sözün məsdər olduğunu sübuta yetirmək olar.

Bundan əlavə, bu tapşırığın ikinci məqsədi məsdər şəkilçisinin omonim olduğunu müəyyənləşdirməkdir. Bildiyimiz kimi, məsdər şəkilçisi omonim şəkilçidir.

***-ma²*** şəkilçisinin digər şəkilçilərdən fərqləndirilməsi:

*-ma²* inkar şəkilçisi kimi: *İpi bu qədər tarım çəkmə.*

*-ma²* feildən isim düzəldən leksik şəkilçi kimi: *Çəkmə ayağıma dar oldu.*

*-ma²* feildən sifət düzəldən leksik şəkilçi kimi: *Gəlmə adamlar.*

*-ma²* məsdər şəkilçisinin ixtisar olunmuş variantı kimi: *Onun qocalara kömək etməsi hamının xoşuna gəldi.*

**Qiymətləndirmə**

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.



LAYİHƏ

## Dərs 16. TƏBİƏT "MÜHƏNDİS"LƏRİ (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Oxuduğu mətnlə dinlədiyi mətndəki məlumatları ümumiləşdirərək əsas fikrə münasibət bildirir. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Kontekstdən çıxış edərək çoxmənalı sözün mətndə hansı mənada işləndiyini müəyyən edir. |
| 3.1.1. Verilmiş mövzunu müxtəlif yazı formalarında (ifadə, inşa, esse, hekayə) ifadə edir. | Şəkil üzrə təsviri xarakterli inşa yazır. |
| 1.1.2. Dinlədiyi fikrin inandırıcı və əsaslandırılmış olub-olmamasını müəyyənləşdirir. | Dinlədiyi mətndəki məlumatları qeyd etməklə əsas fikri təsdiq edən arqumentlər gətirir. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Feilin təsriflənməyən formalarını fərqləndirir. |

**Motivasiya**

Müəllim: *Elmin inkişafında təbiət hadisələrinin dərindən öyrənilməsinin böyük əhəmiyyəti olmuşdur. Məsələn, quşların hərəkətinin öyrənilməsi aerodinamika elminin inkişafına təkan vermişdir. İndi də insanın təbiətdən öyrənməli olduğu bir çox hadisələr var. Elmi izahını verə bilmədiyimiz bu təbiət hadisələrini çox zaman möcüzə adlandırırıq. Bu cür təbiət möcüzələrinə misal gətirə bilərsinizmi?*

Şagirdlər hörümçəyin tor qurmasını, yarasanın qaranlıqda "görə" bilməsini və s. misal gətirə bilərlər.

**Oxu**

**(St. 2.2.3) Fəndaxili şaquli inteqrasiya** (**VI sinif. St. 2.2.1.** Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır).

Mətn **İnsert** üsulu ilə oxunur. Şagirdlərə insert cədvəli və çap olunmuş şəkildə mətn paylanır.

Şagirdlər mətn üzərində 4 işarə qoymalıdırlar:

| Bu məlumat tanışdır. | Bu məlumat yenidir. | Əvvəl bildiklərimlə ziddiyyət təşkil edir. | Bu hissə aydın olmadı. |
|---|---|---|---|
| | | | |

LAYİHƏ

Bu üsul elmi-kütləvi mətnlərdə ehtiva olunan informasiyanın qavranılmasında çox yaxşı nəticə verir. Belə ki, şagirdlər cədvəli doldurmaq üçün bir daha mətni gözdən keçirməli, əldə etdikləri məlumatı, bir növ, təhlil etməlidirlər. Həmçinin bu üsulda şagirdlər "köhnə" biliklərlə "yeni" biliklər arasında əlaqə qurmağı da öyrənirlər.

Sonda şagirdlərin mətndən seçib cədvələ yazdıqları məlumatlar müzakirə edilir. Bu mərhələ çox mühümdür, çünki bu zaman şagirdlərdən fikirlərini əsaslandırmaq tələb olunur. Fikirlər əsaslandırılarkən müəllim fikir verməlidir ki, gətirilən arqumentlər düzgün və əsaslı olsun, təkrara yol verilməsin.

Cədvəldə qeydlər aparılmasına başlamazdan əvvəl (oxu prosesi bitən kimi) sözlər üzərində iş aparılır (3-cü tapşırıq). Daha sonra mətndaxili suallara cavab verilir.

**Müəllimin nəzərinə!**
1-ci mətndaxili sualın izahı: Əgər insanın boyu orta hesabla 1 m 60 sm götürülsə, termitin tikdiyi ev 560 m olardı.

2.2.3 standartı üzrə təlim nəticəsi şagirdlər dinləmə mətninə qulaq asdıqdan sonra reallaşdırılır.

**Söz ehtiyatı**

**(St. 2.1.1)** 3-cü tapşırıqda verilmiş sözlər üzərində iş aparılır. Əvvəlcə şagirdlərin bu sözlərlə bağlı əvvəlki bilikləri yoxlanılır. Müəllim əvvəlcə daha geniş məna tutumuna malik olan "koloniya" və "instinkt" sözləri üzərində dayanır:

*– Biologiya fənnindən bildiklərinizə əsasən "instinkt" anlayışını izah etməyə çalışın. Qənaətlərinizi canlı aləmdən (bitki və heyvan) gətirdiyiniz misallarla əsaslandırın. Bəs insanlarda instinkt necə təzahür edir?*

"Koloniya" sözü çoxmənalıdır. Ola bilsin ki, şagirdlər bu sözün "müstəmləkə", "müəyyən ölkədə mühacirlərin birgə yaşadığı icma", "əmək koloniyası" və s. mənalarını bilirlər. Onlar bu mənalardan çıxış edərək həmin sözü bioloji termin kimi izah etməlidirlər.

Daha sonra şagirdlər bu sözləri kontekst daxilində izah etməyə çalışırlar. Şagirdlərin izahları lüğətdə verilmiş izahla müqayisə edilir. Nəhayət, sonuncu mərhələdə sözləri kontekst daxilində onlara yaxınmənalı sözlərlə əvəz etməyə çalışırlar.

**Yazı**

**(St. 3.1.1)** 4-cü tapşırıqda şəklə baxmaqla şagirdlər təsviri xarakterli inşa yazırlar. **Cəld yazı** üsulu tətbiq olunur. Yazının yazılmasına 5 dəqiqə vaxt verilir. Şəkildə termitin yuvasının eninə kəsiyi təsvir edilmişdir. Təqribən belə bir mətn alınmalıdır:

*"Şəkildə termitlərin yuvası təsvir edilmişdir. Yuva "üç mərtəbə"dən və "dam"dan ibarətdir. Birinci mərtəbədə ana termitin hücrəsi yerləşir. Bu hücrə-*



LAYİHƏ

*nin üstündə termitin yumurtaları qoyulan qat vardır. Bir qədər yuxarıda termitlərin qidası saxlanılan göbələk istixanaları yerləşir. Yuvanın "dam"ında ventilyasiya üçün şaxta oyulmuşdur".*

**Dinləmə**

**(St. 1.1.2)** Müəllim aşağıdakı mətni səsləndirməzdən əvvəl şagirdlərə dəftərdə qeydlər aparmağı tapşırır. Bildirilir ki, mövzu etibarilə bu mətn dərslikdən oxuduqları mətnlə yaxındır. Ona görə də sonda bu iki mətni müqayisə etmək və ümumiləşdirmək tapşırılacaq. Şagirdlərə qeyd götürmək üçün istiqamət verilməlidir:

– Qunduzlarla termitlərin yuvasında oxşar və fərqli cəhətləri müəyyənləşdirin:

- ölçüsü;
- yeri;
- quruluşu.

– "Qunduzlar da təbiət "mühəndis"ləridir" fikrini sübut edən arqumentlər gətirin.

## QUNDUZLAR

Təbiətin məşhur inşaatçılarından biri də qunduzlardır.

Qunduz çox iri gəmiricidir. Onun bədəninin uzunluğu bir metrə çatır, təkcə quyruğunun çəkisi isə 25 kq-a qədər ola bilir. Qunduz çox yaxşı üzür və suyun altında 15 dəqiqə qala bilir. Əsasən, ağac qabığı, zoğu və yarpaqları ilə qidalanır.

Qunduzlar peşəkar mühəndislər kimi balaca çayların qarşısını kəsərək bəndlər qurur, nohur düzəldir, bu nohurlarda yuvalar tikirlər. Bəndin və yuvanın inşası üçün onlara çoxlu sayda ağac və palçıq lazım olur. Qunduzlar əvvəlcə bir neçə ağacı kəsib yerə endirirlər. Ancaq bu zaman çox böyük ustalıqla bir sıra mürəkkəb hesablamalar aparırlar. Belə ki, qunduzlar küləyin səmtini təyin edir və ağacın gövdəsini elə gəmirirlər ki, o, lazım olan yerə yıxılır. İki sahili birləşdirən ağac gövdələri bir-birinə bağlanır. Sonra bənddə möhkəmləndirmə işləri aparılır: dəlmə-deşiklər daş və kötüklərlə hörülür, lil və palçıqla suvanır. Beləliklə, axar su dərin hovuza dönür. Bu zaman qunduzlar üçün əlverişli şərait yaranır: qida və inşaat materiallarının daşınması asanlaşır.

Qunduz yuvaları olduqca mürəkkəb bir quruluşa malikdir. Hər qunduz yuvasının iki girişi, yemək və yataq otağı olur. Qunduzların yuvalarını suvamaq üçün istifadə etdikləri material soyuğun qarşısını alır. Bayırda havanın hərarəti –35 dərəcəyə düşsə də, içəridə temperatur donma nöqtəsindən yuxarıda qalır.

Qunduzların daha bir qeyri-adiliyi su altında yemək anbarları inşa etmələridir. Bu anbara su sızmır. Burada qida heç vaxt xarab olmur, çünki xüsusi kanallar vasitəsilə hava tənzimlənir. Qunduzlar bu anbarlardan bayıra doğru yüz metrlərlə uzanan lağımlar atırlar. Həmin lağımlar onların qidalanması üçün yararlı olan ağacların yanına çıxır. Bu kanallar vasitəsilə qida anbarlara daşınır.



LAYİHƏ

**Fəndaxili üfüqi inteqrasiya (St. 2.2.3; 1.1.2).** Müəllim suallar vasitəsilə dinləmə mətninin tam qavranıldığına əmin olduqdan sonra dərslikdəki mətnlə dinləmə mətni müqayisə olunur, ümumiləşdirmələr aparılır; məsələn:

– *İstər termitlərin, istərsə də qunduzların temperaturu bu cür təbii yolla tənzimləməsi elmin, texnikanın zirvəsini fəth edən insan üçün hələ də qaranlıqdır.*

Daha sonra müəllim mövzunu ümumiləşdirərək fikir bildirməyi tapşırır; məsələn:

– *Əlbəttə, təbiət möcüzələr mücrüsüdür. Canlıların ən kamili olan insana bəxş olunan ağıl belə bəzən kiçik həşəratlara və ya heyvanlara verilən instinkti izah edə bilmir.*

## Dil qaydaları

**(St. 4.1.2)** 5-ci tapşırıq VI sinifdə keçilən materialların təkrarlanmasına xidmət edir. Şagirdlər xəbərlə mübtədanın uzlaşması qaydaları ilə artıq tanışdırlar. *“Termit adlanan bu kiçik həşəratların tikdiyi qüllələr çox mürəkkəb quruluşa malikdirlər”* cümləsində mübtəda cansız əşya ilə ifadə olunanda xəbərlə mübtəda arasında kəmiyyətə görə uzlaşma pozulur.

6-cı tapşırıq dil qaydalarına keçid xarakteri daşıyır; “tikilmiş”, “uçulan” və “ucaltdıqları” sözləri isimlərə aiddir. Şagirdlər bu sözlərə *nə edilmiş? nə edən?* suallarını verə bilərlər. Bu zaman şagirdlərin diqqətini feilin sualına cavab verən sözün ismə aid olduğuna yönəltmək lazımdır.

– Bu xüsusiyyət (ismə aid olmaq) hansı nitq hissəsində vardır?

– Bunu necə izah edə bilərsiniz?

7-ci tapşırığın məqsədi feili sifətin şəkilçilərini müəyyənləşdirməkdən ibarətdir. Şagirdlər feili sifətləri seçir, sonra onları kök və şəkilçiyə ayıraraq feili sifətə xas olan şəkilçiləri müəyyənləşdirirlər. Bu zaman ədəbiyyatda *-dıq*$^4$ + *mənsubiyyət şəkilçisi* kimi təqdim olunan *-dığım*$^4$, *-dığın*$^4$ və s. şəkilçisi üzərində dayanmaq tövsiyə edilir. Belə ki, bu şəkilçi *-dığım*$^4$ və s. formasında bütövlükdə feili sifət şəkilçisi hesab edilir. Sadəcə, o, mənsubiyyət şəkilçisinin iştirakı ilə formalaşıb.

Bundan əlavə, qeyd etmək lazımdır ki, *-acaq*$^2$ şəkilçisi də mənsubiyyət şəkilçisi ilə işlənə bilər.

8-ci tapşırıq feili sifət şəkilçilərinin omonimliyini müəyyənləşdirməyə xidmət edir. Tapşırıq yerinə yetiriləndən sonra mütləq nəticələr çıxarılmalıdır. Belə ki, müəyyənləşdirilir:

**-acaq**$^2$
- feildən isim düzəldən leksik şəkilçi
- qəti gələcək zaman şəkilçisi
- feili sifət şəkilçisi

**-ası**$^2$
- feili sifət şəkilçisi
- lazım şəklinin əlaməti

LAYİHƏ

**-mış⁴** ⟨ nəqli keçmiş zaman şəkilçisi / feili sifət şəkilçisi

**-malı²** ⟨ feili sifət şəkilçisi / vacib şəklinin əlaməti

9-cu tapşırıqda şagirdlər məzmundan çıxış edərək feili sifətlərin hansı zaman anlayışı ifadə etdiyini müəyyənləşdirirlər. Bu zaman xatırladılmalıdır ki, zamana görə dəyişmək feilə xas olan xüsusiyyətdir. Feili sifətin bu xüsusiyyəti onun feil olduğunu bir daha sübut edir. Qeyd etmək lazımdır ki, feili sifət feilin zaman şəkilçilərini qəbul etmədən zaman anlayışı verir.

10 və 12-ci tapşırıqlar feili sifəti feildən düzələn sifətdən fərqləndirməyə xidmət edir. Belə ki, şagirdlər feili sifəti inkarda işlətməklə bunu müəyyənləşdirirlər.

11-ci tapşırıq məntiqi xarakter daşıyır. Şagirdlər bu tip tapşırıqlarla tanışdırlar.

1. C) yorduğu – feili sifət
2. B) kəsilən – feili sifət
3. D) güləyən – sifət

Şagirdlərə məlumat vermək lazımdır ki, feili sifət sifətin xüsusiyyətlərini daşıdığı üçün isimləşə də bilir. Bu zaman o, aid olduğu ismi "itirir" və onun xüsusiyyətlərini "götürür". İsmin suallarına cavab verir, cəmlənir, hallanır və mənsubiyyətə görə dəyişir.

*Yıxılan (hansı?) adam* yıxıldığı yerdən qalxar. – *Yıxılan (kim?)* yıxıldığı yerdən qalxar.

*Dediyim (hansı?)* sözləri unutma. – *Dediklərimi (nəyi?)* unutma.

## Qiymətləndirmə

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.



LAYİHƏ

## Dərs 17. FƏRYAD. MAŞUK MEŞƏSİ (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.1.2. Mətndəki sözlərin həqiqi və ya məcazi mənada işləndiyini izah edir. | Mətndə məcazi mənada işlənmiş söz və ifadələri müəyyənləşdirir və mənalarını izah edir. |
| 2.2.1. Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur. | Səs tonu vasitəsilə şeirdəki ovqat və əhvali-ruhiyyəni dinləyiciyə çatdırır. |
| 1.1.1. Dinlədiyi məlumatda ton, əhvali-ruhiyyə və emosiyanı müəyyən edir. | Şeiri dinləyərkən deklamasiyadakı ton, əhvali-ruhiyyə və emosiyanın təsirini izah edir. |
| 3.1.3. Qurduğu plan əsasında mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirir. | Verilmiş mövzu üzrə mətn yazmaq üçün plan qurur. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Feilin təsriflənməyən formalarını fərqləndirir. |

**Motivasiya**

Şagirdlər insanın təbiətə verdiyi xeyir və zərərlə bağlı aşağıdakı cədvəli doldururlar.

| İnsanın təbiətə verdiyi | |
|---|---|
| Xeyir | Zərər |
| | |
| Nəticələri | Nəticələri |
| | |

**Oxu**

**Fəndaxili şaquli inteqrasiya** (V sinif. 2.2.3. Mətndəki əsas fikri müəyyənləşdirir). Bu dərsdə məzmunca bir-biri ilə bağlı iki şeir oxunmalıdır. Ona görə də şagirdləri iki qrupa bölmək, hər qrupa bir şeir üzərində işi tapşırmaq məqsədəuyğundur.

**Söz ehtiyatı**

**(St. 2.1.2) Fənlərarası inteqrasiya ("Ədəbiyyat". VII sinif.** 1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (epitet, təşbeh, mübaliğə, bədii sual, təkrir) rolunu aydınlaşdırır).

Şagirdlərə şeirdəki bir sıra söz və ifadələri izah etmək tapşırılır.

"Fəryad" şeiri üzrə:



LAYİHƏ

1. “Könlümə düşdü”, “könlümə köçdü” ifadələrinin oxşar və fərqli xüsusiyyətlərini müəyyənləşdirin.

**Müəllimin nəzərinə!** “Könlümə düşdü” ifadəsi frazeoloji birləşmə, “könlümə köçdü” ifadəsində məcazi mənalı feil işlənmişdir ki, bu da bədii təsvir vasitəsinin yaradılmasına xidmət edir.

2. *“Çəkdi o yerlərə çəmən, çay məni”* misrasının mənasını izah edin. “Çəmən, çay məni çəkdi” nə deməkdir?

3. *“Meşənin özündən əsər qalmayıb”* misrası ilə şair nə demək istəyir?

“Maşuk meşəsi” şeiri üzrə:

1. *“Ağaclar dırmaşıb dəcəl uşaqtək*
   *Dağın zirvəsinə yamacla, yolla”* misralarının mənasını izah edin.
2. 1-2-ci tapşırıqlar yerinə yetirilir.
3. Meşə göylə necə “bəhsə girə” bilər?
4. “Sağ əlini başına çəkmək” nə deməkdir?
5. “Bığını çeynəmək” frazeoloji birləşməsinin mənasını izah edin (1-ci tapşırıq).
6. “*Maral duzağıdır meşə başabaş, Nə güllə səsi var, nə bir səksəkə”* misrasının mənasını izah edin.

Şeir **İstiqamətləndirilmiş oxu** üsulu ilə səsli oxunur**.** Müəllim hər qrupa müvafiq şeir üzrə suallar təqdim edir. Suallar təqribən belə ola bilər:

“Fəryad” şeiri üzrə:

1. Şeir nə üçün “Fəryad” adlanır?
2. İlk iki bənddə şair nədən bəhs edir?
3. “Bir qatar tərpəndi qəmimə düşmən” misrasını necə başa düşürsünüz? Söhbət hansı qatardan gedir?
4. Nə üçün şair meşə haqqında “qorxulu nağıllar” eşidir?
5. Şair nəyə heyrətlənir?
6. Şeirin ideyası nədir?

“Maşuk meşəsi” şeiri üzrə:

1. Şair meşəni necə təsvir edir?
2. Bu şeirdə şair nəyə heyrətlənir? (II, IV bəndlər)
3. Şairi əsəbiləşdirən nədir?
4. Şair nə arzulayır?
5. Şeirin ideyası nədən ibarətdir?

**Fəndaxili üfüqi inteqrasiya** (Oxu – st. 2.2.1; Dinləmə – st. 1.1.1). Şeirin məzmunu üzərində işə keçməzdən əvvəl qruplar şeirləri deklamasiya yolu ilə təqdim edir. Yaxşı olar ki, hər bəndi bir şagird oxusun. Hər bir şeir səslən-



LAYİHƏ

dirilərkən qruplardan biri təqdim edən, digəri dinləyici rolunda çıxış edir.

Nəzərə almaq lazımdır ki, 1-ci şeirdə ton, əhvali-ruhiyyə bənddən-bəndə keçdikcə dəyişir: həsrət – intizar – narahatlıq – qorxu qarışıq heyrət. 2-ci şeirdə isə daha çox şən əhvali-ruhiyyə, rahatlıq vardır.

Şeiri səsləndirən şagirdlər səs çaları, ton və tembrdən istifadə etməklə bu əhvali-ruhiyyəni yaratmağa çalışmalıdırlar.

Hər bir şeir təqdim edildikdən sonra dinləyən tərəf şeirdəki əhvali-ruhiyyəni müəyyən etməli və bunun məzmuna nə dərəcədə uyğun gəldiyini bildirməlidir.

Daha sonra hər bir qrupun nümayəndələri şeirin məzmununu nəql etməli, dərsin əvvəlində verilmiş sualları cavablandırmalıdırlar. Beləliklə, bütün sinif hər iki şeirin məzmunu ilə tanış olur.

**Sinkveyn** üsulu ilə şeirlərdəki fikirlər ümumiləşdirilir:

<u>“Fəryad” şeiri üzrə:</u>




“Maşuk meşəsi” şeiri üzrə:






LAYİHƏ

## Yazı

**(St. 3.1.3 )** Şagirdlərə tapşırılır ki, hər iki şeirdə haqqında danışılan meşəni təsəvvürlərində canlandırsınlar. Bununla bağlı konkret suallar verilə bilər:

– Sizcə, 1-ci şeirdə meşəyə gəlmiş adam burada nə gördü?

– 2-ci şeirdə meşənin təsvirinə nə əlavə edərdiniz? Meşəni gözəlləşdirən nədir?

4-cü tapşırıq. Qarışıq tipli (təsviri, nəqli, mühakimə) mətn yazmaq üçün plan qurmaq təklif olunur. Plan bütün sinif üçün eyni olduğuna görə iş kollektiv şəkildə icra edilə bilər:

1. Bir neçə il əvvəl müəllifin yolu bir meşəyə düşmüşdü... (nəqli)
2. Gözəl meşənin təsviri – flora və faunası. (təsviri)
3. Bu yaxınlarda müəllif yenidən həmin yerlərə səyahət etdi. (təsviri)
4. Qırılmış meşənin təsviri, əvvəlki meşə ilə müqayisə. (nəqli)
5. Meşələri məhv etmək olmaz. (mühakimə)
6. Ətraf mühitin qorunmasında meşələrin rolu. (mühakimə)

## Dil qaydaları

**(St. 4.1.2)** 5-ci tapşırıq "feili sifət" mövzusunun təkrarına xidmət edir. Eyni bənddə iki dəfə təkrar olunan "görməmişəm" sözləri əvvəlcə tələffüz (sözlərdəki vurğunun yeri) baxımından müqayisə olunur. Qrammatik baxımdan müqayisə zamanı müəyyən olunur ki, sonuncu misradakı "görməmişəm" feili xəbər, ikinci misradakı – ismi xəbərdir. Daha sonra bundan əvvəlki dərsdə əldə olunmuş məlumatlardan çıxış edən şagirdlər ikinci misradakı "görməmişəm" sözünün sifət, yoxsa feili sifət olduğunu müəyyənləşdirirlər.

6-cı tapşırıq dil qaydalarına keçid xarakteri daşıyır. Mətndə iki feil göy rənglə göstərilmişdir. Bunlardan birincisi nəqli keçmiş zamanda işlənmiş feildir (cümlədəki əsas hərəkətdir). İkincisi cümlədəki əsas hərəkət deyil və *necə?* sualına cavab verir.

Feili bağlama haqqında məlumat mənimsədildikdən sonra 7-ci tapşırıq yerinə yetirilir. Bu tapşırığın məqsədi feili bağlama şəkilçilərini müəyyənləşdirməkdir. Şəkilçilər müəyyənləşdirildikdən sonra istənilən feildən feili bağlama düzəltmək tapşırıla bilər.

8-ci tapşırıq suallar əsasında feili bağlamanın hərəkəti necə izah etdiyini müəyyənləşdirməyə xidmət edir. Bunu sual verməklə yerinə yetirmək olar.

9-cu tapşırıqda təsriflənən feilləri feili bağlamaya çevirib cümləni dəyişmək tələb olunur; nümunə:

1. Koroğlu dəliləri başına topladı, dağlara çəkildi.
   Koroğlu dəliləri başına toplayıb (toplayaraq) dağlara çəkildi.

## Qiymətləndirmə

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.



LAYİHƏ

## Dərs 18. ALTERNATİV ENERJİ (2 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Başqa fənlər üzrə biliklərindən istifadə etməklə mətndəki fikrə münasibətini əsaslandırır. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Sözün etimologiyasını araşdırmaqla kontekstə uyğun gəldiyini əsaslandırır. |
| 1.2.1. Fikrini müxtəlif formalarda ifadə edir. | Qrafik informasiyanı şərh etməklə mövzu üzrə danışır. |
| 3.1.2. Topladığı fakt və hadisələrə münasibət bildirməklə mətni zənginləşdirir. | Əldə etdiyi məlumatlardan istifadə etməklə mühakimə xarakterli mətn yazır. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Feilin təsriflənməyən formalarını fərqləndirir. |

### Motivasiya

**Anlayışın çıxarılması**. Lövhədə aşağıdakı sxem çəkilir.




Müəllim şagirdlərə kömək etmək məqsədi ilə yönəldici suallar verə bilər:

1. Yeldəyirmanı nəyin hesabına işləyir?
2. Bəs dəzgahlar?
3. Avtomobilin mühərrikini hərəkətə gətirən nədir?
4. Elektrik lampasını yandıran nədir?

Müzakirə nəticəsində şagirdlər sual işarəsinin yerinə "enerji" sözünün uyğun gəldiyini müəyyənləşdirirlər.

### Oxu

**(St. 2.2.3)** Mətn **İnsert üsulu** ilə oxunur.

| Bu məlumat tanışdır. | Bu məlumat yenidir. | Əvvəl bildiklərimlə ziddiyyət təşkil edir. | Bu hissə aydın olmadı. |
|---|---|---|---|
| | | | |

Şagirdlər cədvəli tam şəkildə doldururlar. Müzakirəyə başlamazdan əvvəl şagirdlərə tapşırılır ki, mətndən əldə etdikləri bütün fakt və məlumatları qeyd etsinlər.



LAYİHƏ

1. Enerji həyat deməkdir.
2. İnsanlar enerjini müxtəlif mənbələrdən alırlar.
3. Bu mənbələr iki qrupa bölünür: bərpa olunan və bərpa olunmayan.
4. Müasir dövrdə daha çox bərpa olunmayan enerji mənbələrindən istifadə edilir.
5. Bu enerji mənbələri tükənməkdədir.
6. Bərpa olunmayan enerjidən istifadə təbiətə və insanlara ziyan vurur.
7. Qlobal istiləşmənin səbəbi: faydalı qazıntıların yanması nəticəsində yaranan iqlim dəyişikliyi.
8. İnsan fəaliyyəti ekoloji tarazlığın pozulmasına səbəb olur.
9. Bəşəriyyətin yaşaması (gələcəyi) üçün enerjinin bərpa olunan mənbələrdən alınmasına çalışmaq lazımdır.

Müzakirələr zamanı mətndaxili suallar da cavablandırılır.

1-ci mətndaxili sual: Qədimdə insanlar külək və su enerjisindən dəyirmanı işlətmək, un, çörək əldə etmək üçün istifadə etmişlər.

2-ci mətndaxili suala cavab vermək üçün şagirdlər coğrafiya fənnindən əldə etdikləri bilikdən istifadə etməlidirlər (fənlərarası inteqrasiya).

**Müəllimin nəzərinə!** Azərbaycanda Kür çayının ətrafında olan rayonlarda su enerjisindən, Abşeron yarımadasında daha çox Günəş və külək enerjisindən istifadə oluna bilər və s.

3-cü mətndaxili tapşırığı icra edərkən şagirdlərin fikrini gündəlik həyatımızda enerjinin qənaətinə yönəltmək lazımdır. Hamı evdə elektrik enerjisindən istifadə edir. Nəzərə alsaq ki, bu enerji sudan alınır, onda suyun və elektrik enerjisinin israf edilmədən işlədilməsi enerjiyə qənaətin ən sadə yollarından biridir.

**Söz ehtiyatı**

**(St. 2.1.1)** 4-cü mətndaxili tapşırığı şagirdlər müxtəlif mənbələrdən aldıqları biliklərdən istifadə etməklə yerinə yetirə bilərlər. Müasir dövrdə qlobal istiləşmə məsələsi gündəmdə olduğundan şagirdlər “qlobal” sözünün mənasını asanlıqla tapa bilərlər. “Qlobus” sözü ilə əlaqəsinə gəlincə isə ilk baxışda gözə “qlob” sözü dəyir ki, müxtəlif fərziyyələrlə bu iki söz arasında məna əlaqəsini tapmaq olar. Məsələn, *qlobus* deyəndə hər hansı bir xəritə yox, məhz dünyanın formasını əks etdirən xəritə nəzərdə tutulur. “Qlobal istiləşmə” deyəndə bütün dünyada gedən proses nəzərdə tutulduğu üçün bu birləşmədə “qlobal” sözü yerinə düşür.

**Müəllimin nəzərinə!**
“Qlobus” sözü latın dilində “qlobus” (kürə) sözündəndir. Yer kürəsini əks etdirən xəritədir. “Qlobal” sözü də bundan əmələ gəlmişdir. “Bütün dünyanı əhatə edən” mənasını verir.

Şagirdlərə “təhsildə qloballaşma”, “mədəniyyətdə qloballaşma” ifadələrini izah etmək tapşırıla bilər. “Qloballaşma” sözü ilə “beynəlxalq inteqrasiya” ifadəsi arasındakı fərqli və oxşar məna çalarlarını müəyyənləşdirmək də məqsədəuyğun olardı.



LAYİHƏ

5-6-cı tapşırıqları yerinə yetirməklə şagirdlər mətndəki məlumatları tam qavradıqlarını nümayiş etdirirlər.

## Danışma

**(St. 1.2.1)** 7-ci tapşırığın şərtinə görə, şagirdlər həmin səhifədə verilmiş qrafik informasiyanı (diaqramı) şərh etməlidirlər. Şagirdlərə tapşırılır ki, öz biliklərindən istifadə etməklə diaqramı mümkün qədər geniş şərh etsinlər. Yaxşı olar ki, şərh zamanı aşağıdakı suallara da cavab verilsin:

– Nəyə görə Azərbaycanda bərpa olunmayan enerji mənbələrinin çəkisi daha yüksəkdir? (Ölkəmiz neft və qaz yataqları ilə zəngindir)

– Hidroenergetikanın 2-ci yerdə olması nə ilə izah edilir? (Kür çayı üzərində tikilmiş su-elektrik stansiyaları ilə)

– Bərpa olunan enerji mənbələrindən istifadə üçün ölkəmizdə hansı imkanlar var?

## Yazı

**(St. 3.1.2)** Şagirdlərə diaqramdakı informasiyadan, dərslikdə verilmiş mətndən, eləcə də əlavə mənbələrdən (www.minenergy.gov.az) istifadə etməklə ”Azərbaycanda enerji mənbələrindən istifadə” mövzusunda təqdimat hazırlamaq tapşırılır.

Təqdimatın planı şagirdlərə təqdim edilir:

1. Təbiətdəki enerji mənbələri.
2. Enerji mənbələrindən istifadə (nümunələr əsasında).
3. Alternativ enerji mənbələrindən istifadə üzrə yeni təkliflər.

Təqdimat zamanı dinləyən şagirdlərə tapşırılır ki, özləri üçün qeydlər götürsünlər, anlaşılmayan, sual doğuran hissələrlə bağlı suallar hazırlasınlar və sonda təqdim etsinlər.

## Dil qaydaları

**(St. 4.1.2)** 8-9-cu tapşırıqlar vasitəsilə “Feilin təsriflənməyən formaları” mövzusu təkrarlanır.

## Qiymətləndirmə

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh.18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.

### Dərs 19. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)

Bu dərs müvafiq bölmədə reallaşdırılmış məzmun standartları üzrə bacarıqların möhkəmləndirilməsi üçün nəzərdə tutulmuşdur. Şagirdlərə aşağıdakı mövzu üzrə inşa yazdırmaq tövsiyə olunur: ***“Yaşadığımız bölgədə ətraf mühiti necə qoruyaq”.***

LAYİHƏ

## III BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

1-5-ci tapşırıqlar mətnlə bağlıdır.

### FIRTINA

Təbiəti qəribə bir sükut çulğamışdı. Hər sabah səs-səsə verən bülbüllər, torağaylar, bildirçinlər, nədənsə, daha oxumurdu.

Bu, fırtına əlaməti idi. Dağın başındakı çəhrayı, gümüşü, mavi rənglərə çalan yüngül bulud təbəqələrindən aşağıda qıvrılmış ilana bənzər qara bir bulud üfüqdə sürünə-sürünə irəli hərəkət edirdi.

Bu, fırtına buludu idi.

Doğrudan da, bir an içində, sabahın bu nurlu çağında hava qaraldı. Bir-birinin ardınca şimşək çaxdı. Qorxunc bir gurultu qopdu, sanki göy yerə tökülmək istəyirdi. Əvvəl xırda, get-gedə iriləşən dolu yağdı. Elə yağdı ki, guya indi hər şeyi məhv edəcəkdi.

Azacıq sonra birdən-birə buludların arxasından çıxan günəş gözqamaşdırıcı bir işıqla parlayıb yüksəldi. Güllərin, çiçəklərin, körpə budaqların bükülmüş boyunları dikəldi. Quşlar sanki hamısı birdən dilə gəldi.

Yenə üfüqlər saf, göylər şəffaf idi, yenə dağın ağsaçlı məğrur başı vüqarla ucalırdı.

İşıq qaranlığa qalib gəlmişdi!

*(M.Rzaquluzadədən)*

**1.** Mətnin tipini müəyyən edin.

A) təsviri B) nəqli C) mühakimə

**2.** "Çulğamışdı" sözünü hansı sözlərlə əvəz edə bilərsiniz?

________________________________________

**3.** Doğru, yoxsa yanlış:

| | D | Y |
|---|---|---|
| Axşamın alatoranlığı bir anda qatı zülmətə çevrildi. | ☐ | ☐ |
| Əvvəl şimşək çaxdı, sonra göy guruldadı. | ☐ | ☐ |
| Əvvəl iri yağan dolu getdikcə xırdalaşıb kəsdi. | ☐ | ☐ |
| Dolu güllərin, çiçəklərin, körpə budaqların boynunu əymişdi. | ☐ | ☐ |
| Fırtınadan sonra quşlar yenidən oxumağa başladılar. | ☐ | ☐ |

**4.** Dağın başının qarla örtüldüyünü söyləməyə əsas verən məqamı göstərin.

________________________________________

**5.** Mətndəki təsriflənməyən feilləri seçərək qruplaşdırın.

| Məsdər | Feili sifət | Feili bağlama |
|---|---|---|
| | | |



LAYİHƏ

**6.** Verilmiş feilləri təsriflənməyən formada işlədib atalar sözlərini tamamlayın.

*at, tut, qocal, boşalt, axtar*

1. İnsan _______ aynaya az baxar.
2. Əl _______ Əlidən qalıb.
3. Eyibsiz dost _______ dostsuz qalar.
4. Dostun _______ daş baş yarmaz.
5. Dənizi çömçə ilə _______ olmaz.

**7.** Nöqtələrin yerinə feilin təsriflənməyən formalarının şəkilçilərindən uyğun gələnini artırıb yazın.

*-an$^2$, -mış$^4$, -maq$^2$, -anda$^2$*

2. Biz azad ol... istəyiriksə, qanunların qulu olmalıyıq. (Siseron)
3. Hər tapşırıl... işə görə yalnız bir nəfər məsuliyyət daşımalıdır. (Bismark)
4. Həyat öt... günlər deyil, yadda qal... günlərdir. (P.A.Pavlenko)
5. İnsan ruhdan düş... onun atı da çapa bilmir. (Şərq məsəli)

**8.** Feilin təsriflənən formalarını feili sifətə çevirib yazın.

1. Əsər yazılacaq. ______________________
2. İş görüləcək. ______________________
3. Məktub yazılasıdır. ______________________
4. Kitab oxunasıdır. ______________________
5. Yol salınasıdır. ______________________
6. Ev tikilməlidir. ______________________

**9.** *Tut, kəs, al* sözlərini ayrı-ayrılıqda məsdər, feili sifət, feili bağlama kimi cümlədə işlədin.

**10.** Dördündən biri fərqlidir:

A) qaçanda B) yazılası C) qaçır D) yazan
A) görər-görməz B) görüləcək (iş) C) başlamaq D) alar
A) gözləyir B) düşünməliyik C) başlamadan D) qoruyacaq
A) veriləsi (pul) B) oxunmuş (məktub) C) yazılmaq D) deyir

**11.** Feilin təsriflənməyən formalarını tapıb şəkilçilərini elə dəyişin ki, cümlənin məzmununa təsir etməsin.

1. Mehman qayıdanda Əbülfətə rast gəldi.
2. Müəllim sinfə daxil olanda şagirdlər ayağa qalxıb salamlaşdılar.
3. Həsən atını çapıb oradan uzaqlaşdı.



LAYİHƏ

# IV BÖLMƏ

## KAMİLLİYƏ DOĞRU

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | MMV səh. |
|---|---|---|---|---|---|
| 20. | **Zamanın idarə olunması**<br>*Qoşma* | 2.2.3, 2.2.2, 1.2.4, 3.1.1, 4.1.2 | 3 | 78-82 | 93-95 |
| 21. | **Uğura gedən yol**<br>*Qoşmaların deyilişi və yazılışı* | 2.2.3, 2.1.1, 1.2.2, 4.1.4 | 3 | 83-86 | 96-98 |
| 22. | **Təqvim**<br>*Bağlayıcı* | 2.2.2, 2.2.3, 3.1.2, 1.2.2, 4.1.2 | 4 | 87-90 | 99-103 |
| 23. | **Yazı – piktoqramdan hərflərə**<br>*Bağlayıcılarda vergülün işlənməsi* | 2.1.1, 2.2.2, 2.2.3, 3.1.2, 4.1.3 | 3 | 91-94 | 104-106 |
| 24. | **Qədim yazı materialları**<br>*Mürəkkəb bağlayıcılar* | 2.2.2, 2.1.1, 3.1.2, 1.1.2, 4.1.4 | 3 | 95-98 | 107-108 |
| 25. | **Eynşteyn dərslərindən «2» alırdı?** | 2.2.3, 2.1.1, 1.1.2, 3.1.1, 4.1.3 | 3 | 99-101 | 109-111 |
| 26. | **Ümumiləşdirici təkrar** | | 2 | 102 | 111 |
| | **Kiçik summativ qiymətləndirmə** | | 1 | | 112-113 |
| | **Yekun** | | **22 saat** | | |

LAYİHƏ

## Dərs 20. ZAMANIN İDARƏ OLUNMASI (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Həyatda gördüklərindən misallar gətirməklə mətndəki fikrə münasibətini əsaslandırır. |
| 2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir. | Mətnin bitkin hissələrinə başlıq seçir və əlavə məlumatı uyğun gələn hissəyə artırır. |
| 1.2.4. Müzakirələrdə deyilmiş müxtəlif fikirlərə münasibət bildirir. | Müzakirə zamanı söylənilən fikri öz fikirləri ilə tamamlayır. |
| 3.1.1. Verilmiş mövzunu müxtəlif yazı formalarında (ifadə, inşa, esse, hekayə) ifadə edir. | Verilmiş aforizmdəki fikrə münasibət bildirməklə esse yazır. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Qoşmanın yaratdığı məna çalarlarını müəyyənləşdirir. |

**Motivasiya**

**Sual:** *Xalq arasında belə bir ifadə vardır: "Vaxt öldürmək". Bunu necə anlayırsınız? Zamanı idarə etmək olarmı? Necə?*

**Oxu**

**(St. 2.2.3)** Mətn **Ziqzaq** üsulu ilə oxunur. Sinif 4 qrupa bölünür. Hər qrupa mətnin bir hissəsini oxumaq tapşırılır. Ekspertlər "doğma" qrupa qayıdırlar. Mətn kiçik ulduzlarla beş hissəyə bölünmüşdür. Birinci qrupa ilk iki hissə üzərində iş tapşırılır. Hər qrup öz hissəsini məzmuna uyğun başlıqla adlandırmalı, orada əks olunan məlumatları vərəqdə qeyd etməlidir.

Birinci qrup:
1. Zamanı saxlamaq olmaz, amma onu idarə etmək olar.
2. İşi vaxtında yerinə yetirmək lazımdır.
3. Vaxtı düzgün bölsən, çox şeyə nail ola bilərsən.
Təqdimat zamanı birinci qrup mətndaxili suala cavab verir.

İkinci qrup:
1. Hər işin həcminə uyğun zaman ayırın.
2. Məqsədiniz işi tez yerinə yetirmək yox, keyfiyyətli yerinə yetirmək olmalıdır.
3. Hər işdə vaxtı düzgün bölmək lazımdır.

Üçüncü qrup:
1. Vaxtı elə bölmək lazımdır ki, həm işə, həm də əyləncəyə vaxt qalsın.
2. İnsan həyatının bütün anlarını, hətta yuxu saatlarını da planlaşdırmalıdır.



LAYİHƏ

Dördüncü qrup:
1. İnsan nizamlı həyat tərzi sürməlidir.
2. Uğur qazanmaq üçün çox çalışmaq yox, planlı çalışmaq lazımdır.
3. Yalnız vaxtı düzgün bölmək bu işdə bizə kömək edə bilər.

Təqdimat zamanı müəllim şagirdlərə müxtəlif suallarla müraciət edə bilər:
1. Sizcə, nə üçün "Bu günün işini sabaha qoyma" atalar sözünə üstünlük verilir? Həyatınızdan misal gətirməklə bu fikri əsaslandırın.
2. Mətndə nə üçün iki dahi şəxsiyyətdən söhbət açılmışdır? Müəllifin məqsədi nədən ibarətdir?
3. Nə üçün müəllif çətin dərsi əvvələ salmağı, sevdiyiniz dərsi yorğun vaxtınızda yerinə yetirməyi məsləhət görür? Dərslərə hazırlaşarkən bu prinsipə əməl edirsinizmi?
4. "Vaxt oğruları" siyahısı ilə razısınızmı? Öz həyatınızda belə problemlərlə qarşılaşmısınızmı? Bunu necə həll etmisiniz?
5. Planlı həyat tərzinə necə baxırsınız? Sizcə, həqiqətənmi, insan bu qədər planlı həyat tərzi sürməlidir? "Pedant" kimə deyirlər?

Suallar ətrafında həm təqdimat edən qrup üzvləri, həm də digər şagirdlər fikir yürüdə bilərlər. Müəllim çalışmalıdır ki, təkrar fikirlərə yol verilməsin, müzakirə mədəniyyətinə riayət olunsun.

**Müəllimin nəzərinə!**

**Pedant** – xırda və formal tələblərin yerinə yetirilməsinə həddindən (lüzumundan) artıq fikir verən adam; xırdaçı.

(St. 2.2.2) Təqdimat və müzakirələr bitəndən sonra 2-ci tapşırıq yerinə yetirilir. Təklif olunan başlıqlar mətnin ayrı-ayrı hissələrinə uyğun gəlir. Şagirdlər bu uyğunluğu müəyyən etməlidirlər.

1-ci hissə – "Sürətlə axıb gedən zaman"
2-ci hissə – "Zamandan səmərəli istifadə edək"
3-cü hissə – "İş və zaman nisbətində keyfiyyəti üstün tutun"
4-cü hissə – "Vaxt oğruları"
5-ci hissə – "Robot olmayın"

Bu tapşırığın məqsədi şagirdlərdə ümumiləşdirmə bacarığını inkişaf etdirməkdir.

3-cü tapşırıqda şagird verilmiş məlumatı mətnin uyğun gələn hissəsinə əlavə etməlidir. Verilmiş mətn beşinci hissənin birinci abzasından sonra əlavə edilməlidir.

## Şifahi nitq

(St. 1.2.4) 4-cü tapşırıq şifahi nitqin – fikri düzgün ifadə etmək bacarığının inkişafına yönəlmişdir. Belə ki, şagirdlər müzakirə zamanı aforizmlərdə verilmiş fikirləri açmalı, bu fikirlərə münasibət bildirməli və öz münasibətlərini əsas-


LAYİHƏ

landırmalıdırlar. Müəllim diqqət yetirməlidir ki, şagirdlər həm orfoepik qaydalara riayət etsinlər, həm cümlələri düzgün qursunlar, həm də münasibət bildirərkən məntiqi ardıcıllığı gözləsinlər və əsaslı arqument gətirsinlər.

**Yazı**

**(St. 3.1.1)** Müzakirələrdən sonra şagirdlərə **cəld yazı** üsulu ilə sinfin səviyyəsinə uyğun olaraq 5-10 dəqiqə müddətində 5-ci tapşırıqda verilmiş mövzu əsasında esse yazmaq tapşırılır.

**Müəllimin nəzərinə!**

Cəld yazı üsulu ilə şagirdlər VI sinifdən tanışdırlar. Bu zaman şagirdlərdən qısa və lakonik şəkildə fikir ifadə etmək tələb olunur. Yazının orfoqrafiyası qiymətləndirməyə cəlb olunmur. Məqsəd az müddətdə çox, dəqiq və aydın fikir söyləmək bacarığını formalaşdırmaqdır.

**Dil qaydaları**

**(St. 4.1.2)** 6-7-ci tapşırıqlar yeni dil qaydası üçün motivasiya xarakteri daşıyır, şagirdlərdə qoşmanın funksiyası haqqında təsəvvür yaradır. “Yadda saxla” rubrikasında verilmiş nümunələr də, bir nitq hissəsi kimi, qoşmanın mahiyyətinin dərkinə xidmət edir: iki eyni cümlə daxilində yalnız qoşmaları dəyişməklə məna da dəyişir.

Nəzəri materialdan sonra verilmiş tapşırıqlara keçməzdən əvvəl şagirdlərə dəftərlərində belə bir cədvəl çəkmək tövsiyə olunur. Şagirdlər tapşırıqları yerinə yetirdikcə cədvəli doldururlar.

| Birgəlik | İstiqamət | Məsafə | Aidlik | Səbəb-məqsəd | Zaman |
|---|---|---|---|---|---|
| | | | | | |

8-9-cu tapşırıqlar da qoşmanın qrammatik xüsusiyyətlərini daha dərindən anlamağa kömək edir.

10-cu və 12-ci tapşırıqların əsas məqsədi şagirdlərdə qoşmaları məna çalarına görə fərqləndirmək bacarığı formalaşdırmaqdan ibarətdir.

11-ci tapşırığı yerinə yetirməklə şagirdlər qoşmaların ismin müxtəlif hallarında olan sözlərə qoşulduğunu anlayırlar. İş elə aparılmalıdır ki, şagirdlər sonda qoşmaların ismin hansı halları ilə işlənə biləcəyi haqqında nəticə çıxartsınlar. Tapşırığın sonunda müəllim bu nəticəni şagirdlərdən soruşmalıdır.

Çətinlik səviyyəsi yüksək olan 14-cü tapşırıq şagirddən qrammatik qaydaları ümumiləşdirmək və nəticə çıxarmaq bacarığı tələb edir. Bundan əvvəlki çalışmalar üzərindəki iş və cədvəldə etdiyi qeydlər şagirdə bu tapşırığın öhdəsindən gəlməyə kömək edəcək.

**Qiymətləndirmə**

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.

LAYİHƏ

## Dərs 21. UĞURA GEDƏN YOL (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Mühakimə xarakterli mətndəki fikirləri təsdiq edən aforizmlər seçir. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Müxtəlif kontekstlərdən çıxış edərək sözün mənasını izah edir. |
| 1.2.2. Fikrini məntiqi ardıcıllıqla ifadə edir. | Müzakirə və ya debat zamanı fikrini əsaslandırarkən fakt və məlumatlardan məntiqi ardıcıllıqla istifadə edir. |
| 4.1.4. Nitq hissələrinin yazılışı ilə bağlı qaydalara əməl edir. | Qoşmaların yazılışında orfoqrafiya qaydalarına riayət edir. |

**Motivasiya**

Gənc oğlan bir müdrikin yanına gəlib soruşur:

– Mən gecə-gündüz çalışıram, amma nə işimdə, nə də həyatımda bir dəyişiklik edə bilmirəm.

– Sən nə kimi dəyişiklik istəyirsən?

– Nəsə bir yenilik.

– Nə yenilik?

– Bilmirəm. Nə olursa olsun, yenilik və dəyişiklik olsun.

**Sual:** – *Sizcə, cavan nə üçün heç bir dəyişikliyə nail ola bilmirdi?*

Müdrik dedi:

– Əvvəlcə hara gedəcəyini müəyyənləşdir, sonra yola çıx.

**Tapşırıq:** – *Qocanın cavabını izah edin.*

**Oxu**

**(St. 2.2.3; 2.1.1)** (**Fəndaxili şaquli inteqrasiya. VI sinif.** 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır). **Cütlükdə oxu – cütlükdə ümumiləşdirmə.** Mətni oxumaq üçün şagirdlərə vaxt qoyulur (vaxt hər sinfin səviyyəsinə uyğun olaraq qoyulmalı və 8 dəqiqədən çox olmamalıdır).

Daha sonra mətn 10 hissəyə bölünür və hər hissə bir cütlüyə verilir. Sinifdə şagirdlərin sayı çox olduqda eyni hissəni 2 cütlüyə də vermək olar. Cütlər öz hissələrini oxuyub müzakirə

**UĞURA GEDƏN YOL**

1 Həyatda uğur qazanmaq üçün, ilk növbədə, gələcəyə yönəlmiş hədəf seçməlisiniz. Daha sonra həmin məqsədə aparan yaxın hədəfləri müəyyənləşdirmək lazımdır. Özünüzə qısamüddətli hədəflər seçməklə daha uzaq hədəflərə çata bilərsiniz. Beləliklə, həyat *strategiyanızı* və *taktikanızı* müəyyən etmiş olursunuz.

? **1.** "Strateji məsələ", "döyüş taktikası" ifadələrini yada salaraq "strategiya" və "taktika" sözlərini izah edin. Sizcə, bu sözlərdən hansı "son hədəf", hansı "hədəfə aparan yollar" mənasını verir?

2 Hədəf seçilən andan insanın həyat tərzi də dəyişir. Əgər səhər evdən çıxanda hara gedəcəyinizi bilmirsinizsə, bütün günü boş-boş veyillənib axşam evə qayıdacaqsınız. Amma harasa getməyə qərar vermisinizsə, ünvanı bilməsəniz də, soruşa-soruşa mənzilbaşına gedib çıxa bilərsiniz.

3 Hədəfi seçərkən vacib məqamlardan biri də realist olmaqdır. Reallıqdan uzaq olan hədəf arzu və xülyadır. Qarşınıza qoyduğunuz məqsəd təbiətinizə uyğun olmalıdır ki, ona doğru irəliləmək sizə zövq versin. Hədəfinizi düşündükcə bezməməli, əksinə, özünüzdə əzm tapmalısınız. Bunun üçün də qarşınıza qoyduğunuz hədəf qabiliyyətlərinizdən nə həddindən artıq yüksək, nə də həddindən artıq aşağı olmalıdır.

* * *

4 Hədəfə gedən yol çox zaman təhsildən keçir. Hansı peşəyə yiyələnməyin bir o qədər də önəmi yoxdur, önəmli olan peşəyə hansı səviyyədə yiyələnməkdir.
Təhsil insanın gələcək peşəsini, cəmiyyətdəki yerini təmin edən ən mühüm şərtlərdən biridir. Əlbəttə, kimsə etiraz edə bilər: Hacı Zeynalabdin Tağıyevin heç orta təhsili də olmayıb, amma o, Azərbaycan tarixində dərin iz qoymuş iş adamı və xeyriyyəçi olub.

5 Nəzərə almaq lazımdır ki, təhsil diplom almaqdan ibarət deyil. Təhsilini yarımçıq qoymaq və ya təhsil almamaq öyrənməmək deyil. Siz universitetə daxil olub ali təhsilli mütəxəssis də ola bilərsiniz, orta ümumi təhsili bitirməmiş müəyyən peşəyə yiyələnə də bilərsiniz. Əsas məsələ peşəkar olmaq, seçdiyiniz peşənin və ya ixtisasın sirlərinə dərindən bələd olmaqdır. Seçdiyiniz sahədə özünüzü təsdiqləməyə çalışın. Onu da yadda saxlayın



LAYİHƏ

etməli və həmin hissədəki əsas fikri müəyyənləşdirməlidirlər.

Ümumiləşdirmə aparıldıqdan sonra şagirdlərə gəldikləri nəticələri lövhədə qeyd etmək tapşırılır. Şagirdlərin çıxardığı ümumiləşdirmələr müzakirə olunur. Sonda şagirdlərə aşağıdakı sxemi doldurmaq tapşırılır.

**<u>Müəllimin nəzərinə!</u>**
Aşağıdakı cədvəl nümunə üçün tam şəkildə doldurulmuşdur. Şagirdlər üçün ancaq "Uğur" sözü yazılmalı, qalan hissələri isə boş qoyulmalıdır. Bu tapşırıq şagirdlərdə mətndəki əsas fikirləri ümumiləşdirilmiş şəkildə təqdimetmə bacarığının inkişafına kömək edir.

6 ki, insanın xoşbəxt olması üçün çox vaxt pul kifayət etmir. Sevdiyi bir işdə çalışmaq tamamilə başqa bir həzdir.

Mükəmməl təhsil təkcə dərs oxumaqdan ibarət deyil. İnsan o zaman həqiqi mənada uğur qazana bilər ki, bir şəxsiyyət kimi hərtərəfli inkişaf etsin. Yalnız bir-iki fənni dərindən öyrənmək uğur qazanmaq üçün kifayət etmir. Həyatınızda idmana, sənətə, ədəbiyyata, musiqiyə, yaradıcılığa və müxtəlif sosial fəaliyyətlərə də yer ayırmalısınız. Çalışın ki, fəal, yeni-yeni təkliflərlə çıxış edən bir insan olasınız. Bu sizin ictimai nüfuzunuzu artıracaq və ətrafdakıları sizinlə hesablaşmağa məcbur edəcək.

* * *



7 Uğurun daha bir sirri özünəinamdır. Nə edirsinizsə edin, daim hədəfə çatmaqda israrlı olun, mənfi düşüncələri özünüzdən uzaqlaşdırın. Hədəfə doğru gedən yolda büdrəmələr də olur, taleyin gözlənilməz zərbələri də. Ancaq bütün bunlar sizi ruhdan salmamalıdır. Heç zaman özünüzə inamı itirməyin. İtirsəniz, o dəqiqə uğursuzluq başınızın üstünü alacaq.

8 Yeni Zelandiyanın Oklend şəhərində doğulmuş Edmund Hillari uşaq yaşlarından idmanla məşğul olur, alpinizmə həvəs göstərirdi. Onun ən böyük arzusu dünyanın ən uca zirvəsi olan Everesti fəth etmək idi. Nəhayət, 1952-ci ildə o buna cəhd etdi, lakin cəhdi uğursuzluqla nəticələndi. Bu cəhddən bir neçə həftə sonra Hillari İngiltərə məktəblərindən birinə, şagirdlərlə görüşə dəvət olunmuşdu.

Bu görüşü zamanı Hillari şagirdlərə demişdi:

– Mənə qalib gəldiyi üçün Everest gözümdə böyüdü, amma o da bir şeyi yaxşı yadında saxlamalıdır ki, hədəfimə çata bilmədiyim üçün içimdəki əzm daha da artıb, daha da güclənib, buna görə də mən ona qalib gələcəyəm...

9 Sonra əzmkar alpinist Everest dağının məktəb divarından asılmış şəklinə baxaraq ona meydan oxumuşdu:

– Mənə ilk cəhdimdə qalib gəldin, amma səninlə mübarizəm bitməyib, ey Everest! Gözlə məni, yenə gələcəyəm və bu dəfə sən ayaqlarımın altında olacaqsan".

Bu çıxışından bir il sonra, doğurdan da, Everest Hillarinin ayaqları altında idi... 29 may 1953-cü ildə saat 11.15-də Edmund Hillari indiyə kimi zirvəsini heç kimin görmədiyi Everestin ən uca nöqtəsində dayanmışdı.

O bunu bacardı və bu uğuruna görə ona kraliça Elizabet tərəfindən "cəngavər" adı verildi.

10 Bəli, hər bir uğurun arxasında səbr, əzmkarlıq, zəhmət dayanır. Əlbəttə, hər bir şagird kimi siz də yaxşı oxumaq, ali məktəbə qəbul olmaq, istədiyiniz ixtisasa yiyələnmək istəyirsiniz. Unutmayın, bu çətin yolda yalnız səbirli və iradəli olanlar böyük uğurlara imza atacaqlar. Çətinliksiz həyatın mənası və marağı olmur. Odur ki istənilən problem... üzləşəndə stresə düşməyin, ona dəf olunmalı maneə ... baxın. Problem həllinin sevincini yaşayın. Belə olsa, uğur sizin ... qaçılmaz olacaq.

*Aylin Atmacanın*
*"Zamanı necə idarə etməli" kitabından*




Adətən, mətn hazırlayarkən onu daha mənalı və effektli etmək üçün aforizmlərə müraciət olunur. Aforizm və atalar sözlərindən istifadə nitqi zənginləşdirir, onu daha inandırıcı edir. <u>2-ci tapşırıq</u> da məhz bu bacarığın inkişafına xidmət edir.

<u>2-ci tapşırıqda</u> verilmiş aforizmlərin mətnin hansı hissələrinə uyğun gəldiyini müəyyənləşdirmək tələb olunur. Bu da, bir növ, əsas fikrin müəyyənləşdirilməsi və ümumiləşdirilməsinə xidmət edir. Şagirdlər işlədikləri hissəyə uyğun gələn aforizmləri seçir, onun məna uyğunluğunu sübut edirlər. Eyni zamanda aforizmin mənasını açıqlayır və bu fikrə münasibət bildirirlər.



LAYİHƏ

**Müəllimin nəzərinə!**

| | |
|---|---|
| 1-ci aforizm – 8 | 5-ci aforizm – 4, 6 |
| 2-ci aforizm – 8 | 6-cı aforizm – 1 |
| 3-cü aforizm – 9 | 7-ci aforizm – 3 |
| 4-cü aforizm – 2 | 8-ci aforizm – 1, 2 |

**Söz ehtiyatı**

**(St. 2.1.1)** Lüğət və mətn üzərində iş paralel şəkildə aparılır. 1-ci mətndaxili sualda izahı verilməsi tələb olunan "strategiya" və "taktika" sözləri, əslində, bu mətn üçün açar sözlər rolunu oynayır. Bu cür alınma sözlərin şagirdlərin leksikonuna daxil olması vacibdir.

Bundan əlavə, mətndə şagirdlərə tanış olmayan sözlərin mənası da müəyyənləşdirilməlidir.

**Danışma**

**(St. 1.2.2)** 3-cü tapşırıq müzakirə üçün verilmişdir. Şagird aforizmdə verilmiş fikri düzgün izah etməli, ona münasibət bildirməli və fikrini izah edərkən məntiqi ardıcıllıqla danışmalıdır. Bu zaman müəllim yönəldici suallar, ipucları da verə bilər. Məsələn, 1-ci aforizm izah olunarkən bildirilməlidir ki, burada söhbət yelkənli gəmilərdən gedir, külək olmadan o hərəkət edə bilməz.

**Dil qaydaları**

**(St. 4.1.4)** 4-cü tapşırıq dil qaydalarına keçid üçün motivasiya xarakteri daşıyır.

5-ci tapşırıq qoşmaların orfoqrafiyası ilə bağlıdır. Artıq yeni dil qaydası ilə tanış olmuş şagirdlər təkhecalı qoşmaların bitişik, ikihecalı qoşmaların ayrı yazıldığını bilməlidirlər. Eyni zamanda cümlədə işlədərkən qoşmaların yaratdığı məna çalarına da fikir verməlidirlər.

6-cı tapşırıq biliklərin tətbiqinə yönəlmişdir. Şagirdlər qoşmaları orfoqrafik qaydaya uyğun şəkildə dəftərlərinə yazmalıdırlar.

7-ci tapşırıqda danışıq dilində tez-tez buraxılan səhvlər qabardılmışdır. Belə ki, bəzən səhv olaraq *ötrü* qoşmasının yerinə *ötəri*, *sənin qədər* əvəzinə *səni qədər* deyilir və yazılır, *-dək* və *-tək* qoşmalarını da səhv salanlar var. Şagirdlərə izah etmək lazımdır ki, *ötəri* – zərfdir, *mənası gözucu, tez, ani* deməkdir; məsələn, *ötəri baxmaq*.

Qoşmalar təsirlik halda olan sözlərlə işlənə bilmir. Buna görə *səni qədər* demək və yazmaq səhv hesab edilir.

Məna baxımından *-dək* məsafə, *-tək* bənzətmə, müqayisə bildirdiyindən bu qoşmaların cümlə daxilində səhv işlənməsi ifadə olunan fikirdə yanlışlıq yarada bilər.

**Qiymətləndirmə**

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.



LAYİHƏ

## Dərs 22. TƏQVİM  (4 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir. | Keçid cümlələr əlavə etməklə mətnin tərkib hissələrini əlaqələndirir. |
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Başqa fənlərdən əldə etdiyi biliklər əsasında verilmiş məlumatı əsaslandırır və dərinləşdirir. |
| 3.1.2. Topladığı fakt və hadisələrə münasibət bildirməklə mətni zənginləşdirir. | Aldığı yeni məlumatları müvafiq hissələrə əlavə etməklə mətni genişləndirir. |
| 1.2.2. Fikrini məntiqi ardıcıllıqla ifadə edir. | Müzakirə və ya debat zamanı fikrini əsaslandırarkən fakt və məlumatlardan məntiqi ardıcıllıqla istifadə edir. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Cümlədə bağlayıcının funksiyasını müəyyən edir. |

**Motivasiya**

**BİBÖ** cədvəli qurulur:

| TƏQVİM HAQQINDA NƏ BİLİRİK? | | |
|---|---|---|
| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
| | | |

**Oxu**

Mətnin oxunması üçün **Qeyd götürməklə oxu** üsulu tətbiq edilir. Bunun üçün şagirdlərə açar sözlər verilir və bildirilir ki, mətni oxuduqdan sonra bu anlayışları izah etməlidirlər. Mətndən açar sözləri izah edən və əsaslandıran fikirlər seçilməlidir.

1. Təqvimi zəruri edən səbəblər
2. Günəş təqvimi
3. Ay təqvimi
4. Yulian təqvimi
5. Qriqorian təqvimi
6. Miladi tarix
7. Hicri tarix

Şagirdlər mətni oxuduqca, ilk növbədə, bu anlayışlarla bağlı olan əsas məlumatları vərəqdə qeyd etməlidirlər.

**(St.2.2.2)** Mətn oxunduqdan sonra şagirdlərə bir neçə cümlə verilir və tapşırılır ki, bu cümlələri müvafiq abzaslardan sonra keçid cümlə kimi artırsınlar.



LAYİHƏ

Nümunə üçün aşağıdakı cümlələr təklif olunur (müəllim cümləları dəyişə bilər):

1. Bu işarələr onlara bəzi işlərdə kömək etsə də, il haqqında tam təsəvvür yaratmırdı.
2. Buna görə də misirlilərə dəqiq təqvim lazım idi.
3. Lakin hər adam təqvimin yaranma tarixini bilmir.
4. Bu təqvimin meydana gəlməsi misirlilərin bir çox işlərini asanlaşdırdı.
5. Bu təqvim qriqorian təqvimi adlanır.
6. Buna görə də Günəş təqvimində daha bir dəqiqləşdirmə aparmaq zərurəti yarandı.

**Müəllimin nəzərinə!**
Mətn məqsədli şəkildə elə yazılmışdır ki, bəzi abzaslardan sonra bir və ya bir neçə cümlə əlavə etmək mümkündür. Şagirdlərə cümlələr təqdim edilir və onlardan məzmuna uyğun olaraq abzaslara əlavə etmək tapşırılır.

(St. 2.2.3) **Fənlərarası inteqrasiya (Xarici dil).** 1-ci mətndaxili tapşırığı yerinə yetirmək üçün şagirdlər Azərbaycan dilindəki “ay” sözünü bildikləri xarici dillərdəki analoji sözlə müqayisə edirlər. Bir çox dillərdə “ay” anlayışı həm göy cismi, həm də zaman vahidi kimi eyni sözlə və ya eyniköklü sözlərlə ifadə olunur. Məsələn, rus dilində – “месяц”, ingilis dilində – “moon”, “month” və s. Belə bir nəticə çıxarmaq olar ki, bu eyniliyin səbəbi Ay təqviminin hər iki anlayışı özündə ehtiva etməsidir.

**Fənlərarası inteqrasiya** (**Riyaziyyat. VII sinif.** 4.1.1. Eyniadlı kəmiyyətlərin ölçü vahidlərinin birindən digərinə keçir). 2-ci mətndaxili tapşırığı yerinə yetirmək üçün şagird riyazi bacarıqlarından istifadə etməlidir. Belə ki, əgər Ay təqvimində il 12 aydan, hər ay orta hesabla 29 sutka 12 saatdan ibarətdirsə, deməli, ildə 354 gün var. Günəş təqvimində isə ildə 365 gün 6 saat vardır. Beləliklə, fərq 11-12 gün edir.

Bu tapşırıqdan sonra müəllim şagirdlərin diqqətini “gecikir” sözünə yönəldib bu sözün dırnaq içində yazılmasının səbəbini soruşa bilər. Bu sual həmin hissədəki məlumatların dərindən dərkini tələb edir. Məsələ burasındadır ki, əslində, Sirius ulduzu gecikmirdi, misirlilərin təqvimi tələsirdi, çünki onlar 6 saatı nəzərə almamışdılar.

3-cü mətndaxili sualın cavabı 3 sutkadır. 11 dəqiqə 14 saniyə 400 ildə 3 sutka edir.

**Müəllimin nəzərinə!**
Bir ildə 11 dəqiqə 14 saniyə 400 ildə 269 600 saniyə, yəni təxminən 3 sutka edir. Bu dəyişiklik 1600-cü ildən tətbiq edildiyinə görə təqvim 12 gün geri çəkilir.
Ümumiyyətlə, tarixdə “yeni stil” adlandırılan qriqorian təqvimi ilə bağlı



LAYİHƏ

məlumatlar bu mətnin ən mürəkkəb hissəsidir. “Yeni stil”dəki düzəliş ondan ibarətdir ki, hər 4 əsrdən üçünün sonuncu ilində fevralın 29-u ləğv edilir, bununla da təqvimdə artıq qalan üç sutka silinir. Məsələn, 2000-ci ildə fevral 29 gündən ibarət oldu deyə, 2100, 2200 və 2300-cü illərdə bu ay 28 gündən ibarət olacaq (yulian təqviminə görə isə 29 gündən ibarət olmalı idi). Lakin bu fakt müvafiq yaş qrupu tərəfindən çətin mənimsənilə bilər, ona görə də mətnə salınmamışdır.

4-cü tapşırıq şagirddən diqqətli oxu tələb edir. Mətndə yazılmışdır ki, kahinlər Sirius ulduzunun gecikməsini görəndə anlayırlar ki, il 365 gün və 6 saatdan ibarətdir. Bu saatlar da dörd ildə bir sutka edir.

**Fənlərarası inteqrasiya (Tarix. VI sinif.** 1.1.1.Tarixdə il hesabından istifadə edir**)**. 5-ci suala cavab vermək üçün şagird aldığı məlumatları ümumiləşdirib nəticə çıxarmalıdır:

• Hicri-qəməri tarix Ay təqviminə, miladi tarix Günəş təqviminə əsaslanır.

• Miladi tarix il hesabı sayılır. Bu tarixin yanvarın 1-dən başlanmasını bəzi mənbələrdə İsa peyğəmbərin doğum günü ilə əlaqələndirirlər. Hicri tarix Məhəmməd peyğəmbərin Məkkədən Mədinəyə 622-ci ildə hicrət etməsi ilə bağlıdır.

• Bundan əlavə, hicri-qəməri tarixin hər 34 ili miladi tarixin 33 ilinə bərabərdir.

**Müəllimin nəzərinə!**

Hamının hər il qarşılaşdığı bir fakt var ki, Ramazan və Qurban bayramları əvvəlki ildən 11 gün fərqlənir. Bunun niyə belə olduğunu bilmək üçün hicri-qəməri tarixi miladi tarixə çevirmək lazımdır. Hicri-qəməri tarixdə göstərilən tarixi miladi tarixə çevirmək üçün xüsusi düstur mövcuddur:

$$H - \frac{H}{33} + 622 = M$$

$$M - 622 + \frac{M - 622}{32} = H$$

Nəzərə almaq lazımdır ki, 7-ci sinif şagirdi tarix fənnindən islam tarixini də öyrəndiyindən, çox güman ki, bu düsturla tanışdır.

6-cı sual mətndəki məlumatlardan nəticə çıxarmaq bacarığı tələb edir. Şagirdlər mətndən artıq bilirlər ki, bu gün istifadə etdiyimiz təqvim qriqorian təqvimidir. Yulian təqvimi ilə bu təqvim arasında 13 gün fərq var. Belə çıxır ki, bir çox insanlar qeyri-rəsmi olaraq yeni ili yulian təqvimi ilə də qeyd edir və buna “köhnə yeni il” deyirlər.



LAYİHƏ

## Yazı

**(St. 3.1.2)** 8-ci tapşırıq. Şagirdlərə tapşırılır ki, oxuduqları mətni tezislər şəklində yığcam yazsınlar. Sonra aşağıdakı mətn oxunur. Şagirdlər bu mətndən də ən vacib hissələri tezis şəklinə salıb əsas mətnin tezislərinə əlavə etməlidirlər.

*Qədim Romada Ay təqvimindən istifadə edilirdi. Ayın doğması ilə yeni il başlayırdı. İl isə mart ayından başlayırdı. Ay təqvimi üzrə ilin uzunluğu 354 sutkaya bərabərdir. Bu təqvim Günəş təqvimindən 11 sutka qısadır. Bu təqvim dəqiq deyildi və il hesabında problemlər yaradırdı. M.ə. I əsrdə təqvimi tərtib edən kahinlər tamamilə çaşbaş qalmışdılar.*

*M.ə. 48-ci ildə Misirə hərbi yürüş edən Qay Yuli Sezar elm mərkəzi olan İsgəndəriyyə şəhərinə daxil oldu. O, burada bir il qaldı. Bu vaxt ərzində yerli təqvimi öyrənən Sezar onun üstünlüklərinə əmin oldu. Romaya qayıtdıqdan sonra o, yunan astronomlarının köməyi ilə bu təqvimə düzəlişlər etdi: artıq qalan beş günü aylar üzrə paylaşdırdı. Beləliklə, bəzi aylarda 30, bəzilərində 31 gün oldu. Yalnız fevralın "bəxti gətirmədi". Onun payına 28 gün düşdü. Bu təqvim tarixə yulian təqvimi kimi daxil oldu.*

*Yeni ilin yanvarın 1-dən başlaması Fransada VIII əsrdə, İspaniyada 1556-cı ildən, Almaniyada 1621-ci ildən, Rusiyada isə 1700-cü ildən (I Pyotrun islahatına əsasən) həyata keçirilmişdir.*

## Danışma

**(St. 1.2.2)** Debat keçirməyi nəzərdə tutan 7-ci tapşırıq şagirdlərdən müxtəlif sahələr üzrə biliklərindən istifadə etməklə mühakimə yürütmək bacarığı tələb edir.

**Müəllimin nəzərinə!**

Sovet dövründə rus dili və elmi təfəkkürünün təsiri ilə elmi ədəbiyyatda yaranmış ənənəyə görə, Azərbaycan dilində də "bizim eradan əvvəl" (b.e.ə.) və ya "eramızdan əvvəl" (e.ə.) ifadələri işlənirdi. Lakin aydın məsələdir ki, bu ifadə daha çox xristian yanaşmasından irəli gəlir, çünki İsa Məsihin doğumu ilə – Miladla bağlıdır. Müsəlman xalqı olaraq bizim bu il hesabına "bizim era" deməyimiz düzgün olmazdı. Əslində, müsəlmanların erası Hicrətdən – Məhəmməd peyğəmbərin Mədinəyə köçməsindən başlayır. Digər tərəfdən, Azərbaycanda hicri-qəməri təqvimdən istifadə olunmur. Ona görə də tarixdə il hesablarına istinad edərkən onları öz tarixi adları ilə – "Milad" və "Hicrət" sözləri ilə adlandırmaq daha düzgün olardı.

## Dil qaydaları

**(St. 4.1.2)** 9-cu tapşırıq dil qaydalarına keçid məqsədi daşıyır. Bu tapşırığı yerinə yetirməklə şagird bağlayıcıların cümlədə funksiyasını dərk edir, bu nitq hissəsinin mahiyyətinə varır.



LAYİHƏ

10-11-ci tapşırıqları yerinə yetirməklə şagirdlər bağlayıcıları yerli-yerində işlətmək bacarığına yiyələnirlər.

12-ci tapşırıqda cümlədə eyni funksiya daşıyan bağlayıcılar aşkar edilir.

"və ya" – "yaxud" (1 – B);
"O cümlədən" – "eləcə də" (2 – D);
"İlə" – "və" (3 – A);
"Lakin" – "fəqət" (4 – C).

Bu bağlayıcıların nə üçün bir-birini əvəz edə bildiyini şagirdin yaxşı dərk etməsi üçün onların diqqətini həmin bağlayıcıların cümlədə hansı qrammatik məna yaratmasına yönəltmək lazımdır. Belə ki, "və ya", "yaxud" bölüşdürmə, "o cümlədən", "eləcə də" iştirak, "ilə", "və" birgəlik, "lakin", "fəqət" qarşılaşdırma mənası verir. Bağlayıcıların qrammatik məna yaratmasını izah etmək üçün müəllim müxtəlif yollardan istifadə edə bilər. Məsələn: "Şeirdə və ya musiqidə də elmə rast gəlmək olur" cümləsində "o cümlədən" bağlayıcısını işlətsək, cümlənin mənasında müəyyən dəyişiklik yaranacaqdır. Əgər birinci halda şeir və musiqi ayrı-ayrı anlayış kimi nəzərdə tutulubsa, ikinci halda hər ikisi eyni səviyyədə qəbul edilmiş kimi görünür.

Şagirdlərə əlavə məlumat kimi demək lazımdır ki, bağlayıcılar, əsasən, sözlərdən ayrı yazılır. Yalnız "ilə" bağlayıcısının ixtisar forması (*-la,-lə*) sözlərə bitişik şəkildə yazılır. "İlə" bağlayıcısının ixtisar formasını qoşmadan fərqləndirmək üçün onu "və" bağlayıcısı ilə əvəz etmək lazımdır.

Bundan əlavə, qeyd etmək lazımdır ki, "və" bağlayıcısını cümlədə vergül işarəsi ilə əvəz etmək olar.

13-cü tapşırıqda şagirdlər verilmiş aforizmləri şərh etməli və *isə* bağlayıcısına dair sualları cavablandırmalıdırlar.

Qırmızı ulduz işarəsi ilə verilmiş sualı cavablandırarkən şagirdlər diqqət yetirməlidirlər ki, adətən, bağlayıcılar əlaqə yaratdıqları cümlələr və cümlə üzvlərindən əvvəl işlənir, *isə* bağlayıcısı əlaqə yaratdığı sözlərdən sonra işlənir; məsələn: *Hamı ilə görüşdüm, **ancaq** səni görə bilmədim.*
*Hamı ilə görüşdüm, səni **isə** görə bilmədim.*

*İsə* bağlayıcısı *amma, ancaq, lakin, fəqət* bağlayıcıları ilə sinonim sayıla bilər. Bunu yoxlamaq üçün şagirdlərə cümlə qurmaq və bağlayıcıları bir-biri ilə cümlə daxilində əvəz etmək tapşırılmalıdır.

## Qiymətləndirmə

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.

LAYİHƏ

## Dərs 23. YAZI – PİKTOQRAMDAN HƏRFLƏRƏ (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Tanış olmadığı sözlərin kontekstə görə mənasını təxmin edir və lüğətin köməyi ilə dəqiqləşdirir. |
| 2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir. | Mətnə yeni məlumatlar əlavə edərkən hissələr arasında əlaqə yaradır. |
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Əlavə mənbələrdən istifadə etməklə elmi mətndəki əsas fikri daha qabarıq nəzərə çatdırır. |
| 3.1.2. Topladığı fakt və hadisələrə münasibət bildirməklə mətni zənginləşdirir. | Mövzu üzrə verilmiş məlumatları müvafiq hissələrə əlavə etməklə mətni yeni tezislərlə zənginləşdirir. |
| 4.1.3. Köməkçi nitq hissələrinin işlənmə məqamından asılı olaraq durğu işarələrindən istifadə edir. | Bağlayıcılardan əvvəl və sonra durğu işarələrinin işlənməsi qaydalarına riayət edir. |

**Motivasiya**



Lövhədən ədalət ilahəsi Femidanın şəkli asılır. Bu şəkil haqqında şagirdlərin bilikləri yoxlanılır və ya fərziyyələr söyləmək tapşırılır:

– Sizcə, şəkildə kim təsvir olunub?
– Əlindəki tərəzi və qılınc nəyi bildirir?
– Nə üçün qadının gözü bağlıdır?

(Ədalət ilahəsi olan Femidanın əlindəki tərəzi ədalət simvolu, qılınc – ədalətin bərpası simvolu, gözün bağlı olması qərəzsizlik, bitəreflik simvoludur.)

Daha sonra aşağıdakı şəkillərin mənası soruşulur.





Şəkillər üzrə ümumiləşdirmə aparılır və nəticə çıxarılır: – *Konkret varlıqları əks etdirən şəkillər vasitəsilə mücərrəd anlayışları ifadə etmək olar.*

**Oxu**

**(St. 2.1.1, st. 2.2.3) Fəndaxili şaquli inteqrasiya (VI sinif.** 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır). Sinif dörd qrupa bölünür. Hər qrupa mətnin bir hissəsini oxumaq və həmin hissəyə uyğun açar sözlər seçmək tapşırılır. Qrupların hər biri oxuduğu hissədəki açar



LAYİHƏ

sözlərin mənasını kontekstə görə müəyyənləşdirir və 1-ci tapşırıqdan istifadə etməklə izahları dəqiqləşdirir.

Qruplar öz işlərini təqdim etməzdən əvvəl açar sözləri izahlarla birlikdə zəncirvarı şəkildə bir-birinə ötürür: 1-ci qrup 2-ciyə, 2-ci 3-cüyə, 3-cü 4-cüyə, 4-cü 1-ciyə. Hər qrup açar sözlərdən istifadə edərək həmin hissənin məzmununu təxmin edir və bunun əsasında mətn qurub danışır. Daha sonra həmin hissəni oxumuş qrup təqdimat edir. Təqdimatlar (mətnlər) müqayisə olunur. Qruplar bir-birini qiymətləndirir. (*Açar sözlər düzmü seçilib? Məzmun düzmü təxmin edilib?*)

Şagirdlər təxminlərini təqdim edərkən mətndə öz əksini tapmayan, lakin mövzu ilə bağlı olan vacib məqamlar da səslənə bilər. Həmin hissəni oxumuş qrup bu məqamları qeyd etməli, əgər onlar mətndəki əsas fikri daha dolğun ifadə etməyə imkan verirsə, təqdimat zamanı həmin məqamları nəzərə almalıdır.

**Müəllimin nəzərinə!**

Nəzərə almaq lazımdır ki, şagirdlər qədim dünya xalqlarının mədəniyyətini öyrənərkən bu mətndə əks olunmuş bir sıra məlumatlarla tanış olublar. Ona görə də açar sözlərdən istifadə etməklə bu sahədəki biliklərini nümayiş etdirə bilərlər.

Şagirdlərin tərtib etdikləri açar sözlərin siyahısına nəzarət etmək lazımdır. Yaxşı olar ki, siyahıda aşağıdakı sözlər də əks olunsun:

**I hissə üçün:** *qaya rəsmləri, piktoqram, piktoqrafiya.*
**II hissə üçün:** *yazı sisteminin yaranması, Misir, Çin, heroqlif.*
**III hissə üçün:** *şumerlər, mixi yazı, gil lövhələr, Assuriya, Aşşurbanipal.*
**IV hissə üçün:** *fonoqrafik yazı, Finikiya, əlifba.*

Sonda şagirdlər mətndəki məlumatlardan çıxış edərək heroqlifləri, mixi yazını, piktoqrafik və fonoqrafik yazını 2-ci tapşırıqda verilmiş şəkillərlə uyğunlaşdırmalıdırlar. (A – 4;  B – 1;  C – 3; D – 2)

**Fəndaxili üfüqi inteqrasiya.** **(St. 2.2.2, st. 3.1.2)** 3-cü tapşırıq yerinə yetirilərkən qruplarla işi davam etdirmək olar. Şagirdlər bu tapşırıqda verilmiş məlumatları mətndəki müvafiq hissəyə əlavə edərkən onları əlaqələndirmək üçün keçid cümlələr yazmalı, inteqrasiya etdikləri cümləni kontekstə uyğunlaşdırmalıdırlar.

**Dil qaydaları**

**(St. 4.1.3)** 4-cü tapşırıq dil qaydalarına keçid məqsədi daşıyır.

5-ci tapşırıq şagirdə nəzəri məlumatla tətbiqetməni birləşdirmək məqsədi daşıyır. Şagird tezis şəklində verilmiş cümləni oxuyur və uyğun gələn cümlə ilə birləşdirərək qeydiyyat aparır.

Bütün bunlardan əlavə, şagirdlərə izah etmək lazımdır ki, bağlayıcılar təkcə cümlə üzvləri və cümlələri deyil, abzasları da bağlaya bilər.



LAYİHƏ

**Müəllimin nəzərinə!**

Şagirdlər mürəkkəb cümlə anlayışı ilə hələ dərindən tanış deyillər. Dərsliyin son bölmələrində bu mövzunu keçəcəklər. Bu dərsdə şagirdlərə yalnız izah etmək lazımdır ki, iki qrammatik əsası olan cümlələr də var və bağlayıcılar bu cümlələr arasında işlənə bilir. Gələcəkdə bu mövzu dərinləşdiriləcəkdir.

Bundan əlavə, bağlayıcı cümlənin əvvəlində də işlənə bilər; nümunə: *Adi adam cəmiyyətə uyğunlaşmağa, güclü şəxsiyyət isə cəmiyyəti özünə uyğunlaşdırmağa çalışır. Buna görə də dünyada tərəqqi və dəyişikliklər güclülərin əlindədir. Görünür, dünyada ən ədalətlə paylanmış nemət ağıldır. Çünki heç kəs ağlının azlığından şikayət etmir.*

6-cı tapşırıq mənimsənilmiş dil qaydalarının yazılı nitqdə tətbiqini tələb edir.

**Qiymətləndirmə**

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.



LAYİHƏ

## Dərs 24. QƏDİM YAZI MATERİALLARI (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir. | Keçid cümlələr əlavə etməklə mətnin tərkib hissələrini əlaqələndirir. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Tanış olmadığı sözlərin kontekstə görə mənasını təxmin edir və lüğətin köməyi ilə dəqiqləşdirir. |
| 3.1.2. Topladığı fakt və hadisələrə münasibət bildirməklə mətni zənginləşdirir. | Mövzu üzrə verilmiş məlumatları müvafiq hissələrə əlavə etməklə mətni yeni tezislərlə zənginləşdirir. |
| 1.1.2. Dinlədiyi fikrin inandırıcı və əsaslandırılmış olub-olmamasını müəyyənləşdirir. | Dinlədiyi mətndəki məlumatların əvvəl əldə etdiyi biliklərə nə dərəcədə uyğun gəldiyini müəyyənləşdirir. |
| 4.1.4. Nitq hissələrinin yazılışı ilə bağlı qaydalara əməl edir. | Mürəkkəb bağlayıcıları orfoqrafik qaydaya uyğun şəkildə yazır. |

**Motivasiya**

Lövhədə müxtəlif şəkillər verilir: daş, ağac, qaya, vərəq, dəri, papirus.

**Tapşırıq.** *Tarixin müxtəlif dövrlərində bu materiallardan yazı yazmaq üçün istifadə edilib. Onları xronoloji ardıcıllıqla düzün.*

**Oxu**

**(St. 2.2.2)** Sinif mətnin hissələrinə uyğun olaraq dörd qrupa bölünür. Mətn **Ziqzaq** üsulu ilə oxunur. Ekspertlər "doğma" qrupa qayıtdıqdan və qrup daxilində təqdimatlar edildikdən sonra 1-4-cü suallar cavablandırılır və mətnin hissələri keçid cümlələr vasitəsilə əlaqələndirilir.

**(St. 2.1.1)** 5-ci tapşırıqda verilmiş sözlərin mənası kontekstə görə müəyyən olunur və lüğətin köməyi ilə dəqiqləşdirilir.

**Yazı**

**(St. 3.1.2)** Hər qrupa mətnin bir hissəsi ilə bağlı əlavə mətn təqdim olunur və tapşırılır ki, onlara təqdim edilmiş mətndən istifadə etməklə dərslikdəki mətnin müvafiq hissəsini genişləndirsinlər.

I qrup (I hissə – gil, daş):

*Daş kitabələr xalqın tarixini öyrənmək üçün ilkin və ən dəqiq mənbələrdən biridir. Azərbaycanın müxtəlif guşələrində, o cümlədən Bakıda, İçərişəhərdə tarixi-memarlıq abidələri üzərindəki yazılar həmin dövrün hökmdarları, sənət adamları, tarixi hadisələri haqqında dəyərli məlumatlar verir.*

II qrup (II hissə – papirus):

*Bir sıra mənbələrdə qeyd edilir ki, məşhur alim Maninin (216-276) kitabları da papirus vərəqlərində yazılmışdır. Əsərləri Azərbaycanda və bütün dünyada*



LAYİHƏ

*böyük şöhrət qazanmış Mani 216-cı ildə Azərbaycanın Həmədan şəhərində doğulmuş, sonralar Babilə köçmüşdür. Müəyyən edilmişdir ki, Misirdə tapılmış 20 min papirus vərəqdən ibarət 7 kitabın müəllifi Manidir.*

*Papirus üzərində yazıları araşdıran papirologiya elmi də öz adını bu sözdən almışdır.*

III qrup (III hissə – perqament):

*Evmenin ixtirasından xeyli əvvəl də heyvan dərisindən yazı üçün istifadə olunurdu. Məsələn, məlumdur ki, Zərdüştün "Avesta" kitabı 12 min inək dərisi üzərində yazılmışdı. Nəzərə alsaq ki, Miladdan öncə IV əsrdə İranı zəbt etmiş Makedoniyalı İsgəndər "Avesta"nın bir hissəsini yandırmış, bir hissəsini dənizə atdırmışdı, deməli, dəri üzərində yazının tarixi daha uzaq keçmişə aiddir.*

IV qrup (IV hissə – ipək):

*Ərəb səyyahlarının verdiyi məlumatlara görə, orta əsrlərdə Bərdədə, Ərdəbildə, Şamaxıda istehsal olunan ipək parça və boyaq Azərbaycandan xeyli uzaqlarda şöhrət tapmışdı. Şirvan ipəyinin tərifi isə hələ ərəb xilafətindən əvvəl bütün Şərqə yayılmışdı. IX əsrdən dünyada tanınan Şamaxı ipəyi Rusiyadan başqa, Asiya və Avropanın bir çox ölkələrinə göndərilirdi.*

**Dinləmə**

**(St. 1.1.2)** Hər qrup oxuduğu hissəni əlavə edilmiş yeni məlumatla birlikdə sinfə təqdim edir. Dərslikdəki mətnlə tanış olan digər qruplar burada hansı məlumatın yeni olduğunu, bu məlumatın əsas mövzu ilə necə bağlandığını müəyyənləşdirir. Bu tapşırıq şagirddə həm müxtəlif mənbələrdən alınmış məlumatları ümumiləşdirib (uyğunlaşdırıb) mətn şəklinə salmaq, həm diqqətli oxu, həm də dinləyib-anlama bacarığını inkişaf etdirir.

**Dil qaydaları**

**(St. 4.1.4)** 6-cı tapşırıq dil qaydalarına keçid məqsədi daşıyır. Şagirdlər müəyyən edirlər ki, bəzi bağlayıcılar bir neçə sözdən ibarət olur.

7-ci tapşırıqda nöqtələrin yerinə qoşa işlənən mürəkkəb bağlayıcılar yazılmalıdır.

1 – həm, həm də; 2 – həm, həm də; 3 – gah, gah da, gah da ki;

4 – nə, nə də; 5 – ya, ya da

8-ci tapşırıq. Şagirdlər, adətən, mürəkkəb bağlayıcıların yazılışında səhvə yol verirlər. Bu tapşırıq mürəkkəb bağlayıcıların yazılış qaydalarını mənimsəməyə və yazılı nitqdə tətbiqinə xidmət edir.

**Qiymətləndirmə**

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.



LAYİHƏ

## Dərs 25. EYNŞTEYN DƏRSLƏRİNDƏN "2" ALIRDI? (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Verilmiş əlavə məlumatın mətndəki hansı fikri əsaslandırdığını müəyyənləşdirir. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Cümlədəki fikri izah etməklə tanış olmadığı sözün mənasını anladığını nümayiş etdirir. |
| 1.1.2. Dinlədiyi fikrin inandırıcı və əsaslandırılmış olub-olmamasını müəyyənləşdirir. | Dinlədiyi mətndəki məlumatların əvvəl əldə etdiyi biliklərə nə dərəcədə uyğun gəldiyini müəyyənləşdirir. |
| 3.1.1. Verilmiş mövzunu müxtəlif yazı formalarında (ifadə, inşa, esse, hekayə) ifadə edir. | Tarixi şəxsiyyət haqqında əldə etdiyi məlumatlardan çıxış edərək onun haqqında hekayə yazır. |
| 4.1.3. Köməkçi nitq hissələrinin işlənmə məqamından asılı olaraq durğu işarələrindən istifadə edir. | Bağlayıcılardan əvvəl və sonra durğu işarələrinin işlənməsi qaydalarına riayət edir. |

**Motivasiya**

Bu mətn bir qədər fərqli başlanğıca malikdir. Mətnin əvvəlində motivasiya xarakterli lətifə verilmişdir. Lətifə Eynşteyn haqqındadır və burada böyük alimin düşüncə tərzi, onun özünəməxsus təfəkkürü haqqında şagirdlərdə təsəvvür formalaşdırılır.

– *Alimin özünəməxsus yanaşma tərzi özünü nədə göstərir?*

**Müəllimin nəzərinə!**

Belə mətnlər, bir növ, epiqraflı mətnlərə bənzəyir. Fərq ondan ibarətdir ki, epiqraf mətnin ideyası ilə bağlı olur, motivasiya tipli lətifə və ya hər hansı bir hadisənin təsviri isə oxucunu mətni oxumağa sövq edir.

**Oxu**

**(St. 2.2.3)** Mətn səsli oxu ilə oxunur. Əvvəlcədən şagirdlərə belə bir cədvəl təqdim edilir. Şagirdlər mətni oxuyandan sonra bu cədvəli doldururlar.

| Albert Eynşteyn | | | | |
|---|---|---|---|---|
| Milliyyəti | Yaşadığı ölkə | Təvəllüdü | Maraqları | Xarakterinə xas olan cəhətlər |
| | | | | |

**(St. 2.1.1)** 1-ci tapşırıq. Şagirdlər mətni oxuduqca tanış olmayan sözlərin mənasını lüğətdən tapır və onların işləndiyi cümlələrin mənasını izah edirlər.

Şagirdlərə "Müəllimləri də Albertə eyni "məhəbbətlə" yanaşırdılar" cümlə-



LAYİHƏ

sində sözün nə üçün dırnaq içərisində verildiyini izah etmələri tapşırılır (məcazi mənada işləndiyi üçün).

2-ci tapşırıqda sillogizmi tamamlamaq tapşırılmışdır:

**I mühakimə:** Qay Yuli Sezar "Qall müharibəsi haqqında" əsərini latın dilində yazmışdı.

**II mühakimə:** A.Eynşteyn Sezarın "Qall müharibəsi haqqında" əsərini orijinaldan oxuyurdu.

**Nəticə:** A.Eynşteyn latın dilini bilirdi.

**(St. 2.2.3)** 4-cü tapşırığın məqsədi şagirdlərdə əlavə məlumatı uyğun gələn hissəyə əlavə etməklə mətni zənginləşdirmək bacarığını inkişaf etdirməkdir. Birinci lətifə mətnin sonuncu hissəsində ilk abzasdan sonra, ikinci lətifə isə həmin hissədə ikinci abzasdan sonra əlavə edilməlidir. Şagirdlər tapşırığı yerinə yetirdikdən sonra yeni faktların mətndəki hansı fikri əsaslandırdığını müəyyənləşdirirlər.

**Dinləmə**

**(St. 1.1.2)** Tapşırıq: *Mətnlərə diqqətlə qulaq asın. Hər mətndə alimin hansı xüsusiyyətindən bəhs edildiyini, bu məlumatların onun tərcümeyi-halına və xarakterinə uyğun gəlib-gəlmədiyini müəyyənləşdirin. Dərslikdəki mətndən əldə olunmuş informasiya ilə müqayisə edin və münasibət bildirin.*

Sonra aşağıdakı mətnlər bir-bir oxunur.

Eynşteynin orta məktəbdə pis oxuması haqqında fikri daha çox zəif şagirdlərdən və ya onların parlaq gələcəyinə ümidlərini itirməmiş valideynlərdən eşitmək olar. Alimin bəzi bioqrafları da onun tərcümeyi-halını yazarkən yanlışlığa yol veriblər. Məsələn, onlardan biri İsveçrənin orta məktəblərində tətbiq olunan bal sistemini alman məktəblərindəki bal sistemi ilə səhv salaraq dahi fizikin aşağı qiymətlərlə oxuduğunu yazıb.

(Mətnə görə, Eynşteyn orta məktəbdə heç də pis oxumayıb.)

***

1922-ci ildə artıq dünya miqyasında tanınmış Eynşteyn gənc bir alimin astronomiya sahəsindəki yeniliklərini tənqid edir. Gənc astronom ona məktub yazaraq öz nəzəriyyəsini ətraflı şəkildə izah edir. Bundan sonra Eynşteyn mətbuatda çıxış edərək gənc həmkarından üzr istəmiş və onun elmi fikirlərinə dəstək vermişdir.

("Eynşteyn təkəbbürdən uzaq adam idi. Həmişə deyirdi ki, o da səhv edə bilər və əgər, doğrudan da, səhv edirdisə, bunu hamının qarşısında etiraf edirdi".)

***

1934-cü ildə ABŞ-da yaşayanda Eynşteyn nasist Almaniyasından qaçmış elm və incəsənət xadimlərinə yardım üçün xeyriyyə konserti vermiş, bu konsertdə şəxsən özü skripkada Mosartın əsərlərini ifa emişdi.

(Almaniyada faşist partiyası hakimiyyətə gələndə böyük alim doğma ölkəsini tərk etməli oldu.)



LAYİHƏ

***

Bir qadın rəfiqələrinin yanında özünü çox ağıllı göstərmək üçün Eynşteynə yaxınlaşıb soruşur:

– Bağışlayın, siz mənə zamanla əbədiyyət arasındakı fərqi başa sala bilərsiniz?

– Bilirsiniz, – deyə Eynşteyn cavab verir, – bu fərqi başa salmaq üçün mənim zamanım çatsa idi belə, onu anlamaq üçün sizə əbədiyyət lazım gələrdi.

("Bu dahi haqqında lətifələrin çox olması, bəlkə də, onun özünün dərin yumor hissinə malik olmasından irəli gəlirdi".)

**Yazı**

Çaplinlə Eynşteynin yazışmasını oxuyarkən şagirdlərin diqqətini teleqramın yazılmasına yönəltmək olar. Şagirdlər "Polyanna" mətnindən teleqramın yazılması qaydası ilə artıq tanış olmuşlar. Teleqramdakı yazının qısa və lakonik olmasını bir daha onların nəzərinə çatdırmaq lazımdır.

**(St. 3.1.1)** Şagirdlərə tapşırılır ki, Eynşteynin tərcümeyi-halı və xarakteri haqqında aldıqları məlumatlar əsasında məktəbli Albert Eynşteyn haqqında hekayə yazsınlar. Bununla bağlı müəllim şagirdlərə bəzi təlimatlar verə bilər.

**Dil qaydaları**

**(St. 4.1.3)** 5-ci tapşırıq bağlayıcılardan əvvəl və sonra vergülün işlənməsi qaydalarına aiddir. 6-cı tapşırıqda şagirdlərdən tələb olunur ki, cümlələrin mənasından çıxış edərək uyğun gələn hissələrə bağlayıcılar artırsınlar və durğu işarələrini yerində işlətsinlər.

**Qiymətləndirmə**

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh.18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.

**Dərs 26. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)**

Bu dərs müvafiq bölmədə reallaşdırılmış məzmun standartları üzrə bacarıqların möhkəmləndirilməsi üçün nəzərdə tutulmuşdur. Şagirdlərə aşağıdakı mövzu üzrə esse yazdırmaq tövsiyə olunur: ***"Həyatımda etdiyim hansı səhv hərəkətimi düzəltmək istərdim".***



LAYİHƏ

## IV BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

1-4-cü tapşırıqlar mətnlə bağlıdır.

### İKİ QARDAŞ

İki qardaş müdrik bir qocadan onları şagird götürməyi xahiş etdi. Lakin qocanın yalnız bir şagird saxlamaq imkanı var idi. Buna görə də düzgün seç... etmək üçün qardaşları sınamaq qərarına gəldi.

Qoca, qardaşların hərəsinə bir tapşırıq verdi. Bir qədər keçmiş onlara yaxınlaşıb su gətirməyi xahiş etdi. Qardaşlardan biri o dəqiqə su dalınca getdi, o biri isə yerində qaldı və əvvəlki işini davam etdirdi.

Gənc suyu gətirib işini davam etdirmək istəyirdi ki, qoca, qardaşlardan damı təmir etməyi xahiş etdi. ______________________________ qardaş vedrələri yerə qoyub dama çıxdı, o biri qardaş yenə öz işində idi.

Bundan **sonra** ağıllı qoca əyilmiş çəpəri düzəltməyi xahiş etdi. ______________________________ qardaş işini yarımçıq qoyub aşağı endi.

Qoca yenə damından şikayət edəndə ______________________________ qardaş heysiz halda yerə çökdü.

İkinci qardaş isə işini qurtarıb əvvəl damı, **sonra** çəpəri təmir etdi.

Qoca öz yanında həmin qardaşı saxladı.

**1.** 1-ci abzasda nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır?

A) *-kı*$^4$ B) *-ıcı*$^4$ C) *-ım*$^4$ D) *-ma*$^2$

**2.** Aşağıdakı ifadələri uyğun gələn boşluqlara yazın.

*damın üstündəki* *çəpəri düzəltməyə çalışan* *su gətirən*

**3.** Sizcə, nə üçün qoca öz yanında ikinci qardaşı saxladı?

______________________________________________________________

______________________________________________________________

**4.** Qoşma kimi işlənmiş “sonra” sözünün altından xətt çəkin.

**5.** Qoşmaların yazılışında buraxılmış səhvi düzəltməklə misraları köçürün.

*…Səninçün bitibsə, amma mənimçün*
*Bitməyib, yaşayır bu günüm hələ.* (B.Vahabzadə)

______________________________________________________________

______________________________________________________________

İndi isə qoşmaların aid olduğu sözləri əvvəl çıxışlıq, sonra yönlük halda işlədin. Halllara uyğun olaraq elə qoşmalar işlədin ki, cümlə öz mənasını itirməsin.

______________________________________________________________



LAYİHƏ

**6.** Nöqtələrin yerinə hansı bağlayıcılar yazılmalıdır?

*Dostluğa ... qul, ... ağa lazımdır. O, bərabərliyi sevir. (İ.Qonçarov)*

A) nə, nə də  B) həm, həm də  C) ya, ya da
D) gah, gah da  E) və, və ya

**7.** Hansı cümlələrdə *ilə* bağlayıcı (B), hansında qoşma (Q) kimi işlənib?

| | | |
|---|---|---|
| 1. A) Onunla söhbətim uzun çəkdi. | B | Q |
| B) Onunla mənim söhbətim yarımçıq qaldı. | B | Q |
| 2. A) Otağa girməyi ilə çıxmağı bir oldu. | B | Q |
| B) Otağa girməyi ilə səs-küy kəsildi. | B | Q |
| 3. A) Elmlə başqalarının nəzərində ucalmaq olar. | B | Q |
| B) Elmlə əxlaq insanın bəzəyidir. | B | Q |
| 4. A) Bir gül ilə bahar olmaz. | B | Q |
| B) Bu kitabla qələm sənindir. | B | Q |

**8.** Bağlayıcılardan əvvəl və ya sonra buraxılmış vergülləri artırıb yazın.

1. Tox elə bilir ki heç acmaz,
   Ac elə bilir ki heç doymaz.
2. Ya əlini kəs ya ətəyini.
3. Bir tövlədə at da olar eşşək də.
4. Bağban tələsər ancaq armud vaxtında yetişər.
5. Dostuna sirr vermə çünki dostunun da dostu var.
6. Dairənin nə başı var nə ayağı.
7. Kəndin ağsaqqalları habelə gəncləri meydana toplaşdılar.

**9.** “Ki” bağlayıcısı işlənmiş cümləni tapın (durğu işarələri buraxılmışdır).

A) Evə gəlməyəcəksən ki?
B) Məktəbə ona görə getdim ki elm öyrənim.
C) Madam ki istəmir, qoy getməsin.
D) Mən ki səni yaxşı tanıyıram.
E) İndi ki belə oldu, biz də öz bildiyimizi edərik.

**10.** “Biz onun barəsində dostundan başqa kimsə ilə danışmadıq” cümləsində qoşmaların məna növlərini müəyyənləşdirin.

A) fərqləndirmə
B) aidlik
C) birgəlik
D) məsafə
E) zaman

LAYİHƏ

# V BÖLMƏ

## DƏYƏRLƏRİMİZ

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | MMV səh. |
|---|---|---|---|---|---|
| 27. | **Həsrət**<br>*Ədat və onun məna növləri* | 2.2.3, 2.1.2, 3.1.3, 4.1.2 | 3 | 104-107 | 115-117 |
| 28. | **Səkkiz və tariximiz**<br>*Ədatların orfoqrafiyası* | 2.1.1, 2.2.2, 2.2.3, 3.1.2, 4.1.4, 4.1.2 | 3 | 108-110 | 118-120 |
| 29. | **Şəki Xan sarayı**<br>*Modal sözlər* | 2.2.2, 2.2.3, 2.1.1, 1.2.4, 4.1.2 | 3 | 111-114 | 121-122 |
| 30. | **Dünya 20 Yanvardan necə xəbər tutdu**<br>*Modal sözlərdə durğu işarələrinin işlənməsi* | 2.2.1, 2.1.1, 1.2.1, 1.1.2, 3.1.4, 4.1.3 | 4 | 115-117 | 123-127 |
| 31. | **Neft daşları**<br>*Nida* | 1.1.2, 2.2.3, 1.2.2, 2.1.1, 3.1.1, 4.1.2, 4.1.3 | 4 | 118-122 | 128-132 |
| 32. | **Ümumiləşdirici təkrar** | | 2 | 123-124 | 132 |
| | **Kiçik summativ qiymətləndirmə** | | 1 | | 133-134 |
| | **Yekun** | | **20 saat** | | |



LAYİHƏ

## Dərs 27. HƏSRƏT (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Mövzu üzrə biliklərindən istifadə etməklə mətndəki fikrə münasibətini əsaslandırır. |
| 2.1.2. Mətndəki sözlərin həqiqi və ya məcazi mənada işləndiyini izah edir. | Mətndəki frazeoloji birləşmənin ifadə etdiyi mənanı müəyyənləşdirir. |
| 3.1.3. Qurduğu plan əsasında mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirir. | Müxtəlif mənbələrdən topladığı materialları sistemləşdirərək rabitəli mətn yazır. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Ədatları və onların məna növlərini fərqləndirir. |

**Motivasiya**

Lövhədə aşağıdakı şəkillər nümayiş etdirilir (şəkillər "Vikipediya"dan, "Qarabağ atı" məqaləsindən götürülmüşdür. İnternetə çıxış olan siniflərdə onları monitor vasitəsilə də nümayiş etdirmək olar). Müəllim şəkillərə qısaca şərh verir. Sol tərəfdəki gerb vaxtilə "Qarabağ" futbol klubunun loqotipi olub. Digər şəkillər isə müxtəlif illərdə buraxılmış Azərbaycan poçt markalarıdır.

**Sual:** *Sizcə, nəyə görə bu şəkillərdə at təsvir olunub? Bu nə atıdır?*







Müzakirələr yolu ilə şagirdlər bu qənaətə gəlirlər ki, Qarabağ atı Azərbaycanın simvollarından, dəyərlərindən, xalqımızın qürur mənbələrindən biridir. Müəllim bu prosesdə VI sinifdə keçilmiş "İnşa" mətnini xatırladır. (Bu mətndə hekayənin qəhrəmanı Qarabağ atçılıq zavodu yaradır.)

**Oxu**

**(St. 2.2.3)** Mətn **Proqnozlaşdırılmış oxu** üsulu ilə oxudulur. Bunun üçün oxu prosesini aşağıdakı mərhələlərə bölmək təklif olunur.

**İlk addım.** Şagirdlərə çatdırılır ki, mətn hissələrlə oxunacaq (mətndaxili suallar mətni dörd hissəyə bölür).



LAYİHƏ

**İkinci addım.** Lövhədə aşağıdakı kimi bir cədvəl çəkilir.

| | Sizin fikrinizcə, nə baş verəcək? | Niyə belə düşünürsünüz? | Əslində, nə baş verdi? |
|---|---|---|---|
| Başlığı oxuduqdan sonra | | | |
| İlk hissəni oxuduqdan sonra | | | |
| 2-ci hissəni oxuduqdan sonra | | | |
| 3-cü hissəni oxuduqdan sonra | | | |
| Bütün hekayəni oxuduqdan sonra | | | |

**Üçüncü addım.** Mətnin başlığı oxunur. Mətnə aid çəkilmiş şəklə baxırlar. Mətndə nədən danışılacağı barədə təxminlər soruşularaq “Sizin fikrinizcə, nə baş verəcək?” sütununda qeyd edilir. Onların niyə belə düşündükləri isə “Niyə belə düşünürsünüz?” başlığının altında qeyd edilir.

**Dördüncü addım.** Mətnin 1-ci hissəsi oxunur. Mətndaxili sual cavablandırılır. Şagirdlərin verdikləri proqnozun özünü necə doğrultduğu yoxlanılır. Onların cavabları “Əslində, nə baş verdi?” başlığının altında qeyd edilir.

**Beşinci addım.** Növbəti hissədə nə baş verəcəyi soruşulur. Eyni qaydada proqnozlar və həmin proqnozu irəli sürməyə əsas verən dəlillər uyğun başlıqların altında yazılır. 2-ci mətndaxili sual cavablandırılır.

Digər hissələr də bu qaydada oxunduqdan sonra aşağıdakı sxem üzrə hekayə xəritəsi tərtib olunur.

| Hadisələrin baş verdiyi | | Obrazlar | |
|---|---|---|---|
| məkan | zaman | baş qəhrəman | digər obrazlar |
| | | | |

| Hadisələrin dinamikası | | | | |
|---|---|---|---|---|
| Ziddiyyətin başlandığı hadisə | → | Ziddiyyətin ən kəskin yeri | → | Ziddiyyət necə həll olundu? |
| | | | | |

<u>5-ci tapşırığı</u> yerinə yetirərkən şagirdlər Qarabağ konfliktinin tarixi kökləri barədə fikirlərini açıqlamalıdırlar.

**Söz ehtiyatı**

**(St. 2.1.2)** <u>4-cü tapşırıqda</u> “dilini tapmışdı” frazeoloji birləşməsinin hansı mənanı ifadə etdiyi müəyyənləşdirilir. Belə ki, “atın dilini tapmışdı” ifadəsində



LAYİHƏ

atın yeni sahibi atı ram etmək üçün vəziyyətdən çıxış yolu kimi onunla Azərbaycan dilində danışırdı. “Fikir götürdü” də frazeoloji birləşmədir və burada birləşmənin ikinci tərəfi məcazi mənada işlənmişdir. Sonra şagirdlərə mətndən frazeoloji birləşmələrə aid başqa nümunələr də tapmağı tapşırmaq olar (*torpağın soyuğu canına işləyirdi və s.*).

## Yazı

**(St. 3.1.3)** 6-cı tapşırığa əsasən, şagirdlər Qarabağ atları haqqında məlumat toplayaraq təqdimat hazırlamalıdırlar. Əlbəttə, bunun üçün ən zəngin mənbə internet materialları ola bilər. Bununla yanaşı, müəllim B.Vahabzadənin “Qarabağ atı” şeirini də tapıb araşdırmaya cəlb etməyi tapşıra bilər. Bu şeir mövzu etibarilə (qürbətdə həsrət çəkən Qarabağ atı) “Həsrət” mətni ilə bağlıdır. Şeirdə 1956-cı ildə İngiltərə kraliçasına hədiyyə olaraq göndərilmiş “Zaman” adlı Qarabağ atından danışılır. Xüsusilə aşağıdakı misralar dərslikdəki mətnlə çox səsləşir:

*İstəyir ki, ayağının altındakı*
*Böyüdüyü torpaq olsun.*
*İstəyir ki, belindəki*
*Yarışlarda nəmər alan jokey deyil,*
*Vuruşlarda zəfər çalan*
*igid olsun!*

## Dil qaydaları

**(St. 4.1.2)** 7-ci tapşırıq dil qaydaları üçün motivasiya rolunu oynayır. Mətndə göy rənglə verilmiş sözlər ixtisar edilərək oxunur, baş vermiş məna və intonasiya dəyişikliyi izah edilir. Müəllim qeyd edir ki, cümlədəki fikrin daha təsirli ifadə olunmasına xidmət edən ədatlar cümlədən çıxarıldıqda məna dəyişikliyi baş vermir, yalnız emosionallıq azalır. İlkin məlumatla kifayətlənən müəllim şagirdlərə ədatları yerli-yerində işlətməyi (8-ci tapşırıq), cümlələrdə ədatları və onların məna növlərini müəyyənləşdirməyi, yeni cümlələrdə işlətməyi (9-10-cu tapşırıqlar) tapşırmaqla onların məntiqi və yaradıcı təfəkkürünü inkişaf etdirə bilər. Çalışmada ədatların məna növlərini müəyyən edərək cədvələ yazmaq tələb edilir. Bu zaman çalışmaq lazımdır ki, şagirdlər etdikləri seçimi əsaslandırsınlar.

Ədatların məna növlərini (xüsusən də əmr, qüvvətləndirici və arzu ədatlarını) müəyyənləşdirərkən onların işləndiyi cümlədə feillərin şəkilləri əsas rol oynayır. 11-ci tapşırıq üzərində aparılacaq iş şagirdlərdə həmin bacarıqları formalaşdırmağa imkan verir.

## Qiymətləndirmə

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.



LAYİHƏ

## Dərs 28. SƏKKİZ VƏ TARİXİMİZ (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Tanış olmadığı sözlərin kontekstə görə mənasını təxmin edir və lüğətin köməyi ilə dəqiqləşdirir. Tanış olmadığı sözün lüğətdə verilmiş izahları içərisindən kontekstə uyğun olanını müəyyən edir. |
| 2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir. | Mətnin hissələrini məzmununa uyğun adlandırır. Mətnin müxtəlif hissələrindən topladığı faktları bir-biri ilə əlaqələndirir. |
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Mövzu üzrə biliklərindən istifadə etməklə mətndəki fikrə münasibətini əsaslandırır. |
| 3.1.2. Topladığı fakt və hadisələrə münasibət bildirməklə mətni zənginləşdirir. | Müxtəlif mənbələrdən istifadə etməklə mətni genişləndirir. |
| 4.1.4. Nitq hissələrinin yazılışı ilə bağlı qaydalara əməl edir. | Ədatların yazılışı qaydalarına əməl edir. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Qrammatik omonimlik təşkil edən sözləri nitq hissələrinə görə fərqləndirir. |

### Motivasiya

Müəllim şagirdlərə "Üç" nədir?" deyə müraciət edir. Çox güman ki, "rəqəm", "ikidən böyük, dörddən kiçik rəqəm", "say", "miqdar sayı" kimi cavablar səslənəcək. Daha sonra müəllim "Atalar üçdən deyib" ifadəsini söyləyərək şagirdləri bu rəqəmin işləndiyi məqamları xatırlamağa sövq edir. Şagirdlər bir sıra idman yarışlarında hər idmançıya 3 cəhd verildiyini, ən yüksək nəticə qazanan 3 idmançının medallarla mükafatlandırıldığını, nağıllarımızda padşahların 3 oğlu, ya 3 qızı olduğunu, özü də ən ağıllı, ən güclü, ən gözəl məhz üçüncünün olduğunu, nağılın sonunda göydən üç alma düşdüyünü və s. söyləyə bilərlər. Sonda 3-ün pozitiv xarakter daşıması, müsbət duyğular yaratması, insanlar tərəfindən ən çox sevilən rəqəm olması qənaətinə gələ bilərlər.

### Oxu

**(St. 2.2.2, st. 2.2.3)** Mətnin abzasları ayrı-ayrı şagirdlər tərəfindən oxunur. Hər abzasdan sonra buradakı əsas fikir müəyyənləşdirilir. Abzaslar məzmununa uyğun adlandırılır. Məsələn:



LAYİHƏ

I abzas – Rəqəmlərin gizli mənaları;
II abzas – 8 rəqəminin rəmzi mənaları;
III abzas – Tarixi günlərimizdə 8 rəqəmi;
IV abzas – Musiqi bayramımız;
V abzas – Zəfər günü.

Təqdim edilən adlandırılma nümunə xarakteri daşıyır. Şagirdlər öz versiyalarını söyləyə bilərlər.

Mətnin hər hissəsinin oxusundan sonra şagirdlər bildiklərindən və həyatda gördüklərindən misallar gətirməklə burada deyilənlərlə bağlı fikirlərini ifadə edirlər. 3-cü abzasın məzmunu tarix fənni ilə inteqrasiya yaratmağa imkan verdiyi üçün şagirdlər burada adıçəkilən tarixi hadisələri bildikləri əlavə fakt və məlumatlarla zənginləşdirə bilərlər. 4-cü abzasın oxusundan sonra isə Üzeyir Hacıbəyli və onun əsərləri haqqında bildiklərini xatırlayaraq musiqi bayramımızın onun doğum günündə keçirilməsi ideyasına münasibətlərini ifadə edərlər.

**Söz ehtiyatı**

**(St. 2.1.1)** 2-ci abzasın oxusu zamanı burada işlənmiş "assosiasiya" sözü ilə bağlı 2-ci tapşırığın yerinə yetirilməsi tövsiyə olunur. Bu sözün mətndəki mənasının düzgün qavranılması mətnin ümumi leytmotivinin müəyyənləşdirilməsi üçün vacibdir.

**Müəllimin nəzərinə!**

Sözün mənasını daha yaxşı izah etmək üçün müəllim loto oyununu xatırlada bilər. Bu oyun zamanı bəzən rəqəmlərin yerinə onlarla assosiasiya olunan anlayışların adları səsləndirilir. Məsələn, göydən düşən almalar (3), həftə (7), sutka (24), dişlərin sayı (32), Əlibabanın quldurları (40) və s.

Mətnin oxusu bitdikdən sonra **Düşün və cavab ver** rubrikasında təqdim olunmuş tapşırıqlar yerinə yetirilir. Şagirdlər 3-cü tapşırıqdakı suala cavab verərkən mövzu üzrə biliklərindən istifadə edə bilərlər. 4-cü tapşırığı sillogizm qurmaqla yerinə yetirmək olar.

**Sillogizm.**

**I mühakimə:** 1995-ci ildə Üzeyir Hacıbəylinin yubileyi keçirilmişdir.

**II mühakimə:** Yubiley bəstəkarın anadan olmasının 110 illiyinə həsr olunmuşdur.

**Nəticə:** Ü.Hacıbəyli 1885-ci ildə anadan olmuşdur.

**Yazı**

**(St. 3.1.2)** 5-ci tapşırıq araşdırma tələb etdiyinə görə ev tapşırığı kimi verilməsi tövsiyə edilir.



LAYİHƏ

## Dil qaydaları

**(St. 4.1.4)** 6-cı tapşırıqla müvafiq nəzəri materialın mənimsədilməsi üçün motivasiya yaratmaq olar. Cümlədə göy rənglə verilmiş *-ca*$^2$ hissəciyinin şəkilçiyə və ədata aid xüsusiyyətləri araşdırılır (sözə bitişik yazılmaqla şəkilçiyə, sözün təsir gücünü artırmaqla ədata bənzəyir).

Müəllim ədatların yazılışı ilə bağlı, eləcə də təsdiq və inkar ədatlarının cümlədə vergüllə ayrılması qaydalarını izah etdikdən sonra çalışmalar üzərində iş aparılır. 7-ci tapşırıq çatdırılmış məlumatların bacarıqlara çevrilməsinə şərait yaradır. 8-ci tapşırıq bayatıdakı ədatları tapmağı nəzərdə tutur. Kontekstdəki yerinə istinad edərək “barı” sözünün hansı misrada ədat olduğunu müəyyən etmək çox da çətin deyil (sonuncu misra). Tapşırığın ikinci hissəsi bir qədər araşdırma tələb edir. Məlumdur ki, feilin əmr və arzu şəkilləri birinci şəxsin cəmində fonetik tərkib etibarilə eynidir. Onları birgə işləndikləri müvafiq ədatlarla fərqləndirmək olur. Bayatıda isə “gəzək” feili həm əmr (*gəl*), həm də arzu (*barı*) ədatları ilə işləndiyindən feilin şəklini müəyyən etmək mümkün olmur. Tapşırığın məqsədi bu mümkünsüzlüyün səbəbini müəyyənləşdirməkdir.

**(St. 4.1.2)** 9-cu tapşırıq debat xarakteri daşıyır. Qrammatik omonimlik yaradan “bir” sözünü məqsəddən və intonasiyadan asılı olaraq həm ədat, həm də say kimi qəbul etmək üçün arqumentlər tapmaq mümkündür.

## Qiymətləndirmə

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.



LAYİHƏ

## Dərs 29. ŞƏKİ XAN SARAYI (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir. | Mətnin hissələrini məzmununa uyğun adlandırır. |
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Mətndəki müxtəlif faktlara münasibət bildirərkən digər fənlər üzrə biliklərinə istinad edir. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Tanış olmadığı sözlərin mətndəki mənasını dəqiqləşdirir və yeni kontekstdə mənasına uyğun işlədir. |
| 1.2.4. Müzakirələrdə deyilmiş müxtəlif fikirlərə münasibət bildirir. | Söylənilmiş rəyə münasibət bildirməklə fikri zənginləşdirir. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Modal sözləri və onların məna növlərini fərqləndirir. |

### Motivasiya

Müəllim sinfə müraciət edir: *"Şəki Xan sarayı haqqında nə bilirsiniz?"*
Alınan cavablar **BİBÖ** cədvəlinin birinci sütununa qeyd edilir.

| ŞƏKİ XAN SARAYI HAQQINDA NƏ BİLİRSİNİZ? | | |
|---|---|---|
| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
| | | |

Çalışmaq lazımdır ki, bu istəklər sırasına Şəki Xan sarayının inşa tarixi, quruluşu, sarayı inşa edənlər haqqında fikirlər də daxil edilsin.

### Oxu. Söz ehtiyatı

**(St. 2.2.2; 2.2.3; 2.1.1)** Mətndə Şəki Xan sarayı ilə bağlı müxtəlif xarakterli məlumatlar var. Mətn üzərində iş apararkən bu məlumatları qruplaşdırıb dəyərləndirməklə yanaşı, həmin məlumatları həyati faktlarla əlaqələndirmək də lazımdır. Ona görə də mətni **Ekspertlərlə müzakirə** metodu ilə oxutmaq olar. Görüləcək iş istiqamətlər üzrə qruplaşdırılır. Aşağıdakı istiqamətləri müəyyən etmək olar:

1. *Tarixi faktları araşdıranlar*
2. *Dizayn elementlərini araşdıranlar*
3. *Sarayın memar və rəssamlarını tədqiq edənlər*
4. *Əlaqə axtaranlar*
5. *Lüğətçilər*

Qruplarda ekspertlər müəyyənləşdirilir. Eyni sahə üzrə ekspertlərdən ibarət ekspert qrupları formalaşdırılır.

***Tarixi faktları araşdıranlar*** mətndən Şəki Xan sarayının inşa tarixi, sarayı tikdirən şəxs(lər)in kimliyi, həmçinin onlar haqqında söylənilən fikirləri mətndən tapır və qeydlər götürürlər.



LAYİHƏ

***Dizayn elementlərini araşdıranlar*** sarayın quruluşu, onun dizayn elementləri ilə bağlı faktları müəyyənləşdirir, qruplaşdırır və qeydlər götürürlər.

***Sarayın memar və rəssamlarını tədqiq edənlər*** sarayın inşasında rolu olan müxtəlif sənətkarlar haqqında məlumatları toplayıb sistemləşdirirlər.

***Əlaqə axtaranlar*** 2-ci mətndaxili tapşırığın tələblərindən irəli gələn vəzifələri yerinə yetirirlər. Bu ekspert qrupunun tərkibini müəyyən edərkən şagirdlərin bacarığına fikir vermək yaxşı olar. Həmin ekspertlər təsviri incəsənət fənnindən keçdiklərinə istinad edərək Şəki Xan sarayında olan nəbati və həndəsi naxışlar haqqında məlumatlar hazırlayır, onu Azərbaycanın qədim sənətlərindən biri olan xalçaçılıqla da əlaqələndirirlər.

***Lüğətçilər*** isə mətndəki *orijinal, buxarı* və *taxça* sözlərinin kontekstdəki mənasını dəqiqləşdirir və onları yeni cümlələrdə işlədirlər.

Ekspertlər "doğma" qruplarına qayıtdıqdan sonra mətn haqqında bütöv mənzərə yaratmaq imkanı qazanır. Hər bir ekspert əldə etdiyi məlumatı "doğma" qrupda təqdim etdikdən sonra müəllim mətnin hər bir hissəsinə ad verməyi tapşıra bilər (5-ci tapşırıq).

## Danışma

**(St. 1.2.4)** Tədqiqatın nəticəsi müzakirə olunur. Ekspertlərin çıxışlarını dinləyən digər şagirdləri də müzakirəyə cəlb etməklə fikir müxtəlifliyinə və rəngarəngliyinə nail olmaq mümkündür.

4-cü tapşırıq araşdırma tələb etdiyindən evdə işləmək təklif edilə bilər.

## Dil qaydaları

**(St. 4.1.2)** 7-ci tapşırıqdan dil qaydaları üçün motivasiya kimi istifadə etmək olar. Şagirdlər kontekstdən asılı olaraq nöqtələrin yerinə *təəssüf ki, əlbəttə ki* sözlərini artırırlar. Müəllimin yönəldici sualları ilə şagirdlər bu cür sözlər vasitəsilə danışanın ifadə etdiyi fikrə münasibət bildirdiyini anlayırlar.

8-ci tapşırığın icrası zamanı şagirdlər yeni aldıqları məlumata əsasən verilmiş cümlələrdə danışanın modal sözlər vasitəsilə ifadə etdiyi fikrə hansı münasibət bildirdiyini müəyyənləşdirirlər.

9-cu tapşırıqda isə nöqtələrin yerinə təklif edilmiş modal sözlərdən uyğun gələnlərini artırmaq lazımdır. Bu zaman şagirdlər modal sözlərin işlənmə məqamlarını müəyyənləşdirirlər.

## Qiymətləndirmə

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.

LAYİHƏ

## Dərs 30. DÜNYA 20 YANVARDAN NECƏ XƏBƏR TUTDU (4 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.1. Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur. | Təsvir edilən hadisələrə münasibətini ifadə etmək üçün mətni müvafiq səs tonu, temp və fasilələrlə oxuyur. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Tanış olmadığı sözlərin kontekstə görə mənasını təxmin edir və lüğətin köməyi ilə dəqiqləşdirir. |
| 1.2.1. Fikrini müxtəlif formalarda ifadə edir. | Müxtəlif mənbələrdən topladığı məlumatları məruzə şəklində təqdim edir. |
| 1.1.2. Dinlədiyi fikrin inandırıcı və əsaslandırılmış olub-olmamasını müəyyənləşdirir. | Dinlədiyi mətndəki məlumatların əvvəl əldə etdiyi biliklərə nə dərəcədə uyğun gəldiyini müəyyənləşdirir. |
| 3.1.4. Müxtəlif əməli yazılar (teleqram, izahat) yazır. | Məqsəddən asılı olaraq əməli yazının növünü, forma və məzmununu müəyyənləşdirir. |
| 4.1.3. Köməkçi nitq hissələrinin işlənmə məqamından asılı olaraq durğu işarələrindən istifadə edir. | Modal sözlərin işlənmə yerindən asılı olaraq durğu işarələrindən istifadə edir. |

**Motivasiya**

Şaxələndirmə texnikasından istifadə edərək motivasiya yaratmaq olar.




"KİV nədir?" sualına alınan cavablar sırasında radio adı da çəkildikdən sonra yenidən sual verilir:

– *KİV-in ictimai fikrin formalaşmasında, cəmiyyətin məlumatlandırılmasında rolu haqda nə deyə bilərsiniz.*

**Oxu**

**Fəndaxili şaquli inteqrasiya** (VI sinif. 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır). Mətn **Cütlüklərdə oxuma – cütlüklərdə ümumiləşdirmə** texnikası ilə oxunur.



LAYİHƏ

Əvvəlcə şagirdlər bütün mətni səssiz oxuyurlar. Sonra mətni oxuyub sual hazırlamaq üçün hər cütlüyə (şagirdlərin sayı çox olarsa, bir neçə cütlüyə) bir abzas tapşırılır. Cütlüklərə tapşırılır ki, müvafiq hissəni oxuduqdan sonra onun məzmun və mahiyyətini açıqlayan iki və ya daha artıq sual tərtib etsinlər.

İş davam etdirilir. Tapşırığı yerinə yetirmək üçün vaxt müəyyənləşdirilir. Hər bir abzas səssiz oxunur. Müəyyən edilmiş vaxt ərzində cütlüklər abzası oxuyur, sual hazırlayır, ümumiləşdirmələr aparırlar.

**(St. 2.2.1)** Cütlüklərin təqdimatları dinlənilir. Vətənpərvərlik ruhunda yazılmış bu mətn ekspressiv hissələrlə zəngindir. Bu da 2.2.1 standartını reallaşdırmağa imkan verir. Müəllim şagirdlərə tapşırır ki, abzasları oxuyarkən hislərini gizlətməsinlər, düzgün səs tonu seçməklə, temp və fasiləni gözləməklə mətndəki hadisələrə və obrazlara münasibətlərini ifadə etsinlər.

Sual-cavab prosesində sualların əhatəli, düşündürücü olmasına, ümumiləşdirmələrin düzgün aparılmasına diqqət yetirilir. Lazım gəldikdə səsləndirilmiş abzas üzrə sual vermək üçün başqa cütlüklərə də müraciət etmək olar.

Bu dərsdə oxu üzrə müsabiqə keçirmək də yerinə düşərdi. Müsabiqənin meyarları barədə əvvəlcədən şagirdləri xəbərdar etmək lazımdır:

1. Mətni oxuyan səs tonu, temp və fasilələrlə hiss-həyəcanını ifadə edə bildimi?
2. Qoyulmuş suallar parçadakı əsas fikri müəyyən etməyə nə dərəcədə yardım edir?
3. Ümumiləşdirmə mətndəki əsas məlumatları və fikri əhatə etdimi?

**Söz ehtiyatı**

**(St. 2.1.1)** Mətndə olan *“fövqəladə vəziyyət”*, *“enerji bloku”*, *“senzura”*, *“senzor”*, *“praporşik”* söz və ifadələri (1-ci tapşırıq) kontekstdəki roluna istinadən izah edilir. Çətinlik çəkilən məqamlarda müəllim istiqamət verə bilər. Məsələn, “praporşik” sözünün hərbi rütbə olduğunu ehtimal edən, lakin onu dəqiqləşdirməkdə çətinlik çəkən şagirdə müəllim xatırlada bilər ki, həmin hərbi rütbə rus-sovet ordusunda olub. Milli ordumuzda “gizir” rütbəsinə uyğun gəlir.

Mətndəki “sapı özümüzdən olan baltalar” ifadəsinin (2-ci tapşırıq) özünün və onun tərkibindəki “sap” sözünün ifadə etdiyi anlayışları dəqiqləşdirmək üçün İ.Şıxlının “Sapı özümüzdəndir...” əsərini dinləmə materialı kimi oxumaqla nəticə çıxarmaq olar.

### SAPI ÖZÜMÜZDƏNDİR...

Bir gün meşəyə qeyri-adi səs yayıldı. Yaxınlıqda ağac qırırdılar, amma taqqıltı səsi ağacların bu zamana qədər eşitdiklərinə bənzəməyən bir səs idi. Bu səs getdikcə meşə sakinlərini təşvişə saldı. Ağacların sultanı, dünyanı yorub yola salmış qoca Palıdın qaşları çatılmışdı. Bir qədər sonra taqqıltını



LAYİHƏ

iniltili bir xarıltı əvəz etdi. Qoca Palıda bir anlığa elə gəldi ki, ayağının altından yer qaçdı və beynində dolaşan müdhiş fikirdən vahimələndi.

Meşəni lərzəyə salan bu səsin nə olduğunu və haradan gəldiyini öyrənmək üçün qoca Palıd səs gələn tərəfə çaparlar yolladı. Geri dönən çaparlar bəd xəbərlərlə qayıtdılar. Dedilər ki, insanlar yaxınlıqdakı meşəni qırır və bu işi əl boyda dəmir parçası ilə görürlər. Qoca Palıd həmin dəmir parçasının qocaman ağacı necə kəsdiyinə təəccüb etdi. Bu zaman çaparlar baltanın uzun sapının olduğunu dedilər. Sonra da izah etdilər ki, həmin sap olmasa, dəmir balta ilə heç nə etmək mümkün olmaz. Bunu eşitcək qoca Palıdın gözlərinə qaranlıq çökdü, səsi titrədi. O, birtəhər özünü ələ alıb:

– Bəs baltanın sapı nədəndir? – deyə təlaşla xəbər aldı.

Baltanın sapının ağacdan olduğunu öyrənən qoca Palıd çox qüssələndi, iri şaxəli budaqlarını astadan tərpədərək dərindən bir “ah” çəkdi və dərdli-dərdli:

– Elədirsə, hamımızı qırıb məhv edəcəklər, – dedi.

Niyəsini soruşanda isə dünyagörmüş qoca Palıd dedi:

– Çünki sapı özümüzdəndir...

Mənası: *özünə yaxın bildiyin adamın dönüklüyü, xəyanəti daha ağır olur.*

Şagirdlər mətni dinlədikdən sonra onun məzmununun “sapı özümüzdən olan baltalar” məsəlinin mənasına və işlənmə məqamına nə dərəcədə uyğun gəldiyini müəyyənləşdirirlər.

**Danışma**

**(St. 1.2.1)** 3-cü tapşırığın icrası zamanı şagirdlər sillogizm qurmaqla Azərbaycan radiosunun ilk dəfə efirə çıxdığı tarixi müəyyən edirlər. Bu zaman onlar fikirlərini əsaslandırmaq üçün faktlardan çıxış edir, mühakimələrini məntiqi ardıcıllıqla səsləndirirlər.

**Sillogizm.**

**I mühakimə:** 20 Yanvar faciəsi 1990-cı ildə baş vermişdir.

**II mühakimə:** həmin ildə radio 64 il idi ki, fəaliyyət göstərirdi.

Nəticə: Azərbaycan radiosu 1926-cı ildə fəaliyyətə başlamışdır.

4-cü tapşırığın icrası əlavə fakt və materiallara müraciət tələb edir. Bu zaman tarix dərsliklərinə, eləcə də müxtəlif KİV-ə, internet resurslarına müraciət etmək, evdə böyüklərlə məsləhətləşmək olar.

Tapşırıq araşdırma tələb etdiyindən ev tapşırığı kimi verilir.

**Dinləmə**

**(St. 1.1.2)** Oxunmazdan əvvəl müəllim şagirdlərin nəzərinə çatdırır ki, mətndə faktlar çoxdur. Dinləyərkən vacib faktların (əsasən, rəqəm və adların) qeydiyyatı aparılmalıdır. Mətni dinlədikcə oradakı məlumatları dərslikdəki mətnlə müqayisə etmək üçün şagirdlərə aşağıdakı nümunə əsasında cədvəl qurmaq tapşırılır:



LAYİHƏ

| Yeni məlumatlar | Dərslikdəki mətnlə səsləşən məlumatlar |
|---|---|
| | |

## AZƏRBAYCAN RADİOSU

6 noyabr 1926-cı il idi. Həmin gün respublika paytaxtının küçə və meydanlarında qurulmuş reproduktorlardan ilk dəfə “Danışır Bakı!” sözləri ətrafa yayıldı. Bu, Azərbaycan radiosunun səsi idi. Radioya təkcə Bakıda deyil, ətraf yaşayış məntəqələrində də qulaq asa bilirdilər. Bu hadisə Azərbaycan xalqının siyasi və mədəni həyatında böyük bir yenilik idi.

Bakı studiyası əvvəlcə “İsmailiyyə” binasının üçüncü mərtəbəsində cəmi üç otaqda fəaliyyət göstərirdi.

İlk vaxtlar öz verilişlərini gündə bir saat ərzində yayan Bakı studiyası bir aydan sonra verilişlərinin həcmini 3 saata çatdırmışdı. Həftədə bir dəfə axşam saat 9-da tanınmış şairlər mikrofon qarşısında çıxış edirdilər. Efirdə “Satira atəşi ilə”, “Ədəbiyyatın vəzifələri”, “Yeni həyat uğrunda”, “Radio saatı” kimi verilişlər səsləndirilirdi.

İlk verilişlərin hazırlanmasında Azərbaycan ədəbiyyatı və incəsənətinin görkəmli xadimləri fəal iştirak edirdilər. Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Səməd Vurğun, Hüseynqulu Sarabski, Bülbül, Mustafa Mərdanov və başqalarının hazırladıqları bədii və musiqili verilişlər dinləyicilərin böyük marağına səbəb olurdu. Verilişlərin səsləndiyi vaxt həmişə qələbəlik olan Sabir bağında iynə atsan, yerə düşməzdi. Skamyalarda yer tapa bilməyənlər ayaq üstə dayanıb qulaq asırdılar. Onlar yüksəklikdə quraşdırılmış böyük reproduktordan ətrafa yayılan musiqi sədalarını dinləməkdən zövq alırdılar.

1988-ci ildə başlanan Dağlıq Qarabağ münaqişəsi zamanı radio Azərbaycan xalqının maraqlarından çıxış etdi. Bu, 1990-cı ilin yanvarında özünü daha qabarıq şəkildə göstərdi. Televiziyanın enerji blokunu partladıb sıradan çıxaran işğalçı sovet hərbçiləri Azərbaycan radiosunun əməkdaşlarını da efirdən uzaqlaşdırdılar. Hərbi senzor radionun bütün fəaliyyətinə nəzarət edirdi.

Lakin həmin faciəli günlərdə Azərbaycan radiosunun xaricə yayım redaksiyası 20 Yanvar faciəsinin baş verməsini bütün təfərrüatı ilə dünyaya çatdıra bildi. Yanvarın 20-də köməkçisi ilə qəfildən radioya gələn Azərbaycan SSR Ali Sovetinin sədri Elmira Qafarova Azərbaycan və rus dillərində bəyanatlarla birbaşa efirdə çıxış etdi. Bildirdi ki, tökülən günahsız qanlara görə bütün məsuliyyət SSRİ orqanlarının və onların vəzifəli şəxslərinin üzərinə düşür. O, Azərbaycan xalqının öz oğul və qızlarının faciəli surətdə həlak olmasını heç kimə bağışlamayacağını bəyan etdi.

Həmin bəyanata istinadən hazırlanan məlumat yanvarın 21-də efirə veriləndə texniki işçilər onu lentə yazdılar və gün ərzində bir neçə dəfə səslən-



LAYİHƏ

dirməyə nail oldular. Xaricə yayım redaksiyası bu bəyanatı ərəb ölkələrinin, İranın Tehran, Təbriz və Türkiyənin Ankara radiosu vasitəsilə bütün dünyaya yaydı. Bakıdakı hərbi komendantlıq Azərbaycan radiosunun beynəlxalq yayım imkanına malik olduğunu tamam unutmuşdu.

**Yazı**

**(St. 3.1.4)** 5-ci tapşırığı yerinə yetirmək üçün müəllim şagirdlərə müəyyən istiqamətlər verə bilər. Şagirdlərə bildirilir ki, geniş yayım şəbəkəsi olan internetdə yerləşdirilən mesajlardan fərqli olaraq teleqram yalnız konkret ünvana (şəxsə) göndərilir. Bu isə, öz növbəsində, teleqram mətninin məzmununa da təsir edir. Ona görə də şagirdlər əvvəlcə yazacaqları teleqramın ünvanını müəyyənləşdirirlər; məsələn, xaricdə yaşayan qohuma (tanışa, dosta), beynəlxalq ictimai təşkilatlara, hər hansı ölkənin dövlət başçısına və s.

Beləliklə, bu fəaliyyət zamanı şagirdlərin diqqətini bir neçə məqama yönəltmək lazımdır:

1. İnformasiya vasitəsi (internet, yoxsa teleqram).
2. Yazının ünvanı.
3. Yazının məqsədi (məlumatlandırma, xahiş, çağırış).
4. Xəbərin həcmi – hadisə ilə bağlı ən vacib məlumatların seçimi.

**Dil qaydaları**

**(St. 4.1.3)** 6-cı tapşırıq motivasiya xarakterlidir. Mətndə göy rənglə verilmiş *yəqin* və *sanki* modal sözlərində durğu işarələrindən istifadə edilməsindəki fərq şərh edilir. Müəllim modal sözlərin cümlədə vergüllə ayrılması ilə bağlı qaydanı və istisnaları qeyd etdikdən sonra çalışmalar üzərində iş aparılır. 7-ci tapşırığın icrası zamanı əvvəlcə cümlələri oxutmaq lazımdır. Bu zaman diqqəti modal sözlərin işlənmə məqamında intonasiyaya yönəltmək və durğu işarələrindən istifadə etməklə cümləri dəftərə köçürmək lazımdır.

8-ci tapşırığın icrası zamanı fonetik tərkib etibarilə eyni olan “sözsüz” ifadəsinin kontekstə uyğun vəzifəsi müəyyən edilir. Şagird ifadənin modal söz və ya əsas nitq hissəsi olduğunu müəyyən etdikdən sonra fikrini əsaslandırmalıdır. Bunun üçün şagirdin diqqətini durğu işarələrinə yönəltmək lazımdır. Əslində, durğu işarələrini nəzərə almasaq, 1-ci nümunədəki “sözsüz” ifadəsini də modal söz kimi qəbul etmək olar.

**Qiymətləndirmə**

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.

LAYİHƏ

## Dərs 31. NEFT DAŞLARI (4 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 1.1.2. Dinlədiyi fikrin inandırıcı və əsaslandırılmış olub-olmamasını müəyyənləşdirir. | Dinlədiyi mətndəki məlumatların əvvəl əldə etdiyi biliklərə nə dərəcədə uyğun gəldiyini müəyyənləşdirir. |
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Əlavə məlumatlardan istifadə etməklə mətndəki qaranlıq məqamlara aydınlıq gətirir. |
| 1.2.2. Fikrini məntiqi ardıcıllıqla ifadə edir. | Müzakirə və ya debat zamanı fikrini əsaslandırarkən fakt və məlumatlardan məntiqi ardıcıllıqla istifadə edir. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Kontekstdən çıxış edərək çoxmənalı sözün mətndə hansı mənada işləndiyini müəyyən edir. |
| 3.1.1. Verilmiş mövzunu müxtəlif yazı formalarında (ifadə, inşa, esse, hekayə) ifadə edir. | Müxtəlif mənbələrdən fakt və məlumatlar toplayaraq verilmiş mövzunu inşa, esse, hekayə formasında ifadə edir. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Nidaların ümumi qrammatik mənasını müəyyənləşdirir. |
| 4.1.3. Köməkçi nitq hissələrinin işlənmə məqamından asılı olaraq durğu işarələrindən istifadə edir. | Nidaların işlənmə məqamından asılı olaraq durğu işarələrindən istifadə edir. |

### Motivasiya

Motivasiya BİBÖ cədvəli üzərində qurulur.

| NEFT DAŞLARI HAQQINDA NƏ BİLİRSİNİZ? | | |
|---|---|---|
| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
| | | |

"Neft daşları"nın əks olunduğu görüntülər nümayiş etdirilir. Bu, şəraitdən asılı olaraq, şəkil və ya videogörüntü də ola bilər. Müəllim eyni zamanda BİBÖ cədvəlindən də istifadə edir. Görüntülər haqqında nə bildiklərini soruşur. Alınan cavablar BİBÖ-nün birinci sütununda qeyd edilir. Görüntülərin "Neft daşları"na aid olduğu, onun nadir estakada-şəhər kimi Xəzər dənizində yerləşdiyi qeyd olunur. Şagirdlərin öyrənmək istədikləri ikinci sütunda qeyd edilir. Müəllim şagirdləri aşağıdakı suallarla istiqamətləndirə bilər:

- Xəzərdə neftin mövcudluğu nə vaxtdan məlum idi?
- Nə zaman dənizdən neft çıxarılması reallaşmağa başladı?
- Dənizdə ilk estakadalar nə vaxt quruldu?
- Başqa ölkələrdə də dəniz üzərində neft şəhəri varmı?



LAYİHƏ

## Oxu

**Fəndaxili şaquli inteqrasiya** (VI sinif. 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır). Mətn **Cütlüklərdə oxu – cütlüklərdə ümumiləşdirmə** texnikası ilə oxunur. “Neft daşları” mətni mətndaxili tapşırıqlarla bitkin hissələrə bölünmüşdür. Şagirdlər cütlüklərdə qruplaşdırıldıqdan sonra hər cütlüyə suallar qoymaq və ümumiləşdirmələr aparmaq üçün bir hissə verilir. Mətnin oxusu üçün ayrılmış vaxt bitdikdən sonra cütlüklər təqdimat edirlər. Mətni dinləyən digər cütlüklər öz suallarını verə, ümumiləşdirmələri korrektə edə bilərlər. Hər bir hissənin təqdimatından sonra yeni məlumatlar BİBÖ cədvəlinin üçüncü sütununa yazılır.

**Fəndaxili üfüqi inteqrasiya** (St. 1.1.2; 2.2.3). Mətndəki əsas məlumatlar şagirdlər tərəfindən tam qavranıldıqdan sonra müəllim Aleksandr Dümanın “Qafqaz səfəri” kitabından aşağıdakı parçanı səsləndirir. Müəllim şagirdlərə aşağıdakı suallara cavab vermək üçün qeydlər götürməyi tapşırır.

**Suallar:**

1. Dinləyəcəyiniz mətn “Neft daşları” mətnindəki hansı hissəyə uyğun gəlir?
2. Dərslikdəki “Neft daşları” mətnindən çıxış edərək “su qaynayan yer” deyəndə nəyin nəzərdə tutulduğunu izah edin.
3. “Neft daşları” mətninə verilmiş hansı suala dinləyəcəyiniz mətndə cavab var?

...Bizi gözləyən qayığa minib Bayıl burnuna yollandıq. Sakit, zil qaranlıq bir gecə idi. Kiçik bir dalğa vardı. Bu, küləyin yenidən başlayacağından xəbər verirdi. Biz tələsməli idik. Külək güclənsə, möcüzəni görmək imkanını əldən verərdik. **Su qaynayan yeri** axtarmağa başladılar. Oranı tapmaq çox da çətin olmadı. Neft və mazutun iyi elə bil bizə yol göstərirdi. Tezliklə dənizçilərdən biri kapitana dedi:

– Kapitan, elə buradır. Gəlib çıxmışıq.

– Lap yaxşı. Məharətini göstər!

Dənizçi əlindəki kağızları alışdırıb qayığın hər iki tərəfinə atdı. O saat ətrafımızda 250 metrə qədər məsafəni alov bürüdü. Buradan keçən nabələd adam təsadüfən dənizə yanan bir şey atsa, dəniz dərhal alovlanar. Onun qorxudan düşdüyü halı gözlərimin önünə gətirirəm.

Biz alovun içində irəliləyirdik. Xoşbəxtlikdən alov zəif idi. Onun istiliyini zorla hiss edirdik. Bizi çulğayan həyəcan azaldıqdan sonra bu qəribə mənzərəni daha diqqətlə izləyə bildik. Dəniz ala-tala yanırdı. Bu odlu talacıqların bəzisi ətrafında on iki nəfər otura biləcək dəyirmi masa, o birilər nohur boyda idi. Biz talacıqların arasından ötüb-keçirdik. Avarçəkənlər kapitanın əmri ilə hərdən bizi alov nohurunun içi ilə aparırdılar. Məncə, bu maraqlı və sehrli mənzərəyə dünyanın heç bir yerində rast gəlmək mümkün deyil. Küləyin və ləpələrin get-gedə gücləndiyini duymasaydıq, bəlkə də, bütün gecəni burada keçirərdik... Külək gücləndikcə əvvəlcə xırda alov adacıqları, sonra isə böyükləri sönməyə başladı...



LAYİHƏ

1-ci mətndaxili sualla dinləmə mətni üçün nəzərdə tutulan suallar bir-birinə yardımçı olaraq həmin hissəni zənginləşdirir və daha dərindən qavramağa imkan verir. “Su qaynayan yer” dənizin dibindən çıxan qaz qabarcıqlarına işarədir. Dinləmə mətninə diqqətlə qulaq asanlar isə 1-ci sualın cavabını tapa biləcəklər.

2-ci hissəni diqqətlə oxuduqdan sonra bu hissəyə qoyulmuş suala da (2-ci mətndaxili sual) cavab vermək mümkündür: Bibiheybət quyuları quruda qazılsa da, əvvəllər həmin yer dəniz olmuşdur. Bu isə dənizin dibində neft yataqlarının olduğunu göstərirdi. Buna görə də Bibiheybət neft quyuları dənizdə neft hasilatı üçün sınaq meydançası hesab edilirdi.

8-ci tapşırıq da əlavə faktları mətnin müvafiq hissələrinə artırmaqla mətni zənginləşdirməyi nəzərdə tutur. Burada verilmiş məlumat mətnin 4-cü hissəsinə əlavə edilməlidir. Mətn parçası üzərində işi tamamlamaq üçün müəllim aşağıdakı sualı şagirdlərə ünvanlaya bilər:

– *Sizcə, nə üçün bu tankeri dənizin dibindən çıxarmaq istəyirdilər?*

**Müəllimin nəzərinə!**

“Zərdüşt” tankeri dünyada ilk neft tankeri olduğuna görə tarixi əhəmiyyətə malik idi.

## Danışma

**(St. 1.2.2)** 3-cü hissədə altından xətt çəkilmiş cümlələrin şərhi (3-cü tapşırıq) şagirdlərdə şifahi nitq bacarıqlarının inkişafına xidmət edir.

1. Dənizin qurudulması hesabına neft çıxarılması bir təcrübə idi. Dövlət bu sınaq nəticəsində müəyyən etdi ki, bu neftdən əldə ediləcək gəlir çəkilən xərcdən qat-qat çoxdur.

2. II Dünya müharibəsi nəhəng bir sobaya bənzədilir. Toplardan, tanklardan atılan mərmilərin, təyyarələrdən tökülən bombaların sayəsində dünya alışıb-yanırdı. Sovet tank və təyyarələrinin böyük qismi isə Bakı neftinin hesabına işləyirdi.

3. Müharibə illərində alman faşistlərinə müqavimət göstərən, qəhrəmanlıqla döyüşən bir çox sovet şəhərlərinə “Qəhrəman şəhər” adı verildi. Lakin onların bu qəhrəmanlığı Bakı neftinin hesabına olmuşdu. Təəssüf ki, Bakının adı bu şəhərlər siyahısına düşmədi.

4. Müharibəni yanacaqla təmin etmək üçün mədənlər vəhşicəsinə istismar edilirdi. Neft hasilatı zamanı müxtəlif texnoloji standartlar mövcuddur. Ətraf mühitin korlanması, neft hasilatı zamanı quyuların neftvermə gücünün nəzərə alınmaması sayəsində neft quyularının bir çoxu sıradan çıxdı.

## Söz ehtiyatı

**(St. 2.1.1)** 4-cü tapşırıqda “istismar” sözünün həmin abzasda verilmiş mənasını digər mənaları ilə müqayisə etmək tələb olunur. Həmin söz lüğətlərdə aşağıdakı kimi şərh edilib:



LAYİHƏ

**1.** Hər hansı bir əməli məqsəd üçün sistematik istifadə etmə, faydalanma, işlətmə. *Neft quyularının istismarı.*

**2.** İstehsal vasitələri üzərində xüsusi mülkiyyət sayəsində insanların bir qisminin başqalarının əmək məhsulunu mənimsəməsi.

Beləliklə, hər iki mənanın kökündə "əməyi, məhsulu, xidməti mənimsəmək" dayanır, ona görə də bu sözü çoxmənalı hesab etmək olar.

### Yazı

**(St. 3.1.1)** 5-ci, 6-cı və 9-cu tapşırıqların kollektiv layihə tapşırıqları kimi evdə yerinə yetirilməsi daha məqsədəuyğundur. Bunun üçün şagirdləri qruplara bölüb tapşırıqları konkretləşdirmək olar:

1-ci qrup: "Neft daşları" filmlərimizdə" mövzusunda inşa yazmaq (9-cu tapşırıq). (Məlumat mənbəyi olaraq "Möcüzələr adası" (1963), "Qara daşlar" (1956), "Dənizdə möcüzə"(1966), "İki Xəzər" (1975), "Polad dirəklər üzərində şəhər" (1975), "Xəzər, insanlar və neft" (1983), "Neft daşları" (1990), "Qara daşların sakinləri" (1991) filmlərini göstərmək mümkündür.)

2-ci qrup: "Bir gün "Neft daşları"nda" mövzusunda hekayə yazmaq. 5-ci tapşırığa uyğun olaraq şagirdlərə tapşırılır ki, "Neft daşları"nda yaşayanların məişətini, həyat tərzini təsəvvür etsinlər. Onların nəzərinə çatdırmaq lazımdır ki, dəniz üzərində salınmış bu şəhərdə su, qaz, elektrik təchizatı başqa yaşayış məntəqələrindən fərqlidir. "Neft daşları"nın sakinləri tez-tez təhlükə ilə üzləşirlər, bu təhlükəyə sinə gərmək üçün onlara birlik lazımdır.

Şagirdlərə neftçiləri təsvir etmək üçün Tahir Salahovun bu mövzuda çəkdiyi rəsmləri nəzərdən keçirmək və yazıda həmin əsərlərə istinad etmək tapşırılır.

3-cü qrup: "Azərbaycan nefti müstəqillik illərində" mövzusunda esse yazmaq. Bu tapşırığın icrası zamanı 6-cı mətndaxili tapşırıq da yerinə yetirilməli, şagirdlər "Neft daşları"nın XX əsrdə Azərbaycan neft sənayesinin inkişafına təkan verməsi faktı ilə 1994-1999-cu illərdə bağlanmış 17 iri neft sazişinin həyata keçirilməsi faktlarını əlaqələndirməlidirlər. Bunun üçün "Əsrin müqaviləsi" ilə bağlı əlavə mənbələrdən məlumatlar əldə etməlidirlər. Esse mühakimə xarakterli yazı olduğuna görə şagirdlərə tapşırılır ki, Azərbaycan neftindən gələn gəlirin sovet illərində Moskva tərəfindən mənimsənildiyinə, yalnız müstəqillik illərində xalqın öz neftinə sahib çıxdığına münasibət bildirsinlər.

### Dil qaydaları

**(St. 4.1.2; 4.1.3)** 10-cu tapşırıq şagirdlərin bu dərs ilində keçdikləri feili sifət mövzusunu xatırlatmağa xidmət edir. Fərqləndirilmiş cümlədə "keçmiş" sözünün feili sifət və ya feildən düzəlmiş sifət olduğunu fərqləndirirlər. Yaşıl rənglə verilmiş "keçmiş" sözünü inkarda işlətmək mümkün deyil, ona görə də bu sözü feildən düzəlmiş sifət kimi qəbul etmək olar.

Tapşırığın ikinci hissəsi isə bağlayıcılar üzrə bilik və bacarıqlardan istifadəni tələb edir. Bu zaman şagirdlər bəzi tarixi-coğrafi biliklərə də istinad etmə-



LAYİHƏ

lidirlər. Onlar bilirlər ki, Bolqarıstan, Vyetnam, Hindistan, Braziliya, Pakistan SSRİ-yə daxil deyildi. Buna görə də həmin cümlədə “o cümlədən” deyil, “eləcə də” bağlayıcısından istifadə etmək lazımdır.

11-ci çalışma isə “Nida” mövzusuna keçid üçün nəzərdə tutulmuşdur. Əvvəlcə şagirdlərə təklif edin ki, mətndə göy rənglə verilmiş cümlələrdəki ovqatı müəyyənləşdirsinlər. Ovqatı düzgün müəyyən edən şagirdlər sözləri seçməkdə çətinlik çəkməyəcəklər. Çalışmaq lazımdır ki, şagirdlər sözləri seçərkən müstəqil fikirləşsinlər və seçimlərini əsaslandırsınlar. Bu baş tutduqdan sonra nidalar haqqında məlumat vermək olar.

12-ci tapşırıq nidaları müəyyən etməyi nəzərdə tutur. Alınmış məlumata istinad edərək nidaları müəyyənləşdirən şagirdlər onların işlənmə yerindən asılı olaraq durğu işarələrinin işlənmə məqamlarına da fikir verir və onların işlənmə məqamlarını qaydalara uyğun şərh edirlər.

13-cü tapşırıqda isə nidaların hansı hissi ifadə etdiyi araşdırılır. Bu zaman cümlənin informasiya yükünə diqqət vermək məsləhətdir.

14-cü tapşırıq prosesin davamı kimi maraqlıdır. Eyni səs tərkibinə malik olan nidaların işlənmə yerinə görə müxtəlif məna çaları yarada bilmək imkanı debat mövzusuna çevrilir.

15-ci tapşırıqda həm əsas nitq hissəsi, həm də nida kimi işlənmiş sözlər verilmişdir. Bunları fərqləndirmək üçün həmin sözlərin suala cavab verib-vermədiyini müəyyənləşdirmək lazımdır. Yadda saxlamaq lazımdır ki, nidalar heç bir suala cavab vermir və yalnız hiss, həyəcan ifadə edir.

**Qiymətləndirmə**

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.

**Dərs 32. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)**

Bu dərs müvafiq bölmədə reallaşdırılmış məzmun standartları üzrə bacarıqların möhkəmləndirilməsi üçün nəzərdə tutulmuşdur. Şagirdlərə aşağıdakı mövzu üzrə rabitəli mətn yazdırmaq tövsiyə olunur: ***“Ən sevimli bayramım”.***

**Qeyd** Müəllim Ü.Hacıbəylinin “O olmasın, bu olsun” operettasından Məşədi İbadın monoloqundakı bəzi sözlərin mənasını şagirdlərə izah edə bilər.
cabəca – yerbəyer, yerli- yerində, qaydasınca, lazımınca.
şəvə – qara
həna – xına (bitki mənşəli saç boyası)
şarlatan – adamları aldadan, nadan; yalançı, fırıldaqçı
nə tövr – necə, nə təhər (tövr – surət, hal, tərz)
abrazavonnı – rus dilində *obrazovannıy* (təhsil almış, oxumuş, savadlı) sözünün təhrif edilmiş forması



LAYİHƏ

## V BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

1-5-ci tapşırıqlar mətnlə bağlıdır.

### TAR

Simli musiqi alətləri arasında bir çox xüsusiyyətlərinə görə tar ən ......................... çalğı alətlərindən biridir. Tar aləti bir çox ölkələrdə – İranda, Orta Asiya respublikalarında və başqa yerlərdə geniş yayılmışdır. Tarın adına orta əsr klassiklərimizdən Qətran Təbrizi, Nizami Gəncəvi, Məhəmməd Füzuli və başqalarının əsərlərində rast gəlmək olur. "Tar" sözü farsca "tel, sap" deməkdir. ■.

Azərbaycan tarı ..................... quruluşa malikdir. O, üç hissədən – çanaq, qol və kəllədən ibarətdir. Tarın çanaq hissəsi tut ağacından, qol və kəllə hissələri isə qoz ağacından hazırlanır. Səsin tənzimlənməsi üçün kəlləyə aşıqlar bərkidilir. Qoluna 22 pərdə bağlanır. Çanağının üzərinə mal ürəyinin pərdəsi çəkilir. 11 metal simi vardır. ■.

Müasir tar ifaçılığı XX əsrdə daha güclü inkişaf mərhələsinə başlamışdır. Belə ki, 1931-ci ildə yaradılmış ilk notlu xalq çalğı alətləri orkestrində tar ................................ alət kimi əsas yeri tutmuşdur. Tar muğam sənətinin inkişafında ............................... rol oynayır. Muğam operalarında solo ifaları, əsasən, tarın müşayiəti ilə aparılır. Azərbaycan bəstəkarları tar ilə orkestr üçün bir çox irihəcmli əsərlər yazmışlar. ■.

Ümumiyyətlə, Azərbaycan xalqının qəlbində tara hər zaman böyük sevgi olub. Böyük şairimiz Mikayıl Müşfiq "Oxu, tar" şeirində "*Ey geniş kütlənin acısı, şərbəti, Alovlu sənəti!*" misraları ilə tarın Azərbaycan xalqının ayrılmaz bir parçası olduğunu çox gözəl ifadə etmişdir.

**1.** Kontekstdən çıxış edərək nöqtələrin yerinə "özünəməxsus", "müstəsna", "mükəmməl", "aparıcı" sözlərini yazın.

**2.** Göy rənglə verilmiş sözləri müvafiq çərçivələrdə yazın.



**3.** "Tar sümük və ya ebonitdən hazırlanmış kiçik mizrabla səsləndirilir." cümləsi hansı mavi boşluqda yazıla bilər?



LAYİHƏ

**4.** Altından xətt çəkilmiş sözlərdən hansı modal söz deyil? ____________

**5.** Mətndə "Oxu, tar" şeirindən gətirilmiş misrada "Ey" nidasından sonra vergül işarəsinin nə üçün qoyulmadığını izah edin. ________________

**6.** Nümunələrdən köməkçi nitq hissələrini seçib aşağıdakı cədvəldə qruplaşdırın.

| Ədat | Nida | Modal söz |
|---|---|---|
| | | |

1. Nə yaman olur eldən ayrı düşəndə,
   Bəlkə də, yaxşı-yaman qanmamışam mən.
2. Qoy sənə desinlər, ay qaçaq Nəbi!
   Həcəri özündən ay qoçaq Nəbi!
3. Ömür sürməli dövrandır,
   Səsin gəlsin barı, bülbül.
4. Aman, ovçu, vurma məni!
   Mən bu dağın maralıyam.

*(Xalq mahnılarından)*

**7.** Cümlələrdə müvafiq yerlərə durğu işarələri əlavə edin.

1. Neynim aman aman sarı gəlin (Xalq mahnısı)
2. Məncə döyüşə hazır olan əsgər artıq qələbə çalıb
3. Vay-vay nə yaman yarıldı bağrım
   Bir nazik ipə sarıldı bağrım (M.Ə.Sabir)
4. Ey daşlaşan, torpaqlaşan ulu babam
   Dünənindən bu günündən uzaqlaşan ulu babam (M.Araz)
5. Kobudluğun iki səbəbi var: birincisi hirsdir ikincisi isə onu idarə edə bilməməkdir

**8.** Verilmiş sözləri köməkçi nitq hissəsi kimi cümlədə işlədib yazın.

*bircə, şübhəsiz, elə, əhsən, məgər, xülasə*

LAYİHƏ

# VI BÖLMƏ

## İXTİRALAR VƏ KƏŞFLƏR

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | MMV səh. |
|---|---|---|---|---|---|
| 33. | **İsaak Nyuton** *Köməkçi və əsas nitq hissələrinin omonimliyi* | 2.2.3, 2.1.1, 1.1.2, 3.1.1, 3.1.2, 4.1.2 | 3 | 126-129 | 136-139 |
| 34. | **Avtomobil** *Köməkçi nitq hissələrinin omonimliyi* | 2.2.3, 1.2.1, 2.1.1, 1.1.2, 3.1.3, 3.1.1, 4.1.2, 4.1.3 | 4 | 130-133 | 140-142 |
| 35. | **Bumeranqı kim icad edib** *Bağlayıcı, ədat, yoxsa şəkilçi?* | 1.2.1, 2.1.1, 2.2.2, 3.1.1, 4.1.2 | 3 | 134-137 | 143-145 |
| 36. | **Əl-Xarəzmi** *Köməkçi nitq hissələrinin sinonimliyi* | 2.2.3, 2.1.1, 1.2.2, 2.2.2, 4.1.2 | 4 | 138-141 | 146-148 |
| 37. | **Kompüter oyunlarını kim ixtira edib** | 2.2.3, 2.1.1, 3.1.3 1.1.2, 1.2.4, 4.1.2 | 3 | 142-145 | 149-153 |
| 38. | **Ümumiləşdirici təkrar** | | 2 | 146 | 153 |
| | **Kiçik summativ qiymətləndirmə** | | 1 | | 154-155 |
| **Yekun** | | | **20 saat** | | |

LAYİHƏ

## Dərs 33. İSAAK NYUTON (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Əlavə məlumatlarla müqayisə apararaq mətndəki fikrin həqiqiliyini sübut edir. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Tanış olmadığı sözlərin kontekstə görə mənasını təxmin edir və lüğətin köməyi ilə dəqiqləşdirir. |
| 1.1.2. Dinlədiyi fikrin inandırıcı və əsaslandırılmış olub-olmamasını müəyyənləşdirir. | Dinlədiyi mətndəki məlumatların əvvəl əldə etdiyi biliklərə nə dərəcədə uyğun gəldiyini müəyyənləşdirir. |
| 3.1.1. Verilmiş mövzunu müxtəlif yazı formalarında (ifadə, inşa, esse, hekayə) ifadə edir. | Dinlədiyi və oxuduğu mətndəki məlumatları ümumiləşdirərək ifadə yazır. |
| 3.1.2. Topladığı fakt və hadisələrə münasibət bildirməklə mətni zənginləşdirir. | Dinlədiyi mətn üzrə yazısını oxuduğu mətndən əldə etdiyi məlumatlarla zənginləşdirir. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Sözlərin mətndəki yerinə görə əsas və ya köməkçi nitq hissəsi olduğunu müəyyən edir. |

### Motivasiya

**Müəllimin nəzərinə!**
Bu dərs fizika fənni ilə inteqrasiya üzərində qurulmuşdur. Fizika üzrə fənn kurikulumuna əsasən, şagirdlər 7-ci sinifdə cazibə qüvvəsi ilə tanış olurlar ( 2.1.1. Qravitasiya sahəsini xarakterizə edən kəmiyyətləri izah edir. 2.1.2. Qravitasiya sahəsinə dair məsələlər həll edir).

Müəllim hər hansı predmeti (qələmi, tabaşiri) yuxarı qaldırır və əlindən yerə salır. **Sual:** – *İndi gördüyünüz hadisədə fizikanın hansı qanunu özünü göstərdi? Bu qanunu kim kəşf edib?*

Şagirdlər qravitasiya qanunu ilə bağlı biliklərini nümayiş etdirirlər.

**Müəllimin nəzərinə!**
Elmi ədəbiyyatda cazibə qüvvəsinin ilk dəfə hind alimləri, yunan alimi Aristotel, fars alimi Məhəmməd ibn Musa, əl-Biruni, ingilis alimi Robert Huk və başqaları tərəfindən izah edildiyi göstərilir. Lakin Yerin cazibə qüvvəsini ilk dəfə riyazi şəkildə təsvir edən İsaak Nyuton olmuşdur.

Daha sonra BİBÖ cədvəli üzərində işə keçmək olar.

LAYİHƏ

| İSAAK NYUTON HAQQINDA | | |
|---|---|---|
| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
| | | |

**Oxu**

**(St. 2.2.3; 2.1.1) Fəndaxili şaquli inteqrasiya (VI sinif.** 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır). Mətn **Qeyd götürməklə oxu** üsulu ilə oxunur. Oxudan əvvəl hazırlanmış cədvəl cütlərə paylanır (lövhədə də çəkilə bilər). Şagirdlərə oxu prosesində “İsaak Nyuton” mətnində rast gəldikləri faktları, tanış olmayan sözləri seçmək, sözlərin mənasını kontekstə uyğun izah etmək tapşırılır.

| Hadisələr və onların baş verdiyi tarix | Tanış olmayan sözlər |
|---|---|
| | |

Cədvəldə aparılan qeydlər mətndən sonra qoyulmuş bir sıra tapşırıqların icrası zamanı istifadə ediləcək. Şagirdlərə də bildirmək lazımdır ki, qeydləri diqqətlə aparsalar, heç bir vacib faktı diqqətdən kənar qoymasalar, ilk baxışdan çətin görünən tapşırıqları da asanlıqla yerinə yetirə biləcəklər.

1-ci mətndaxili tapşırığın icrası şagirdlərin məntiqi təfəkkürünün inkişafına xidmət edir. Nyutonun it üçün açdığı böyük dəlik kifayət edərdi ki, oradan həm it, həm də pişik keçsin. Pişik üçün əlavə bir dəliyin açılmasına ehtiyac yox idi.

3-cü və 4-cü tapşırıqlar da məntiqi xarakterlidir: hər ikisində sillogizm qurmaq tələb olunur. 3-cü tapşırığı cavablandırarkən şagirdlər cədvəldə qeyd etdikləri iki fakta diqqət yetirməlidirlər:

**I mühakimə:** 1666-cı ildə Nyuton öz bağında dincələn zaman başına alma düşdü.

**II mühakimə:** Bundan 20 il sonra o, cazibə qüvvəsi haqqında fikirlərini qanun formasına saldı.

**Nəticə:** Ümumdünya cazibə qanunu 1686-cı ildə kəşf edildi.

4-cü tapşırıq üçün tərtib olunmuş sillogizm:

**I mühakimə:** Nyuton 1643-cü ildə anadan olmuşdur.

**II mühakimə:** Nyuton 84 il yaşamışdır.

**Nəticə:** Nyuton 1727-ci ildə vəfat etmişdir.

Deməli, “1731-ci ildə, Nyutonun ölümündən bir il sonra” ifadəsi doğru deyil.

5-ci tapşırığı cavablandırarkən şagirdlər müvafiq abzasdakı “deyilənə görə” ifadəsinə diqqət yetirməlidirlər.

Mətn üzərində iş bitdikdən sonra BİBÖ cədvəlinin 3-cü sütununda qeydlər aparılır. Bu zaman şagirdlər dərsin əvvəlində verilmiş qeydlər cədvəlindən istifadə edə bilərlər. Lakin müəllim bildirir ki, BİBÖ cədvəli üzrə iş bitməyib, indi səsləndirəcəyi dinləmə mətnində onlar yeni məlumatlarla qarşılaşacaqlar.



LAYİHƏ

**Dinləmə**

**(St. 1.1.2)** Aşağıdakı dinləmə materialı dərslikdə verilmiş mətndəki alma əhvalatına yeni, fərqli baxış ortaya qoyur. Bu isə faktları müqayisə etməklə nəticə çıxarmağa – hansının doğru, hansının yanlış olduğunu müəyyənləşdirməklə şagirdlərə 1.1.2 standartını reallaşdırmağa imkan verir.

Mətnin diqqətlə dinlənilməsi üçün müəllim aşağıdakı iş vərəqini şagirdlərə paylayır:

| DOĞRUDANMI, NYUTONUN BAŞINA ALMA DÜŞÜB? | | |
|---|---|---|
| Şəxsin adı | Kim olub? | Nə edib? |
| | | |
| | | |
| | | |

### DOĞRUDANMI, NYUTONUN BAŞINA ALMA DÜŞÜB?

Bu sirrin üstünü Britaniya Kral Cəmiyyəti yalnız 2010-cu ildə açıb. Cəmiyyət Nyutonun dostu və bioqrafı Uilyam Staklinin qələminə məxsus, həmin vaxtadək arxivdə saxlanılan əlyazmanı saytda yerləşdirib.

Stakli "İsaak Nyutonun həyatı haqqında xatirələr"ində yazır ki, alma əhvalatı 1666-cı ildə baş verib. O vaxt Londonda vəba epidemiyası yayıldığı üçün Kembric Universiteti müvəqqəti bağlanmışdı və Nyuton kənddəki evinə qayıtmalı olmuşdu. Evin gözəl bağı var idi, alim orada oturub düşünməyi sevirdi. Stakli yazır: "İsaak mənə dedi ki, cazibə qüvvəsi haqqında ideya onun başına belə bir şəraitdə gəlib. O, bağda oturub düşüncələrə dalıbmış, birdən yanında bir alma yerə düşüb". Belə çıxır ki, alma Nyutonun başına yox, yanında yerə düşüb.

Elə isə Nyutonun başına alma düşməsi haqqında rəvayətin müəllifi kimdir? Məlumdur ki, bu haqda ilk dəfə fransız mütəfəkkiri Volter yazıb. Filosofun yazdığına görə, ona bu rəvayəti Nyutonun yaxın qohumu Katarina Barton danışıbmış. Tədqiqatçıların fikrincə, "başına düşən alma" nağılını Katarinaya alim özü danışıb. Görünür, o, kəşf etdiyi qanunun məğzini qıza daha təsirli və anlaşıqlı yolla başa salmaq üçün belə deyib.

Nyutonun alma ağacının sonrakı "taleyi" də maraqlıdır. Ağacın ömrü sahibinin ömründən qat-qat uzun olub və məşhurluqda heç də dahi fizikdən geri qalmayıb. Bu ağac indi də Nyutonun turizm obyektinə çevrilmiş bağında qalmaqdadır. Hər il Nyutonun alma ağacına baxmaq üçün bu bağı on minlərlə turist ziyarət edir. Ağacı turistlərdən qorumaq üçün 2012-ci ildə onu hasara alıblar.

Şagirdlər mətni dinlədikdən sonra əvvəl aldıqları məlumatlarla müqayisələr aparır və BİBÖ cədvəlində yeni qeydlər edirlər.



LAYİHƏ

## Yazı

**(St. 3.1.1; 3.1.2)** Şagirdlər dinlədikləri mətni qravitasiya qanunu haqqında bilikləri və dərslikdə oxuduqları mətndən aldıqları məlumatlarla zənginləşdirərək "Ümumdünya cazibə qanununun kəşfi və ya Nyutonun alma əhvalatı" mövzusunda ifadə yazırlar.

## Dil qaydaları

**(St. 4.1.2)** 6-cı tapşırıq dil qaydaları üçün motivasiya rolunu oynaya bilər.

Oxunmuş mətndəki cümlədə (*Belə bir uşağın gələcəkdə böyük alim olacağı heç kəsin ağlına belə gəlmirdi*) göy rənglə yazılmış sözlərə sual verməklə həmin sözlərin əsas və köməkçi nitq hissəsi olduğunu müəyyənləşdirmək tələb olunur.

Dərslikdəki nəzəri material mənimsədilir: müəllim əsas və köməkçi nitq hissələrinin omonimlik yaratdığını qeyd edir, onları fərqləndirərkən köməkçi nitq hissələrinin heç bir suala cavab vermədiyini və cümlə üzvü olmadığını vurğulayır.

Dərsin sonrakı mərhələsində müxtəlif köməkçi nitq hissələri ilə əsas nitq hissələrinin omonimliyi faktı müşahidə edilir. 7-ci tapşırıq ədatlarla əsas nitq hissələrinin omonimliyinə aiddir. Tapşırığın icrasından sonra nəticə çıxarılır:

*Əsas nitq hissələri cümlədən çıxarıldıqda informasiya yarımçıqlığı yaranır. Ədatın çıxarılması isə cümlənin ifadə etdiyi fikri dəyişmir, yalnız təsir gücünü azaldır.* 8-ci tapşırığın icrası zamanı qoşmalarla əsas nitq hissələri müqayisə edilir. Nəticə: *Qoşmalar aid olduğu sözlə birlikdə, əsas nitq hissəsi isə ayrılıqda suala cavab verir.*

9-cu və 11-ci tapşırıqlar əvvəlki tapşırıqlardan çıxarılmış nəticələri praktik vərdişlərə çevirməyə xidmət edir.

10-cu tapşırığın icrası zamanı mətndəki modal sözləri seçmək lazımdır. Lakin mətndəki modal sözlərin ikisi əsas nitq hissələri ilə omonimlik təşkil edir. Onları fərqləndirmək üçün həmin sözlərin intonasiyasına və suala cavab vermədiyinə diqqət yetirilir.

**Fəndaxili inteqrasiya (St. 4.1.2, st. 2.1.1).** 12 və 13-cü tapşırıqlar dil qaydaları üzrə praktik vərdişlərin formalaşdırılması ilə yanaşı, 2.1.1 standartını reallaşdırır.

## Qiymətləndirmə

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.

LAYİHƏ

## Dərs 34. AVTOMOBİL (4 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Əlavə mənbələrdən istifadə etməklə elmi mətndəki əsas fikri daha qabarıq nəzərə çatdırır. |
| 1.2.1. Fikrini müxtəlif formalarda ifadə edir. | Topladığı faktlar əsasında şəkillərdən və cədvəllərdən istifadə etməklə geniş məlumat verir. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Tanış olmadığı sözləri kontekstdəki mənasına uyğun olaraq cümlələrdə işlədir. |
| 1.1.2. Dinlədiyi fikrin inandırıcı və əsaslandırılmış olub-olmamasını müəyyənləşdirir. | Dinlədiyi mətndəki qaranlıq məqamları aydınlaşdırmaq üçün suallar verir. |
| 3.1.3. Qurduğu plan əsasında mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirir. | Verilmiş mövzu üzrə inşanın planını qurur. |
| 3.1.1. Verilmiş mövzunu müxtəlif yazı formalarında (ifadə, inşa, esse, hekayə) ifadə edir. | Qurulmuş plan əsasında inşa yazır və keçid cümlələr vasitəsilə hissələri əlaqələndirir. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Köməkçi nitq hissələrinin omonimliyini müəyyən edir. |
| 4.1.3. Köməkçi nitq hissələrinin işlənmə məqamından asılı olaraq durğu işarələrindən istifadə edir. | Köməkçi nitq hissələrinin işləndiyi cümlələrdə durğu işarələrini yerli-yerində işlədir. |

### Motivasiya

Bir neçə sual qoyulur və **Beyin həmləsi** yolu ilə suallara cavab axtarılır:

**1-ci sual:** – *Avtomobil nəyin hesabına hərəkətə gətirilir?*

Cavablar arasında “mühərrik” sözü səsləndikdən sonra:

**2-ci sual:** – *Mühərrik nəyin hesabına işləyir?*

“Benzinin”, “qazın”, “elektrikin” cavabları səslənə bilər və bu cavabların hamısı doğru hesab edilməlidir.

Daha sonra müəllim diaqnostik qiymətləndirmə məqsədi ilə (şagirdlərin oxunacaq mətnin mövzusu ilə bağlı bilikləri hansı səviyyədədir?) mühərrikin işləmə prinsipi haqqında suallar verə bilər.

### Oxu

**Fəndaxili şaquli inteqrasiya (VI sinif.** 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır). Oxuya başlamazdan əvvəl mətn aşağıdakı hissələrə bölünür:

1. İlk 4 abzas (buxar mühərrikinin ixtirası).



LAYİHƏ

2. Beş-səkkizinci abzaslar (daxiliyanma mühərrikinin ixtirası).
3. Doqquz-on birinci abzaslar (ilk avtomobil şirkətləri).
5. On iki-on üçüncü abzaslar (Henri Fordun avtomobil sənayesinin inkişafındakı rolu).

Hər bir hissənin üzərində işləmək bir qrupa tapşırılır.

Səssiz oxu **Qeyd götürməklə oxu** üsulu ilə aparılsa, mətndəki informasiyanı sistemə salmaq olar. Bu məqsədlə müəllim aşağıdakı cədvəl nümunəsini nümayiş etdirir və şagirdlərə bildirir ki, oxuduqları hissənin məzmunundan asılı olaraq cədvəli müxtəlif formalarda tərtib edə bilərlər.

| İXTİRA | | | |
|---|---|---|---|
| Müəllifi və zamanı | İxtiranın mahiyyəti | Üstünlükləri | Çatışmazlıqları |
| | | | |

Qruplara üzərində işlədikləri hissəni adlandırmaq tapşırıla bilər.

**Fəndaxili inteqrasiya** **(St. 2.2.3, 1.2.1)**. Təqdimat edən qruplara aşağıdakı tələblər qoyulur:

1) tərtib etdikləri qeydlər cədvəlini hamının görə biləcəyi şəkildə iri vərəqdə nümayiş etdirmək;
2) həmin vərəqdə cədvəldən savayı, mövzu ilə bağlı açar sözlər, başqa qrafik informasiya (məsələn, mühərrikin işləmə prinsipini nümayiş etdirən şəkillər və s.) da əks oluna bilər;
3) oxuduqları hissə ilə bağlı əlavə bilikləri varsa, onu da təqdimata əlavə etmək;
4) oxuduqları hissə ilə bağlı mətndaxili sual varsa, onu cavablandırmaq;
5) **(St. 2.1.1)** oxuduqları hissədə tanış olmayan sözlər varsa, onları mənasına uyğun başqa kontekstdə işlətməklə izahını vermək;
6) təqdimatı interaktiv aparmaq, yəni yeri gəldikcə auditoriyaya motivasiya sualları, eləcə də dinləyib-anlamanı yoxlayan suallarla müraciət etmək (məsələn, şagirdlər təqdimat zamanı dərslikdəki mətndaxili sualları əvvəlcə auditoriyaya ünvanlaya, sonra onlara aydınlıq gətirə bilərlər).

**(St. 1.1.2)** Təqdimat zamanı dinləyən tərəflər fəal olmalı, təqdimatda onlara qaranlıq qalan məqamları aydınlaşdırmaq üçün suallar verməlidirlər.

**Yazı**

**(St. 3.1.3; 3.1.1)** 4-cü tapşırıqda şagirdlərə avtomobilin ixtira olunma tarixi haqqında inşa yazmaq tapşırılır. Əvvəlcə şagirdlər inşanın planını tərtib etməlidirlər.

Yazıya başlamazdan əvvəl şagirdləri inşaya qoyulan əsas tələblərlə tanış etmək lazımdır: 1. İnşanın həcmi 250-300 söz (1,5-2 səhifə) olmalıdır. 2. Əlavə fakt və məlumatlardan istifadə olunması tövsiyə edilir. 3. Avomobilin ixtira tarixinin mərhələləri öz əksini tapmalı, bu mərhələlərə həsr olunmuş hissələr keçid cümlələrlə əlaqələndirilməlidir.


LAYİHƏ

## Dil qaydaları

**(St. 4.1.2; 4.1.3)** 5-ci tapşırığın icrası dil qaydaları üçün motivasiya rolu oynayır. Göy rənglə verilmiş *ilə* sözlərini *və* bağlayıcısı ilə əvəz etdikdə yaranan fərqli vəziyyət imkan verir ki, köməkçi nitq hissələrinin omonimliyi haqqında fikir inkişaf etdirilsin. Müəllim məlumat verir ki, köməkçi nitq hissələri bir-biri ilə də omonimlik təşkil edir.

Müxtəlif köməkçi nitq hissələrinin bir-biri ilə təşkil etdiyi omonimlik faktları qayda şəklində dərslikdə geniş verilmir. Lakin 6-cı və 7-ci tapşırıqlar üzərində aparılan iş və sonda şagirdlərin özlərinin çıxardıqları nəticə daha yaddaqalan ola bilər.

6-cı tapşırıqda *nə, nə də, yəni* sözlərinin bağlayıcı və ədat vəzifələri müqayisə edilir, nəticə çıxarılır.

Çıxarıla biləcək nəticə:

1. *Nə* bağlayıcı kimi işləndikdə inkar məzmunu daşıyır. Cümlədən çıxarıldıqda informasiyanı olduğu kimi saxlamaq üçün inkar şəkilçisinə və ya “deyil” sözünə ehtiyac duyulur. Ədat olduqda isə məzmunun qüvvətlənməsinə xidmət edir. Cümlədən çıxarıldıqda çatdırılan informasiyada yarımçıqlıq olmur. Yalnız təsir gücü azalır.

2. *Yəni* ədat olduqda işləndiyi cümlədə sual intonasiyası yaradır. Cümlədən çıxarıldıqda sual məqsədi məlumatvermə məqsədinə çevrilir. Bağlayıcı olduqda isə bu hal baş vermir.

7-ci tapşırıqda isə *ilə (-la²)*-nın qoşma və bağlayıcı vəzifələri müəyyənləşdirilir. Fərqləri əsaslandırmaq üçün həmin sözlər “*və”* bağlayıcısı ilə əvəz edilir. “*Və”* qoşmanı əvəz edə bilmir. Həmin nəticəyə gələn şagirdlər tapşırığın sonundakı cümləni asanlıqla tamamlayırlar.

8-cı tapşırığın icrası zamanı bağlayıcı və ədat vəzifəsində işlənən *ki* müqayisə edilir. Müşahidələr nəticəsində müəyyən edilir: *“ki” cümlələri birləşdirərkən bağlayıcı, cümlənin və ya sözün təsir gücünü artırarkən ədat olur. Bağlayıcı kimi işlənəndə “ki”dən sonra vergül işarəsi qoyulur.*

9-cu tapşırığın çətinlik dərəcəsi yüksəkdir. Kontekstdən ayrı işləndikdə bu misralarda “nə”nin bağlayıcı, yoxsa ədat olduğunu birmənalı şəkildə demək olmur. Ona görə də S.Vurğunun “Vaqif” dramından həmin hissəni tapıb əvvəlki iki misrasını şagirdlərin diqqətinə çatdırmaq olar:

Ata, lap heyranam Vidadiyə mən,
Doğrudan, o sənə yanır ürəkdən.

## Qiymətləndirmə

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.

LAYİHƏ

## Dərs 35. BUMERANQI KİM İCAD EDİB (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 1.2.1. Fikrini müxtəlif formalarda ifadə edir. | Qrafik informasiyanı şərh etməklə mövzu üzrə danışır. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Tanış olmadığı sözləri kontekstdəki mənasına uyğun olaraq cümlələrdə işlədir. |
| 2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir. | Mətnin müxtəlif hissələrindəki faktları bir-biri ilə bağlamaq üçün mətnin leytmotivini müəyyənləşdirir. |
| 3.1.1. Verilmiş mövzunu müxtəlif yazı formalarında (ifadə, inşa, esse, hekayə) ifadə edir. | Mətndəki məlumatlardan istifadə etməklə hekayə yazır. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Köməkçi nitq hissələrinin omonimliyini müəyyən edir. |

### Motivasiya

Motivasiyanı şəraitdən asılı olaraq müxtəlif formada yaratmaq mümkündür. Bumeranqdan istifadə edilmiş videogörüntü (məsələn: "Sinyor Robinzon" filmindən kadr) və ya bumeranq şəkli nümayiş olunaraq bu alət haqqında bilgilər soruşulur. Alınan cavablar BİBÖ cədvəlinin birinci sütununda qeyd edilir. İkinci sütunda şagirdlərin bumeranq haqqında öyrənmək istədikləri yazılır.

| BUMERANQ HAQQINDA NƏ BİLİRSİNİZ | | |
|---|---|---|
| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
| | | |

### Oxu

Oxu **Ekspertlərlə müzakirə** üsulu ilə aparılır. Bu üsul məlumat mübadiləsi yolu ilə müştərək öyrənməni nəzərdə tutur. Əvvəlcə mətn hamı tətəfindən səssiz oxunur. Sonra mətndə qaldırılmış problemlər və məlumatlar istiqamətlər üzrə müəyyənləşdirilir. Hər şagird mətnə bir prizmadan (istiqamətdən) yanaşır. İstiqamətlər aşağıdakı kimi müəyyən edilə bilər:

1. "Bumeranq effekti"nin mənası.
2. Bumeranqın icad olunduğu yer.
3. Bumeranqdan istifadənin məqsədi.
4. "Ağıllı bumeranq" nəzəriyyəsi.

LAYİHƏ

5. Lüğətçilər.

Hər qrupda mütəxəssislər müəyyən edildikdən sonra ekspert qruplarına göndərilir. Ekspert qruplarının hər biri bir istiqamət üzrə tədqiqat aparır.

**1.** "Bumeranq effekti"nin mənası üzrə mütəxəssislər birinci abzas üzərində işləyir, ifadənin etimologiyasını aydınlaşdırırlar.

**2.** Bumeranqın icad olunduğu yeri müəyyən edənlər 3-cü abzası tədqiq edir və 1-ci mətndaxili suala cavab verirlər. Mətndə əks olunmuş faktlar və fikirlər əsasında belə bir nəticəyə gəlmək olar ki, Avstraliyada mamont yaşamayıb (cavab: "C" variantı).

**3.** **(St.1.2.1)** Bumeranqdan istifadə məqsədini müəyyən edənlər 1-ci mətndaxili sualdan sonrakı üç abzas üzərində işləyirlər. Əldə etdikləri məlumatları cədvəldə qruplaşdırırlar. Cədvəl aşağıdakı kimi ola bilər:

| Harada istifadə olunurdu? | Nə məqsədlə istifadə olunurdu? | Bumeranqın hansı növləri var idi? |
|---|---|---|
| | | |

**4.** "Ağıllı bumeranq" nəzəriyyəsini araşdıran mütəxəssislər holland alimi Feliks Hessin kitabında verilmiş məlumatları sistemləşdirirlər. Bu işin icrası ilə məşğul olanlar dərsliyin 135-ci səhifəsindəki 3-cü abzasdan istifadə etməklə aşağıdakı cədvəli doldururlar.

| ***Feliks Hess.*** *"Bumeranqın aerodinamikası"* | | | | |
|---|---|---|---|---|
| Forması | Bumeranqın parametrləri | Bumeranqın geri qayıtması üçün vacib tələblər | Başlanğıc sürəti | Fırlanma sürəti |
| | | | | |

**5.** **(St. 2.1.1)** **Lüğətçilər** mətndə tanış olmayan sözləri müəyyən edir, onun kontekstə uyğun mənasını izah edir və yeni kontekstdə işlədirlər (2-ci tapşırıq).

**(St. 2.2.2)** Ekspertlər tapşırıqları icra etdikdən sonra "doğma" qrupa qayıdırlar. **Ziqzaq** üsulunda olduğu kimi, hər istiqamət üzrə mütəxəssis ekspert qrupunda əldə etdiyini "doğma" qrupdakı yoldaşları ilə bölüşür və mətnin hissələri arasında əlaqə yaradır.

**Yazı**

**(St. 3.1.1)** 4-cü tapşırıqda mətnin 1-ci abzasındakı məlumatlardan istifadə etməklə "Bumeranq effekti" ifadəsi ilə bağlı hekayə hazırlayır və ona uyğun atalar sözü tapırlar; məsələn: *Nə tökərsən aşına, o da çıxar qaşığına. Özgəsinə quyu qazan özü düşər.*



LAYİHƏ

## Dil qaydaları

**(St. 4.1.2)** 5-ci tapşırıq dil qaydaları üçün motivasiya rolunu oynayır. Mətndə göy rənglə verilmiş sözlərin cümlədəki rolu müəyyən edilir. Eyni morfemin *(da²)* birinci vəziyyətdə iştirak məzmunu, ikinci vəziyyətdə əşyanın yerini bildirdiyi, üçüncü vəziyyətdə isə sözün təsir gücünü artırdığı müəyyən edilir.

Müəllim qeyd edir ki, *da(də), ki, (-la²)* köməkçi nitq hissələrini səs və hərf tərkibi eyni olan şəkilçilərlə səhv salmaq olmaz. Onları bir-birindən fərqləndirmək üçün tapşırıqlar üzərində aparılan iş nəticə çıxarmaqla yekunlaşır.

6-cı tapşırığı icra edənlər altından xətt çəkilmiş sözün A) isim + qoşma, B) isim + bağlayıcı, C) zərf olduğunu müəyyənləşdirməlidirlər. Aparılan tədqiqatın sonunda belə bir nəticə çıxarılır ki, *-la²*:

A) *nə ilə?* sualına cavab verdikdə isim + qoşma,

B) *və* ilə əvəz etmək mümkün olduqda isim + bağlayıcı,

C) qoşulduğu sözlə birlikdə *necə? nə cür?* suallarından birinə cavab verdikdə zərf olur.

7-ci tapşırıq *"ki"*nin vəzifəsini müəyyənləşdirməyə xidmət edir. Səs və hərf tərkibinə görə eyni olan bu nitq vahidini müqayisə edərək aşağıdakı nəticəni çıxarmaq olar:

1. *"Ki"* bağlayıcı kimi mürəkkəb cümlənin tərkib hissələrini bir-birinə bağlayır.
2. Ədat olduqda sözlərin və cümlənin təsir gücünü artırır.
3. Leksik şəkilçi olduqda isə artırıldığı söz *hansı?* sualına cavab verir.

8-ci tapşırığın icrasından sonra aşağıdakı nəticə çıxarılır:

1. *-da²* qrammatik şəkilçi olduqda qoşulduğu söz yerlik halın sualına cavab verir.
2. Bağlayıcı vəzifəsində işləndikdə iştirak məzmunu yaradır.
3. Ədat olduqda isə sözün və ya cümlənin təsir gücünü artırır.

## Qiymətləndirmə

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.



LAYİHƏ

## Dərs 36. ƏL-XARƏZMİ (4 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Əlavə mənbələrdən istifadə etməklə elmi mətndəki əsas fikri daha qabarıq nəzərə çatdırır. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Sözün etimologiyası və ilkin mənası ilə bağlı məlumatlardan istifadə etməklə müasir mənasını izah edir. |
| 1.2.2. Fikrini məntiqi ardıcıllıqla ifadə edir. | Mövzu üzrə danışarkən müxtəlif mənbələrdən aldığı məlumatları məntiqi ardıcıllıqla təqdim edir. |
| 2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir. | Mətnə yeni məlumatlar əlavə edərkən hissələr arasında əlaqə yaradır. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Köməkçi nitq hissələrinin sinonimliyini müəyyən edir. |

### Motivasiya

Bu dərsin motivasiya mərhələsində ümumi tarix fənninin "5.1.2. Şərq mədəniyyətinin dünya mədəniyyətinə təsirini müəyyən edir" alt-standartından istifadə etmək olar. **Əqli həmlə** və ya **Auksion** üsulu ilə şagirdlər tarix üzrə biliklərindən istifadə etməklə bu təsiri təsdiqləyən faktları – tarixi şəxsiyyətləri və elmi-mədəni hadisələri sadalayırlar. Ola bilsin ki, tarixi şəxsiyyətlər arasında İbn Sina, əl-Fərabi və digərləri ilə yanaşı, əl-Xarəzminin də adı çəkilsin.

Bundan sonra müzakirənin gedişindən asılı olaraq **BİBÖ** və ya **Anlayışın çıxarılması** üsullarını tətbiq etmək olar.

**BİBÖ**:

| Əl-Xarəzmi haqqında | | |
|---|---|---|
| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
| | | |

**Anlayışın çıxarılması**:




### Oxu

**(St. 2.2.3)** Mətn üzərində iş **Qeyd götürmək** üsulu ilə aparılır. Əvvəlcə mətn səssiz oxunur. Sonra şagirdlər qruplara bölünürlər. Qruplara iş vərəqləri

LAYİHƏ

paylayıb onun üzərində işləmək tapşırılır. İş vərəqləri aşağıda göstərilən formada ola bilər.

**İş vərəqi 1**

| Mətnə əsasən xronoloji cədvəli doldurun. | |
|---|---|
| Tarix | Hadisə |
| | |

**İş vərəqi 2**

| Əl-Xarəzminin riyazi traktatları | |
|---|---|
| Traktatın adı | Nədən bəhs edir? |
| | |

**İş vərəqi 3**

| Əl-Xarəzmi irsinin Avropada yayılması | | |
|---|---|---|
| Nə zaman? | Hansı formada yayıldı? | Necə istifadə edildi? |
| | | |

**İş vərəqi 4**

| Əl-Xarəzminin astronomiya sahəsində tədqiqatları | |
|---|---|
| Araşdırmalar | Nədən bəhs olunur? |
| | |

1-ci mətndaxili sual şagirdlərdən diqqətli oxu və nəticə çıxarmaq bacarığı tələb edir. Tamamlanması tələb olunan cümlənin məzmunundan görünür ki, alimin riyazi araşdırmaları həyatın müxtəlif sahələrində istifadə olunurdu. Ona görə də burada nöqtələrin yerinə “Elmi insanların xidmətinə verməyə çalışan” (“C” variantı) ifadəsi yazılmalıdır.

2-ci tapşırığı yerinə yetirmək üçün şagirdlər “Kamilliyə doğru” bölməsində oxuduqları “Təqvim” mətnindəki məlumatları xatırlamalıdırlar. Əlavə olaraq müəllim sual qoya bilər: “Bəs romalıların və ərəblərin il hesabları nə ilə fərqlənirdi?” (romalılarda il hesabı Roma şəhərinin yaranma ilindən, ərəblərdə Məhəmməd peyğəmbərin Mədinəyə köçdüyü ildən başlayırdı).

3-cü suala cavab verməklə şagirdlər əlavə məlumatlarla mətni zənginləşdirmək bacarığını nümayiş etdirirlər.

4-cü tapşırıq isə oxuda məntiqi təfəkkür bacarığını inkişaf etdirir. Suallara cavab tapmaq üçün sillogizm qurmaq tələb olunur.

**1-ci sual.**

**I mühakimə:** Əl-Xarəzmi 780-ci ildə anadan olub.



LAYİHƏ

**II mühakimə**: 819-cu ildə Bağdada köçüb.
**Nəticə:** Bağdada köçəndə onun 39 yaşı var idi.

**2-ci sual.**
**I mühakimə:** Hikmətlər evi 825-ci ildə fəaliyyətə başlamışdır.
**II mühakimə**: 1258-ci ildə monqollar tərəfindən məhv edilmişdir.
**Nəticə:** Hikmətlər evi 433 il fəaliyyət göstərmişdir.

**Söz ehtiyatı**

**(St. 2.1.1)** 5-ci tapşırığı yerinə yetirərkən şagirdlərə belə bir cədvəl təqdim etmək olar.

**Fəndaxili üfüqi inteqrasiya (St. 1.2.2, st. 2.2.2)**. Şagirdlər dərsin əvvəlində təqdim olunmuş cədvəldəki qeydlərə və dərslikdəki sualları cavablandırarkən mətndəki məlumatlara əsaslanaraq sözlərin etimologiyası haqqında təqdimat hazırlayırlar.

| Söz | Etimologiyası | Müasir dövrdə mənası |
|---|---|---|
| cəbr | | |
| sıfır | | |
| şifr | | |
| alqoritm | | |

**Dil qaydaları**

**(St. 4.1.2)** 6-cı tapşırığın tələbinə əsasən, mətndə göy rənglə verilmiş sözlərin qrammatik mənasını müəyyən etmək tələb olunur. Eyni zamanda onları sinonimləri ilə əvəz etmək lazımdır. Tapşırığın icrası ilə motivasiya edən müəllim qısa məlumat verib şagirdləri tədqiqata yönəldə bilər.

7-ci və 8-ci tapşırıqlar müxtəlif qoşmaları sinonimləri ilə əvəz etməyi nəzərdə tutur. 9-cu tapşırığın əhatə dairəsi isə genişdir. Təklif olunan cümlələrdə sinonimi olan köməkçi nitq hissələri rəngarəngdir. Ona görə də cədvəl üzərində işləyən şagird həm sözü, həm onun sinonimini, həm də hansı nitq hissəsinə aid olduğunu müəyyən etməli olur.

10-cu tapşırıq şagirdlərin redaktə bacarıqlarının formalaşmasına xidmət edir. Müəllim bu tipli cümlə və ya mətnlər hazırlayıb redaktə etməyi ev tapşırığı kimi verə bilər.

**Qiymətləndirmə**

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.



LAYİHƏ

## Dərs 37. KOMPÜTER OYUNLARINI KİM İXTİRA EDİB (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Həyatda tətbiq etməklə mətndəki fikrə münasibətini əsaslandırır. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Tanış olmadığı sözlərin kontekstə görə mənasını təxmin edir və lüğətin köməyi ilə dəqiqləşdirir. |
| 3.1.3. Qurduğu plan əsasında mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirir. | Mətn yazarkən keçid cümlələr vasitəsilə mətnin hissələrini əlaqələndirir. |
| 1.1.2. Dinlədiyi fikrin inandırıcı və əsaslandırılmış olub-olmamasını müəyyənləşdirir. | Dinlədiyi fikrin əsassız olduğunu sübut etmək üçün dəlillər gətirir. |
| 1.2.4. Müzakirələrdə deyilmiş müxtəlif fikirlərə münasibət bildirir. | Başqasının fikrini təkzib və ya təsdiq etmək üçün əsaslı arqumentlər və əks-arqumentlər gətirir. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Əsas və köməkçi nitq hissələrini müqayisə edir, mətndəki yerinə görə onları fərqləndirir. |

**Motivasiya**

Aşağıdakı sxem nümayiş etdirilir.




Müəllim sual verir: – *Sual işarəsinin yerinə nə yazardınız?*

Müxtəlif cavablar verilə bilər. Çox böyük ehtimalla şagirdlər “kompüter oyunları” ifadəsini işlədəcəklər.

İfadə səsləndikdən sonra müəllim indi tanış olacaqları mətndə bu oyunların yaranma tarixi, onların inkişaf yolları, yaradıcıları haqqında məlumatla tanış olacaqlarını bildirir.

**Oxu**

**(St. 2.2.3)** Mətn səsli oxu yolu ilə oxudulur. 4-cü tapşırıqda verilmiş cədvəl əvvəlcədən lövhədə nümayiş etdirilir.

LAYİHƏ

| Kompüter oyunlarının ixtirası sahəsində | | | |
|---|---|---|---|
| № | Kim | Nə zaman | Nə edib |
| | | | |
| | | | |

Mətn oxunduqca kompüter oyunları ilə əlaqədar şəxsiyyətlərin adları, onların etdikləri yeniliklər və zaman müvafiq xanalarda qeyd edilir. Oxu prosesində qeydlər edilməklə yanaşı, mətndaxili tapşırıqlar da yerinə yetirilə bilər. 1-ci tapşırığın tələbinə uyğun olaraq cütlərdə “OXO” oyununu oynamaq tapşırıla bilər. Bu həm mətni diqqətlə oxumaq, həm də əldə etdiyi biliyi tətbiq etmək bacarığını inkişaf etdirir.

**Müəllimin nəzərinə!**

OXO rus dilində “krestiki-noliki” adlanan məşhur oyundur. Dərslikdə verilmiş nümunənin davamı aşağıdakı kimi ola bilər.

| | | |
|---|---|---|
| X | | |
| | O | |
| | | |

| | | |
|---|---|---|
| X | | X |
| | O | |
| | | |

| | | |
|---|---|---|
| X | O | X |
| | O | |
| | | |

| | | |
|---|---|---|
| X | O | X |
| | O | |
| X | | |

| | | |
|---|---|---|
| X | O | X |
| | O | |
| X | O | |

Beləliklə, bu oyunda qalib “O” işarəsini qoyan sayılır.

2-ci mətndaxili sualı cavablandırarkən Stiv Rasselin kompüter oyunları sahəsində yüksək səviyyəli mütəxəssis olduğunu vurğulamaq lazımdır. Kommersiya maraqlarının toqquşması zamanı məhkəmə perspektivlərinin qaçılmaz olduğu şəraitdə məhkəmələrin ekspert rəyinə söykənməyi də zəruri idi. Məhkəmə iddiaları müəlliflik hüququnun pozulması və ya oyunların uşaq psixikasına mənfi təsiri ilə bağlı qaldırıla bilərdi.

Bu sual şagirdlərdə məntiqi təfəkkür və təxminetmə bacarıqlarının inkişafına xidmət edir.

3-cü mətndaxili tapşırıq mətndəki informasiyaların əlaqələndirilməsi baxımından əhəmiyyətlidir. Şagird mətnin əvvəlki hissələrində qazandığı məlumatlara istinadla fikrini əsaslandırır və nöqtələrin yerinə uyğun adları əlavə edir.

Beləliklə, Stiv Rassel kommersiya tipli ilk kompüter oyunu yaratmış qrupun rəhbəridir, Ralf Bayer isə, həqiqətən, “kompüter və video oyunları kralı”dır. Amma məhz Aleksandr Duqlas tarixdə ilk kompüter oyunu yaratmış şəxsdir.

**Söz ehtiyatı**

**(St. 2.1.1.)** Şagirdlərin mətndən mənasını bilmədiyi sözlər (dissertasiya, sənaye, ekspert və s.) kontekstdən çıxış etməklə izah olunur və lüğət vasitəsilə mənaları dəqiqləşdirilir.

**Yazı**

**(St. 3.1.3)** Mətn oxunub qurtardıqda artıq oradakı mühüm faktlar da cədvəldə sistemləşdirilmiş olur. 4-cü tapşırığın tələbinə görə, bu mövzuda başqa



LAYİHƏ

mənbələrdən istifadə etməklə yazılı təqdimat hazırlanır. Şagirdlər tərtib etdikləri qeydlər cədvəlindən bu yazı üçün açar sözlər kimi istifadə edib plan hazırlaya bilərlər. Belə ki, kompüter oyunları sənayesinin inkişafında xidməti olan hər bir şəxs haqqında məlumat yazılacaq mətnin bir hissəsini təşkil edə bilər. Şagirdlər çalışmalıdırlar ki, 1) keçid cümlələr yazmaqla bitkin hissələri bir-biri ilə əlaqələndirsinlər, 2) mətni yazarkən dərslikdəki cümlələri olduğu kimi istifadə etməsinlər, 3) əlavə məlumatları yerləşdirərkən hissələr arasında əlaqəni pozmasınlar.

## Dinləyib-anlama və danışma

**(St. 1.1.2; 1.2.4)** "Kompüter oyunlarını çox oynamaq ziyandır" mövzusunda **debat** keçirilir. Bu, kifayət qədər aktual və ictimaiyyətdə geniş müzakirə olunan mövzudur. Yəqin ki, təsdiqedici tərəfin (TT) kifayət qədər arqumenti olacaq. Ona görə də inkaredici tərəfə (İT) məsləhət görmək olar ki, öz çıxışlarını əks-arqumentlər üzərində qursunlar; məsələn:

TT-nin arqumenti: – Kompüterdə çox oynamaq gözə ziyandır.

İT-nin əks-arqumenti: – Kitabı da çox oxumaq gözə ziyandır.

TT-nin arqumenti: – Kompüter oyunları heç bir bilik və ya bacarığı inkişaf etdirmir.

İT-nin əks-arqumenti: – Kompüter oyunları klaviaturada tez işləmək, cəld qərar vermək bacarıqlarını, ani reaksiya qabiliyyətini inkişaf etdirir. Elə intellektual oyunlar da var ki, insanda məntiqi təfəkkürün inkişafına yardımçı olur və müəyyən biliklər tələb edir.

Ümumiyyətlə, bu mövzunun müvafiq yaş qrupunun maraq dairəsinə yaxınlığını nəzərə alaraq onu çox maraqlı və canlı keçirmək olar. Şagirdlər kompüter oyunlarını nümayiş etdirməklə öz fikirlərini əsaslandıra bilərlər.

## Dil qaydaları

**(St. 4.1.2)** 5-ci tapşırıq dil qaydalarına keçid rolunu oynamaqla yanaşı, şagirdlərin bu məzmun xətti üzrə yiyələndikləri müxtəlif bacarıqlar arasında körpü sala bilər. İlk iki feili tərkib hissələrinə ayırmaq və şəkilçilərin qrammatik funksiyalarını müəyyən etmək tələb olunur.

"Doğururdularsa" feilində omonim şəkilçilərin fərqləndirilməsi üçün müxtəlif vasitələrə müraciət etməli olacaqlar. Şagirdlərə xatırlatmaq lazımdır ki, *-ır*$^4$ şəkilçisinin funksiyasını müəyyən etmək üçün şəkilçinin feilin başlanğıc formasına daxil olub-olmadığına fikir vermək lazımdır. Bunu müəyyənləşdirməyin sadə yollarından biri feili inkarda işlətməkdir. İnkar şəkilçisindən əvvəl işlənən *-ır*$^4$ leksik, sonra işlənən şəkilçi isə indiki zaman şəkilçisidir. Sonuncu *-sa*$^2$ isə şəxs şəkilçisindən sonra gəldiyinə görə *isə* hissəciyinin ixtisar formasıdır. Onun şərt şəkilçisi olması üçün başlanğıc formadan sonra işlənməsi lazımdır. Bu sözdə isə həmin yerdə indiki zaman şəkilçisi işlənib.

"Yayılırdılar" feilində də omonim şəkilçilər işlənib: *-ır* və *-dı* şəkilçiləri. Onların da işlənmə yerinə görə vəzifələrini müəyyən etmək mümkündür: baş-



LAYİHƏ

lanğıc formadan sonra gələn şəkilçi zaman şəkilçisi, ikinci isə *idi* hissəciyinin ixtisar formasıdır.

Hər iki sözdə buraxılmış eyni bir səhvin araşdırılması əvvəllər əldə edilmiş başqa bir məlumatı – xəbərin mübtəda ilə uzlaşması zamanı müəyyənləşdirilmiş qaydaları bir daha yada salır. Mübtəda insan anlayışı bildirmədikdə III şəxsin cəmində xəbər mübtəda ilə kəmiyyətə görə uzlaşmır.

"Artıqdı" sözünü kök və şəkilçiyə ayırarkən diqqəti sonuncu morfemə (*-dı*) vermək lazımdır. Yadda saxlamaq lazımdır ki, *idi* hissəciyi feil olmayan sözlərə qoşulduqda ixtisar edilmir.

Mətnlə bağlı olan 6-cı və 7-ci tapşırıqlar da tədris vahidi ərzində əldə olunmuş köməkçi nitq hissələrinin sinonimliyini və omonimliyini müəyyənləşdirmək bacarıqlarının möhkəmləndirilməsinə xidmət edir.

**Müəllimin nəzərinə!**
7-ci tapşırığın icrası bir qədər diqqət tələb edir. *Kimi* qoşması, adətən, yönlük halda işlənən sözə qoşulduqda zaman və məsafə mənası bildirir. Mətndə isə adlıq halda işlənən feili sifətə qoşulmuş *kimi* qoşması, bəzi hallarda olduğu kimi, zaman mənası yaradır.

8-ci tapşırıq müxtəlif hallarda işlənərkən fərqli məna çaları yaradan qoşmalar müqayisə edilir. Tapşırıqda bənzətmə və müqayisə mənası bildirən qoşma yönlük halda işlənən sözə əlavə edildikdə məna çaları dəyişərək məsafə (zaman) mənası bildirir.

9-cu tapşırığın şərtinə görə, şagirdlər cümlələrdə əsas və köməkçi nitq hissəsi kimi verilmiş sözləri müəyyənləşdirməlidirlər. Buna əməl etmək üçün qazandıqları bacarıqlara istinad edirlər: əsas nitq hissəsi kimi işlənmiş söz suala cavab verir, lüğəvi mənası var, köməkçi nitq hissəsi isə suala cavab vermir və lüğəvi mənası yoxdur.

10-cu tapşırıq sinonim köməkçi nitq hissələri üzərində işi nəzərdə tutur. Sinonim qoşmalar olan *üçün, ötrü* qoşmaları istər bir-biri ilə, istərsə də *görə* qoşması ilə əvəz edildikdə müxtəlif hallarda işlənən sözlərə qoşulur.

Tapşırığın 2-ci hissəsi *-la* morfeminin zərf düzəldən şəkilçi və qoşma funksiyalarını müqayisə edib nəticə çıxarmağı nəzərdə tutur.

Tapşırığın 3-cü hissəsi isə *ancaq* bağlayıcısının sinonimlərini müəyyən etməyi (*amma, lakin*), *sonra* sözünün zərf və ya qoşma kimi işlənmə məqamlarını müəyyənləşdirməyi tələb edir.

**Qiymətləndirmə**

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh.18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.

LAYİHƏ

**Dərs 38. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)**

Bu dərs müvafiq bölmədə reallaşdırılmış məzmun standartları üzrə bacarıqların möhkəmləndirilməsi üçün nəzərdə tutulmuşdur. Şagirdlərə aşağıdakı mətn üzrə ifadə yazdırmaq tövsiyə olunur.

## DİNAMİT

İlk dəfə mina qurğusu yaratmış ixtiraçı Emmanuel Nobelin dörd oğlu var idi. Onlardan biri də gələcəyin məşhur ixtiraçısı və biznesmeni Alfred Nobel idi. Partlayıcı maddələrlə məşğul olan bu kimyaçılar ailəsi daim təhlükəli təcrübələr keçirməli olurdular. Bu təcrübələrdən birində Alfredin kiçik qardaşı həlak olmuşdu.

Alfred Nobel dünya tarixində, ilk növbədə, dinamitin ixtirası ilə yadda qalmışdır. Dinamitin əsasını güclü dağıdıcı qüvvəyə malik olan nitroqliserin təşkil edir. Onu kəşf edərkən A.Nobel dinamitin, ilk növbədə, inşaatda, yolların salınmasında tətbiq olunacağını düşünürdü. Lakin az sonra bu maddə hərbçilərin əlində dağıdıcı bir silaha çevrildi və müharibələrdə milyonlarla insanın ölümünə səbəb oldu. Nobel bir çox ölkələrdə dinamitin istehsalı üzrə zavodlar qurdu və dünyanın ən zəngin adamlarından birinə çevrildi.

Günlərin bir günü artıq yaşa dolmuş A.Nobel qəzetdə özünün ölümü haqda məqalə oxudu. Əslində, vəfat edən onun qardaşlarından biri idi. Nobel qardaşlarını səhv salan məqalə müəllifi ölmüş zənn etdiyi Alfred Nobelin ünvanına kəskin ittihamlar irəli sürür, onu müharibələrin daha dağıdıcı olmasında günahlandırırdı.

Məqaləni oxuyan Nobel fikrə getdi: "Mən elmdə böyük ixtira etdim. Amma belə çıxır ki, tarixin yaddaşında cinayətkar kimi qalacağam".

Bunu düşünən Nobel öz adına fond təsis etdi. Dinamitin ixtirasından əldə etdiyi zəngin sərvəti bu fonda bağışladı. Ölümünə yaxın vəsiyyət etdi ki, hər il bəşəriyyət üçün böyük xidmətlər göstərmiş ən dəyərli insanlara bu fonddan mükafat versinlər. O vaxtdan bu vəsait hesabına hər il fizika, kimya, təbabət, ədəbiyyat üzrə ən yeni nailiyyətlərə, həmçinin sülhü möhkəmləndirmək sahəsində fəaliyyətə görə dünyanın müxtəlif ölkələrindən olan xadimlər Nobel mükafatı alırlar. Onu da demək lazımdır ki, Nobel fondundakı vəsaitin bir hissəsini Bakıdakı "Nobel qardaşları" şirkətindən Alfredə düşən pay təşkil edir.

LAYİHƏ

## VI BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

1-5-ci tapşırıqlar mətnlə bağlıdır.

### Çiçəyə qarşı peyvənd

Çiçək xəstəliyi əvvəllər vəba, taun və **başqa** yoluxucu xəstəliklər kimi qorxunc və təhlükəli olmuşdur. XVIII əsrdə ingilis həkimi və bioloqu Edvard Cenner ...................... etmişdi ki, inək sağan qadınlar çiçək xəstəliyinə tutulmurlar. Cenner bunu onunla ...................... etmişdi ki, **(1)** inək südünün tərkibində olan xüsusi maddə sağıcıların əllərindəki **(2)** çatlara hopur, nəticədə həmin adamlarda xəstəliyə **qarşı** *immunitet* yaranır. Buna əsaslanan Cenner vaksin adlanan peyvənd materialı hazırlamış və çiçək xəstəliyinə tutulmuş 8 yaşlı uşağa ...................... etmişdi.

Beləliklə, bu gün çiçəyə qarşı peyvənd üsulunun kəşfi Cennerin adı ilə bağlanır. Əslində isə bu üsul ondan xeyli əvvəl Osmanlı imperiyasında məlum idi. Belə ki, 1717-ci ildə İngiltərənin Osmanlı dövlətindəki səfirinin xanımı Meri Montegü yerli əhalinin mədəniyyəti, məişəti, həyat tərzi ilə yaxından tanış olmuş, burada gördükləri və eşitdikləri barədə məktublar yazmışdı. Xanım Montegü öz qızı ilə **(2)** oğlunu da **(1)** burada **(2)** peyvənd etdirmişdi. Sonralar dünya ədəbiyyatı tarixinə "Montegünün məktubları" adi ilə **(1)** daxil olan bu yazılardan da məlum olur ki, həmin vaxt Osmanlı türkləri________________________________________ bilirlərmiş.

**1.** Mətnin məzmunundan çıxış edərək sonuncu cümləni tamamlayın.

**2.** Birinci abzasda nöqtələrin yerinə "peyvənd", "müşahidə", "izah" sözlərini yazın.

**3.** Birinci abzasdan çıxış edərək "immunitet" sözünün mənasını açıqlayın.

________________________________________________

**4.** Mətndə eyni rəngdə verilən sözlərin qrammatik mənalarını yazın.

ki (1) ____________________ ki (2) ____________________
ilə (1) ____________________ ilə (2) ____________________
da (1) ____________________ da (2) ____________________

**5.** Birinci abzasda işlənmiş "başqa" və "qarşı" sözlərinin mətndəki qrammatik mənalarını yazın.

başqa – ____________________ qarşı – ____________________

Bu sözləri digər qrammatik mənalarda işlətməklə cümlələr qurun.

________________________________________________
________________________________________________



LAYİHƏ

**6.** Sinonim modal sözləri seçib qruplaşdırın.

*beləliklə, doğrusu, güman ki, həqiqətən, görünür, sözsüz, bir sözlə, düzü, ehtimal ki, xülasə, düzdür, şübhəsiz*

1. ______________________________
2. ______________________________
3. ______________________________

**7.** *"Sən də öz torpağın uğrunda döyüşməlisən"* – cümləsində "*də*" bağlayıcısının yerini elə dəyişin ki, ədat rolunda iştirak etsin.

______________________________

**8.** Altından xətt çəkilmiş sözlər haqqında düzgün fikirləri seçin.

A. İstəyirəm ki, işin nəticəsini sən də <u>görəsən</u>.
B. <u>Görəsən</u>, xarıbülbül nə üçün başqa yerdə bitmir?

1. I cümlədə *görəsən* feildir, arzu şəklindədir.
2. II cümlədə *görəsən* modal sözdür, güman, şübhə bildirir.
3. I cümlədə *görəsən* ədatdır, qüvvətləndirici məqsəd daşıyır.
4. Hər iki söz modal sözdür.
5. Hər ikisi feildir.

**9.** Durğu işarələrini bərpa edib köçürün. Qərarınızı əsaslandırın.

1. Heyif dinləməyi öyrədən bilik müəssisəsi yoxdur. (L.Jokkoko)
2. Deməli cəbhədə hamı sizin əmrlərinizi yerinə yetirməlidir.
3. Ucu tər cığalı siyah tellərin
   Hərdən tamaşası hayıf ki yoxdur. (M.P.Vaqif)
4. – Bəs baş əymədiniz
   – Əymədim bəli
   – Əyilməz vicdanın böyük heykəli. (S.Vurğun)
5. Eşqdir mehrabı uca göylərin,
   Eşqsiz ey dünya nədir dəyərin  (N.Gəncəvi)

**10.** Verilmiş sözləri ədat və bağlayıcı rolunda cümlələrdə işlədib yazın.

*ancaq, ki, da(də)*

______________________________
______________________________
______________________________
______________________________
______________________________
______________________________

LAYİHƏ

# VII BÖLMƏ

## KİTABIN TARİXİ

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | MMV səh. |
|---|---|---|---|---|---|
| 39. | **Qədimdə kitab işi**<br>*Cümlənin quruluşca növləri* | 2.2.3, 2.1.1, 1.2.2, 3.1.2, 1.1.2, 4.1.1 | 3 | 148-151 | 157-160 |
| 40. | **Kitabxanalar** | 2.2.2, 2.1.1, 4.1.1, 4.1.2, 1.2.4 | 3 | 152-155 | 161-163 |
| 41. | **Kitab çapının ixtirası** | 2.1.1, 2.2.2, 3.1.3, 1.2.1, 4.1.2, 4.1.1 | 3 | 156-158 | 164-166 |
| 42. | **Azərbaycanda ilk mətbəələr** | 2.2.3, 2.2.2, 2.1.1, 1.1.2, 3.1.3, 4.1.2, 4.1.1 | 3 | 159-162 | 167-171 |
| 43. | **Elektron kitab** | 2.2.3, 2.1.1, 1.2.2, 3.1.3, 4.1.3, 4.1.1 | 2 | 163-165 | 172-173 |
| 44. | **Ümumiləşdirici təkrar** | | 2 | 166-167 | 173 |
| | **Kiçik summativ qiymətləndirmə** | | 1 | | 174-175 |
| | **Böyük summativ qiymətləndirmə** | | 1 | | |
| **Yekun** | | | **18 saat** | | |

LAYİHƏ

## Dərs 39. QƏDİMDƏ KİTAB İŞİ (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Oxuduğu mətnlə dinlədiyi mətndəki məlumatları ümumiləşdirərək əsas fikrə münasibət bildirir. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Tanış olmadığı sözlərin mənasını mətndəki məlumatlar əsasında dəqiqləşdirir. |
| 1.2.2. Fikrini məntiqi ardıcıllıqla ifadə edir. | Müzakirə və ya debat zamanı fikrini əsaslandırarkən fakt və məlumatlardan məntiqi ardıcıllıqla istifadə edir. |
| 3.1.2. Topladığı fakt və hadisələrə münasibət bildirməklə mətni zənginləşdirir. | Məlumata münasibət bildirməklə mətni zənginləşdirir. |
| 1.1.2. Dinlədiyi fikrin inandırıcı və əsaslandırılmış olub-olmamasını müəyyənləşdirir. | Dinlədiyi mətndəki məlumatların əvvəl əldə etdiyi biliklərə nə dərəcədə uyğun gəldiyini müəyyənləşdirir. |
| 4.1.1. Cümlələri quruluşuna görə fərqləndirir. | Sadə və mürəkkəb cümlələri bir-birindən fərqləndirir. |

**Motivasiya**

Lövhədə şəkillər və ya videogörüntülər vasitəsilə qədim əlyazma nümunələri və müasir kitablar nümayiş etdirilir. Müəllim bu nümunələri müqayisə etməyi tapşırır. Venn diaqramı vasitəsilə həmin nümunələr müqayisə edilir. Müqayisə zamanı onların yaranma dövrü, istehsal texnologiyaları haqqında məlumatlar qeyd edilir. Bu zaman müəllim diqqəti qədim kitablarla müasir kitabların yaranma üsullarına yönəldir. Müasir kitablardan fərqli olaraq həmin kitablar üzərində daha çox iş getdiyini vurğulayır və soruşur:

– *Həmin kitabları kim yaradırdı?*

**Oxu**

(St. 2.2.3) Mətn **Qeyd götürməklə oxu** texnikası ilə oxudulur. Mətn qədim əlyazmalarla bağlı fakt və məlumatlarla zəngindir. Bu fakt və məlumatları sistemləşdirmək üçün cütlərə iş vərəqləri paylanır. Vərəqdə aşağıdakı cədvəl öz əksini tapır.

| Mətndən əldə etdiyiniz məlumatları cədvəlin uyğun xanalarına yazın. | | | | |
|---|---|---|---|---|
| Sənətkar | Peşəsi, vəzifəsi | Fəaliyyət göstərdiyi yer | Müraciət etdiyi əsər | Əsərin hazırda saxlandığı yer |
| | | | | |



LAYİHƏ

Oxu başa çatıb cədvəl doldurulduqdan sonra müəllim cütlərdən birinə doldurduqları cədvəl üzrə təqdimat etməyi tapşırır. Digər cütlərə isə təklif edir ki, təqdimatda öz əksini tapmış fakt və məlumatların dəqiqliyinə diqqət yetirsinlər, eləcə də təqdimatda öz əksini tapmayan fakt və məlumatları qeyd etsinlər. Təqdimatdan sonra diqqəti mətndəki digər aspektlərə yönəltməklə mətn üzərində işi bir qədər də dərinləşdirmək olar.

**(St. 2.1.1)** 1-ci tapşırığın tələbinə görə, mətndə verilmiş *xəttat, müsəhhih* sözlərinin mənası oxu zamanı əldə olunan məlumatlara istinad edilərək dəqiqləşdirilir.

**Müəllimin nəzərinə!**

Bu zaman *müsəhhih* sözünün ifadə etdiyi mənanı dəqiqləşdirmək üçün müəllim onun *səhih, təshih* sözləri ilə yaxınmənalı olduğunu bildirir. Bunun üçün həmin sözlərin ifadə etdiyi anlayışları izah etmək də məqsədəuyğundur.

**SƏHİH [səhih] sifət, ərəb**

Düzgün, doğru, gerçək, əsaslı, yalan olmayan.

*Səhih məlumat. Səhih söz.*

**TƏSHİH [təshih] isim, ərəb**

Yazı və s.-də səhvləri, nöqsanları düzəltmə; düzəliş.

*Firidun öz məqaləsini bir də oxudu, ... bəzi təshihlər etdi. (M.İbrahimov)*

## Danışma

**(St. 1.2.2)** 2-ci tapşırıq mətndə altından xətt çəkilmiş cümlələri ümumiləşdirərək nəticə çıxarmağı nəzərdə tutur. Bu cümlələrdən bir ümumi fikir çıxarmaq mümkündür ki, əsrlər boyu mənəvi xəzinəmizi qoruya bilməmişik, qiymətli əlyazmalarımızın bir çoxu yadellilər tərəfindən talan olunmuş, dünyanın müxtəlif muzeylərinə aparılmışdır. Tapşırığın icrası inkişaf etdirilərək müzakirəyə çevrilir. Şagirdlərə bu fikrə münasibət bildirmək tapşırılır.

**Müəllimin nəzərinə!**

Bu tapşırıqla bağlı müəllim 6-cı sinifdə keçilmiş "Şeyx Səfi məqbərəsi necə talan olundu" mətnini xatırlada bilər.

## Yazı

**(St. 3.1.2)** 5-ci tapşırıq mətn üzərində işin əhatə dairəsini bir az da genişləndirir. Mətndə verilmiş rəvayətdən (kursivlə fərqləndirilmiş rəvayət) çıxış edərək nəticə çıxarmaq təklif olunur. Bu zaman kəmiyyət və keyfiyyət arasında olan nisbətə fikir vermək, ustalığın məhsuldarlıqla deyil, görülən işin keyfiyyəti ilə ölçüldüyünü vurğulamaq lazımdır.

## Dinləmə

**(St. 1.1.2)** Müəllim aşağıdakı mətni oxuyaraq dərslikdən əldə olunmuş məlumatla müqayisəsini təklif edə bilər.



LAYİHƏ

*Minlərlə qiymətli tarixi sənədin, eləcə də Azərbaycan ədəbiyyatı nümunələrinin saxlandığı Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutundakı sənədlərin sırasına daha bir qiymətli nümunə əlavə olunub. Bu, Vatikan Apostol Kitabxanasında saxlanılan Azərbaycan ədiblərinin əsərlərinin əlyazmalarıdır. İnstitutun əməkdaşı, tarix elmləri doktoru Fərid Ələkbərlinin ANS-ə verdiyi məlumata görə, bu əlyazmalar elmi axtarışlar nəticəsində aşkar edilib. Onun sözlərinə görə, bu əlyazmaların arasında dahi Azərbaycan ədibləri – Nizami Gəncəvinin, Məhəmməd Füzulinin, İmadəddin Nəsiminin və Nəsirəddin Tusinin əsərləri də var. Bu əsərlərin surətləri Azərbaycana rəqəmsal disk formasında verilib.*

*Qeyd edək ki, Vatikandakı Əlyazmalar İnstitutunda "Kitabi-Dədə Qorqud" dastanının da nüsxəsi var. Bu nüsxəni Azərbaycan alimləri hələ araşdırmayıblar.*

3-cü tapşırıq isə mətni və təqdimatı bir daha müşahidə etməyi nəzərdə tutur. Mətndə adı çəkilən kitab ustalarının hamısının adı təqdimatın birinci sütununda yazılıb. Sonrakı sütunları nəzərdən keçirməklə bu tapşırığı asanlıqla icra etmək mümkündür. Çünki cədvəldə Kəmaləddin Behzadın adı yazılmış sətrin 4-5-ci sütunları boş qalacaq.

4-cü tapşırıq mətnin hissələri arasında əlaqəni müəyyən etməyi nəzərdə tutur. Tapşırığın birinci hissəsini yerinə yetirmək üçün şagirdlər mətnin nəticə hissəsinin əks olunduğu sonuncu abzasa müraciət edəcəklər. Tapşırığın ikinci hissəsi isə həmin abzasda verilmiş fikirlərin mətnin hansı hissələrindəki məlumatla bağlı olduğunu müəyyənləşdirməyə xidmət edəcək.

### Dil qaydaları

**(St. 4.1.1)** 6-cı tapşırıqla dil qaydaları üçün motivasiya yaratmaq mümkündür. Şagirdlər VI sinifdə cümlənin qrammatik əsasını müəyyən etmək bacarığına yiyələniblər. Həmin bacarığa istinad edərək nəzərdə tutulmuş cümlələrin qrammatik əsasını müəyyənləşdirirlər. Bu zaman müəllim diqqəti hər iki cümlədə qrammatik əsasın sayına yönəldir. Qeyd edir ki, cümlənin mövcudluğu üçün bir qrammatik əsas kifayət edir. Bu zaman digər nitq vahidləri üçün lazım olan elementlər yada salına bilər. Söz üçün bir kökün, söz birləşməsi üçün iki müstəqil sözün varlığı kifayət edir.

Müəllim sualla sinfə müraciət edir:

– *Əgər sözün başlanğıc formasında köklə yanaşı, leksik şəkilçi və yaxud ikinci bir kök işlənərsə, onda sözün quruluşunda hansı dəyişiklik baş verir?*

Şagirdlər hələ beşinci sinifdən bu suala cavab vermək üçün lazım olan bacarıqlara yiyələniblər. Odur ki müəllim yeni bir sualla sinfə müraciət edə bilər:

– *Bəs onda cümlədə ikinci bir qrammatik əsasın varlığı cümlənin quruluşuna necə təsir edəcək?*



LAYİHƏ

Bundan sonra müəllim cümlənin quruluşca növləri haqqında qısa məlumat verib tədqiqatı tapşırıqlar üzərində davam etdirir.

7-ci tapşırıqda verilmiş cümlələr quruluş etibarilə müxtəlifdir. 1-ci cümlədə bir qrammatik əsasın olması şübhə doğurmadığına görə şagirdlər onun quruluşca sadə olduğunu asanlıqla müəyyən edəcəklər. 2-ci cümlənin iki xəbəri var. İlk baxışda şagirdlər onu mürəkkəb cümlə hesab edə bilərlər. Bu nəticəyə gəlməmək üçün onlara istiqamət vermək lazımdır ki, hər iki xəbərdən mübtədaya sual versinlər. Bu zaman hər iki xəbərin yalnız bir mübtədası olduğu aydınlaşacaq. Buradan da nəticə çıxarmaq olar ki, bu cümlədə yalnız bir qrammatik əsas var və o, sadə cümlədir. 4-cü cümlədə isə iki mübtədanın bir xəbəri olduğundan o, sadə cümlə sayılır. Beləliklə, həmin tapşırığı icra etməklə şagirdlər sadə və mürəkkəb cümlələri fərqləndirə bilmək bacarığına yiyələnməyə başlayırlar.

8-ci tapşırıq sadə cümlələri mürəkkəb cümləyə çevirməyi nəzərdə tutur. Bu zaman müəllim şagirdlərə təsriflənən və təsriflənməyən feillər haqqında biliklərini xatırladır. Təsriflənən feillər özündən əvvəl işlənən sözlərlə cümlə yaradır, təsriflənməyən feillər isə həmin vəziyyətdə söz birləşmələri yaradır. Müəllim ilk cümlədəki təsriflənməyən feili (*boylananda* – feili bağlama) cümlənin xəbəri olan *səsləndi* feili kimi xəbər şəklində işlətməyi təklif edir. Yaranmış vəziyyəti (*Reyhan evə tərəf boylandı, Aqil arxadan səsləndi*) müşahidə edərək cümlənin qrammatik əsaslarını tapmağı tapşırır. Eyni qayda ilə sonrakı cümlələr üzərində iş davam etdirilir.

Sonrakı tapşırıqlar əvvəllər əldə edilmiş bacarıqları xatırlatmağı nəzərdə tutur. Belə ki, 9-cu tapşırığı yerinə yetirən şagirdlər bu dərsdə keçilmiş qrammatik qayda ilə bağlı qazandıqları bacarıqları nümayiş etdirməklə yanaşı, 6-cı sinifdə xəbərin ifadə vasitələri ilə bağlı bilikləri də tətbiq etmiş olurlar.

10-cu tapşırıq isə şagirdlərin fəaliyyət dairəsini bir qədər də genişləndirir. Verilmiş feili müxtəlif şəkillərdə *idi, isə* hissəcikləri ilə işlədərək cümlə qurmağı nəzərdə tutur. Bu zaman müşahidə edirlər ki, *isə* hissəciyinin işləndiyi cümlədə iki və daha artıq qrammatik əsas mövcud olur. Beləliklə, şagird morfologiyada *isə* hissəciyi ilə tanış olarkən aldığı məlumatı praktik bacarığa çevirmiş olur.

11-ci tapşırıq cümlələrin qrammatik əsasını müəyyən edərək onların quruluşca növünü müəyyənləşdirməyi nəzərdə tutur.

**Qiymətləndirmə**

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.

LAYİHƏ

## Dərs 40. KİTABXANALAR (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir. | Mətnin tərkib hissələrindəki məlumatları müqayisə etməklə oxşar və fərqli məqamları müəyyənləşdirir. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Tanış olmadığı sözlərin mənasını mətndəki məlumatlar əsasında dəqiqləşdirir. |
| 4.1.1. Cümlələri quruluşuna görə fərqləndirir. | Mürəkkəb cümlənin tərkibindəki sadə cümlələri müəyyənləşdirir. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Feilin ümumi qrammatik mənası ilə bağlı məlumatları sistemləşdirir. |
| 1.2.4. Müzakirələrdə deyilmiş müxtəlif fikirlərə münasibət bildirir. | Başqasının fikrini təkzib və ya təsdiq etmək üçün əsaslı arqumentlər və əks-arqumentlər gətirir. |

### Motivasiya

Azərbaycan Milli Kitabxanasının şəkli nümayiş etdirilir. Şagirdlərdən onun haqqında nə bildikləri soruşulur. Sonra daha hansı kitabxanaları tanıdıqları, kitabxanaların yaranma tarixi ilə bağlı hansı məlumatlara malik olduqları soruşulur: **“**Kitabxanaların yaranma tarixi, onların ədəbi-mədəni inkişaf tariximizdəki rolu nədən ibarətdir?”

### Oxu

**(St. 2.2.2)** “Kitabxanalar” mətni tarixi fakt və məlumatlarla zəngindir. Burada kitabxanaların xalqın mənəvi inkişafında rolu, eləcə də kitabxanaların yaranması, inkişafı və qorunmasında tarixi şəxsiyyətlərin müstəsna xidmətləri əks etdirilmişdir. Əvvəlcə mətnin 1-ci mətndaxili suala qədər olan hissəsi oxunur, tapşırığa əsasən, həmin parçadan çıxarılan nəticə ümumiləşdirilir.

Mətnin sonrakı hissələri **Ziqzaq** üsulu ilə oxunur. Mətnin ulduzlarla ayrılmış hər parçası bir tarixi dövrdən bəhs edir. Bu hissələrin sayının beş olduğunu nəzərə alıb həmin sayda qrup yaradılır. Ziqzaq üsulunun tələblərinə uyğun şəkildə ekspertlər parçalar üzərində iş aparırlar. Aparılacaq işin dəqiqliyindən ötrü müəllim hər bir ekspert qrupu üçün iş vərəqi hazırlaya bilər.

| Kitabxana kimin adı ilə bağlı idi: | | | | |
|---|---|---|---|---|
| Yarandığı dövr | Yarandığı yer | Əməkdaşları | Şöbələri | Digər məlumatlar |
| | | | | |

Ekspertlər mətn üzərində işlərini qurtarıb “doğma” qruplarına qayıdırlar. Təqdimatlar edildikdən sonra müqayisələr aparılır, kitabxanaların hamısı üçün səciy-



LAYİHƏ

yəvi olan xüsusiyyətlər (kitabxanaların müxtəlif şöbələrə bölünməsi, orada müxtəlif mütəxəssislərin çalışması, müxtəlif ölkələrdən kitablar gətirməklə zənginləşdirilməsi və s.) və özlərinə məxsus cəhətlər qeyd edilir. Əldə edilən nəticələr giriş hissəsində çıxarılmış nəticə ilə və mətnin son abzasında söylənilən fikirlə əlaqələndirilir.

**Söz ehtiyatı**

**(St. 2.1.1)** Mətndəki "biblioqrafiya", "kataloq", "təsnifat" sözlərinin mənası mətndəki məlumatlar əsasında dəqiqləşdirilir. Həmin sözlər lüğətlərdə aşağıdakı kimi şərh edilmişdir.

**BİBLİOQRAFİYA [bibliyaqrafiya] isim, yunan**

Müəyyən məsələyə dair kitab, məcmuə və məqalələrin siyahısı; kitabiyyat; kitabların məzmununun elmi təsviri və onların siyahı və qeydlərinin tərtibi.

**KATALOQ [katalok'] isim, yunan**

Müəyyən qayda üzrə tərtib edilmiş şeylərin (kitabların, əlyazmaların, muzey eksponatlarının və s.) siyahısı. *Kitabxana kataloqu. Sərgi kataloqu. Texniki ədəbiyyat kataloqu. Kataloq otağı. Kataloqa salmaq.*

**TƏSNİFAT [təsnifat] isim, ərəb**

Hər hansı eynicinsli şeylərin və ya anlayışların müəyyən ümumi əlamətlərə görə siniflərə, qruplara, bölmələrə ayrılması sistemi; klassifikasiya. *Bitkilərin təsnifatı. Mineralların təsnifatı.*

Mənalar mətndəki yerinə görə dəqiqləşdirilir.

**Dil qaydaları**

**(St. 4.1.1, st. 4.1.2)** 4-cü tapşırıq mürəkkəb cümlənin tərkibini araşdırmaq bacarığını inkişaf etdirir. Burada bir neçə məqama diqqət yetirmək lazım gəlir. *Böyük şairin əsərlərində qeyd edilir ki, Gəncə kitabxanasında o zaman 10-dan çox dildə kitab olmuşdur* cümləsində birinci cümlənin xəbəri şəxssiz növ feillə ifadə olunub, ona görə də mübtədası yoxdur. Bu, şagirdləri çaşdıra bilər. Odur ki müəllim onlara şəxssiz növ cümlələr haqqında ötəri məlumat verə bilər. *Nizami yaradıcılığının təhlili göstərir ki, böyük şair bir neçə dil bilmiş, dünya tarixinə, elminə və ədəbiyyatına yaxından bələd olmuşdur* cümləsinin 2-ci tərəfi iki xəbərə malikdir və hər biri ikincidərəcəli cümlə üzvləri ilə əlaqəli olduğundan müstəqil cümlələr təsiri bağışlaya bilər.

5-ci tapşırığı yerinə yetirmək üçün şagirdlər göy rənglə verilmiş bağlayıcıların iştirak etdiyi cümlələri diqqətlə oxumalı, onların qrammatik əsas(lar)ını müəyyənləşdirməlidirlər.



LAYİHƏ

6-cı tapşırıq şagirddən mətndə altından xətt çəkilmiş feillərin qrammatik məna növünü müəyyənləşdirməyi tələb edir. Şagirdlər artıq feilin qrammatik məna növünü müəyyən etməyin yolunu bilirlər. Bunun üçün feilin başlanğıc formasında son leksik şəkilçini tapmaq, sonra isə subyektin obyektə münasibətini aydınlaşdırmaq kifayətdir.

7-ci tapşırıq 6-cı tapşırığın davamı kimi nəzərdə tutulub. Belə ki, şagirdlər həmin feillərin hamısına aid ortaq cəhəti müəyyən etməlidirlər. Bu isə əhatəli tədqiqat tələb edir. Həmin sözlərin (*yaradılmışdı, tikilmişdi, qurulmuşdu, saldırdığı, alınmırdı, bölünmüşdü*) hamısı feilin müəyyən bir qrammatik məna növünə aiddir. Hamısının başlanğıc forması bir kök və leksik şəkilçidən ibarət olduğuna görə onlar həm də düzəltmə feillərdir. Ona görə də 3-cü müddəa (quruluşca sadədir) qəbul edilmir. 4-cü və 5-ci müddəa da qəbul edilmir. Çünki bütün feillərdə *"dı"* işlənsə də, onların heç də hamısı nə şühudi keçmiş zamanın şəkilçisidir, nə də *idi* hissəciyinin ixtisar forması. *Yaradılmışdı, tikilmişdi, qurulmuşdu, alınmırdı, bölünmüşdü* feillərində *-dı* feilin başlanğıc formasından sonra gəlmədiyinə görə zaman şəkilçisi deyil, *idi* hissəciyinin ixtisar formasıdır. *Saldırdığı* feilində isə "*dı"* müstəqil şəkilçi deyil, feili sifət şəkilçisinin tərkib hissəsidir. Həmin feil bu sözlərin hamısının məchul növdə olduğu fikrini də qəbul etməyə imkan vermir.

Bu nəticələri əldə etmək üçün müəllim şagirdləri qruplara ayırıb həmin feillərdən hər birinin üzərində tədqiqat aparmağı (tapşırığın tələbinə uyğun) tapşırmaqla vaxta qənaət etmiş olar.

**Fəndaxili üfüqi inteqrasiya** (st.1.2.4). 8-ci tapşırıqda debat təşkil etmək nəzərdə tutulub. Dilimizdə elə sözlər var ki, onları zahiri (formal) əlamətlərinə görə kök və şəkilçiyə ayırmaq olsa da, bu, mümkün deyil. Çünki düzəltmə hesab edilən həmin sözlərin kök kimi təsəvvür edilən hissə ilə bağlılığı yoxdur. Halbuki düzəltmə sözlərin köklə müəyyən leksik-qrammatik bağlılığı olmalıdır.

9-cu tapşırıq da mahiyyətcə həmin tapşırığa bənzəyir. Məsələn, *daranmaq* və *daralmaq* feillərinin hansının *dara* feilindən əmələ gəldiyini müəyyən etmək üçün şagird hansı düzəltmə feilin lüğəvi mənasının "dara" feili ilə bağlı olduğunu müəyyən etməlidir.

10-cu tapşırıq isə şagirdlərdən feilin həm quruluşca, həm də qrammatik məna növləri ilə bağlı fikir yürütməyi tələb edir.

## Qiymətləndirmə

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.

LAYİHƏ

## Dərs 41. KİTAB ÇAPININ İXTİRASI (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Tanış olmadığı sözlərin kontekstə görə mənasını təxmin edir və lüğətin köməyi ilə dəqiqləşdirir. |
| 2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir. | Mətnin müxtəlif hissələrindəki faktları bir-biri ilə bağlamaq üçün mətnin leytmotivini müəyyənləşdirir. |
| 3.1.3. Qurduğu plan əsasında mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirir. | Müxtəlif mənbələrdən topladığı materialları sistemləşdirərək rabitəli mətn yazır. |
| 1.2.1. Fikrini müxtəlif formalarda ifadə edir. | Müxtəlif mənbələrdən topladığı məlumatları məruzə şəklində təqdim edir. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Feilin təsriflənməyən formalarını müəyyənləşdirir. |
| 4.1.1. Cümlələri quruluşuna görə fərqləndirir. | Söz sırası pozulmuş cümlələrin quruluşuna görə növünü müəyyənləşdirir. |

**Motivasiya**

**Beyin həmləsi.**

Şagirdlərə təcili yardım maşınının şəkli nümayiş etdirilir.

**Sual:**

– Sizcə, nə üçün maşının üstündə "Ambulans" sözü tərsinə yazılmışdır?

***Qeyd.*** Təcili yardım maşınlarının üzərində "Ambulans" sözünün tərsinə yazılması qarşıda gedən avtomobilin arxa güzgüsündən əks olunaraq düzgün oxunmasına xidmət edir.



*– Tərsinə yazmaqla düzgün oxuya daha harada rast gəlmək olar? (möhürdə, ştampda)*

*– Kitab çapı ilə bunu necə əlaqələndirmək olar?*



LAYİHƏ

**Oxu**

**Fəndaxili üfüqi inteqrasiya** (st. 2.1.1; 2.2.2). 2-ci tapşırığın icrası üçün mətni iki hissəyə bölüb oxumaq tövsiyə olunur: 1) qədimdə kitab çapı və 2) kitab çapının təkmilləşdirilməsində İ.Qutenberqin rolu. Müəllim lövhədə belə bir cədvəl asır. Bildirir ki, bu cədvəldə sonda əldə olunan məlumatlar tezislər şəklində yerləşdiriləcəkdir.

| Kitab çapının tarixi | Mətbəənin tarixi |
|---|---|
| | |

Mətnin oxusu üzərində iş **Ekspertlərlə müzakirə** üsulu ilə aparılır. Əvvəlcə mətn tam şəkildə səssiz oxu ilə oxunur. Sonra qruplara aşağıda təqdim edilmiş iş vərəqləri paylanır. Hər qrup öz hissəsində qarşılaşdığı yeni, tanış olmadığı söz və ifadələrin mənasını kontekstə görə təxmin edir və lüğətin köməyi ilə dəqiqləşdirir (st. 2.1.1; 1-ci tapşırıq).

Ekspertlər "doğma" qruplara qayıdandan sonra təqdimatlar əsasında lövhədəki cədvəl doldurulur, refleksiya aparılır. Təqdimat zamanı müəllim fikir verməlidir ki, şagirdlər cədvəldəki məlumatlar arasında əlaqəni müəyyənləşdirib mətnin leytmotivini təyin etsinlər.

**Qədimdə kitab çapı**

| **Ksiloqrafiya** | |
|---|---|
| Çap üsulu | Səmərəliliyi |
| | |

| **Literlər vasitəsilə çap** | | | |
|---|---|---|---|
| Yaranma dövrü | Banisi | Çap üsulu | Səmərəliliyi |
| | | | |

**Kitab çapının təkmilləşdirilməsində İ.Qutenberqin rolu**

| **Matrislər və presin ixtirası** | | | |
|---|---|---|---|
| Yaranma dövrü | Banisi | Dəzgahlar | Səmərəliliyi |
| | | | |

**Yazı. Fəndaxili üfüqi inteqrasiya** (st. 3.1.3; st. 1.2.1)

Şagirdləri hər hansı bir mətbəəyə ekskursiyaya aparmaq tövsiyə olunur. Əvvəlcə şagirdlərə izah olunur ki, onlar ekskursiya zamanı müşahidə etdikləri əsasında təqdimat hazırlayacaqlar. Bunun üçün şagirdlər qruplara bölünürlər:

LAYİHƏ

I qrup: Çapaqədərki proses: rəngayırımı, qəliblərin hazırlanması
II qrup: Çap prosesi
III qrup: Çapdan sonrakı proses: qatlama, cildləmə, kəsim.

Qruplara tapşırıqlar təqdim edildikdən sonra ekskursiya zamanı hər qrup öz istiqamətində iş aparır. Sonra şagirdlər müşahidələr nəticəsində əldə olunan məlumatları qruplaşdırır, plan tərtib edir və həmin plan əsasında təqdimat hazırlayırlar.

Hazırlanmış təqdimat, bir növ, oxuduqları mətnin davamı hesab edilir. Belə ki, mətndə kitab çapının müasir vəziyyəti haqqında az məlumat verilmişdir. Təqdimatlar bitəndən sonra müəllim tapşıra bilər ki, şagirdlər əldə olunan məlumatdan istifadə yolu ilə oxuduqları mətni davam etdirsinlər.

## Dil qaydaları

**(St. 4.1.2, 4.1.1)** Bu dərsdə feilin təsriflənən və təsriflənməyən formaları və cümlənin quruluşca növləri ilə bağlı şagirdlərin əldə etdikləri bacarıqların yoxlanılması nəzərdə tutulmuşdur.

3-cü tapşırıqda mətndə altından xətt çəkilmiş təsriflənməyən feilləri növlərinə görə cədvəldə qruplaşdırmaq, 4-cü tapşırıqda isə bu cür feilləri cümlələrdən seçməklə yanaşı, həmin cümlələrin quruluşca növünü müəyyən etmək tələb olunur.

5-ci tapşırıqda verilmiş mürəkkəb cümlələrdən tərkibində feili bağlama olan sadə cümlə düzəltmək tələb edilir.

Nümunə:

1. Oğlan yeyib oyuna getdi. Çoban yeyib qoyuna getdi.
2. Oğru qalana yananda mal sahibi gedənə yanar.

6-cı tapşırıqda şeiri nəsrə çevirmək, nəzəri biliklərdən istifadə etməklə cümlənin quruluşca növünü müəyyənləşdirmək tələb olunur.

## Qiymətləndirmə

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.

LAYİHƏ

## Dərs 42. AZƏRBAYCANDA İLK MƏTBƏƏLƏR (3 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Əlavə məlumatlarla müqayisə edərək mətndəki fikrin həqiqiliyini sübut edir. |
| 2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir. | Mətnin müxtəlif hissələrindəki faktları bir-biri ilə bağlamaq üçün mətnin leytmotivini müəyyənləşdirir. |
| 2.1.1.Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Tanış olmadığı sözün lüğətdə verilmiş izahları içərisindən kontekstə uyğun olanını müəyyən edir. |
| 1.1.2. Dinlədiyi fikrin inandırıcı və əsaslandırılmış olub-olmamasını müəyyənləşdirir. | Dinlədiyi mətndəki məlumatların əvvəl əldə etdiyi biliklərə nə dərəcədə uyğun gəldiyini müəyyənləşdirir. |
| 3.1.3. Qurduğu plan əsasında mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirir. | Oxuduğu mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirərək qısa məzmununu yazır. |
| 4.1.1. Cümlələri quruluşuna görə fərqləndirir. | Sadə və mürəkkəb cümlələri fərqləndirir. |
| 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. | Köməkçi nitq hissələrinin qrammatik mənalarını müəyyənləşdirir. |

**Motivasiya**

Müəllim şagirdlərə müraciət edir:

– Hər birinizin qarşısında kitab var. Sizcə, bu kitab oxucuya çatana qədər hansı mərhələlərdən keçir?

Azərbaycanda fəaliyyət göstərən hansı nəşriyyat və mətbəələri tanıyırsınız?

**Oxu (St. 2.2.3)** Mətn **Qeyd götürməklə oxu** üsulu ilə səssiz oxunur. Müəllimin tapşırığı ilə mətndaxili tapşırıq və suallara çatdıqda fasilə verilir və bütün siniflə birgə suallar cavablandırılır.

Həmin hissə ilə bağlı iki suala cavab vermək lazımdır. Müəllim XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda sosial-siyasi şəraitlə bağlı qısa məlumat verir. Bildirir ki, o zaman xalqımız Rusiyanın əsarəti altında idi. Əsarət altında olan xalqların azadlıq ruhunu boğmağa çalışan imperiya məmurları onların maariflənməsinə imkan verəcək hər bir şeyi qadağan edirdilər. Ona görə də milli dillərdə qəzet nəşr etmək çox çətin idi. Digər tərəfdən mətbəələrdə o zaman xalqımızın istifadə etdiyi ərəb əlifbasında heç nə çap edilmirdi.



LAYİHƏ

Ona görə də H.Zərdabi o zaman ərəb əlifbasından istifadə edilən mətbəə şriftlərini İstanbuldan gətizdirdi.

3-cü mətndaxili sual dil qaydaları ilə bağlı olsa da, diqqətli oxu tələb etdiyi üçün yerindəcə cavablandırılmalıdır. Nəzərə almaq lazımdır ki, həmin məqamda *o cümlədən* bağlayıcısından istifadə edilərsə, S.Ə.Şirvani və F.Köçərli də rus və Ukrayna yazıçıları kimi təsəvvür edilə bilər.

4-cü mətndaxili sual cavablandırılarkən şagirdlər əvvəlki dərslərdə *senzura* və *senzor* anlayışları haqqında əldə olunan məlumatlara istinad edə bilərlər. Şagirdlər artıq bilirlər ki, senzura mətbuatda yayılan fikirlərə nəzarət edən bir qurumdur, söz azadlığının qarşısını almağa xidmət edir. Bu məlumata istinad edərək senzuranın zəifləməsi ilə mətbuatın inkişafı arasında əlaqəni müəyyən edə bilərlər.

5-ci suala cavab vermək üçün H.Z.Tağıyevin mesenatlıq fəaliyyətini xatırlatmaq lazımdır. Şagirdlər aşağı siniflərdə H.Z.Tağıyevin xeyriyyəçiliyi haqqında kifayət qədər məlumat alıblar. Bu məlumatlardan istifadə etməklə oxuduqları mətni zənginləşdirə bilərlər.

**(St. 2.2.2)** "Düşün və cavab ver" rubrikasında verilmiş 7-ci tapşırığın icrası isə mətnə yenidən müraciət tələb edir. Ümumi müzakirə yolu ilə lövhədə aşağıdakı kimi cədvəl qurula bilər.

| XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda nəşriyyat-mətbəə işinin inkişaf mərhələləri | | | | |
|---|---|---|---|---|
| | I mərhələ | II mərhələ | III mərhələ | IV mərhələ |
| Tarix | | | | |
| Kimin adı ilə bağlıdır? | | | | |
| Nə etdilər? | | | | |
| Digər məlumatlar | | | | |

Daha sonra şagirdləri 4 qrupa ayırıb hər qrupa bir mərhələ ilə bağlı məlumatları toplamağı tapşırmaq məqsədəuyğundur. Hər qrup bir mərhələ ilə əlaqədar nəzərdə tutulan məlumatı toplayıb cədvəlin müvafiq xanasına yazaraq təqdimat edə bilər.

**Söz ehtiyatı (St. 2.1.1)** Oxu prosesində 6-cı tapşırığın tələbinə görə "dünyəvi", "tiraj", "redaktor", "taziyanə", "annotasiya" sözlərinin mənaları lüğətin köməyi ilə araşdırılır və mətndəki yerinə görə izah edilir.

"Ayağı yüngül olmaq" ifadəsinin frazeoloji birləşmə olduğu bildirilir. Onun mənası izah edilərkən müəllim həmin ifadənin işlənmə situasiyasını xatırlada bilər.



LAYİHƏ

Mətndə işlənmiş tanış olmayan sözlər isə mətndəki işlənmə məqamına uyğun şəkildə izah edilə bilər.

**TİRAJ[1] [tiraj] isim, fransız**

İstiqraz və ya lotereya uduşlarının oynanması. D*övlət istiqrazının növbəti tirajı.*

**TİRAJ[2] [tiraj] isim, fransız**

Buraxılmış çap nəşrləri nüsxələrinin sayı.

*Qəzetlərin tirajı. Bədii əsərlərin böyük tirajla çap edilməsi.*

Göründüyü kimi, "tiraj" sözünün lüğətlərdə omonim söz olaraq iki mənası verilib. Mətndə işlənmə yerinə görə isə ikinci məna seçiləcək.

**TAZİYANƏ [ta:ziya:nə] isim, fars**

1. Arxaizm. Qırmanc, qamçı. *...Qırata bir taziyanə vurdu. ("Koroğlu")*
2. Ədəbiyyatşünaslıq, arxaizm. Məcazi mənada: kiçik satirik şeir. *Sabirin taziyanələri.*

"Taziyanə" sözünün isə həm həqiqi, həm də məcazi mənada işləndiyi məlumdur. Mətndə isə onun məcazi mənada, eyni zamanda ədəbiyyatşünaslıq termini kimi işləndiyi aydın görünür.

**Dinləmə mətni**

**(St. 1.1.2)** 8-ci tapşırığı icra etməzdən əvvəl müəllim şagirdləri dinləmə materialı ilə tanış edir. Şəraitdən asılı olaraq internet resurslarından istifadə etmək tövsiyə olunur: http://www.eksperttv.az/video.asp?pid=95&id=637

*Nəşriyyat kitabı ərsəyə gətirən, onun maketini – qəlibini hazırlayan müəssisədir, bir növ, intellektual mərkəzdir. Burada çalışan redaktorlar, korrektorlar, rəssam və dizaynerlər kitabın məzmunu və bədii tərtibatı üzərində işləyirlər. Mətbəə isə verilmiş qəlib üzrə kitabı və digər çap məhsullarını çoxaldan müəssisədir, zavoddur.*

*Mətbəənin və nəşriyyatın gücü tamam başqa meyarlarla ölçülür. Mətbəənin gücü onun avadanlığından asılıdır. Nə qədər çeşidli və böyük avadanlığı varsa, mətbəə o qədər güclü sayılır.*

*Nəşriyyatın gücü isə, ilk növbədə, onun il ərzində neçə adda kitab buraxa bilməsi ilə ölçülür. Məsələn, dünyanın ən iri nəşriyyatlarından olan Oksford nəşriyyatı il ərzində 1000-1500 adda kitab buraxır.*

*Bəziləri düşünürlər ki, hər bir nəşriyyatın mətbəəsi olmalıdır. Mətbəəsi olmayan nəşriyyat zəif nəşriyyatdır. Ancaq əslində, belə deyil. Dünyanın ən iri nəşriyyatlarının mətbəəsi yoxdur.*

*Bir dəfə Oksford nəşriyyatının bir nümayəndəsindən onların mətbəəsinin olub-olmadığını soruşmuşdular. O gülümsünüb demişdi: "Niyə soruşmursunuz ki, makaron fabrikiniz varmı? Mətbəə və nəşriyyat tamamilə ayrı-ayrı sahələrdir. Biz dünyanın hər yerində çap olunuruq. Kitabdan asılı olaraq mətbəə*



LAYİHƏ

*seçirik. Əgər öz mətbəəmizi yaratsaq, ikiləşəcəyik və bilməyəcəyik ki, kimin marağını güdək".*

Mətni dinlədikdən sonra səslənmiş məlumatlar əsasında şagirdlər aşağıdakı nəticəyə gələ bilərlər:

*Nəşriyyat intellektual məhsul ərsəyə gətirən bir qurum, mətbəə isə həmin məhsulu çoxaldan zavoddur. Nəşriyyatda gələcək məhsulun qəlibi, onun maketi hazırlanır və çoxaldılmaq üçün mətbəəyə verilir və orada xüsusi avadanlıqlar vasitəsilə çoxaldılır.*

9-cu tapşırığın tələbini yerinə yetirən şagirdlərin aşağıdakı nəticələri əldə etməsinə çalışmaq lazımdır.

**JURNALİST [jurnalist] isim, fransız**

Jurnalistika ilə məşğul olan peşəkar ədəbi işçi. *Azərbaycan milli operasının banisi Üzeyir Hacıbəyli eyni zamanda məşhur bir jurnalist olmuşdur.*

**TƏNQİDÇİ [tənqitçi] isim**

Tənqidlə məşğul olan adam, tənqid edən.

*Musiqi tənqidçisi. Tənqidçinin qeydləri.*

**TƏRCÜMƏÇİ [tərcüməçi] isim**

Bir dildən başqa dilə tərcümə etməklə məşğul olan adam; mütərcim. *Teymur tərcüməçi vasitəsilə alimə müraciət edərək soruşur.*

**REDAKTOR [redak'tor] isim, latın**

1. Hər hansı bir işi (kitabı, qəzeti, jurnalı və s.) redaktə edən adam. *Əsərin redaktoru. Texniki redaktor.*
2. Kitab, jurnal, qəzet və s.-nin nəşrinə rəhbərlik edən, onun məzmununu təsdiqləyən şəxs. *Qəzetin redaktoru. Baş redaktor. Məsul redaktor.*

**NAŞİR [na:şir] isim, ərəb**

Kitab və s. nəşr edən adam.

*Qəzetin naşiri Məmmədağa Şahtaxtılı maarifpərvər, xeyirxah və mütərəqqi bir adam olmuşdur. (M.İbrahimov)*

**Yazı**

**Fəndaxili üfüqi inteqrasiya (st. 2.2.2, st. 3.1.3).** 10-cu tapşırığı yerinə yetirərkən "annotasiya" sözünün izahı bir daha xatırladılır və şagirdlərin nəzərinə çatdırılır ki, təkcə kitablara deyil, ayrı-ayrı hekayə, məqalə və başqa kiçikhəcmli əsərlərə də annotasiya yazmaq mümkündür.

**Müəllimin nəzərinə!**

**Annotasiya nümunəsi:**

*Məqalədə Azərbaycanda kitab çapının tarixinə nəzər salınır. İlk mətbəələrin qəzet redaksiyaları nəzdində yaradıldığı bildirilir. "Əkinçi", "Ziya", "Kəşkül", "Şərqi-Rus" qəzetlərinin bu sahədə xidmətlərindən bəhs edilir.*



LAYİHƏ

*Mətnin böyük hissəsi isə ilk peşəkar naşirlər olan Orucov qardaşlarının fəaliyyətinə həsr olunmuşdur.*

11-ci tapşırıq layihə xarakterli olduğundan evdə icrası tövsiyə edilir. Oxuduqları kitabların kataloqunu hazırlamaq üçün şagirdlərə kataloq nümunəsi göstərmək tövsiyə olunur. Bildirilir ki, kataloqda hər bir kitabın müəllifi, nəşr yeri və tarixi, annotasiya şəklində qısa məzmunu, ideyası və s. öz əksini tapmalıdır. Bütün bunlar biblioqrafik məlumatlar adlanır.

| Sıra № | Kitabın adı | Müəllifi | Yazıldığı tarix | Oxuduğum tarix |
|---|---|---|---|---|
| | | | | |

## Dil qaydaları

**(St. 4.1.2; 4.1.1)** 12-ci tapşırıq dil qaydaları üçün motivasiya rolunu oynayır. Şagirdlər mətnin 2-ci abzasındakı qoşmaları tapıb onların yaratdığı məna çalarını müəyyən edirlər.

13-15-ci tapşırıqlar köməkçi nitq hissələri, onların omonimliyi və sinonimliyi, eləcə də digər xüsusiyyətləri ilə bağlı əldə olunmuş bacarıqların inkişafına xidmət edir.

16-cı tapşırıq isə yeni bacarıq formalaşdırmağa yönəlib. Belə ki, şagirdlər bağlayıcılarla tanış olduqları zaman onların həm sözləri, həm də cümlələri bir-birinə bağlaması ilə əlaqədar məlumat əldə etmişdilər. Sadə və mürəkkəb cümlələri fərqləndirmək bacarığına yiyələndikdən sonra yenidən həmin mövzuya qayıtmaq şagirdlərin bu vərdişlərini daha da möhkəmləndirir.

## Qiymətləndirmə

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.



LAYİHƏ

## Dərs 43. ELEKTRON KİTAB (2 saat)

| *Standartlar* | *Təlim nəticələri* |
|---|---|
| 2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır. | Həyatda gördüklərindən misallar gətirməklə mətndəki fikrə münasibətini əsaslandırır. |
| 2.1.1. Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir. | Müxtəlif kontekstlərdən çıxış edərək sözün mənasını izah edir. |
| 1.2.2. Fikrini məntiqi ardıcıllıqla ifadə edir. | Tərtib etdiyi qrafik informasiyanı məntiqi ardıcıllıqla şərh edir. |
| 3.1.3. Qurduğu plan əsasında mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirir. | Müxtəlif mənbələrdən topladığı materialları sistemləşdirərək rabitəli mətn yazır. |
| 4.1.3. Köməkçi nitq hissələrinin işlənmə məqamından asılı olaraq durğu işarələrindən istifadə edir. | Köməkçi nitq hissələrindən əvvəl və sonra vergülün işlənməsi ilə bağlı qaydalara riayət edir. |
| 4.1.1. Cümlələri quruluşuna görə fərqləndirir. | Cümlənin qrammatik əsasını müəyyən etməklə quruluşca növünü fərqləndirir. |

**Motivasiya**

Müəllim:

– *Bu vaxta qədər əldə etdiyiniz məlumatlar əsasında kitab tarixini nəzərdən keçirin və inkişaf mərhələlərini xronoloji ardıcıllıqla düzün. Müasir dövrdə kitab sənayesinin nailiyyətləri haqqında nə bilirsiniz?*

Müəllimin yönəldici sualları ilə elektron kitab haqqında fikirlər səsləndirilir. BİBÖ cədvəli qurulur.

– *Elektron kitablar haqqında nə bilirsiniz?*

**Oxu**

**(St. 2.2.3)** Mətn **İstiqamətləndirilmiş oxu** üsulu ilə oxunur. Uşaqlar mətni səssiz oxuyurlar. Müəllim əvvəlcədən şagirdlərə suallar təqdim edir. Suallar təqribən belə ola bilər:

1. Azərgil hara gedirdilər?
2. Azər nə üçün kitablarının hamısını götürə bilmədi?
3. Azər vəziyyətdən necə çıxış yolu tapdı?
4. Elektron kitab nədir?
5. Elektron kitabların hansı növləri vardır?
6. Kitabçılıqda “köhnə” ilə “yeni” arasında hansının üstünlüyü çoxdur?
7. Ənənəvi olan kitablar xoşunuza gəlir?



LAYİHƏ

**(St. 2.1.1)** Söz ehtiyatı üzərində iş mətnin oxusu ilə paralel aparılır. Şagirdlər informatika fənnindən informasiya-kommunikasiya texnologiyaları ilə bağlı bir çox terminlərlə tanışdırlar. Bu biliklərindən, eləcə də sözlərin işləndiyi kontekstdən çıxış edərək onların mənasını müəyyənləşdirə bilərlər.

**Danışma**

**(St. 1.2.2)** 3-4-cü tapşırıqda şagirdlərin tənqidi təfəkkürü yoxlanılır. Şagirdlər ənənəvi və elektron tədris vəsaitlərini müqayisə etməli, mətndəki informasiyadan istifadə yolu ilə hər ikisinin müsbət və mənfi cəhətlərini sadalamalıdırlar. Təklif etmək olar ki, şagirdlər **Venn diaqramı** hazırlasınlar və hər iki vəsait formasının fərqli və oxşar tərəflərini qeyd etsinlər. Sonra hazırladıqları Venn diaqramını şərh etsinlər.

**Yazı**

**(St. 3.1.3)** "Elektron kitabların növləri" haqqında təqdimat hazırlamaq tapşırılır. Təqdimat araşdırma xarakterli olduğundan ev tapşırığı kimi verilməsi tövsiyə edilir.

Şagirdlərə xatırlatmaq lazımdır ki, əvvəlcə məlumat toplayıb nə yazacaqlarını müəyyənləşdirsinlər. Məlumatları ümumiləşdirib qruplaşdırandan sonra plan tərtib etmək tələb olunur. Tərtib olunmuş planın sinifdə müzakirəsindən sonra şagirdlər tərəfindən təqdimat hazırlanır.

**Dil qaydaları**

**(St. 4.1.3; 4.1.1)** Bu dərsdə şagirdlərin köməkçi nitq hissələri və cümlənin quruluşca növü ilə bağlı əldə edilmiş bacarıqları yoxlanılır.

5-8-ci tapşırıqlar şagirdin yaradıcı və məntiqi təfəkkürünün inkişafına yönəlmişdir.

9-cu tapşırıq vasitəsilə köməkçi nitq hissələrində durğu işarələrindən düzgün istifadə və cümləni quruluşca növünə görə fərqləndirmə bacarıqları inkişaf etdirilir.

**Qiymətləndirmə**

Müəllim girişdə verilmiş rubrik nümunələrinə əsasən (səh. 18-19), müxtəlif bacarıqların yoxlanılması üzrə rubriklər hazırlamalı və qiymətləndirmə aparmalıdır.

### Dərs 44. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)

Bu dərs həm müvafiq bölmədə, həm də il ərzində reallaşdırılmış məzmun standartları üzrə bacarıqların möhkəmləndirilməsi üçün nəzərdə tutulmuşdur.

LAYİHƏ

## VII BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

1-4-cü tapşırıqlar mətnlə bağlıdır.

### KAĞIZIN İXTİRASI

Kağız Miladdan sonra 105-ci ildə çinli Tsay Lun tərəfindən ................ . Çinlilər bu ixtiranın sirrini uzun müddət gizli saxladılar.

751-ci ildə Tyan-Şan dağları ətəyində ərəb ordusu ilə Çin ordusu qarşılaşdı. Bu döyüşdə ərəblər bir neçə çinli kağız sənətkarını əsir götürdülər və onlardan kağız emalının sirrini öyrəndilər. Səmərqənddə kağız fabriki tikdirildi. Uzun müddət Səmərqənd kağızı dünyada ən keyfiyyətli kağız sayılmışdır.

Avropa xalqları arasında kağız istehsalını ilk olaraq ispanlar mənimsədilər. İtaliyada kağız istehsalına 1154-cü ildə, Almaniyada 1228-ci ildə, İngiltərədə 1309-cu ildə başlandı.

Azərbaycanda kağız istehsalına Avropadan xeyli qabaq başlamışlar. IX əsrin sonunda Xunəc şəhərində kağız fabriki fəaliyyət göstərmişdir. Sonralar bu şəhər Kağızkunan adlandırılmışdır. Böyük mütəfəkkir Fəzlullah Rəşidəddin də Təbriz yaxınlığında kağız fabriki tikdirmişdi.

Müasir dövrə qədər insanlar yazı yazmaq üçün kağızdan əlverişli material düşünməyiblər, buna görə də Tsay Lunun adı haqlı olaraq dünyanın böyük ixtiraçılarının adları ilə bir sırada çəkilir.

**1.** Altından xətt çəkilmiş feillərin qrammatik məna növünü qeyd edin.

*tikdirildi* → __________ növ
*başlandı* → __________ növ

**2.** 2-ci abzasın son cümləsindəki feili məlum növdə işlətməklə cümləni dəyişdirib yazın.

______________________________________________________________

**3.** Mətndəki icbar növdə işlənmiş feilləri seçib yazın, onların icbar növdə olduğunu əsaslandırın.

**4.** Nöqtələrin yerinə hansı feili yazardınız?

A) kəşf edilmişdir B) ixtira edilmişdir C) tapılmışdır
D) kəşf etmişdir E) ixtira etmişdir

**5.** Hansı feilə *-dır*$^4$ şəkilçisi artırılsa da, icbar növ feil düzəltmək mümkün deyil?

A) tikmək B) yazmaq C) gülmək D) düzmək E) sökmək



LAYİHƏ

**6.** *-ış⁴ (ş)* şəkilçisi ilə düzəlmiş feillərdən biri qarşılıq-birgəlik növdə deyil.

A) qaçışmaq B) mələşmək C) pıçıldaşmaq
D) hazırlaşmaq E) salamlaşmaq

**7.** Aşağıdakı feillərdən birinin işləndiyi cümlənin mübtədası olmur.

A) oxundu B) yazıldı C) açıldı D) baxıldı E) hazırlaşdı

8. Subyektin hərəkəti öz üzərində icra etdiyi cümlələri seçin.

1. Həkimin müalicəsindən sonra xəstə sağaldı.
2. Aramsız yağışdan sonra, nəhayət, hava açıldı.
3. Qonaqlar gələnə kimi həyət-baca büsbütün təmizləndi.
4. Baharın gəlişi ilə yal-yamac gül-çiçəyə büründü.
5. İclasda yeni dərs ilinə hazırlığa xüsusi toxunuldu.
6. Gələn qonaqları tanımadığı üçün xeyli sıxılırdı.

A) 2, 4, 6 B) 1, 3, 5 C) 4, 5, 6 D) 2, 3, 4 E) 1, 4, 6

9. Hansı cümlələrdə feillər birgə hərəkət ifadə edir?

1. Uşaqlar sevindikləri üçün bərkdən gülüşdülər.
2. Dostlar xeyli vaxt idi ki, sosial şəbəkədə yazışırdılar.
3. Ana ilə bala uzun illərin həsrətlisi kimi qucaqlaşmışdılar.
4. Paltar ütülənmədiyindən qırışmışdı.
5. Quşlar yem gətirən analarını görüb cıvıldəşdilər.

A) 1, 3, 5 B) 1, 5 C) 2, 3, 4 D) 1, 2, 4 E) 2, 4

**10.** Bağlayıcıları seçib yazın. Onların cümlələri, yoxsa cümlə üzvlərini əlaqələndirdiyini qeyd edin.

1. Cahandar ağa gah özünə hirslənir, nahaq yerə başını cəncələ saldığını duyub peşmanlayır, gah da özünə ürək-dirək verirdi. (İ.Şıxlı)
   A) cümlələr B) cümlə üzvləri
2. Lakin həftələr keçib aylar dolandısa da, ortaya çıxan olmadı.
   A) cümlələr B) cümlə üzvləri
3. Yetimə "gəl, gəl" deyən çox olar, ancaq çörək verən – az.
   A) cümlələr B) cümlə üzvləri
4. Şamxal həm mal damı, həm də ev olan daxmada darıxdı. (İ.Şıxlı)
   A) cümlələr B) cümlə üzvləri
5. Ancaq bunu nə Şamxal, nə də ki Çərkəz hiss edirdi. (İ.Şıxlı)
   A) cümlələr B) cümlə üzvləri
6. Zülm ilə şahlıq külək ilə şam kimidir. (M.Övhədi)
   A) cümlələr B) cümlə üzvləri

LAYİHƏ

*BURAXILIŞ MƏLUMATI*

*Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün*
*Azərbaycan dili (tədris dili) fənni üzrə dərsliyin (qrif nömrəsi: 2022-025)*
***metodik vəsaiti***

**Tərtibçi heyət:**

**Müəlliflər:** *Aynur Xanlar qızı Rüstəmova*
*Hidayət Fehruz oğlu Allahverdi*
*Dilrüba Nurəddin qızı Cəfərova*
*Sahibə Xasay qızı Məmmədova*

**Elmi redaktor:** *Rafiq İsmayılov*
**Dil redaktoru:** *Arzu Quliyeva*
**Dizayner:** *Rəşad Nəbiyev*
**Korrektor:** *Aqşin Məsimov*

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi: 9,5. Fiziki çap vərəqi: 11.
Səhifə sayı 176. Formatı: 70×100 1/16. Kəsimdən sonra ölçüsü: 165×240.
Şriftin adı və ölçüsü: Calibri 11 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş ____. Tirajı .... Bakı – 2022.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:**

Çap məhsulunu nəşr edən:
"Altun Kitab" MMC (Bakı ş. Ə.Naxçıvani küç., – 63).

Çap məhsulunu istehsal edən:
"Çaşıoğlu Eİ" MMC (Bakı ş. M.Müşfiq küç., 2 A).

LAYİHƏ

PULSUZ

LAYİHƏ